DƏRYA QILIC
(Qılıcova Nailə Bahadur qızı)

BİR QAPILI İKİ MƏHLƏ

Redaktor:
Nəcibə İlkin

ÖN SÖZ

“Qılıcova Nailə Bahadır qızının (Dərya Qılıc) sayca dördüncü kitabı olan “Bir qapılı iki məhlə”romanını böyük həvəslə ,demək olar ki bir nəfəsə oxudum.Kitab ənənəvi roman üslubunda ailə- məişət zəminində yazılıb. Əsər körpəlikdən valideynlərini itirib, dayılarının yanında yaşamağa məcbur olmuş bir qızın həyatından bəhs edir. Müəllif əsasən məhəbbət motivləri əsasında yazmış olduğu bu əsərdə çətin həyat yolu keçirən qızın dəlicəsinə aşiq olduğu oğlanın yolunda çəkdiyi əzabları oxucuya məharətlə göstərə bilmişdi. Özünü həmişə yalqız hiss edən qızcığaz ağlı ,iradəsi , zəhmətlə qazandığı dərin biliyi sayəsində, gələcəyə inamla baxmağı bacarır. Müəllifin Afət adlandırdığı qəhrəmanının simasında Azərbaycan qızının ismətindən , səbrindən, ağlından, pünhan məhəbbətindən söz açmışdır O, Vüqara olan məhəbbətini ismətinə sığınaraq illər boyu sirr olaraq saxlayır. Müəllif, keçirdiyi ağır həyat yoluna baxmayaraq ürəyi kin kidurətlə deyil , ətrafını qızdıra biləcək məhəbbətlə dolu olan qızın, bütün yaxınlarına sevgi ilə yanaşmağını göstərməklə saflığın , düzgünlüyün, ədalətin qələbəsini tərənnüm etmişdir. Əsərin bədi dili təbii ,koloritli, yumşaq və obrazlıdır.

Nailə xanım bilərəkdən oxucusunu ,təsir və həyəcan altında saxlayaraq , əsər boyu Afətin Vüqara olan və eyni zamanda Vüqarın Afətə olan məhəbbətini çətin-

liklərlə qarşılaşdırsa da bir -birini ülvi məhəbbətlə sevən gəncləri qovuşdurmuşdur. Gənclərin bir-birinə olan məhəbbətini zərif , incə, kövrək hisslərlə təsvir edir. Əsər sanki tərbiyyəvi missiya daşıyır.

Kəskin dramatik hadisələrlə zəngin olan romanda dolğun obrazlar yaratmağa müvəffəq olan müəllif, maraqlı ədəbi təhkiyə ilə oxucusunu arxası ilə apararaq, az qala hadisələin canlı şahidinə çevirməyi bacarıb. Müəllif hər addımda ağlın, səbrin ,xeyrin şərə qalib gəldiyini göstərməklə oxucusu müsbət əməlli olmağa səsləyir. Nüşabə obrazını yaratmaqla paxıl, acgöz insanların iç üzünü göstərib ,oxucuda belələrinə nifrət hissi oyadır.

Kitab ,sadə və oxunaqlı dillə yazılıb. Əminliklə deyə bilərəm romanı oxuyan hər kəs əsəri çox sevəcək.Umidvaram ki, bu kitab da "Qəmli səadət", "Cəhənnəmə gedən yol," "Dağların sədası " və " Tale yolları"kitabları qədər oxucularının ruhunu qidalandırıb, rəğbətini qazanacaq. Müəllifə yeni yaradıcılıq uğurları arzulayıram.

Azərbaycan Yazıçılar Birliyinin üzvü şair publisist Ehtiram İlham.

BİR QAPİLI İKİ MƏHLƏ

Afət evə çatana qədər yolda bir neçə dəfə bu gün qarşılaşdığı hadisəni xatırlayıb , öz – özünə gülümsünmüşdü. İndi isə evə çatıb dayılarına bu barədə danışıb doyunca gülmək istəyirdi. Bu günlər onun həssas günləri idi. Orta məktəbi bitirirdi. Son zəngə sayılı günlər qalmışdı. Təkcə Afət deyil uşaqların hamısı həyəcanlı idi. Əsəbləri tarıma çəkilmişdi . Tez- tez kövrək anlar yaşayırdılar. Bəlkə bir daha heç vaxt qarşılaşmayacaqlarını düşünüb birgə oxuduqları bu illər ərzində rastlaşdıqları maraqlı hadisələri ,yaddaşlarına köçürmək istəyirmişlər kimi dönə - dönə yada salıb , təkrar danışırdılar. Bir vaxtlar dava etdikləri hadisəni indi gülməli bir şey kimi söyləyib doyunca gülüb əylənirdilər. Uşaqlardan bəziləri xatirə dəftəri tutmuşdu. Bir - birindən dəftərə şəklini yapışdırıb, sonra altından xatirə yazmağı xahiş edirdilər. Xatirə yazanlar bayatılardan, ürək sirkələyən şerlərdən istifadə edib, hissləri tarıma çəkməyə çalışırdılar. Bunu edənlərin çoxu qızlar olsa da, oğlanların da arasından dəftərə xoş sözlər, maraqlı xatirələr yazanlar var idi. Hətta bəzi oğlanlar xatirə dəftərini qaytarandan sonra , qızların arasına çaxnaşma düşürdü. Onun orada çəkmiş olduğu ürək şəkili , ürəyin içərisinə batmış olan oxun nə demək olduğunu, saatlar müzakirə edib , mübahisə edirdilər. Afət xatirə dəftəri tutmağı sevmədiyi kimi, qızların dəftərinə də nə isə yazmağı xoşlamırdı. Bacarmıram

deyib canını bir təhər qurtarırdı. Qızlar ondan incidikləri üçün dəftərlərini oxumağı da ona təklif etmirdilər. Bu qızı maraqlandırmırdı. Onun fikri imtahanların yanında idi. Axır günlər bir - birinə o qədər mehribanlıq göstərib xoş anlar yaşadılar ki , uşaqlar məktəbi bitirdiyi üçün heyifsilənirdi, təkcə Afət sevinirdi.

Belə bir vaxt da , bu gün yaşadıqları hal ona çox gülməli gəlirdi. Dünən Lətif müəllim , qəmgin bir halda İsə müəllimin rəhmətə getdiyini elan edəndən sonra , bütün məktəbin müəllim kollektivini və beşinci sinifdən yuxarıda oxuyan şagirdləri dəfndə iştirak etmək üçün məktəbə dəvət etmişdi. Bu gün dərsləri təxirə salıb yekdilliklə dəfnə hazırlaşmışdılar. Çoxlu sayda və cürbəcür, şəkildə əklillər düzəltmişdilər. Bütün əklillər təbii güllərdən idi. Belə bir hadisə qış aylarına təsadüf edəndə əklilləri rəngli kağızlardan düzəltməli olurdular. İndi isə güllərin bol vaxtı idi. Qocaman, demək olar ki, yarım əsrdən çox bu məktəbdə çalışan İsa müəllimin dəfnini təntənəli keçirmək üçün Lətif müəllim əlindən gələni etməyə çalışırdı. Qara atlaz lentlərə İsə müəllimin adı ,ağ və qızılı rənglərlə yazılırdı. Lətif müəllim şəxsən özü onun dəfnində ,nekroloq söyləməyə hazırlaşırdı. Özündən başqa bir - iki müəllim və əlaçı şagirdə də çıxış üçün söz hazırlamağı tapşırdı .

Nəhayət bütün hazırlıqlar sona yetəndən sonra lətif müəllim uşaqları hər sırada dörd nəfər olmaqla, uzun bir cərgədə nizamlayandan sonra yola düşdülər. Uşaqlar əklilləri götürsələr də qabaqda müəllimlər gedir-

di. Afət birinci sırada dayandığı üçün , İsə müəllimin evinə çatanda müəllimlərin arasına nə isə bir çaxnaşma düşdüyünü hamıdan əvvəl gördü. Onlar sanki diksinib, geri dönürdülər . Hətta aralarında gülməyini saxlaya bilməyənlər də var idi. Müəllimlərin belə qeyri adi , hərəkətləri uşaqlarda da təşviş yaratdı ,onlar da ətrafa boylanıb, nə baş verdiyini anlamaq istəyirdi. Elə bu zaman Afət , əlində bel məhlədə nə isə qurdalanan İsə müəllimi gördü. Kişi cəld və çevik hərəkətlə yer qazırdı. Qız donub yerində qaldı.Lətif müəllim təşviş içərisində hamını arxaya qovmağa başladı .Müəllimlər uşaqlara yaxınlaşıb , uşaqlar tez olun geri qayıdın, anlaşılmazlıq olub , desələr də gülməkdən özlərini saxlaya bilmirdilər. Uşaqların arasına çaxnaşma düşdü , geri dönmək əvəzinə boylanıb İsa müəllimin həyətinə baxırdılar. Sanki indi gördükləri adam məktəbdə hər gün gördükləri İsə müəllim deyil, kimsə o dünyadan gəlmiş biri idi. Müəllimlər demək olar ki, uşaqları İsə müəllimin həyətindən zorla uzaqlaşdırdı. Uşaqların arasında illər boyu nadincliyi ilə fərqlənənlər son akkordlarını vurub, nə isə gülməli söz deyib uşaqları əyləndirməyə çalışırdılar. Sahibin ucadan Lətif müəllim , İsa müəllim öləndən sonra lap çevikləşib deməyi , uşaqların qəhqəhəsinə səbəb oldu. Müəllimlər əl ayağa düşüb, uşaqları zorla sakitləşdirməyə çalışdılar. Bu hadisə uşaqların nəşəsini qaldırdı. Yol boy danışıb güldülər . Hər kəs ayrı -ayrılıqda İsə müəllimi neçə gördüyünü danışıb, qəşş edirdi. İsə müəllimin

ölüm xəbərini məktəbə kim gətirmişdi , nə məqsədlə gətirmişdi heç kimə aydın deyildi.?

Afət darvazadan içəri girib beş altı addım atandan sonra ,gah sağ tərəfə , gah da sol tərəfə boylanmağa başladı . Bu gün istirahət günü idi , dayılarının ikisi də evdə olmalı idi. Boylanıb bilmək istəyirdi ki, hansı dayısının həyətində oturublar. Telman dayısının həyətindən səs səmir eşitməyib , Elman dayısı gilə tərəf döndü. Dayıları həyətdə iki böyük tut ağacının altında oturmuşdular . Nə isə ucadan mübahisə edirdilər. Onlara yaxınlaşanda baş tərəfdə oturmuş tanımadığı bir gənclə üzbəüz gəldi. Heç vaxt görmədiyi bu oğlanı görəndə, bayaqdan bəri həvəslə danışmaq istədiyi hadisəni söyləmədən salam verib içəri keçdi. Birdən gözü ona sataşan Elman , nə tez qayıtdın ay qızım , - dedi. O, bayaqkı çılğınlıqla deyil, astadan İsə müəllim ölməyib deyib mızıldandı. Bu dəfə dayılarının ikisi də bir ağızdan neçə yəni ölməyib,- dedilər? Afət cavab verənə qədər, oğlan dilləndi:

Mən bura gələndə, böyük bir izdiham, əllərində əklillər və İsə müəllimin şəkli kəndə tərəf gedirdi.

Afət üzünü dayısına tərəf tutub dedi:

İsə müəllimin evi rayona bitişik kənddədir. Getdik, kəndə çatanda gördük İsə müəllim məhlədə yer əkir.

Afətin cavabını dinləyib gülən zad olmadı. Nə isə dodaqaltı mızıldanandan sonra qayıdıb bayaqkı çoşqu ilə söhbətə başladılar. Qız kişilərin bu sözü belə sakit qarşılamağına təəccüb etdiyi üçün , daha bu barədə

danışmağa həvəsi qalmadı. Evdəki qadınlar , və qızlar çarhovuzun başına yığılmışdı. Qadınlar göyərti arıtlayır , qızlar isə öz aləmlərində idilər , başları söhbətə elə qızışmışdı ki, Afətin gəldiyini görən olmadı. Qız əvvəl onların yanına getmək istəsə də, otağına keçib qapını örtdü. Hər dəfə otağına keçəndə , nənəsinin ölümündən sonra köçürüldüyü bu dar otağa baxıb əməlli başlı məyus olurdu. Bu otaq o qədər kiçik idi ki, bir dəmir çarpayı zorla yerləşirdi. Əslində bura otaq deyildi, dəhlizin başından taxta arakəsmə ilə kəsib otaq etmişdilər. Otaqda dəmir çarpayıdan başqa divardan kitab rəfi , və bir iki asılqan asılmışdı. Afət paltarını soyunub , divardan asılmış asılqandan asdı, sonra çarpayının altından kağız qutunu çəkib, ev paltarını çıxardıb geyindi. Aşağı düşməyə həvəsi yox idi.İmtahana hazırlaşmalı idi, amma buna da həvəsi yox idi. Kitabı bir neçə dəfə əlinə götürüb yerinə qoydu , qalxıb pəncərədən aşağı baxdı.. Çarhovuzun başında qızğın iş gedirdi. Qızlar da orada idi. Aşağı düşüb onların yanına gəldi. Nüşabə ilə Tünzalə kətə bişirməyə hazırlaşırdı. Qızların başı söhbətə qarışmışdı. Afəti görən kimi Nüşabə kişilərin eşidə biləcəyi bir səslə , ay qız səhərdən evdən çıxmısan ki, İsə müəllim ölüb, indi bu nə sözdür uydurmusan ki, kişi sağdır? Söz Afətin üzünə sillə kimi dəydi. Əvvəl nə isə cavab vermək istədi. Lakin bir an ona elə gəldi ki, sözü qurtarıb, ümumiyyətlə sözü bitib. Sadəcə çiynini çəkməklə kifayətləndi. Bayaqdan bəri başı qızğın söhbətə qarışan kişilər yenidən o mövzuya qayıtdılar hərə bir sual verdi. Afətin danışmağa həvəsi

qalmamışdı. Telman, o boyda kişini yalandan niyə öldürürlər? - dedi .Nüşabənin bəlkə heç elə bir söz yoxdur , Afətin uydurmasıdır, harasa səfəri var imiş, deməyi də Afətin dilini açа bilmədi, qız dillənmədi. Ağ köynəkli oğlan yenə də mən gələndə böyük bir izdiham, müəllim kollektivi və şagirdlər üzü kəndə tərəf gedirdi, - dedi. Söz uzandı ,hərə bir şey danışdı. Afət ağzını açmadan Tünzalənin hazırladığı kətələri yağlayıb buluda yığdı. Aybəniz buludu götürüb , bayaqdan açdığı süfrəyə qoydu. Kətələri görən kişilər söhbəti bağlayıb həvəslə yeməyə başladılar. Onlar doymaq bilmirdi. Yazın bu vaxtı əsl kətə vaxtıdır deyib qızların bir yandan gətirdikləri kətələri iştaha ilə yeyirdilər . Çay da içəndən sonra qonaq oğlan getdi. O, qapıdan çıxar çıxmaz, Telman qəfil bağırdı:

O, nə sözdür Vüqarın yanında danışırsan? Nüşabə heç nə olmamış kimi ətrafa boylanıb çiynini çəkib dedi:

Nə söz, mən nə dedim ?

Telman daha da bərkdən qışqırıb dedi:

Canına azar dedin, daha nə deyəçəksən ? Deyirsən bəlkə Afətin səfəri var imiş, müəllimin öldüyünü özündən uydurub. O, oğlan bizim haqqımızda nə düşünər? Deməzmi Zaurun bibisi qızı nə yuvanın quşudur?

Nüşabə nə isə mızıldamaq istəyirdi. Telman batır səsini ,- deyib əlini zərblə stola çırpdı . Ortaya ölü sükut çökdü. Daha heç kim danışmadı . Dayısının sözündən Afət ağ köynəkli oğlanın Elman dayısının oğ-

lu Zaurun dostu olduğunu anladı . O, qızlara qoşulub qabları yuyandan sonra otağına çəkildi .Hər gün belə bir sözlə qarşılaşırdı. Nə qədər gözə görünməməyə çalışsa da mümkün olmurdu. Bir vaxtlar bu evin bu məhlənin ən əziz ,ən ərköyün uşağı idi .siniBabasının ölümü onun , ərköyünlüyünü azaltsa da , nənəsinin ölümü hər şeyə son qoymuşdu. Babasını ,nənəsini itirəndən sonra Afət bu məhlədəki əsl yerini , qiymətini, yaxşı anlamışdı. Hansı yerə layiq olduğunu çox da aşkarlamamaq üçün , bacarınca gözə görünməməyə çalışırdı.

Atasının üzünü görməmişdi. O, bu dünyanı gənc yaşlarında tərk etmişdi .Ailə qurandan yeddi ay sonra dünyasını dəyişmişdi. Daha doğrusu deyilənə görə onun ölümünə səbəbkar Telman dayısı olmuşdu. Bu belə olsa da olmasa da , birdəfəlik yaddaşlara belə həkk olmuşdu.

Afətin gənc atası Çingiz, dayıları ilə birlikdə balıq ovuna gedibmiş, orada tutduqları balıqdan soyutma və apardıqları ətdən yaxşı kabab bişirib yeyib içəndən sonra nədənsə Telmanla Çingizin sözü çəpləşir . Mübahisə etməyə başlayırlar. Mübahisə uzanıb dava şəklini alanda bərk hirslənən Çingiz qalxıb Kür çayında çimməyə enir. Az sonra oğlanlardan biri onun batmaq üzrə olduğunu görüb, haray salır. Onu xilas etməyə ilk atılan Telman olur. Başqaları da köməyə gəlsə də , xilas etmək mümkün olmur. Cəsədini isə axşam tərəfi aşağı kəndlərin birində çəngəllikdən tapa bilirlər. Həmin məclisdə iştirak edənlərdən biri, Çingi-

zin, Telmanla olan mübahisədən sonra hirsli - hirsli çaya atıldığını söylədiyinə görə onun valideynləri Telmanı Çingizin qatil sayırdılar. Nəinki Telmanı qatıl sayıb, düşmən kəsildilər, Afətin hamilə anasının da üstündən birdəfəlik xətt çəkdilər. Onu qarnında körpəsi ilə birlikdə evdən qovdular. Onsuz da Çingizin Cəmilə ilə ailə qurmasını istəməyən anası Dilşad onun dünyaya gətirəcəyi körpəni də istəmədi. Afətin dünyaya gəlişi də bir şeyi dəyişmədi. Bu qızın varlığı , yoxluğu onu maraqlandırmadı. Əvvəl gündən Çingizin qəfildən gəlib mən Cəmilə ilə evlənirəm deməsi ailəsində çox böyük hökmü olan Dilşadın xoşuna gəlməmişdi. Məsələ Cəmilənin pis və ya yaxşı olmasında deyildi . .Cəmilənin nə özü nə də ailəsi pis deyildi. Sadəcə Çingizin heç kim ilə məsləhət almadan Cəmilə ilə evlənmək qərarını verməyi anasının qüruruna dəyirdi . Ona elə gəlirdi ki, Cəmilə onun bu evdəki nüfuzunu ,hökmünü əlindən alıb. Ona görə qıza nifrət etdiyi qədər də onun körpəsini görməyə gözü olmadı. Üstəlik də Çingizin ölümündə Telmanı günahlandırmaqla , bu ailəyə qarşı , günahsız körpəyə qarşı kin bəsləyib, nifrət yağdırırdı. Afət ağlı kəsəndən bəri atasının valdeyinlərindən, qardaş , bacısından pis sözlər eşitmişdi. Düzdür qız onları tanımırdı və bu söhbətləri öz qulağı ilə eşitməmişdi. Lakin söylənənlər bunlar idi. Afət bu sözləri eşitmək belə istəmirdi. Eşitsə də nəyə görə isə onlara qarşı kin duya bilmirdi. Hər şeyə rəğmən onları görmək arzusu ilə alışıb yanırdı. Hara getsə atasının ailəsindən kimi isə görmək ümidi baş

qaldırırdı . Nənəsi hara getsə, dükana, bazara , hətta toya , yasa hər yerə Afəti özü ilə aparırdı. Afət isə yalnız atasının qohumlarından kiminlə isə qarşılaşmaq və həmin adamdan Çingizin qızıdırmı bu qız? - sözünü eşitmək arzusu ilə nənəsi ilə gedirdi. Çünki o atasının adını eşitmirdi. Babasının evində onun adını ağzına alan bir kimsə yox idi. Halbuki bu adı çəkilməməkdə Çingizin vaxtsız və qəfil ölməkdən başqa heç bir günahı yox idi O, pis oğlan deyildi. Əksinə ağıllı , bacarıqlı heç bir pis işdə adı çəkilməyən , çox sakit təbiətli bir gənc idi. Həmin dəhşətli hadisə baş verən gün Telman da Çingiz də içkili olublar. Boş bir şeyin üstündə mübahisə edirmişlər.Telman israrla Çingizin balıq ovunda sərištəsiz olduğunu sübut etməyə çalışırmış. Bu isə Çingizi hövsələdən çıxarıb əsəbəşdirirmiş. Çingizin Kür çayında boğulmağına səbəb bəlkə də, əsəbilik olmayıb bu, bir əcəl imiş ,amma onun anası əcəl zad tanımadı . Bir dəfəlik Çingizin ölümünə səbəbkar Telmandır , deyib durdu. Hər yerdə , hər zaman Telmana , nəinki Telmana bütün onun nəslinə qarğış yağdırırdı. Dəfələrlə Telman atası ilə onlara gedib and aman etmişdi, Çingiz ilə heç bir ədavəti olmadığını söyləmişdi. Kaş onun yerinə mən bataydım demişdi. Lakin nə onu nə də atası Qasımı dinləyən olmamışdı. Çingizin anası mənim oğlumun adını ağzınıza almayın deyib dururdu. Beləliklə də həqiqətən onun adını çəkməyi belə tərgitdilər. Afət isə üzünü görmədiyi atasının adına da həsrət qaldı . Halbuki saatla, yorulmadan onun haqqında nə isə dinləmək istəyərdi. Bu ad onun

qulağında həzin musiqi kimi səslənir, ürəyinə sakitlik gərir, ruhunu oxşayırdı.

Atasının özündən hətta adından məhrum olan qızcığaz meylini anasına saldı. Demək olar ki, Cəmilədən bir saniyə ayrı qala bilmirdi. Sanki onu da itirəçəyindən qorxurdu. Yatanda anasının əlini tumarlaya – tumarlaya yuxuya gedirdi. Kim gəl mənimlə yat desə, sənin anamın əli kimi sərin əlin yoxdur ,-deyib cavab verirdi. Çünki anasının soyuq əllərinə güvənirdi. O əlləri dünyanın ən güclü əlləri hesab edirdi. Anası həmişə buz kimi soyuq olan əlləri ilə onun başını tumarlayıb, saçlarını sığallayanda ,anasının soyuq əllərdən başına bədəninə istilik ,hərarət yayılırdı. Təklikdə olan kimi anasına atasına aid suallar verirdi. Ona görə daha çox anası ilə təklikdə qalmaq haqqında düşünürdü. Anası ilə təklikdə qalanda ona gəlirdi ki, tək deyillər atası onlarladır .Beləcə yaşamağa yenicə alışmışdı ki, həyat Afəti bir daha sınağa çəkdi. Cəmilə birdənbirə heç kimə xəbər vermədən qoşulub qaçdı. Cəmilənin ikinci dəfə ailə qurması , birincidən də pis qarşılandı. Əslində birinci dəfə ailə quranda Cəmilənin heç bir günahı yox idi. Çingizlə bir -birinin ülvi bil məhəbbətlə sevib ailə qurmuşdu. O ailəni sevməyən yeganə adam isə Dilşad idi. Lakin ikinci dəfə ailə qurandan sonra , təkcə atasının qohumları deyil, nənə babası və digər qohumlar ,da Cəmiləyə nifrət edirdi. Həmin günü Afət anasının dəfn günü kimi yad edirdi. Uzun müddət babasının səsi qulağına gəlirdi , o var səsi ilə bağırırdı:

Mənim bu gündən Cəmilə adlı qızım yoxdur! O , ölüb!. Mən onu silmişəm ! Həqiqətən bu işin necə baş verdiyinə hamı təəccüb edirdi. Həmin gündən çəmi qırx gün əvvəl , babasının qardaşı qızı on ildən sonra ilk uşağını dünyaya gətirərkən dünyasını dəyişmişdi. Bu böyük bir faciə idi. Qırx gün gecə gündüz, qonşuluqda yerləşən o evdən ağı səsləri asimana yüksəlirdi. Gənc qadının anası , bacıları yas içində idilər . Demək olar ki hər gün yas mərasimi qurur , bayılana qədər ağlayır, sonra isə gül çiçək götürüb məzarlığa gedirdilər. Və bu mərasimlərdə , Cəmilənin özü də anası da iştirak edirdi. Yaxın qohumları dərd içində üzülərkən Afətin anası məhrumun ərinə qoşulub qaçmışdı. Özü də qırx mərasimindən çəmi üç dörd gün sonra. Bu xəbər onların evinə bomba kimi düşdü. Hər kəs dəhşətə gəlmişdi. Xəbərin şokundan ayılmamış , ertəsi gün həyətdən gələn qışqırıq səsinə oyandılar. Pəncərəyə dəyən daşların , qırıb yerə tökdüyü şüşələrin səsindən diksindilər. Gənc ,nakam, illərdən bəri övlad həsrəti ilə yanıb , qovrulan Ağgülün anası Cəmilənin atasının evini daş yağışına tutmuşdu. Hər dəfə daş pəncərəyə dəydikcə qorxunc bir səs çıxardırdı. Pəncərənin şüşələri cingilti ilə qırılıb yerə tökülürdü. Bu cingilti səsindən dəhşətlisi, qadının söyüşləri idi. Yaxşı ki, heç kim xəsarət almadı . Çünki, qadının səsini eşidən kimi hamı arxadakı otağa çəkilib qapını örtmüşdü. Həyətdə başqa səslər də eşidilirdi. Kimlərsə onu sürüyüb aparmağa çalışırdı. Qadın isə durmadan ağlayıb , qışqırırdı. Balamın qəbirdə sümükləri

yanır, Allah sənin də balanın sümüklərini yandırsın,- deyirdi. Afətin gözünün önündə belə bir mənzərə canlanırdı. Ona elə gəlirdi ki, alovu göylərə ucalan qəbri görür. Və bundan sonra uşağı dəhşətli qorxu bürüyürdü. Alovun göylərə qalxan iri dilimləri gəlib onun anasını , nənə - babasını dayılarını , hətta onu özünü yandıracağının xofu canına dolurdu. Qadının Allah sizi yandırsın sözü də onun gözünün önünə gələn mənzərə ilə üst – üstə düşürdü. Çünki o , qapıdan çıxanda az qala əlli dəfə təkrarlağı bu söz qızın qulağından getmirdi. Araya sakitlik cökəndən sonra başlayan dava isə illərlə davam etdi. Afət nənəsinin dodağının altında nə isə mızıldadığını eşitdi. Qadın bir az səsini yüksəldəndə babası bağırıb onun sözünü ağzında qoydu. O vaxtlar bu söhbətin mahiyyətini anlamasa da sonralar demək olar ki, babası rəhmətə gedənə qədər hər gün bu söhbət eyni qaydada sakitliklə başlayıb dava ilə bitirdi. Hər dəfə nənəsi , Ağgülü Cəmilə ha öldürmədi? Sədi cavan adamdır, evlənib biri ilə əvvəl axır ailə quracaqdı. Niyə bunu bu qədər şişirdilər deyəndə, babası haram olsun sənə, - deyib söyüşlər yağdırır, sənin başqa cür qızın ola bilməzdi, - deyirdi. Sonra ayağa qalxıb bar - bağırardı ki, aç qulağını eşit, sənin bu cəhdlərinin hamısı mənasızdır . Mən Cəmilə adlı adamı həyatımdan silmişəm . Mən öləndən sonra onunla barışa bilərsən . Ondan sonra onun ayağı buralara dəyə bilər, amma mənim qəbrimi ziyarət etməyə gəlməsin, gorum çatlayar.

Beləcə , Afətin ata həsrətinə ana həsrəti də qarışdı.O gündən sonra anasının üzünü görmədi. Getgedə üzünün cizgilərini də unutdu onu xatırlamaq istəsə də artıq xatırlaya bilmirdi. Anasından küsmüşdü. Əslində babası onun haqqında pis sözlər deyəndə məyus olurdu. Yalandan bir bəhanə edib saatlarla ağlayırdı. Babasının sözlərindən anladığı o idi ki, anası başdan başa günah içindədir. Nənəsi ilə təklikdə qalan kimi, kişi siqaretini acgözlüklə sümürüb deyirdi: Mən onun ailə qurmağına narazı olası ha deyildim. Amma, adam balası kimi ailə qurardı, el adəti ilə . Onun ailə qurduğu o , əclafa da nifrət edirəm. On illik həyat yoldaşına çəmi qırx gün yas saxlaya bilmədi. Bişərəf , haramzadə yas yerində gözü yeni qadın axtarırmış . Haram olsun ona da , mənim qızıma da . Matəmin , yasın içində , neçə belə fikrə düşmək olar? Aradan zaman ötsəydi , bəlkə də mən onları bağışlayardım. Amma belə yaxın qohumlara , onların matəminə belə hörmətsiz yanaşan qız böyütdüyüm üçün özümə nifrət edirəm.

Hərdən babası siqaretini sümürə - sümürə Afətə baxıb köksünü ötürürdü. Sonra isə əlindəki kötüyü yanıqlı - yanaqlı uzağa atıb deyirdi:

Belə məsum, körpə uşağını atıb gedən anadan daha nə gözləmək olar.?O,bilirdi ki, qızı ondan ayrı yatmır , heç kəsə güvənmir. O, ana deyil, heç adam da deyil.

Babası çox deyindikcə, Afətin anasına deyil babasına acığı tuturdu. Onun acığına anasının adı çəkib onu istədiyini söyləmirdi. Bəzən Afətə elə gəlirdi ki,

babasının ona da acığı tutur , ona deyinir. Çünki anasının ünvanına söylədiyi bütün sözləri özünə götürürdü.

Nənəsi Məsmə üçün isə bütün nəvələr bir yana idi, Afət bir yana. Qadın yeməyin ilkini ona çəkər, paltarın , ayaqqabının yaxşısını ona alardı . Masanın başında Afət oturar, yatağın yaxşısında o, yatardı. Qız özü də bilmədən buna vərdiş etdi. Mütləq hər şeyin yaxşısı onun olmalı idi. Beləliklə İki məhlənin ərköyün qızı oldu.

Dayılarının evləri yan - yana da olsa , bir böyük darvazaları var idi. Hündür darvazadan içəri keçib beş altı addım atandan sonra , ortalıqda böyük bir sərdən açılırdı. Sağ və sol tərəfdəki evlərə keçmək üçün çox da hündür olmayan kiçik qapılı məhəccərdən keçmək lazım idi. Təəccüblü də olsa bu məhlələrdən sanki biri cənnəti , digəri isə cəhənnəmi təmsil edirdi. İçərisindəki evlər təxminən eyni boyda , eyni üslubda tikilmişdi. Lakin məhəccərin kiçik qapısını açıb sağ tərəfə Telmangilə keçəndə, göz önündə əsl gözəllik canlanırdı. Gül gülü çağırırdı. Məhlə başdan- başa yamyaşıl otluq idi. Sıra ilə əkilmiş ağaclar hamısı eyni boyda , eyni biçimdə idi. Bütün ağacların aşağısı ağ əhənglə ağardılmışdı. Rəngarəng qızıl güllər evin divarı boyu dama qədər qalxmışdı. Kənardan ev gül çələnginə bənzəyirdi. Sol tərəfdəki görünüş tam başqa idi. Həyət başdan başa içərisində azacıq daşlar bilinən boz torpaq idi. Bir qarış desən yerdə yaşıllıq yox idi. Məhəccərdən içəri keçən kimi evin həyətində

iki qoşa tut ağacı və çox da böyük olmayan üstü bağlı çarhovuz var idi. Bu iki tut ağacından başqa məhəllədə bir iki turş gilas ağacı var idi. Qalan ağaclar meyvə ağacı deyildi. Məhlənin lap aşağısında sıra ilə əkilmiş iki - üç çinar ağacı və bir söyüd ağacı var idi. Həyətin düz ortasına dəmir vannada su qoyulmuşdu ki, qazlar və ördəklər su içib, arada bir suya baş vura bilsinlər. Bir kənarda iki gözdən ibarət tövlə tikilmişdi. Çox olmasa da həmişə içində ən azı iki üç quzu olurdu. Toyuq cücənin isə sayı yox idi.

Evlər də həyət kimi bir -birindən fərqli idi. Telmanın güllü çiçəkli həyəti kimi evinin içi də təmirli və səliqəli idi. Telmanın arvadı demək olar ki, hər il pəncərələri heç olmasa pilləkənləri özü rəngləyirdi. Otaqların hamısında kiçik xalça və çoxda bahalı olmayan mebel var idi. Pəncərələrdən asılan pərdələr tül olmasa da, adi torlar evə bir rahatlıq gətirirdi. Bütün bu səliqə sahman Nüşabənin əməyi idi. Lakin evinin təmiri tamam uçub tökülən, pilləkənlərində rəng qalmayan , boş otaqlarda çəmi bir necə dəmir çarpayısı olan, Tünzalə özü ilə fəxr edirdi. Mən dəyərli işlə məşğul oluram ,-deyirdi. Zəhmətkeşəm heyvana , toyuq cücəyə baxıram. Nə güllər nə də ki, o yamyaşıl otlar yeyiləsi deyil.

Afət nənə babasının sağlığında hər iki evin ,məhlənin əziz -xələfi idi. Uşaqdan böyüyə heç kimin onun xətrinə dəyib, Məsmənin gözündən düşmək fikri yox idi. Qasımın yaxşı təqaüdü var idi. Onun ixtiyarı isə Məsmənin əlində idi. Hər kəs yaxşı bilirdi ki, Afəti ağ-

latsa , incitsə bu ay puldan məhrum olacaq. Evdən çölə bir stəkan qatıq almağa gedən ,özü ilə yalnız Afəti aparmalı idi. Hətta Tünzalə də Nüşabə də atası evinə gedəndə mütləq Afəti də aparmalı idi. Kimin əlində nə olsa bir mənalı Afətə verməli idi. Gəlinlər öz aralarında deyinirdi:_ Elə bil bizim uşaqlar uşaq deyil . Bu cəyirtgənin əlindən günümüz qara olub. Eləcə də uşaqların ondan zəhləsi gedirdi. Təkcə Elmanın oğlu Zaurun Afətlə işi yox idi. Çünki o yaşca uşaqların hamısından böyük idi, onlara qoşulmurdu. Bir də ki, onun bu iki məhlədə yeri başqa idi. Zauru nənə - babası az qala Telmanla Elmandan hörmətli tuturdu. Zaurun həndəvəri isə hərlənə bilən yeganə uşaq yenə də Afət idi. Onun bacıları Nanə ilə Jalənin Zaurun əşyalarına yaxın getməyə ixtiyarı yox idi.
Zaman ötdükcə Afət özünün bu evlərdə olan əsl qiymətini anlamağa başladı. Hər deyilən sözdən bir damlası başında qaldı . Sonra o damcılardan dama – dama göl oldu. Böyüdükcə əsl həqiqəti anladı. Nanə ilə Jalənin Afət niyə bizim babamızın evinə gedir, onu orada kim gözləyir? . Nənəmgilin ondan zəhləsi gedir, onlar bizi gözləyir, o, da getsin öz nənəsigilə deməsini eşidəndə dəhşətə gəlmişdi. Onların sualından çox Tünzalənin cavabı qızı yandırıb tökmüşdü. O, qızlarına baxıb , kinayə ilə demişdi, orada onu heç kim istəmir, hamı nifrət edir, onu oradan it kimi qovarlar. O gündən sonra lap dəvət də etsələr Afət nə Nüşabə ilə, nə də Tünzalə ilə heç yerə hətta bazara -dükana da getmədi. Babasından eşitdiyi sözlərdən sonra isə bacardıqca da-

yılarının qızları ilə ünsiyyət qurmağa çalışdı. Babası bir gün nənəsinə deyirdi ki, bəsdir yazıqdır o uşaq, qoy uşaqlara qarışıb bacı kimi böyüsün . Sən elə hərəkət edirsən ki, uşaqlarda ona qarşı kin əmələ gəlib. Məsmə arvad isə acıqlı – acıqlı qələt eyləyir ona kin bəsləyən deyib söylənirdi. Lakin doğrudan da Telmanın qızları, Aybənizlə, Gülbəniz, eləcə də Elmanın qızları, Nanə ilə Jalə Afəti sevmirdi. Nədənsə bu təməl neçə qoyulmuşsa da eləcə də gedirdi. İllər ötsə də heç nə dəyişmirdi.
Nənəsinin otağında böyük bir sandıq var idi . Rəzəsindən kiçik oyuncağa oxşayan qıfıl asılmışdı. Məsmə arvad əlinə keçəni alıb sandığı doldurmuşdu. Heç kimdən çəkinmədən bunların hamısı Afətindir deyirdi. Bu sözə Tünzalənin də açığı tuturdu, lakin Nüşabə hirsindən partlayırdı. Hərdən bir çəkinmədən bəs o biri qızlar sənin nəvən deyil, deyib sual verəndə isə , Məsmə arvad heç kefini də pozmadan onların atası da var anası var , nə istəyirlər uşaqlarına alsınlar deyirdi. Həmin ağzına qədər dolu olan sandığı , Nüşabə nə vaxt boşaltdı, neçə boşaltdı ondan Afətin heç xəbəri də olmadı. Xəbər tutanda da səsini çıxarda bilmədi , sadəcə çox məyus oldu. Sandığın içərisindəkilər Afəti maraqlandırmırdı. Hər dəfə sandığı açanda , oradan burnuna nənəsinin qoxusu gəlirdi. Məsmə Qırmızı Moskva ətri işlədirdi . Sandığı açan kimi həmin ətrin iyi Afətə nənəsinin xatırladırdı. Azacıq da olsa o ətri duyan kimi nənəli günlərinin istisinə qızınırdı . Darıxan kimi sandığı açıb, oranın qoxusunu sinə-

sinə çəkirdi. Bəzən istəyirdi ki, sandığa girib qapağını örtsün. Sanki belə etsə bu dünyadan ayrılıb, keçmişdə qalan o xoş günlərə dönəcəkdi. Lakin gözünü sandığın dərinliyinə dikib, o xoş dediyi günlərin də Afətə görə kədər dolu olduğunu xatırlayıb sandığın qapısını örtürdü. Artıq o sandıq , xoş ya da xoş olmayan xatirələri ilə birlikdə yoxa çıxmışdı.

Bu iki məhlədə nənəsindən sonra Afətin özünə azacıq da olsa yaxın saydığı kimsə var idi isə o, da Zaur idi. Elə uşaqlıqda da Zaurla dostluq edirdi. Zaur şəkil çəkməyi xoşlayırdı , saatla oturub şəkil çəkirdi. Afətin qızlarla dava etdiyini görəndə , otağından çıxıb, onu yanına çağırırdı. Sonra bayaqdan səni axtarırdım deyirdi. Afət yanağı uzunu axan göz yaşını silib onun üzünə maraqla baxırdı. Zaur isə onun əlindən tutub otağına aparır, şəkil çəkdiyi masaya yaxın bir yerdə oturdub, əlinə bir oyuncaq verirdi. Sonra isə bax tərpənmə deyirdi, sənin bu itlə şəklini çəkəçəm .Afət əlində oyuncaq saatla eyni pozada sakit durub Zaurun onun şəklini çəkib qurtarmağını gözləyirdi. Bu müddət ərzində Zaur çəmi bir -iki dəfə başını qaldırıb Afətə baxırdı qələmi yerə qoyan kimi Afət qaçıb onun çəkdiyi şəklə baxırdı. Dava yenidən qızışırdı. Çünki , orada Afətin şəkli zad olmurdu. Afət əlində olan oyuncağı Zaurun təpəsinə çırpırdı, amma hər dəfə də bu təkrar olurdu. Illər ötdü Zaur bir dəfə olsun Afətin şəklini çəkmədi. Sadəcə o, bunu qızı davadan ayırmaq üçün edirdi. Ya da ki, Qasım babaları payızda narları budaq qarışıq yığır, tac

hissəsini palçıqla doldurub , talvardan asırdı. Demək olar ki, talvarın hər yerindən nar bağlamaları asılırdı. Afətin növbəti davalarının birində Zaur onu çağırıb gəl hamıdan xəlvət nar bağına qalxaq deyirdi. Orada narı qırıb əlində bərk əzirdi. Demək olar ki, nar , içərisində maye olan torbaya çevrilirdi. Həmin narın başını deşib Afətə verirdi. Ara sakitləşəndə isə geri dönürdü. Afət xatirələrdən zorla ayrılıb kitabı əlinə aldı . Səhər imtahanı var idi, o, əlaçı idi. Qızların arasında ən yaxşı oxuyan Afət idi. Telman bunu tez – tez təkrar edib, Zaurun yerini Afət tutacaq , -eyirdi. Zaur Türkiyədə oxuyurdu. İldə iki dəfə gəlirdi. Bu il təhsilini başa vurmalı idi.

İşıqlaşanda Afət kitabını yerə qoyub azca yuxuladı . Bir - iki saat vaxtı var idi. İki saatı daş kimi yatmışdı . Saatın səsinə oyanıb , tələsik paltarını geyinib aşağı düşdü. Telman masanın arxasında təkcə oturmuşdu. Deyəsən ondan başqa oyanan yox idi. O ,mətbəxə keçəndə kənarda dayanan çaydanı görəndə , doğrudan da hamının yatdığını anlayıb, piltəni yandırdı. Sonra dayısı ilə özünə səhər yeməyi hazırladı. Evdən birlikdə çıxdılar.

Məktəb qələbəlik idi, uşaqlar topa – topa dayanıb dünənki hadisəni danışıb gülürdülər. Lətif müəllim bütün uşaqları bir yerə toplayıb dünənki, hadisənin anlaşılmazlıq olduğunu söylədi. Sonra çox səmimiyyətlə bu söhbəti uzatmamağı xahiş etdi. Onun sifətində bir xəcalət çəkmək ifadəsi var idi.

Afət imtahandan əla qiymət almış olsa da evə dönəndə onun imtahanı necə verdiyini soruşan olmadı. Bundan sonra cəmi bir imtahanı qalırdı ,o da gələn həftə idi. Bununla məktəblə birdəfəlik vidalaşırdı. Uşaqların son zəngdə tez – tez təkrarladıqları, məktəbi bitirdiyim üçün həm sevinirəm , həm kədərlənirəm sözlərini xatırlayıb, mən yalnız sevinirəm deyə düşündü. Çünki məktəbi bitirib instituta qəbul ola bilsə, buralardan çıxıb gedəcək, bir dəfəlik canı qurtaracaqdı. Bəs qəbul ola bilməsəm , necə olacaq?-deyə düşünüb , ürəyi sıxıldı. Anasının üzünü o vaxtdan bəri görmürdü. Bəlkə də görsə tanımazdı. O hadisədən sonra nənəsi onun şəkillərini də götürüb gizlətmişdi. Çünki babasının əlinə keçən kimi cırıb atırdı. Deyinə görə əvvəl Bakıda yaşayırmış , amma indi bir neçə ildir ki, Moskvada yaşayırdı. İki oğul sahibi və çox xoşbəxt olduğunu söyləyirdilər.Valideynlərinin dəfninə gəlmədi. Məsmə arvad Cəmilə deyə - deyə öldü. Afət düşündükcə özünü pis hiss edirdi Onlar Cəmilədən küsmüşdü. Buralara gəlməsin , bizim elə qızımız yoxdur demişdi. Bəs Afət ,onun günahı nə idi ki, Cəmilə bir dəfə olsun qızını axtarmamışdı. Bunları düşünüb , dərinə getdikcə boğulurdu. Özünü toplayıb ayağa durdu. Bu gün dərs oxumaq fikri yox idi. Özünə istirahət verib sabahdan oxuyacaqdı. Bunu ona babası öyrətmişdi . Babası deyirdi ki, mütləq beyinə istirahət vermək lazımdır. Paltarını dəyişib aşağı düşdü. Aybənizhəyətdə təkcə oturmuşdu .Gülbəniz ilə Aybənizin arasında iki yaş fərq

var idi. Aralarında yaş fərqi olmağına baxmayaraq , demək olar ki, həmişə bir yerdə olurdular.

Afət onu görən kimi soruşdu:

Nüşabə xala ilə Gülbəniz haradadır?

Aybəniz dedi:

Nənəm xəstələnib, ona baş çəkməyə gediblər.

Afət dedi:

Bəs sən niyə getməmisən?

Aybəniz çiynini çəkib dedi:

Anam dedi ki, Afət də gəlsin birləşib pəncərələri silin.

Afətin fikri uzaqlara getdi. O, da nənəsinə baş çəkmək istəyirdi. Bir neçə gün bundan əvvəl sinif yoldaşı demişdi ki, Dilşad nənənin vəziyyəti pisdir , ölür. Onun ürəyindən belə bir hiss keçdi. Bir başa içəri girib qarı ilə görüşmək .Ona elə gəlirdi ki, bu dünyada atasını qucaqlayırmış kimi qucaqlaya biləcəyi yeganə adam dünyanı tərk edir. Babası bir neçə il bundan əvvəl rəhmətə getmişdi. Deyilənə görə kişi öləndə Afəti gətirin görüm deyirmiş , amma nənəsi icazə verməyib , onu görsəm ürəyim dayanacaq deyib.

Onun fikrə getdiyini görən Aybəniz niyə susdun? – dedi. Qız heç deyib ayağa durdu. Sonra isə pilləkənləri qalxa- qalxa gəl yuxarıdan başlayaq, – dedi. Qızlar ikinci mərtəbənin pəncərəsini silib ,aşağı yeni düşmüşdü ki, Nüşabə ilə Gülbəniz də gəldi. Gələn kimi yemək qızdırıb qızları da çağırdı. Afət yeməyə gəldi , amma fikri nənəsinin yanına getməkdə qalmışdı. Orada necə qarşılanaçağını düşündükcə ürəyi döyünürdü. Könülsüz

yeməyini yeyib işini görməyə getdi.Bir azdan Telmanla , Elman gəldi. Özləri ilə vedrədə balıq gətirmişdilər . Balıqları görəndə Afətin bayaqdan bəri darıxan ürəyi daha da sıxıldı. O ,ağlı kəsəndən bəri balıq yemirdi. Nəinki, yemirdi, onun qoxusu gələndə ürəyi bulanırdı. Çünki dəfələrlə eşitmişdi ki, Dilşad harada otursa Telmana qarğış edib deyir ki, görüm onu da mənim balam kimi balıqlara yem olsun. Böyüdükcə bu söz Afətin ürəyini didib parçalamışdı.Dəfələrlə nənəsinə sual vermişdi ki, ay nənə, atamı balıqlar yemişdimi? Məsmə hər dəfə and içib aman edib , belə şey olmadığını söyləmişdi. Sonra isə Dilşada lənət yağdırıb, uşağın ürəyini üzdü demişdi. Amma nənəsi nə söyləsə də Afətin balıqlardan iyrənməyi keçmədi.

Evdə balıq təmizləmək başlayan kimi , yuxarı qalxıb kitablarını götürdü. Bir göz qırpımında Elmangil tərəfə keçdi. Həyətdə gözə dəyən kimsə yox idi. Bağçaya açılan məhəccəri açıb, düz bağcanın aşağısına qədər getdi .Söyüd ağacının altında dayısının taxtadan düzəltdiyi taxtın üstündə oturub kitabını əlinə aldı. Bu söyüd ağacından Məsmənin acığı gəlirdi. Hər dəfə deyinirdi , adam da məhləsində söyüdmü saxlayar?- deyirdi . Onu kəs rədd elə yerində bir bar verən meyvə ağacı basdır. Amma Elman anasının sözünü eşitmirdi. Ağac əkirəm heyvan əmələ gəlməyə qoymur, daha bunu niyə kəsirəm ,heç olmasa altında uzanıram,- deyirdi. Doğrudan da Afət bu ağacın altında uzanmağı sevirdi. Onun az qala yerə dəyən budaqları sanki , qızı ətraf mühitdən gizləməyi bacarırdı. Hava hər nə

qədər isti də olsa yerə dəyən budaqları yellənib sərinlik yaradırdı. Təkcə ağaclar çiçəkləyən dövrdə söyüdün altında uzanmaq mümkün olmurdu. Ağacdan şirə kimi su tökülürdü. Nənəsi bu ağacın haqqında qəribə bir rəvayət söyləyirdi Onun deməyinə görə gözəl bir gəlinin övladı olmurmuş . Əri evin yeganə övladı olduğu üçün , valideynləri israrla bu sonsuzu boşa deyirmiş . Bir başqası ilə ailə qur övladın olsun. Bizim də həsrətimiz sona yetsin. Oğlan isə arvadını çox sevdiyi üçün valideynlərini dinləməyib , demək olar ki, hər gün onların danlağı ilə üzləşirmiş Nəhayət bu istiraba dözməyən gəlin Allaha yalvarıb , ağaca çevrilməyini istəyir. Allah da onun arzusunu eşidib, gəlini belə xanım xatın görkəmində ağaca çevirir. Hər il ağaclar bar verib çiçəkləyəndə də isə , söyüd ağacından yağış kimi yağan su, o, gəlinin göz yaşları imiş. Artıq iyun ayı idi, ağac ağlayıb susmuşdu. Sadəcə yellənib sərinlik yaradırdı.

Afət hava qaralana qədər dərs oxuyub ayağa durdu. Onu səsləyən yox idi. Səbəbi ağıllarına gəlməsə də ,balıq sevmədiyini hər kəs bilirdi. Evə getməyə də həvəsi yox idi. Nənəsinin yanına getmək istəyini fikrindən çıxara bilmirdi. Bu barədə məsləhət alacaq bir adamı da yox idi. Zaur burada olsa fikrini ona söyləyərdi. O, hər nə desə elə də edərdi. Çünki ona inanırdı. Uşaqlıqdan ona inanıb , güvənirdi. Donunun qolunu yuxarı qaldırıb , çapıq yerinə baxıb gülümsündü. Hər dəfə bərk yağış yağandan sonra , dəmir vannanı götürüb, dəmir yolunun kənarındakı çökəkliklərdə yaranan

gölməçələrdə vanna sürməyə gedirdilər. Ondan başqa qızların heç biri bunu etmirdi. Onların bu işi görmək heç ağıllarına da gəlmirdi. Amma Afət , Zaurla yarışa girirdi .Axırıncı dəfə vanna aşdı ,Zaurun qolu çapıldı. Ona kömək etmək istəyəndə , Afətin də qolu yaralandı. Hər ikisini evdə danladılar. Ən çox da Zauru, onun ağlı kəsmir uşaqdır, bəs sənə nə olub yekə oğlansan, -dedilər. O gündən onların yağışlı havanın həsrətini çəkmələri sona yetdi. Amma , Afətin də Zaurun da qolunda çapıq yerləri qaldı.

Axırıncı imtahanı da verib məktəblə birdəfəlik vidalaşdılar. Afət yenə də əla qiymət almışdı. Hərçənd ki, onun qiyməti ilə yenə də maraqlanan yox idi. O, buna vərdiş etmişdi . Ona görə də o, barədə heç düşünmürdü də. Bu saat onu tək bir şey narahat edirdi. Mütləq nənəsini ilə görüşmək istəyirdi. Bu onun qəti qərarı idi. Sinif yoldaşına yaxınlaşıb qarını soruşdu. Oğlan onun ölümlə üzbəüz olduğunu söylədi.

Məktəbdən çıxıb bir başa nənəsigilə yollandı. Hər şeyi gözünün altına almışdı. Orada söyüləçəyini də, evə dönəndə danlanaçağını da bilirdi. Gözünü açanda özünü onların darvazasının ağzında gördü. Amma ayaq saxlamadı .Bilirdi ki, bir az dayanıb tərəddüt etsə içəri girə bilməyəcək . Beləcə bu həsrət ürəyində qalacaq. Nədənsə başına dolmuşdu ki, qarını sinəsinə basıb öpə bilsə , atasına olan həsrəti sona yetəcək .Hansı ki, o həsrət onu didib parçalayırdı. Atasının şəklini niyə ona göstərmirdilər ,onu anlamırdı? Anası ərə gedəndən sonra evdəki bütün şəkilləri yığmışdılar.

Qapını zərblə açıb içəri girdi. Həyətdə iki nəfər kişi dayanıb söhbət edirdi. Dönüb qıza təəccüblə baxdılar. Afət heç nə olmamış kimi salam verib , Dilşad nənə harada yatır?- dedi. Amma ona elə gəldi ki, səsini təkcə özü eşidib. Özünü toplayıb yenidən səslənmək istəyirdi ki, kişilərdən biri hökmlü bir səslə, içəridən kimi isə səsləyib, gəlin bu uşağı anamın yanına ötürün, -dedi. Içəridən uça boylu kök bir qadın çıxdı. Afəti görəndə təəccübünü gizlədə bilmədi. Nə isə bir söz deməsə də müəmmalı bir səs çıxartdı. Bayaqkı kişi indi bir az da uça səslə apar, – dedi. Qarının otağı elə də uzaqda deyildi. Dəhlizdən içəri keçən kimi azacıq sola tərəf keçib çox da böyük olmayan bir otağa girdilər. Çarpayının üstündə qupquru, arıq, cılız bir qadın gözüyumulu yatırdı. O, səs eşidən kimi gözünü açdı. Yekəpər qadın ay ana, bir gör kim gəlib?- dedi. Çingizin qızı gəlib. Afətin bütün bədəni titrədi, ürəyindən bir gizilti keçdi. Yerindən sıçrayıb özünü qadının üstünə saldı. Səsi titrəyə - titrəyə tək bir cümlə işlədə bildi. Nənə , mən də sənin qədər atamı görmək istəyirəm! Gözünün yaşı qarının sifətinə tökülürdü. Qadın son qüvvəsini toplayıb qolunu qaldırdı , qızı özünə doğru çəkib sinəsinə sıxdı. O, qupquru qurumuş ağac budağına oxşayan qolda az da olsa qüvvə var imiş. Qızı özünə sıxılmış vəziyyətdə saxladı. Afətə elə gəlirdi, zorla nəfəs alan qarıdan onun bədəninə qüvvə axıb dolur. Ürəyinə nə isə ilıq bir hərarət gəlir və hərarət bütün bədəninə yayılır. Əzələləri boşalıb süstləşirdi. Qarı zorla da olsa o, biri qolunu qaldırıb əlləri əsə-əsə Afətin başını tumarladı. Qız arxa tərəfdə kimlə-

rinsə dayandığını hiss edirdi. Onun hönkürtüsünə qarışmış hönkürtüləri eşidirdi. Qarıdan qopmaq istəmirdi. Kiminsə qolundan tutub onu ehmalca qaldırmaq istədiyini hiss edib dikəldi. Bayaqkı həyətdə dayanan kişilər ayrı ayrılıqda Afəti qucaqlayıb sinələrinə sıxdılar. Qız onların əmiləri olduğunu təxmin edib, göz yaşını saxlaya bilmirdi. İllərdən bəri ürəyində qalan arzusunu yerinə yetirib heç kimə baxmadan qaça- qaça otaqdan çıxdı. Nədənsə atasının hərarətini təkcə nənəsindən ala biləcəyini düşünmüşdü. Əmilərini arzulamaq , onlarla görüşmək heç ağlına belə gəlməmişdi. Amma indi əmiləri də ona çox doğma əziz gəldi. Qapıdan çıxıb ayaqqabılarını geyinəndə eh ay ana, bu uşağın günahı nə idi axı , illər boyu onunla düşmənçilik çəkdin? Sözlərini eşidirdi , səslər birbirinə qarışmışdı . Qadın da nə isə deyirdi. Afət təəccüb edirdi qocanı danlamaq bu günəmi qalmışdı? O , artıq bu dünyanı tərk edirdi. Səhvlərini düzəltməyə demək olar ki, vaxtı qalmamışdı. Qızın içinə bir rahatlıq çökmüşdü, qapıdan çıxıb evlərinə tərəf gedirdi. Nənəsini, həyəti , evi yadında saxlamağa çalışırdı. Atasını xatırladan nə isə bir parça xatirəsi olmasını istəyirdi.

Evə çatıb yemək yemədən yuxarı qalxdı. Bütün bədəninə süstlük çökmüşdü. Özünü paltarını dəyişmədən çarpayının üstünə atdı. Daha bu gündən sonra bu geyimə ehtiyacı olmayaçaqdı. Məktəbli paltarının axırıncı günü idi. Gözünə yuxu getdi. Nə qədər yatığını bilmirdi. Aşağıdan gələn səs küyə oyandı, ən çox Nüşabənin səsi eşidilirdi. Telman da arada bir nə isə mızılda-

yırdı. Qalxıb yatağın üstündə oturdu. İçində nə isə xoş bir duyğu olduğu hiss edib, nə olduğunu xatırlamaq istədi. Dərhal da nənəsinin siması gözünün önündə canlandı .Daha doğrusu, titrəyə - titrəyə başını tumarlayan əllərinin hərarətini hiss etdi. Hələ də əynində olan məktəbli paltarını soyunub, ev paltarı geyindi. Sonra ürəyinə bir sakitlik çökmüş halda aşağı düşdü. Telman kresloda oturub televizora baxırdı. Afət Nüşabənin niyə qışqırmağına təəccüb edib ətrafa boylandı. Lakin kimsəni görməyib gözünü dayısının üzünə dikdi. Nüşabə mətbəxə keçmişdi. Telman xeyli susandan sonra gözünü televizordan ayırıb, qızın üzünə baxmadan, Dilşadgilə getmişdin ?-dedi. Afət tərəddüd etmədən hə getmişdim, – dedi. Qız sözünü sona yetirməmiş , Nüşabə içəri girib bağırmağa başladı:

Sən bilmirsən ki, o , bizim düşmənimizdir? Niyə gedirsən onlara ?. Həyatı boyu Dilşad bizə qarğış yağdırıb, bacarsa idi dayını həbs etdirərdi. Bunları sən eşitmirdin?

Afət ağzını açmamış Telman var səsi ilə az ,batır səsini, - deyə bağırdı. Nüşabənin səsini batırmaq fikri yox idi. Ona görə durmadan nə isə deyinirdi. Amma Afət onun sözlərini eşitmirdi. Çünki qulağı batmışdı. Nəhayət özünü əla alıb, mənim orada düşmənim yoxdur, –dedi. Mən nənəmlə vidalaşmağa getmişdim. Yaxşı ki, də getmişdim, kaş ki, çoxdan gedəydim.

Nüşabə Afətdən belə cavab gözləmirdi. Donub yerində qaldı. Daha bir söz demədən otaqdan çıxdı.

Telman da maraqla Afətin üzünə baxıb dedi:

Səni orada necə qarşıladılar, qızım? Yenə də haray qışqırıq qoparan oldumu?

Afətin üzündə qəribə bir mülayim ifadə yarandı , sanki xəyalı harasa getdi, sonra xəyaldan ayrılıb orada gördüklərini , eşitdiklərini dayısına danışdı.

Ertəsi gün Dilşadın ölüm xəbəri yayıldı. Bu xəbərlə yanaşı hər kəs uzun bir zamandan bəri yataq xəstəsi olan qadının zülm çəkməyindən, ölə bilməməyindən danışırdı. Deyilənə görə gecə - gündüz inildəyib, Çingiz məni dindirmir , üzümə baxmır, mən onun yanına nə üzlə gedim?- deyirmiş. Səhərəcən Afətin günahı nə idi? Onu dindirməməklə balamı özümdən küsdürdüm deyib ağlayırmış. Səhər oyananda sayaqladıqlarını ona söyləyəndə isə belə şey olmadığını deyirmiş. Amma bir həftə bundan əvvəl oğlanlarını yanına çağırıb, mən səhv etdim, –deyib. Çingiz məni bağışlamır. Hər gecə yuxuma girir , mənə səni bağışlamayacam , hara gedirsən get , amma , mənim yanıma gəlmə,- deyir. Yalvarıram dalınca qaçıram üzümə baxmır ki, baxmır. Mən edən səhvi siz etməyin onun balasından əlinizi üzməyin. Bəlkə sizi bağışlayar, məni bağışlamır.

Dilşadın bu sözündən məyus olan oğlanları, ardıq geçdir ,– deyiblər . Biz günaha batdığımız qədər batmışıq . Bir də ki, o uşaq daha bizlə barışmaz.

Afətin qəfil gəlişi isə onları şoka salıb. Qızın gəlişindən az sonra qarı canını tapşırıb. Hüzur yerinə gedən hər kəs bu xəbərlə qayıdırdı. Dilşad günaha batdığına görə ölə bilmirmiş , Afət onu bağışladığı üçün allah günahından keçib- deyirdilər.

Bu söz söhbət sona çatmamış ,Telmanın evində başqa bir mövzu ortaya çıxdı. Afətin Dilşad rəhmətə gedəndən sonra ,son günündə onunla görüşdüyü üçün içinə bir sakitlik çökdü. Bütün qüvvəsini dərslərinə verib imtahanlara hazırlaşmağa başladı., lakin axırıncı günlər evdən yenidən qalxan səs - küy qızı narahat edirdi. İlk günlər nə səs küy olduğunu başa düşməyən Afət adının tez-tez çəkildiyini eşidib, təəccüb edirdi. Və nəhayət bir axşam Telman Afəti çağırıb çətinliklə də olsa, məsələnin nə yerdə olduğunu anlatdı. Kişi uzun zaman tərəddüt edəndən sonra dilləndi:

Ay qızım , sən hansı instituta hazırlaşırsan?

Afət uzun zamandan bəri gözlədiyi sualı eşidib sevindi və düşünmədən dedi:

Tibb institutuna, həkim olmaq istəyirəm.

Telman qaşlarını çatıb dedi:

Ay qızım , sənə asan gəlməsin həkim olmaq . Sən Zaurla bəhs etmə. Zaurun qeyri – adi zehni var. İndiki zəmanədə İnstitutlara qəbul olmaq pulladır. Bu institutların içərisində ən bahalısı tibb institutudur. Sən bilirsən ki, bizim o qədər pulumuz yoxdur. Gəl havayı nə özünü incitmə, nə də ki, bizi. Mən sənin oxumağının əleyhinə deyiləm. Sadəcə ayağımızı yorğanımıza görə uzadaq. Gəl elə rayonumuzda natamam alı məktəb var , üzümçü , şərabçı yetişdirir. Bizim rayon üzümçülük rayonudur, mütəxəssisə ehtiyac var. Müdiri də mənim yaxın dostumdur. Bir az hörmət edərəm evimizin içindəcə oxuyarsan, bir peşə sahibi olarsan. Bizim elə artıq pulumuz yoxdur ki, sənə yol pulu verək, Bakıda qal-

maq üçün mənzil tutaq . Axı sən o instituta qəbul ola bilməzsən, pulumuzu niyə hədər yerə xərcləyək? İnan qızım, əgər mənim artıq pulum olsa ,deyərəm qoy qəbul ola bilməsə də heç olmasa özünü sınasın.

Afətin rəngi kətan kimi ağardı. Demək olar ki, dodağında qan qalmadı. Bəlkə də indiyə qədər belə sarsılmamışdı. Ağlı kəsəndən ağlamağı sevmirdi. Sanki uşaqlıqda həddindən artıq ağlayıb , susmuşdu. Kiminsə qarşısında dayanıb nədən ötəri isə ağlamağı özünə heç cür sığışdıra bilmirdi. Demək neçə gündən bəri evdəki dava – dalaşın səbəbi elə bu imiş , hər şey Afətə gün kimi aydın oldu. Ona pul xərcləyib yol pulu , qalmaq üçün mənzil pulu vermək istəmirdilər. Qızın ürəyi yarpaq kimi əsirdi. Amma deməyə söz tapa bilmirdi. Yaş gözlərində halqalanmışdı. Nəfəsi boğazında tıxanıb, boğulurdu. Nəhayət özünü bir təhər ələ alıb, qətiyyətlə mən həkim olacam-, dedi. Sözünü bitirən kimi arxaya baxmadan yuxarı qalxdı. Otağına girib, qapını bağladı. Üzü üstə yatağına uzandı. Heç nə düşünə bilmirdi. Doğrudan da onu Bakıya aparmaq , heç olmasa imtahanları verənə qədər bir yerdə yerləşdirmək lazım idi. Dayısı onun imtahanları verə biləcəyinə inanmırdı. Ona görə də boş – boşuna zəhmət çəkib , pul xərcləmək istəmirdi. Daha doğrusu bu Nüşabənin fikri idi. Gecəni səhərə qədər gözünə yuxu getməsə də fikrindən dönən deyildi. Nə olur olsun , sənədlərini instituta verəcəkdi, özünə güvənirdi. Həmin gündən sonra Afət çox ortalıqda görünmədi, gecə gündüz otağına qapanıb dərs oxuyurdu. Heç kimi görmək istəmir-

di. Arıqlayıb sap sarı saralmışdı. Gözləri çuxura düşüb, ətrafında qara kölgələr yaranmışdı. Afət dərsini oxuyurdu, amma sonrası nə olacaq, kimlə gedəçək , harada qalaçaq bu haqqında düşünə bilmirdi. Bu səhər Afət saat beşdən durub həyətdəki taxtın üstündə oturub oxuyurdu. Adətən gecəni səhərə qədər oxuyur, işıqlaşanda yuxuya gedirdi. İndi isə əksinə gecəni yatıb tezdən oyanmışdı. Səhərin xoş mehi sacını tumarlayırdı. Başını qaldırıb göyə baxanda hava çoxdan işıqlaşmışdı . Vaxta az qalırdı, çarəsizlik qızı didib parçalayırdı. Cəmi bir neçə gündən sonra ali məktəblərə sənəd qəbul etmək sona yetirdi. Bu üç-dörd gün ərzində çıxıb getməsə, bütün arzuları, ümidləri boşa çıxacaqdı. Düşündükcə ürəyi sıxılırdı. Darıxıb ayağa durdu , qalxıb çarhovuzun yanına gəldi. Soyuq su il üzünü yuyub bir az özünə gəldi. Aybənizin səsinə çevrilib arxaya baxdı. Qız təəccüblə ona baxıb niyə belə arıqlamısan ?-dedi. Afət keçib taxtın üstündə oturub çiynini çəkdi.Aybəniz yenə də onu başdan ayağa süzüb dedi :

Özün bilirsən ki, İmran dayım məni, texnikoma zorla qəbul etdirdi. Özü orada müəllim ola -ola nə qədər çətinlik çəkdi. Özünü oxumaqdan ötəri niyə öldürüb, gözünü çıxardırsan? Yaxşı bilirsən ki, indi instituta hamı pulla qəbul olur. Atamğilin dövründə idi oxuyub öz biliyinlə təhsil almaq . İndi ətrafımızda nə qədər adam var , hamı pulla qəbul olur . Keçən il dayım qızını tibb institutuna qoymaq istəyirdi ,pulu çatmadı , universitetə qoydu. Sən bunları bilirsən axı.

Atama , anama niyə açığın tutur, neçə gündür gözə görünmürsən? Gəlib bizimlə bərabər yemək də yemirsən . Atam sənə baxıb qanı qaralır.

Afət dedi:

Yox Aybəniz, mənim onlara acığım tutmur. Nə də ki, mənə pul verib İnstituta qəbul etdirməklərini istəmirəm .Bu mənim heç ağlımın ucundan da keçmir. Sadəcə mən özümü sınamaq istəyirəm. Dayım isə deyir ki, bunlar artıq xərcdir. Amma mən ümidvaram ki, qəbul olaçam. Zaur niyə qəbul oldu?. Elman dayım Zauru pullamı qoydu instituta? Başqalarını nümunə göstərməkdənsə Zaura baxın.

Aybəniz çiynini çəkib dedi:

Boy sən özünü Zaurlamı müqayisə edirsən? Onun qeyri-adi istedadı var.

Afət dedi:

Bəlkə mənim də qeyri - adi biliyim var?

Aybəniz çiynini çəkib içəri keçdi. Afət isə ürəyindən keçənləri ona deyə bilmədi. Gözünü açandan Aybənizin əlində kitab görməmişdi. Məcbur etsələr də danlasalar da oxumurdu ki, oxumurdu. Gülbəniz də bacısından fərqlənmirdi, sinifdən sinfə zorla keçirdi. Ayəniz özünü onunla neçə müqayisə edirdi. Hələ yaxşı ki, dayısı onu texnikoma götürdə bildi. Qız düşüncələr içində köksünü ötürüb, yerindən durub içəri keçmək istəyirdi ki, Telmanın səsini eşitdi. O, pilləkənləri düşə - düşə qızım ,sənlə işim var dayan, – dedi. Qızın bədənindən bir gizilti keçdi. Onun nə deyəçəyini təxmin etmək istəyirdi. Lakin bir qərar verə bilmirdi. Ağlına bir

şey gəlmirdi. Telman düz onun qarşısında dayanıb, hazırlaş sabah səni yola salıram, – dedi. Qızın içi titrədi, ömründə belə bir halla qarşılaşmamışdı. Onu isti basmışdı, amma daxilində soyuq bir gizilti gəzib onun bədənini titrədirdi. Sual dolu gözlərini dayısının üzünə dikib, kiminlə? -dedi. Telman əvvəlcə Zaurun o gün gələn dostundan danışdı. Onu tərifləyib Zaurla Türkiyədə oxuduğunu söylədi. Sonra isə indi bura xəstə anasına və oxumağa getməli olan bacısına görə gəldiyini ,-dedi . Onların Bakıda evləri var. Xahiş etmişəm səni də özləri ilə aparacaqlar. Vüqar bacısı ilə bərabər sənin də sənədlərini instituta verəcək. Onların getdikləri qatara sənə də bilet almışam. Bir sözlə narahat olma , Vüqar çox yaxşı oğlandır. Neçə lazımdır sənə kömək edəcək .

Qız xasiyyətinə xas olmayan bir tərzdə hoppanıb, Telmanı qucaqladı, başını onun sinəsinə qoyub sığındı. Onun quş kimi çırpındığını hiss edən Telmanın gözləri yaşla doldu. Sonra kövrək bir səslə dedi:

Afət bilirsən ki, qəbul olacağına inanmıram. Deyilənə görə bu axırıncı iki- üç ildə bir nəfər də olsun öz biliyi ilə qəbul olmayıb. Rüşvət baş alıb gedir, amma mən sənin yanında günahkar qalmaq istəmədim. Nə yaxşı ki, Vüqargilin də Bakıya getməklərini öyrəndim. Yenə də sənə uğur diləyirəm , get hazırlaş.

Qızın uçmağa qanadı yox idi. Hazırlaşmaq deyəndə bir- iki köhnə yay paltarı var idi ..Onları , bir də kitab dəftərini yığıb səhərki günü gözlədi. Hər nə qədər darıxsa da zaman öz vaxtında gəldi. Onu qatara mindir-

məyə Elman apardı. Qızların dördü də onunla səmimi görüşüb uğur dilədilər. Nüşabənin qaş- qabağı yerlə getsə də qıza bir canfəşanlıq göstərib dedi:

Telman bəs bu qız birinci , ikinci imtahandan kəsilsə axıra qədər orada onlarımı gözləyəçək , yoxsa oradan bunu bir yola salan olacaqmı?

Telman dedi:

Yox Vüqara tapşırmışam, kəsilən kimi yola salacaq.

Jalə dedi:

Əmi tapşır bileti xəcalət qatarına alsın.

Elmanla Telman ikisi bir ağızdan dedi:

Xəcalət qatarı nədir?

Bu dəfə Gülbəniz qəhqəhə çəkib dedi:

Ata siz onu bilmirsiniz?. İnstitutdan kəsilənlər həmişə birinci qatarla gəlirlər ki, yarımçıq qayıtdıqlarını görən olmasın. Axı birinci qatar bizim rayondan qaranlıqda keçir. Bu dəfə qızlar da anaları da gülməyə başladı. Sonra isə uğur arzulayıb zarafat etdiklərini söylədilər.

Zarafat da etsələr ,düz də desələr söz Afətin ürəyinə xəncər kimi sancıldı. Qapıdan çıxanda bir an ayaq saxlayıb arxaya döndü. Sonra isə qətiyyətlə mən instituta qəbul olaçam,- dedi. Bu dəfə təkcə Tünzalə dillənib amin, –dedi.

Voqzala çatıb yeraltı keçidi keçən kimi Vüqarla rastlaşdılar. Vüqar onlarla salamlaşıb , nə gec gəldiniz , sizi gözləyirəm? - dedi. Elman hələ qatarın gəlməyinə on beş iyirmi dəqiqə var deyib irəli keçdi. Birlikdə Vüqarın anası ilə bacısının yanın gəldilər.Vüqar Asudə

xanımı və anasına qeyri adi dərəcədə oxşayan bacısı Güneli Afətlə tanış etdi. Afət salam verib ətrafa boylanırdı o, birinci dəfə idi ki, qatara minirdi.Bakını da görməmişdi. Yarım qaranlıqda zənbillərin , kağız qutuların yanında iki bir , üç bir dayanan insanlar qatarın fit səsini eşidən kimi zənbillərini götürüb hazır vəziyyət aldılar .Qatarın yaxınlaşdığını görən Elman , Afətlə görüşüb bir az duruxandan sonra qızın ovcuna əlli manat pul qoydu. Bir qəpik olsun pulu olmadığını indi düşünən Afət dayısına təşəkkür etməyə macal tapmamış qatar onlara yaxınlaşdı. Vüqar bir iki oğlanla gəlib anasının yanındakı çantaları , qutuları yuxarı qaldırdı. Sonra qızlarla qadın da qatara qalxdı. Bunlar hamısı sanki, bir göz qırpımında baş verdi. Oğlanlar qatardan az qala qatar gedə- gedə düşdülər. Vüqar çantaları yerləşdirib deyinməyə başladı. Ay ana bu nə qədər çantadadır ? Elə bil köçürsünüz. Qatar irəlilədikcə, sərinlik yaranırdı.Yerləşib rahatlaşandan sonra, Afət hələ də ovcunda tutduğu pulu çiynindən asdığı kiçik çantanın cibinə qoydu. Qız çantanın cibini açanda orada pul olduğunu görüb təəccüb etdi, donub yerində qaldı. Çanta onun deyildi. Aybənizin idi. Axır vaxtlar ümumiyyətlə Afətə nə isə alındığını xatırlamırdı Nə alınsa qızlara alınırdı . Hər dəfə Nüşabə gah anam alıb deyirdi , gah bacım . Guya qızlara nənəsi , dayısı , xalası pay alırdı . Onların köhnə paltarlarını isə Afətə verirdilər. Nə yaxşı ki, Aybənizlə , Afətin ölçüləri demək olar ki, eyni idi. Afət onun paltarlarını bir az qısaltmalı olurdu. Bu çantanı da Bakıya getmək üçün ,

Aybənizdən istəmişdi. Aybəniz də onu gözünün önündə içini boşaldıb ona vermişdi. Bəs indi bu pul haradan çıxmışdı. Əlindəki pulu da onun üstünə qoyub zəncirini çəkdi. Sonra isə özündən asılı olmayaraq çiynini çəkdi. Asudə xanım hər şeyin yerbəyer olduğuna əmin olan kimi masanın üzərinə ağappaq süfrə salıb əlindəki çox da böyük olmayan bağlamanı açıb, süfrənin üstünə yığdı .Sanki çantanın içindəkilər bitib tükənmək bilmirdi. Afət doğrudan da təəccüb edirdi. Asudə xanım əlini hər dəfə çantaya salanda maraqlı bir şey çıxardırdı. Beş -on dəqiqədən sonra çox gözəl bir süfrə açılmışdı. Kənardan çox dadlı görünən yeməklər, eyni rəngli qəşəng ağzı bağlı qablara qoyulmuşdu. Asudə xanım kiçik qazanın ağzını açan kimi beçə qızartmasının ləzzətli ətri kupeyə yayıldı. O , qalxıb bayaqdan qonşu kupedə dostları ilə oturan Vüqarı səslədi. Vüqar başını qapıdan uzadıb , yemək istəmədiyini söylədi.Asudə xanım da Günel də Afəti süfrəyə dəvət edib , iştaha ilə yeməyə başladılar. Afət təşəkkür edib tox olduğunu , dedi. Lakin qadın israrla qızın onlarla yemək kəsməsini istədi. Afət bir tikəni utana - utana zorla çeynəyib uddu. Onlar isə demək olar ki, bir böyük cücə qızartmasını xiyar , pomidorla yeyəndən sonra , üstündən qatar bələdçisini gətirdiyi çayla, piroq yedilər. Afət daha heç nə yeyə bilməyəçəyini deyib bir kənara çəkildi. Asudə xanımla Günel piroqdan sonra həvəslə meyvə yeməyə başladılar. Qadın yeyib qurtarandan sonra böyük bir dərman torbası çıxardıb ortaya qoydu. Dalbadal ən azı

dörd beş kinə içdi, sonra xəstəlikdən gileylənməyə başladı. O ,hədsiz kök idi. Demək olar ki, nəfəs ala bilmirdi. Günel anası qədər kök olmasa da, öz yaşına görə çox kök idi.

Yemək mərasimi başa çatan kimi , Asudə xanım yatmağa hazırlaşdı. Afət mən də yuxarı qalxım deyib, onların üzünə baxdı. Asudə xanım qalx , qızım qalx,- dedi. Afət ayaqqabılarını soyunub Günelin ayaqqabısının yanına qoyanda , onun nimdaş ayaqqabıları. , Günelin təzə bahalı ayaqqabılarının yanında çox pis göründü. Afət ayağını ehmalca uzadıb öz ayaqqabılarını yatağın altına itələdi. Sonra cəld bir hərəkətlə yuxarı qalxdı. Bir azdan Vüqar başını kupeyə uzadıb , məni gözləməyin yatın, - dedi. Mən qonşu kupedə uşaqlarla yatacam. Qapı örtüləndən az sonra Asudə xanımın xorultusu kupeni başına götürdü.

Qatar uzaqlaşdıqca , Afəti qəribə hisslər bürüyürdü. Özünü ağacdan qopmuş yarpaq kimi hiss edirdi. Artıq nə ağaca lazım deyildi, nə də ki, bir başqa kimsəyə. Təkərlərindən ahəngdar səs gələn qatar onu beşik kimi yırğalaya - yırğalaya hara aparırdı, İşıqlı bir gələcəyəmi? Getdiyi gələcək müəmma dolu idi isə dönüb baxdığı arxada da xoş bir şey xatırlamadı. Ürəyi üzülə - üzlə böyümüşdü. Lap elə nənə -babasının vaxtında da ərkəsöyünlüyünün arxasında böyük bir kədər dururdu. Onlardan sonra Allahın ona bəxş etdiyi əsl reallıqla üz- üzə qaldı . O reallıq yetimlik idi . Əsl yetimlik, atasız və anasız. Anasından gündə bir xəbər gəlirdi. Dalbadal oğlanları gəlmişdi dünyaya. Deyilənə

görə çox varlı və xoşbəxt idi. Uzun illərdən bəri uşaq həsrəti çəkən, yaşca anasından az qala on beş yaş böyük olan əri onu əllinin üstündə saxlayırmış . Dayıları isə elə varlı deyildi. Telman süd zavodunda mühəndis işləyirdi. Hansı ki, oranın müdiri Asudə xanımın həyat yoldaşı idi. Maaş ilə dolanan sadə bir insan idi. Onun məhləsinə , ev eşiyinə yaraşıq verib, təmtərağa mindirən Nüşabə idi. O, yaşıllıqla , gül - çiçəklə, hədsiz səliqə sahmanla gözəllik yaradırdı.

Elman isə sürücülük məktəbində müəllim idi. O, da demək olar ki, Tünzalənin özünə binəm xırda heyvandarlıq təsərrüfatı olmasa, bəlkə heç ailəsini dolandıra bilməzdi.

Düzdür varlı olmasalar da Afət ac -susuz böyüməmişdi. Hər iki dayısının hər gün ocağının üstündə qazanı qaynayar, hər bayramda hər ikisini evində bayram çörəkləri bişər , bayram süfrəsi açılardı. Həyətlərində bayram tonqalı alovlanırdı. Tonqalı qapıdan girən kimi ortada açılan boşluqda yandırırdılar. Gündüzdən iki məhlənin ikisindən də taxta , ağac nə var daşıyıb ortaya tökürdülər.Sonra gecənin yarısınadək ocağın kənarında deyib gülürdülər.Afət Zaurun zarafatlarını xatırlayıb öz -özünə gülümsündü. Sonra da özünü ağacdan qopmuş yarpağa oxşatdığına görə acığı tutdu. Ağacdan qopan yarpaq ömrünü başa vurub, sonra qopur. O, isə hələ həyata yeni atılırdı. Çiçəklənən dövrü idi. Onu qarşıda nurlu sabah gözləyirdi. Afət o sabaha ümidlə baxırdı. Bu xoş xəyallarla da yuxuladı. Bəlkə də axırıncı bir ildə belə dərin yatmamışdı. Səhər yuxu-

dan bələdçinin səsinə oyandı . O, əlindəki dəmir açarla qapıları döyüb, qatar Bakıya yaxınlaşır ,- deyə- deyə keçirdi.

Vaqondan düşüb çantalarını, əl arabasına yığıb, taksiyə mindilər. Taksini Kubinka deyilən əraziyə sürdürdülər. Afət maşından düşüb birbirinin içində olan xırda evlərə təəccüblə baxırdı. Telmanla Elmanın məhləsi boyda ərazidə ən azı iyirmi ev yerləşmişdi. Taxta darvazadan içəri keçəndən sonra nizamsız qarışıq yerləşmiş evlərin arasındakı çəmi iki - üç pilləkəni olan evin qarşısında dayandılar. Asudə xanım ağ çantasının içindən açarları çıxarıb Vüqara verdi. Vüqar evin qapısını çətinliklə açdı. Çoxdan bağlı qalmış qapının yəqin ki, kilidi paslanmışdı. O, xeyli çalışandan sonra qapını açdı. Qapını açıb , siz içəri keçin ,- dedi. Çantaları mən daşıyıb gətirəçəm. Əvvəlcə Asudə xanımla , Günel, sonra isə Afət içəri keçdi. Birbirinin içində , üç kiçik otaqdan ibarət olan mənzil kiçik olsa da rahat görünürdü. Otaqlar səliqəli də olsa hər yeri toz basmışdı. Asudə xanım keçib divanda oturdu.Onun halı yox idi. Özünü zorla toplayıb, ay qızlar bir çay qoyun, - dedi. Günellə, Afət mətbəxə keçdilər . Su kranını açan kimi krandan gur su gəlməyə başladı. Günel çaydanı yaxalayıb su ilə doldurdu. Afət hamamdan tapdığı dəsmalla otaqları sildi. Səhər yeməyini yeyən kimi Vüqar harasa getdi . Qadınlar isə gətirdiklərini yerbəyer etdilər. Afət hər şeydən çox razı idi, sevinirdi. Asudə xanım çox mehriban qadın idi. Onunla elə davranırdı , sanki onu çoxdan tanıyırdı. Günel isə qəribə , sa-

kit təbiətli bir qız idi. Vüqar bacarınca ondan kənar gəzirdi.

Ertəsi gün Vüqar yerindən duran kimi , qızlar hazırlaşın gedək,-dedi. Heç nəyi unutmayın gedək sənədlərinizi instituta verək . Əvvəlcə gedib Günelin sənədlərini verdilər . Burada çox da yubanmadılar , hər şey uğurlu alındı. Sonra birlikdə Tibb İnstitutuna getdilər. Uzun bir növbədən , basabasdan sonra yorulub əldən düşsələr də Afətin də sənədlərini verib evə döndülər. İki gündən sonra məlum oldu ki, qızların imtahanları həftənin ayrı – ayrı günlərinə düşüb. Təkcə axırıncı imtahan eyni gündə idi. Bu Vüqarı ürəyindən oldu, çünki, qızları imtahana o , aparmalı idi. İmtahanlar eyni günə düşsə Vüqarın başı ağrıyacaqdı. Təkcə axırıncı imtahan eyni günə düşsə də , bu Vüqarı narahat etmirdi . Onun fikrincə o vaxta qədər Afət yəqin ki, imtahandan kəsiləcəkdi.

Vüqarın ilk işi atasının tapşırıqlarını yerinə yetirmək oldu. Səlim kişi bir ay bundan əvvəldən gəlib, Günelin işini danışıb pulunu vermişdi. Uzaq qohumu , Fərhad müəllim bu işi öz üzərinə götürmüşdü. Fərhad müəllim hər gün Vüqarla gəlir , Güneli sorğu suala tutur, lazımı tapşırıqları verirdi. Bir gün Vüqar ondan Afəti də yoxlamağı xahiş etdi. Fərhad müəllim Afəti dindirəndən sonra sözün əsl mənasında mat qaldı. Qızın qeyri adi biliyi var, – dedi. O, gündən Fərhad müəllim Güneli yoxlamaq üçün gələndə, mütləq Afəti də sorğu suala tutub , tapşırıqlar verirdi.

Afətin birinci imtahanı kimyadan idi. Qız bu imtahanı müvəffəqiyyətlə verdi. Vüqara isə yaxşı qiymət ala bildiyinə görə təşəkkür etdi. Fərhad müəllimin ona köməyi dəydiyini söylədi. Vüqar ilk əvvəl Fərhad müəllimin imtahanda kömək etdiyini düşünüb təəccüblə qızın üzünə baxdı. Afət Vüqarın onu düzgün başa düşmədiyini duyub ,o mənada demirəm,- dedi. Hansı sahələri daha çox təkrarlamaq lazım olduğunu mənə Fərhad müəllim başa saldı. Vüqar qızın sözünü başı ilə təsdiq etsə də, ağlı bir şey kəsmədi.

İkinci imtahan fizikadan idi. Afət bu imtahandan da yaxşı qiymət aldı. Fizika Fərhad müəllimin sahəsi deyildi. Yenə də Afət imtahandan çıxanda Vüqara təşəkkür etdi. Vüqar indi nəyə görə təşəkkür edirsən ?- dedi. Qız nələrsə demək istəsə də sadəcə çiynini çəkməklə kifayətləndi.

Asudə xanım ümumiyyətlə bu qıza heyran qalmışdı. Gecə gündüz dərsini oxuyur , bununla bərabər evdə bir başqasını iş görməyə qoymurdu, Asudə yeməkləri də özü bişirirdi. Ona da əl atıb yardım edirdi. Qadının əlinin altına hər şeyi yuyub, təmizləyib hazır qoyurdu. Üstəlik bu işləri görmək onun əlində su içimi qədər asan bir iş idi. Asudə xanım özü xəstə idi. Bura Günelə qulluq etməyə gəlmişdi. Meyvələri yuyub qızın yanına qoyur, tez- tez yemək təklif edirdi. Günel isə günün az bir vaxtını kitaba sərf edib, günü yatmaqla keçirdi. Asudə xanım Afətin də iş görməyini istəmirdi. Yetim uşaqdır bizə sığınıb deyə düşünürdü ,elə bilərəm uşağım iki deyil üçdür. Lakin onun sürünə -

sürünə , zarıya - zarıya gördüyü işi Afət bir göz qırpımında görüb qurtarıb, dərsini oxuyurdu. Artıq ikinci imtahandan da yaxşı qiymət alması qadını daha da təəccübləndirdi.

Afət üçüncü imtahandan qiyməti elə də asanlıqla ala bilmədi. Müəllim demək olar ki, yazını axıra qədər oxumamış üstündən xətt çəkdi. Qız razılaşmayıb komissiya tələb etdi. lakin komissiyanın gəlməyinə müvəffəq ola bilmədi. Saatlarla otaqların ağzında qaldı. Gəlirik desələr də gələn yox idi. Lakin o , dediyindən dönmədi , israrla komissiya tələb etdi. Nəhayət imtahanın qurtarmağına demək olar ki, dəqiqələr qalanda Afət getməyə hazırlaşan komissiya üzvilərinin qarşısını kəsib aldığı qiymətlə razılaşmadığını ,-dedi. Onlar qızı dinləmədən ötüb keçmək istəyirdilər. Hətta aralarından biri ay qız , get yaxşı hazırlaş gələn il gələrsən,- dedi. Qızın otaq başına fırlandı bir an ona elə gəldi ki, udduğu hava de deyil, ciyərlərinə hava əvəzinə su dolur ,boğulurdu. Elə bu zaman ağ saçlı nurani kişi dayanın , görək bu qız nə deyir - , dedi. Böyük bir dəstə qızı imtahana tutdu. Sualı sual dalınca verib başından yağış kimi yağdırdılar. Afət müəllimin sayının çox olmağına baxmayaraq özünü itirmədən bütün suallara mükəmməl cavab verdi. Komissiyanın sədri qocaman ağ saclı kişi eynəyini gözündən çıxarıb, Afətə iki verən müəllimin üzünə baxdı, sonra rus dilində belə uşaqlara iki yazmayın insafınız olsun deyib otaqdan çıxdı. Bu imtahandan da beş ala bilməsə də dörd aldı. Onu aşağıda Vüqar gözləyirdi. O, Afətin

bayaqdan iki alıb ,komissiya tələb etdiyini bilirdi, lakin onun qiymət alıb düşəcəyini ağlına belə gətirmirdi.Qızı əlində imtahan vərəqi ilə görəndə donub yerində qaldı. İnstitutun həyətində hər kəs bu qara gözlü uca boylu şirin qıza maraqla baxırdı. Yol boyu heç biri danışmadı. Afət özünə gələ bilmirdi, Vüqar söz tapa bilmirdi. Evə çatanda onların görkəmini görən Asudə xanım Afətin iki aldığını zənn edib, təsəlli verib canın sağ olsun , -dedi. Bu neçə gündə sakit , dinməz dayanan qız indi dil boğaza qoymadan, qalib bir görkəmdə imtahandan necə iki aldığını, bununla razılaşmayıb komissiya tələb etdiyini, komissiya ilə imtahan verib qiymət aldığını söyləməyə başladı. Asudə xanımla Vüqar sözün əsl mənasında bu qıza heyran olmuşdular. Onun biliyinə, qoçaqlığına qibtə edirdilər.Hətta bəzən onun instituta qəbul olacağına inanırdılar .
Artıq Günel də üç imtahanın vermişdi. Asudə xanım Günel imtahanlarını verib qurtarandan sonra onu təbrik etmək üçün yaxşı bir süfrə açmaq fikrində idi. Özü əməliyyata gedirdi. Birdən əməliyyatdan sağ çıxa bilməyəçəyini düşünür. Axırıncı dəfə qızına süfrə açıb xatirəsində belə qalmaq istəyirdi. Amma Afətin sonuncu imtahandan keçməyinə ümidi yox idi. Odur ki, bu qonaqlığını bu günə salmaq fikrinə düşdü. Qızlar gəlin, hələlik bu günlərin bayramını keçirək , yaxşı aş bişirim yeyib içək,- dedi. Qızlar qalxıb süfrə acdılar . Asudə xanım bişirdiyi xərəklərin ləzzətinə söz yox idi. Bu qadın hər şeyin dadlısını xoşlayırdı. Hətta mağazadan kağız torbalarda alıb gətirdiyi şirin qarğıdalı

çöplərini də yenidən öz istədiyi kimi bişirib süfrəyə qoyurdu. Kərə yağını tavada dağ edəndən sonra həmin qarğıdalı çöplərini yağın içinə töküb, üzərinə qoz , fındıq, fıstıq, püstə ləpəsi, kişmiş , ərik qurusu əlavə edirdi. Bütün bunları birlikdə azacıq qovurandan sonra büllur qablarda süfrəyə verirdi. Azacıq özünü yaxşı hiss edən kimi dadlı bir şirin çörək, ya da tort bişirirdi. Amma Afət Asudə xanım nələr hazırlayır hazırlasın , bir qismət yeyib süfrədən ayrılırdı. Daha xuruşlara ya da şirniyyətə əl uzatmırdı . O, bura gəldiyi ilk gün Elman dayısının verdiyi əlli manatı , Asudə xanıma verib, mən dükan bazar tanımıram demişdi. Xahiş edirəm mənim üçün də bazarlıq edin. Asudə xanım onun pulunu götürməyib , zorla özünə qaytarmışdı. Özün nə almaq istəsən alarsan , demişdi. Afət çantasındakı digər pulun nə pul olduğunu bilmədiyi üçün o pula əl vurmaq fikri yox idi. O ,pul yadına düşəndə narahat olurdu. Onun çantasında neçə peyda olduğunu , kimdən soruşmaq lazım olduğunu anlamırdı. Çünki, Aybəniz çantanı hər kəsin önündə boşaldıb ona vermişdi. Onsuz da burada bir qəpik olsun pul xərcləməyə ehtiyacı olmadı. Asudə xanım Vüqarla gedib nə lazımdırsa alıb gətirirdi. Afət isə bazar dükan tanımırdı.

Qızların axırıncı imtahanı eyni gündə idi. Afət ədəbiyyatdan yazılı imtahan verməli idi. Vüqar bu gün evdən bir az tez çıxaq, - dedi. Günelin hazırlaşmağı uzun çəkdiyi üçün , Vüqar məcbur olub taksi tutdu. Birinci Afəti düşürüb , Günellə getdi. Afətin görkəmi Vüqarın gözünün önündən getmirdi. Qız taksidən

düşüb məyus - məyus onların arxasınca baxırdı. Onun niyə belə kədərli olmağının səbəbini Vüqar təxminən bilirdi. Bu axırıncı imtahan idi . Yəqin ki, yazıq qızın yazılı imtahandan qiymət almağa ümidi yoxdur deyə düşünüb, məyusluğuna da bunu səbəb bildi.

Afət imtahanı verib pilləkənlərlə düşürdü. Təxminən iki səhv etdiyi düşünürdü. Bir yerdə Kələntər əvəzinə Kələntərli yazmışdı. Bir də ki , deyəsən yazıçının doğum tarixini iki il artıq yazmışdı. Bu iki səhv ona gün kimi aydın idi, daha başqa səhvi olub , olmadığını bilmirdi. Hal -hazırda onu narahat edən səhvlər deyildi. Evə neçə qayıdacağını düşünürdü. Bu müddət ərzində bir dəfə olsun o barədə düşünməmişdi. Heç qaldığı evin ünvanını da bilmirdi. Kubinka sözündən başqa heç nə bilmirdi. Ora hansı avtobusla getmək haqqında heç təsəvvürü də yox idi. Hər dəfə Vüqarla getmişdi. Nə mindiyi avtobusun nömrəsinə baxmışdı, nədə ki, yaşadığı evin küçəsinə, dalanına fikir verməmişdi. O, pilləkənləri düşürdü, ayağını elə sürüyürdü ki, pilləkən qurtarmaq bilmirdi. Ürəyi döyünməyə başladı .Ona bir an elə gəldi ki, bu yer üzündə heç kəsi yoxdur. Özünü aydakı , havasızlıqda ora bura dəyən adam kimi hiss etdi. Axırıncı pilləkənə ayağını qoyanda qolundan kiminsə tutduğunu hiss edib diksindi. Çevrilib Vüqarı görəndə mat qaldı. Bəs Günel, nə oldu ? - deyə sual verdi. Çıxdı imtahandan?

Vüqar dedi:

Yox , mən gələndə hələ çıxmamışdı. Bir dostumdan xahiş etdim ki, gəlib səni götürsün. Sonra düşündüm

, sən onu tanımırsan. Onunla getməyə ürək etməyəçəksən. Fərhad müəllim Güneli mən gətirərəm, -dedi. Mən də sənin yanına gəldim.

Afət dedi:

Çox sağ ol. Doğrudan da mat qalmışdım . İnanırsan bu müddət ərzində bir dəfə olsun hansı miniklə gedib gəldiyimizə fikir verməmişəm .Elə fikirli oluram ki, ünvanınızı da soruşmaq ağlıma gəlməyib.

Afət Vüqara bir kəlmə çox sağ ol,- dedi, amma ürəyində ona minnətdarlıq edib , dönə - dönə sağ ol deyirdi. Hər şeyə görə , mənəvi və maddi dayağa görə, çəkdiyi zəhmətə görə, itirdiyi vaxta görə. Qız istəyirdi bu sözləri ucadan desin , amma bacarmırdı . Sanki sözlər boğazında tıxanıb qalırdı. Ürəyini çırpındırırdı. Aralarına çökən uzun sükutu Vüqar pozub dedi:

Bəs sənin qanın niyə belə qaradır ? Mən səni görəndə düşündüm , yəqin qiymət ala bilməmisən, sonra yadıma düşdü ki, bu imtahan yazılıdır , hələ qiyməti iki üç gündən sonra məlum olacaq.

Afət ən çox evə necə gedəçəyinə görə narahat olduğunu demək istədi nədənsə deyə bilmədi. Yaxşı mövzu düşmüşdü , amma iki səhvimi artıq bilirəm .Kələntər əvəzinə Kələntərli yazmışam . Özü də bu sözü iki- üç yerdə işlətmişəm. Sonra daha xırdalamadan başqa səhvim də var,-dedi.

Vüqar dedi:

İki -üç yerdə işlətmiş olsan da o bir səhv sayılır. Narahat olma.

Vüqar Afətə belə demiş olsa da özü başqa cür düşünürdü. Qızın bu imtahandan keçməyəçəyinə əmin idi. Özünü toplayıb , Afətə ümid verdi amma verdiyi ümid , əslində təsəlli kimi səslənirdi. Afətin heç nə düşünməyə halı yox idi. Hava çox isti idi . Nəfəs almaq mümkün deyildi. Qız sanki buraları birinci dəfə idi görürdü. Key-key boylanıb ətrafa baxırdı. Indiyə qədər havanın isti , ya da soyuq olduğunu hiss etməmişdi. İmtahanları elə bil ki, yuxuda vermişdi.

Onlar evə çatanda Fərhad müəllim ilə Günelə Asudə xanım çay ,çörək verirdi. Onlar sevinirdi çünki , Günelin qəbul olduğu məlu-m idi. Asudə xanım ağzını açıb Afətin imtahanını soruşmaq istəyirdi ki, Vüqar ondan əvvəl cavab verdi.

Afətin imtahanının cavabı iki - üç gündən sonra məlum olacaq.

Vüqarla Afət Günelin sevincinə şərik oldu. Qızın uçmağa qanadı yox idi. Asudə xanım , Allah qoysa sənin qəbul olduğunu eşidib sevinərik , - dedi. Günellə Vüqar amin desələr də Afət çiynini çəkdi.

O gecə Afətin gözünə yuxu getmədi. Qız qəbul olmaq ümidi ilə alışıb yanırdı. Fikir ürəyini didib parçalayırdı. Qəbul olunmayıb geri dönəçəyini düşünmək belə ona ağır gəlirdi. Artıq bir aya yaxın idi ki, başqasının evində qalırdı. Çatan kimi Nüşabə deyəçəkdi ki, mən deyəndə mənə qulaq asmırsınız. Sizə dedim ki, qəbul ola bilməyəçəksən. Qızın bu mənzərə gözünün önündə çanlandıqca nəfəsi qaralırdı. Səhərə yaxın gözünə yenicə yuxu getmişdi ki qulağına boğuq

bir səs gəldi. Gözünü açıb qulaq asmağa başladı. Asudə xanım qonşu otaqda, Vüqar isə qabaqdakı otaqda yatırdı. Qız səsin haradan gəldiyini bilmək istəyirdi. Səsin qonşu otaqdan gəldiyini anlayan kimi yerindən sıçrayıb, cəld bir hərəkətlə paltarını geyinməyə başladı. Otağa keçib gözünə inana bilmədi. Asudə xanım başını çarpayıdan sallayıb öyüyürdü. Qız özünü onun üstünə atıb nə olub, -dedi? Qadın dili tutar -tutmaz yəqin ki , təzyiqim yüksəkdir, qızım , mənim dərman çantamı və su gətir, – dedi. Afət Asudə xanımın istədiyi dərmanları ona içirdəndən sonra, Vüqarla , Güneli oyadımmı? -deyə sual verdi. Qadın başını bulayıb etiraz etdi. Lazım deyil , dərman içdim yəqin ki, bir azdan özümə gələçəm. Afət haradansa isidici tapıb içərisini isti su ilə doldurdu. Qadının buza dönmüş ayağının altına qoydu. Əllərini , boynunu ovuşdurdu. Sonra vannanı isti su ilə doldurub gətirdi. Asudə xanım ayaqlarını vannaya salan kimi özünə gəldi. Qız limonlu, təzə dəm çay gətirib, için, –dedi. Telman dayım həmişə təzyiqi olanda təzə dəmli, limonlu çay içir. Get gedə özünə gələn Asudə xanım sən elə anadan gəlmə həkimsən ki, ay qızım ,– dedi. Əllərin ilahidən şəfalıdır. Ovxaladıqca özümü yaxşı hiss edirdim. Asudə xanım israr etsə də Afət qayıdıb yatmadı. Səhər Günellə Vüqar oyanıb çay içib çörək yeyəndən sonra Afət yatmağa getdi. Asudə axşam xəstələndiyi haqqında uşaqlarına bir şey söyləmədi. Onun ürəyi xəstə idi . Təcili əməliyyat olmalı idi. Vüqar onu Türkiyədə həkimə aparmışdı. Günelin institutuna görə qalmışdı. Qızın qəbul olduğuna

tam əmin olan kimi, getməli idilər. İndi gecə halının pis olduğunu desə, Vüqar təcili gedək deyəçəkdi. O , isə Günelin qəbul olduğu haqqında sənədlərin alınmasını gözləyirdi. Ondan sonra sakitləşib, arxayın gedə bilərdi. Vüqarla , Günel Afətin belə vaxtda yatdığına təəccüb etdilər. Asudə yatsa yaxşıdır, - dedi. İmtahanın cavabından narahatdır.

Afət yuxudan oyanandan sonra Asudə israrla Vüqardan qızları kinoya aparmasını tələb etdi. Günelin bu fikirdən çox xoşu gəlsə də Afət getmək istəmədiyini söylədi. Afəti məcbur edən olmadı. Onlar gedəndən sonra Afət sizə görə getmədim, - dedi. Gecəki halınız məni qorxutdu.

İmtahanın cavabı çıxan günü Vüqar mən gedib öyrənərəm , - dedi. Sənin

getməyin vacib deyil , amma getmək istəyirsən gəl gedək .Afət getmək istəmirdi. Bu söz ürəyindən oldu. Qiymət ala bilməyinə ümidi yox idi.

Vüqarın Afətə yazığı gəlirdi. Yol boyu onu gətirmədiyinə görə peşman oldu. Əgər imtahandan iki almış olsa , bu xəbəri ona necə deyəcəm- deyə düşünüb narahat olurdu.

Vüqar Zaurla uşaqlıqdan dost idi. Bir - birini qardaş kimi istəyirdi. Zaur uşaqlıqdan onlara çox gəlmişdi. Amma nədənsə Vüqar Zaurgildə olmamışdı. İlk dəfə gəldiyi o gün də xatirəsində pis iz buraxmışdı. O , Nüşabənin Afətə olan haqqsızlığını anladı. Qara gözlü məsum qızın , kətan kimi ağarmış sifəti, dərinliyinə kədər çökmüş qara gözləri gözünün önündən

getmirdi. Özünü saxlaya bilməyib elə həmin yerdə ona tərəf çıxmışdı. Doğrudan da böyük bir izdihamın İsə müəllimin dəfninə getdiyini söyləmişdi. Vüqar evlərində qız uşağına qarşı belə kəskin münasibət görməmişdi. O , tək oğlan olmağına baxmayaraq gözünü açandan bacılarını qorumaq , əzizləmək, onlara xoş münasibət bəsləmək ideyası ilə böyümüşdü. Anasından ,atasından eşitdiyi gördüyü də bu olmuşdu. Evə dönəndə onu narahat edən bu söhbəti atasının yanında danışdı .Səlim Çingizlə yaxın dost olmuşdu. Birinci sinifdən məktəbi bitirənə qədər ,ondan sonra institut illəri, hətta , hərbi xidmətlərini də eyni hərbi hissədə keçirmişdilər. Səlim Çingizin qızının belə ağır həyat keçirməsini ağlına belə gətirməmişdi. O vaxtdan onunla maraqlanmadığı üçün özünü danladı. Asudəni çağırıb ondan soruşanda isə lap mat qaldı .Asudə Çingizin ailəsinin o ,qızı qəbul etmədiklərini söylədi . Səlimin damarında qan dondu ,necə yəni qəbul etmədilər ? Çingiz Cəmilə ilə el adəti ilə ailə qurmuşdu. Asudə onların haqqında eşitdiklərini söylədi. O vaxtlar bu sözləri Səlim də eşitmişdi. Amma belə bir həddə gəlib çıxacağını ağlına gətirməmişdi. Gözünün önünə öz qızları gəldi. Tükləri biz- biz durdu. Xəyalında o illərə qayıtdı. Lap körpəliklərinə birinci sinifdə bir partada otururdular. Birinci partada Leyla adlı bir qız otururdu. Hər ikisi onu sevdiyini deyib birlikdə qızın ətrafında fırlanır, dərsdən sonra birlikdə gedib evlərinin qarşısında dayanırdılar. Sonralar buna gözlərindən yaş gələnə qədər gülürdülər. Çingizlə bağlı xatirələri dü-

şünməyə aylarla vaxt lazım idi. Amma Səlim bunlardan bir neçəsini heç vaxt unuda bilməzdi. İnstituta yeni qəbul olmuşdular. Səlim Asudəni görüb bir könüldən min könülə aşiq olmuşdu. Bunu Çingizə bir neçə gün idi ki, söyləmişdi. Bir gün Asudənin böyük qardaşı , mən rayona gedirəm , -deyib, Səlimdən sabah gecə növbəsində oxuyan bacılarını evə ötürməyi xahiş etdi. Vaqif az qala yalvarıb , sənə etibar edirəm ,Sovetski çox pis yerdir, -dedi .Qız uşaqları o məhəlləni tək keçə bilməzlər. Səlim sevincindən səhərə qədər yata bilmədi. Çingizin axşamdan ütüləyib hazırladığı şalvar ını ,köynəyini geyinib həvəslə axşamın düşməyini gözlədi. Qızların dərsdən çıxmağına az qala bir saat qalmış institutun həyətinə getdi. Bitib qurtarmayan bir saatı gözləyib, qızlarla birlikdə Kommunist küçəsinə doğru irəlilədi. Yolun az bir hissəsini səssiz keçdilər . Sonra Asudənin böyük bacısı, Azadə Səlimə bir neçə sual verdi. Azadə Səlimdən ən azı dörd – beş yaş böyük idi. Sonuncu kursda oxuduğu üçün özünü sərbəst hiss edirdi. Asudə danışmasa da Səlimə xoş idi. Bu yolun bitib qurtarmasını istəmədən irəliləyirdi. Birdən o qızların nədənsə narahat olduğunu hiss etdi. Elə bu vaxt gözü yolun kənarında dayanmış üç oğlanı gördü. Onların qəribə görkəmlərini, cıxartdıqları vəhşi səsləri eşidəndə , Səlimin əti ürpəşdi. Onların arasında daha kobud , nataraz olanı bir az qabağa gəlib , qəribə bir ləhcə ilə dedi:

Əə qaqaş, bu maralları qorumağı niyə keçiyə tapşırıblar, axı bu keçinin işi deyil? O, biri oğlanlar qorxunc

bir səslə qəhqəhə çəkdilər. Onlardan cılız da olsa ən eybəcəri əlindəki təsbehi şaqqıltı ilə fırladıb , dedi:

Ala qaqa, keçiyə yox e, nə keçi bundan keçi olar bu ki çəpişdir?

Səlimin damarında qan dondu. Başından su damcılayırdı. O , bilirdi ki, tək başına bu üç nəfər vəhşi ilə bacara bilməyəcək. O, özünü sındırmamağa çalışdı. Azadə dodağının altında Səlim , fikir vermə, -dedi. Qoy rədd olsunlar. Səlim özünü doğrudan çəpişə bənzətdi , amma ölmək ölməkdir, xırıldamaq nə deməkdir, deyə düşünüb üzünü oğlanlara tərəf çevirib, bir iki addım onlara tərəf atmışdı ki, qarşısında Çingizi gördü. Çingiz başı ilə sən qızları ötür deyib, sinəsini oğlanların qabağına verdi. O, keçi olmağına keçi deyil, amma sən əsl tulasan,- dedi. Yekəpər ayağa durub Çingizə tərəf gəldi. Əllərini bir - birinə sürtüb sən öl bundan lap xoşum gəldi dediyini Səlim eşidirdi. Bundan başqa da bir iki söz də eşitdi. Sonra nə baş verdiyini bilməsə də canı Çingizin yanında qaldı. Qızlar evə çatdığını deyən kimi Səlim qaça -qaça geri dönüb özünü Çingizə çatdırdı. Amma onun yanına çatanda artıq orada başqa heç kim yox idi. Çingiz, qalxıb toza torpağa bələnmiş paltarını çırpırdı. Onu görən Səlimin hirsindən bədəni titrədi, vurub ,ağzını burnunu dağıtmışdılar. Burnundan axan qan ,ağ köynəyinin sinəsinə tökülüb qıpqırmızı etmişdi. Səlim özünü Çingizin üstünə salıb deyinməyə başladı. Yaxınlıqdan keçən bir taksini saxladıb , oradan uzaqlaşdılar. O gecə Çingiz bədənin ağrısından, Səlim xəcalətindən yata bilmə-

di. Sonralar Səlim hər dəfə Çingizə minnətdarlıq edib, mənə görə özünü döydürdün deyəndə, Çingiz zarafatla sənə görə deyil, təzə şalvar , köynəyimə görə deyib gülürdü. Nə edim olan təzə paltarımı geyinmişdin. Qorxdum ki, səni çırpıb , paltarımı cıracaqlar. Səlim yaxşı bilirdi ki, Çingiz paltar zad vecinə alan deyil, Asudənin yanında Səlimin biabır olmağını istəmədiyi üçün belə etmişdi. Səlim bu günlərdə Çingizin başqa işlərini də xatırladı. Demək olar ki, hər dəfə bir şey yada salıb o günlərə yenidən qayıtdı. Kimi itirdiyini sanki indi anladı. Çingiz sədaqət , dostluq, rəmzi idi. Səlim neçə bu illər ərzində onun qızından xəbər tutmamışdı. Bunu ağlına sığışdıra bilmirdi. Əgər mən ölsəydim o, heç vaxt məni kimi olmazdı deyə düşünüb, özünə nifrət edirdi. Səlim Çingizlə bağlı olan xatirələrini evdə danışıb ,onun qızına yardım edəçəm ,- dedi. O , bazar ertəsi işə çatan kimi Telmanı çağırıb işə aid bir neçə tapşırıq verəndən sonra, Çingizin qızını soruşdu. Dalbadal bir neçə sual verdi. Yağış kimi yağmış suallara Telman səbirlə bir- bir cavab verdi. Məktəbi bu il bitirir, -dedi Əlaçıdır , həkim olmaq arzusundadır. Amma mənim o boyda pulum nə gəzir? Özün bilirsən ki, indi pulsuz oxumaq yoxdur. Deyirəm gəl burada rayonumuzda səni texnikoma qoyum oxu. Yaxın qoymur tutdurub ki, mən həkim olacam. Səlim Telmanın sözünü ağzında qoyub, əgər əlaçıdırsa , qoy bir özünü sınasın ,- dedi. Telman Nüşabənin sözlərini xatırlayıb , uzun bir aradan sonra, ay kişi , artıq , yalançı

xərcdir, --dedi. Səlim düşünmədən kəskin şəkildə Asudə ilə Vüqar Güneli aparıb gedirlər , hazırla uşağı onlarla gedib bizdə qalsın , imtahanını versin,- dedi .Qoy uşaq biliyini sınasın. Öz biliyinə də keçənlər olur. Telman nə qədər mızıldanıb keçə bilməyəçək , heç müəllim yanına , hazırlığa zada da getməyib , desə də Səlimin sözündən çıxmağa utandı.

Səlim gəlib evdə Afət sizinlə gedib bizim evdə qalacaq deyəndə, Vüqar çox sevindi. Allahdan bu qıza uğur dilədi. Atası Afəti ona bərk – bərk tapşırıb, ona da bacın kimi yardım et deyəndə, böyük canfəşanlıqla ürəkdən razı oldu Nə olur olsun , üzündən məsumluq yağan , qara gözlü qıza yardım etmək istəyirdi. Onu narahat edən anası idi Anasının Afəti evinə qəbul edəçəyinə inanmırdı. Çünki Asudə nə qədər xoş xasiyyətli qadın olsa da o qızlarının tərbiyəsində çox ciddi idi. Günellə , Aysel kimlə dostluq etsə mütləq Asudə həmin qızla tanış olur, onun hər halına bələd olandan sonra qızlarına yaxın buraxırdı. . Sonra da demək olar ki, bir neçə gün onların nə mövzuda söhbət etdiklərini izləyirdi. Azacıq şübhələnib xoşu gəlməyən bir şey olsa qızlarını , həmin qızdan ayırırdı. Lakin Asudə xanım Afətin haqqında esidən kimi onun tanımadan görmədən bir başa evlərinin içinə girməsinə razı olmuşdu. Belə bir qız olduğunu eşidən kimi şad olub demişdi ki, lap yaxşı qoy gəlsin yaxşı qız olsa elə Günellə bir yerdə bizim evdə qalar. Aysel oxumağa gələnə qədər , Günel də tək qalmaz. Amma bu bir aya yaxın bir vaxtda isə Afət onların ailə üzvünə çevril-

mişdi. Hər kəs onun qayğısını çəkir , qəbul olmağını arzulayırdı. Asudə Afətə görə Günelin qəbul olmağına sevindiyini bildirmək istəmirdi. Qıza yazığı gəlirdi.

Vüqar institutun həyətinə çatanda , hava qızmışdı. Adam əlindən tərpənmək mümkün deyildi, iynə atsan yerə düşməzdi. O,Afətgilin imtahanlarının cavabı yazılan siyahını tapıb qarşısında dayandı. Gözü siyahıya ilişəndə donub yerində qaldı , gözünə inanmadı . Arxada dayanan oğlan ay, qardaş nə oldu? oxu qurtar də deməsə beləcə don vurmuş kimi qalacaqdı. O, siyahının qabağından çəkilib , yaylığını çıxarıb tərini sildi. Siyahıda birinci ad Afətin adı idi . Abbasova Afət Çingiz qızlı yaxşı qiymət almışdı. Axı Afət iki səhvi olduğunu özü söyləyirdi. Qiymət alacağına heç bir ümidi yox idi.

Vüqar bu şad xəbəri Afətə catdırmazdan əvvəl dekanatlığa gedib , müsabiqə olub olmadığını bilmək istədi. Dekanatlıqdan bu qədər sevincdən sonra çox məyus çıxdı . Orada yüksək müsabiqə olacağını öyrəndi. Yüksək bal toplayan tələbə çox idi. Vüqar bu xəbərdən məyus olsa da , yenə də ümid yeri var, –deyə düşünüb özünü sakitləşdirdi.

Vüqar bayaqkı həvəslə olmasa da evə sevinə - sevinə döndü. Afətə yaxşı qiymət aldığını söyləyib, yüksək bal toplayan çox olduğunun, böyük müsabiqə gözlənildiyini demədi.

Afətə görə zaman dayanmışdı bu iki üç gün ötüb keçmək bilmirdi. Bu günlərdə qızın boğazından bir qismət yemək keçmədi ,sanki boğazı tikilmişdi. Yeməyi

ağzına alırdı , amma uda bilirdi. Qəribə burası idi ki, bu istidə su da içə bilmirdi. Gecələri isə ilan vuran yatırdı Afətin gözünə yuxu getmirdi. Halbuki , düşünürdü ki, imtahanları bitirəndə ölü kimi yatacam. İndi isə ölü kimi gəzirdi.

Günel qəbul kağızını almışdı. Uçmağa qanadı yox idi. Asudə son qüvvəsini toplayıb özünü zorla saxlayırdı. Sadəcə qızının sevincinə şərik olmaq üçün ayaqda dururdu. Əslində ürəyi çox ağrıyırdı. Sifəti şişmişdi , göz qapaqlarını qaldıra bilmirdi. Ayaqları kötüyə dönmüşdü. Vüqar anasının bu halını görüb, ana daha biz bir başa Türkiyəyə gedək , -dedi. Qızları rayona dayım aparar.. Asudə nəfəsi kəsilə -kəsilə atanla məsləhətləş ,- dedi.

Vüqar Səlimlə danışıb anasını həkimə aparmağa hazırlaşdı. Afətin də qəbulu haqqında məlumatı sabah bilinəcəkdi.Daha hə ,ya da yox , hər nə isə öyrənib rayona gedə bilərdilər.

Ertəsi gün Vüqar anasına görə çox kefsiz olsa da Afətlə getdi. Anasının əməliyyatı gecikdirmiş olduğundan qorxurdu. Həkim ona demişdi ki, təcili əməliyyat olmalıdır. Asudə isə israrla Günelin imtahanları başa çatandan sonra gedərik demişdi.

İnstitutda çox gözləməli olmadılar. Qəbul olanların siyahısına baxmaq əvəzinə müsabiqədən keçə bilməyənlərin siyahısına baxdılar .Bu siyahıda Afətin adı yox idi. Qəbul olanların arasında isə yenə də onun adı birinci yerdə yazılmışdı. Adını qəbul olanların arasında oxuyan Afətin bədənindən qəribə bir xoş gizilti

keçdi. Bədəni boşalıb ətə döndü. Özünü ayaq üstə zorla saxladı . Bəlkə də hələ bu günə qədər belə bir halla qarşılaşmamışdı. Ürəyi çırpınırdı. Qız sual dolu gözünü Vüqarın üzünə dikdi. Vüqar gözünə inana bilmirdi. Afəti təbrik etməyi də unutmuşdu. Özünü ələ alıb gülümsündü. Təbrik edirəm, - dedi.

Yol boyu Afət Vüqara demək istədiklərini söyləyə bilmədi .Vüqara dua edirdi , dönə - dönə sağ ol deyirdi. Minnətdarlıq edirdi. Hər şeyə görə maddi və mənəvi dayaq olduqlarına görə , səmimiyyətlərinə görə, gözəl insan olduqlarına görə . Lakin ağzını açа bilmirdi . Sözlərin hamısı boğazında tıxanıb orada onu boğurdu. Nəhayət boğulduğuna görə gözündən yaş axmağa başladı. Yaş leysan kimi axırdı sanki böyük bir su anbarının bəndi qopmuşdu.

Əslində Afət çox nadir hallarda ağlayırdı. Indi isə özü ilə bacara bilmirdi. Vüqar onun üzünə baxıb gülümsəyir sakit ol , ağlama demirdi. Evə çatan kimi Afət yolda Vüqara demək istədiyi sözlərin hamısını Asudə xanıma - dedi. Onu qucaqlayıb bərk-bərk öpdü. Asudə xanım Vüqar , Günel hamısı bir ağızdan onu təbrik edib bu sənin öz zəhmətinin bəhrəsidir, -dedilər . Bizə niyə təşəkkür edirsən. Afətin Instituta qəbul olmağına inana bilmirdilər. Göz qabağında Səlim, Günel üçün Fərhad müəllimə bir torba pul vermişdi. Lakin Afətin instituta qəbul olduğuna görə həqiqətən çox şad oldular. Asudə xanım, Afət qəbul olsa sizi gəzməyə aparaçam demişdi. Xəstəlik sözünün üstündə

durmağa aman vermədi. Tələsik yığışıb Vüqarla Türkiyəyə getdi.

Asudə xanımgili hava limanına qardaşı Veysəl apardı . Qapıdan çıxanda qızlar hazırlaşın bunları yola salıb rayona qayıdaçam, -dedi. Hələ dərslərin başlamağına xeyli vaxt var idi. Burada onların bir işi yox idi. Əslində Afət dərs başlayanda harada qalacağını bilmirdi . Eşitmişdi ki, institutun yataqxanası var. Ora gedib yazılmaq qeydiyyata düşmək lazım idi. Sonra gec olacağını bilirdi. Lakin Afət heç yeri tanımırdı. O , bu barədə Vüqarla danışmaq istəsə də üzü gəlməmişdi. Çünki, Asudə xanımın halı pis olandan bəri Vüqarın gözü anasından başqa heç nə görmürdü. Vüqar anasını götürüb getdi, Güneli də dayısı rayona aparırdı. Ona görə məcbur olub o da rayona getməyə hazırlaşdı. Veysəl qayıdana kimi evi səliqəyə salıb, çantalarını götürüb gözlədilər .Onlar yola düşəndə arıq günortadan ötürdü. Ağsunun aşırımına çatanda Veysəl maşını saxlayıb, qızlar deyəsən sizi instituta qəbul olmağınız münasibəti ilə ilk təbrik etmək mənə nəsib olub, -dedi. Afət bir şey başa düşmədiyi üçün Günelin üzünə boylandı. Günel isə sıçrayıb maşından düşüb qıza düş , - dedi. Maşından düşən kimi onları kababın ləzzətli ətri və qaynanmış samovarın xoş iyi vurdu. Bu müddət ərzində Afət birinci dəfə acdığını hiss etdi. Veysəl qızları bir az kənarda qoyulmuş masanın ətrafında oturdub, özü tüstü qalxan kiçik tikiliyə yaxınlaşdı. Heç aradan on dəqiqə keçməmiş gənc bir oğlan süfrəni bəzəməyə başladı. .

Veysəl dayı həm zahiri görünüşə, görə, həm də xasiyyətcə Asudə xanıma oxşayırdı. Əlinə keçəni qızların boşqabına yığıb yeyin, - deyirdi. Hər ikisini təbrik edir, təriflər yağdırırdı. Yeyəndən sonra çay da içdilər. Afətin birinci dəfə gördüyü bu aşırımdan xoşu gəlirdi, hər yan çox gözəl idi. Nəfəs kəsilən isti yay günüdə bura cənnət kimi sərin idi. Nədənsə hər şey Afətin gözündə gözəl görünürdü. Oturduqları yerdən qarşıya baxanda göz önündə füsunkar bir gözəllik görünürdü. Dərədən asta - asta yuxarıya qalxan dumanın arasında dairə vuran qartal dumanın içində gah görünür , gah da itirdi. Ona elə gəlirdi əlini uzatsa topa –topa yığılmış buludlara toxuna bilər. Əslində sadəcə cikkildəşən quşların səsi ona musiqi qədər xoş gəlirdi. Bütün bu münasibətə görə, yeməyə görə, buradakı ruh dincəldən abu havaya görə Veysəl dayıya təşəkkür etmək istəyirdi, amma üzü gəlmirdi.

Dayısıgilə çatanda hava qaralmışdı. Veysəl , dayısıgilin evinin yerini soruşmadan maşını onların darvazasının qabağında saxladı. Afət maşından düşməzdən əvvəl Güneli bərk - bərk qucaqlayıb, Asudə xanıma şəfa dilədi. Hər ikisinin gözü yaşla doldu. O , qapıdan içəri keçib sağında , solunda olan məhlələrin hər ikisinə tərəf boylandı. Bilmirdi sağa getsin , ya sola . Nənəsi -babası öləndən sonra demək olar ki, bu halı hər gün yaşayırdı. Yenə də ortalıqda donub qalmışdı. Bir az düşünüb bu iki evin heç birinə məxsus olmasa da , çarpayısı Telmangildə olduğu üçün onlara tərəf getdi. Afət əslində gözlədiyi kimi soyuq qarşılanmadı.

Dayıları , qızları hətta arvadları onu çox böyük hərarətlə qarşıladılar. Nüşabə tam səmimiyyətlə sevindiyini söylədi. Hərə bir tərəfdən sualı -sual dalınca yağdırırdı. Aybəniz Afətin komissiya ilə qiymət almağından danışanda , qız mat qaldı. Bunu haradan bilirsiniz ? -dedi. Gülbəniz bunu bütün rayon bilir, -dedi .Telman , Səlim müəllim hər gün səhər tapşırığından sonra səndən danışırdı,- dedi. Afət dayısı danışanda , onun sevindiyini və qürur duyduğunu hiss edib , şad oldu.

O gecə Afət daş kimi yatdı. Bəlkə neçə il idi ki, belə dərin yuxuya getməmişdi. Oyananda gün günorta idi. Gözünü açanda bir an harada olduğunu , nə baş verdiyini yadına sala bilmədi. Sonra yavaş – yavaş hər şeyi xatırlayıb , içərisinə fərəh doldu. Xoşbəxtcəsinə gülümsündü. İllərdən bəri çəkdiyi zəhmətin bəhrəsini qazanmışdı. Öz əzmi ilə , biliyi ilə ona söz deyənlərə qalıb gəlmişdi. Demək olar ki, Nüşabənin hər gün dediyi sözləri xatırladı. Afət özünü Zaura tay edib, instituta girəcəyinə inanır? Onun bu boş - boş xəyallarına özü inana bilər. Havayı yerə vaxtınızı , pulunuzu sərf edib, Bakıya getməyin. Nüşabə bu sözləri gündə bir neçə dəfə təkrara edirdi. Allah elə yol açdı ki, heç kim Afətə nə vaxt sərf etmədi , nə də ki, pul. Onun çantasında apardığı pul da , voqzalda Elman dayısı verən pul da yerində idi. Qəpiyinə belə əl vurmadan gedib , qəbul olub geri dönmüşdü. Afət yenə də çantasındakı pulu xatırladı. Onu kim verdiyini araşdırmaq istədi . Sonra ağlına yalnız Telman dayısı gəldi.

Qızlarda yüz manat pul ola bilməzdi. Nüşabə də ona pul verməzdi. Bakıda bu barədə düşünməyə vaxtı yox idi. İndi isə tam əminliklə pulu Telman dayısı qoyduğunu düşündü. Yataqdan qalxıb paltarını geyinib aşağı düşdü. Kimsə gözə dəymirdi. Sağa -sola boylanıb qızları səslədi , səs -səmir eşitməyib, otaqların qapısını bir -bir açıb örtdü. Heç kim yox idi. Afət mətbəxə keçib çaydanı qazın üstünə qoydu. Çayını içib səhər yeməyini yeyəndən sonra , Elman dayısıgilə keçmək istədi. Arada olan kiçik qapı bağlı idi. Daha doğrusu dəmir rəzəsi çöl tərəfdən bağlanmışdı . Demək içəridə kimsə yox idi. Qız donub yerində qaldı . Ürəyinə şübhələr doldu , görəsən nə olub ?deyə düşündü. Bunlar hara gediblər , özü də ailəliklə. Qayıdıb Telmangilə gəldi. Yenicə divanda oturmuşdu ki, Telman içəri girdi. Afət təşvişlə nə olduğunu soruşdu. Telman çiyninə çəkib heç nə olmayıb , - dedi. Bəs bu evin adamları hanı ? - deyə soruşdu. Telman Nüşabə qızları götürüb, qardaşı ilə Gəncəyə alış verişə getdiyini, Tünzalənin isə bacısının bu günlərdə toyu olacağını söylədi. Afət maraqla Nərgizin ? -dedi. Telman dərhal hə Nərgizin deyib otağına uzanmağa keçdi. Telman bu gün özünü pis hiss edirdi. Qız dayısının solğun rənginə baxıb onun yanına keçib dayı, sənə bir şey lazımdırmı ?- deyə sual verdi. Telman narahat olma , bir az uzanıb işə qayıdacam - dedi . Afət qapının ağzında bir az duruxub, dayı, Bakıya gedəndə mənim çantama pulu sən qoymuşdun ?- dedi. Telman hə , deyib adyalı üstünə çəkdi. Qızın ürəyi sakitləşdi ehmalca

qapını çəkib örtdü. Afətin belə bir gündə onu tək qoyub getmələri xətrinə dəydi. O , sevincini bölüşmək üçün ətrafında kimsəni tapa bilmədi. Axşam yorğun idi , bu gün həvəslə keçirdiyi həyəcandan , qəbul olanların arasında adını görəndə yaşadığı şokdan danışmaq istəyirdi. Məyus oldu. Bir az həyəti gəzəndən sonra , Nərgizi xatırlayıb , onun toyu olduğuna təəccüb etdi. Nərgizin Seymurdan sonra kiminlə isə ailə quracağını ağlına belə gətirmirdi. Dodağının altında xoşbəxt olsun deyib mızıldandı.

Nərgizin dillərə dastan olan nakam bir məhəbbət hekayəsi var idi. Seymur adlı bir oğlanla bir - birini ülvi bir məhəbbətlə sevirdilər . Qəribə burası idi ki, Nərgiz orta məktəbdə oxumağına baxmayaraq , sevgisini heç kəsdən gizlətmirdi. Valideynləri , qohum , qonşular hər kəs onların məhəbbətinə hörmətlə yanaşırdı . Nərgiz orta məktəbi bitirən kimi Seymurun ailəsi təntənəli bir nişan mərasimi keçirdilər. Sanki bu Seymurun son toy payı olduğunu qabaqcadan duymuşdular. Mərasim gecə saatlarına qədər davam etmişdi. Hər iki tərəfin adamları yorulub əldən düşənə qədər oynamışdı. Nişanın musiqisinin səsi qulaqlardan çəkilməmiş əsgərlikdən cəsədi gələn Seymurun, yas mərasimindən asimana qalxan dəhşətli ah nalə hər kəsin damarında qanı dondururdu. Əfqanıstanda gedən döyüşlərdə həlak olan Seymuru ölümündən sonra, medalla təltif etmişdilər. Dəfn mərasimini hökumət çox təntənəli keçirdi. Moskvadan böyük bir orkestr dəstəsi, və hərbiçi dəstə gəlmişdi. Seymuru Atəşin sə-

dalar altında dəfn etdilər. Anasının istəyini qəbul edib , tabutu açmağa icazə vermədilər. Göz qabağında dəhşətli tük ürpədən bir hadisə baş verdi. Bu mərasim başa çatana qədər Nərgizin sil qara sacları qar kimi ağappaq olmuşdu . Qızı görən hər kəsi dəhşət bürümüşdü.Onun sacının belə ağarması hər kəsi təəccübləndirib, kədərləndirmişdi.

Nərgiz Seymurun yoxluğunu çox çətin qəbul etdi , aylarla illərlə özünə gələ bilmədi. Demək olar ki, özünə qapandı, aylarla evdən bayıra çıxmağı. Heç nəyə qulaq asmadı, gözü heç kəsi görmədi. Ən yaxın adamının sevincinə qoşulub , kədərinə kədərlənmədi. Onun bu halı valideynlərini, bacı qardaşını narahat edirdi. Ona yardım etməyə , bu vəziyyətdən çıxarmağa çalışsalar da heç nəyə nail ola bilmirdilər. Bir neçə il bundan əvvəl rayona Seymurun sağ olmağı haqqında şayiə yayıldı. Guya amerikalı jurnalist bir qız hansı yollarla isə onu əsirlikdən xilas edib öz ölkəsinə keçirib. Hal hazırda isə onunla ailə qurub xoşbəxt bir həyat yaşayırlar. Hətta xarici bir jurnalda guya şəklini də görən olub. O jurnal Tünzaləgilində əlinə keçmişdi. Düzdür Afət Tünzalənin qızları ilə o şəklə nə qədər baxsalar da Seymura oxşada bilməmişdilər . Çünki həmin oğlan uzun saçlı və saqqallı idi. Bu xəbər düz idi ya yalan onu bilən yox idi, amma bu xəbərdən Nərgiz bir az dirçəlməyə başladı. Qız Seymurun qayıdaçağınamı ümid edirdi, yoxsa ona açığımı tuturdu?- məlum deyildi . Məlum olan o idi ki, Nərgiz günbəgün özünə gəlirdi.

Afət onu axırıncı dəfə altı ay bundan əvvəl görmüşdü. Sacları ağappaq , özü də uzun müddət xəstə yatmış birinə bənzəyirdi. İndi onun toyu olacağına yenə də inana bilmirdi. Hər halda onun həmişə Nərgizə yazığı gəlirdi. Ona görə bu xəbər onu ürəkdən sevindirdi. Tünzaləgilin getmək səbəbini üzrlü hesab edib onlardan inciməyi ürəyindən çıxartdı.

Aradan bir az keçmiş Nüşabəgil gəldi. Onlar alış veriş edib, məktəb ləvazimatı, Nərgizin toyunda geyinmək üçün paltar , ayaqqabı almışdılar. Nüşabə çantaların birindən bir kofta çıxardıb, Afətə uzadıb , bu da sənin hədiyyəndir, - dedi. Afət koftanı alıb təşəkkür etdi. Amma sevinmək əvəzinə qəlbinə kədər çökdü. Dərslər başlayırdı, onun geyinməyə heç nəyi yox idi. Axır vaxtlar təzə heç nə almamışdı. Bir də ki, artıq institut tələbəsi idi . Məktəbdə oxuyanda geyindiyi paltarları neçə geyinəcəkdi? Afət kədərlənmək istəmirdi .Daha doğrusu içini sevinc tutmuşdu, orada kədərə yer yox idi. Odur ki, bu fikrin üstündən vaz keçdi. Əsas o idi ki, o hər kəsin sözünü ağzında qoyub , alı məktəbə qəbul olmuşdu, lap nimdaş paltarlarla da oxuyaram deyə düşündü.

Şər qarışanda Nanə ilə Jalə də gəldi. Tünzalə qayıtmamışdı . O, gecə də atası evində qalacaqdı. Toya çəmi iki üç gün qalmışdı. Bu iş çəmi bir ayın işində reallaşmışdı birdən birə Nərgiz daşı ətəyindən töküb razılıq vermişdi. Ona görə qız fikrindən dönməmiş tez toy etməyə çalışırdılar. Tünzalə də valideynlərinə kömək edib bu işi başa çatdırmağa can atırdı . Evə toydan

bir gün əvvəl gəlib,toyuq cücəsini rahatlayandan sonra, Elmanın , qızların toya geyinəcəyi paltarı nəzərdən keçirdi. Sonra Afəti çağırıb, Nüşabə aldığı koftaya gətir baxım dedi. Afət koftanı gətirib Tünzaləyə uzatdı . Onun koftanı nə məqsədlə istəməyini aydınlaşdırmağa çalışırdı. Tünzalə Afətdən koftadan xoşu gəlib gəlmədiyini soruşdu. Qız başı ilə yaxşıdır dedi.

Tünzalə koftanı əlinə alıb evdən çıxdı. Aradan heç yarım saat keçməmiş geri döndü. O , koftaya yaraşan bir yubka almışdı. Onları tələsik Afətə verib sən də bunları geyinərsən - deyib, az qala qaça - qaça getdi.

Afət gündə bir neçə dəfə Günel ilə danışıb, Asudə xanımı soruşurdu. Onun əməliyyatı uğurlu keçsə də, sonra şəkərə görə fəsadlar yaranmışdı. Həkimlər əlindən gələn yardımı edirdilər .Asudə xanımın tezliklə sağ salamat qayıdacağına söz verirdilər. Nüşabə gündə bir neçə dəfə Asudə xanıma , Vüqara, Günelə aid suallar verir, orada Afətlə necə davranmaqları , nə yeyib içdikləri nə danışmaqları ilə maraqlanaırdı. Afət isə onlardan yerdən göyə qədər razı olduğunu söyləyir, ömrü boyu ona etdikləri hörməti unutmayacağını deyirdi.

Nədənsə bu söhbətlər Nüşabəni narahat edirdi. Qanı qaralıb fikrə gedirdi. Afət bunun səbəbini anlamırdı. Bu qədər razılıq edirdi. , nə danışır danışsın, Nüşabənin qanı qaralırdı. Növbəti sorğu sualdan sonra Nüşabə yığcam bir sovqat hazırlayıb, Afətə verdi. Anası burada yoxdur get Günelə baş çək, -dedi. Afət elə bu günlərdə Günelin yanına getmək haqqında düşü-

nürdü, odur ki, Nüşabənin təklifi ürəyindən xəbər verdi. Günel də onu dəvət edirdi. Qız yerindən durub paltarını dəyişib geri dönəndə təzə paltar geyinib qapının ağzında dayanmış Aybənizi görüb təəccüb etdi. Bir an dayanıb, sən hara gedirsən? -dedi. Onun sualına Nüşabə cavab verdi . Sənin gedir də tək gedəcəksən?

Afət bir az duruxub ,gedək, -dedi . Sadəcə sənin də mənimlə gəlməağlıma gəlmədi.

Günelgilin evləri çox da uzaqda deyildi. Çəmi on dəqiqədən sonra darvazanın ağzında dayanmışdılar. Günel onları çox səmimi qarşıladı. Aysel də Afəti görən kimi ,Günel səndən o qədər danışıb ki, mən artıq səni tanıyıram, -dedi. Afət Aybənizi təqdim edib , dayısı qızı olduğunu söylədi. Afət Asudə xanımı soruşub hal- əhval tutandan sonra əlindəki bağlamanı qızlara verdi. Demək olar ki, şər qarışana qədər oturub qayıtdılar. Afət Aybənizin onunla gəlməyindən razı qaldı. Çünki bu günki gündən hər kəs razı qalmışdı. Afət evə dönəndə Asudə xanım gələndə yenə gələçəm,- dedi .

Qızlar evə çatan kimi Nüşabə onları suala tutdu. Ev necə idi? məhəllə necə idi? içərisində nə var idi ?. Aybənizin cavabına isə təəccüb etdi. Qız sanki, rəssam imiş evin şəklini çəkməyə görə gedibmiş. O, evi , məhlənin evdəki mebelləri , qabları təsvir etdikcə Nüşabənin üzündə qəribə bir ifadə yaranır, gözlərində parıltı əmələ gəlirdi. Amma hər halda Afət onun bu halından bir şey anlamadı.

Toy günü Afət yuxudan oyananda, evdə hamı toya hazırlaşırdı. O, yerindən durub pəncərədən baxanda Elmangilin evindən artıq səs səmir gəlmirdi. Onlar tezdən durub getmişdilər. Bu günə qədər Afət Zaurun da xalasının toyuna gələcəyini düşünürdü. Amma ondan səs -soraq yox idi. Bu il Zaurun axırıncı ili idi. Artıq təhsilini başa vurub gəlməli idi . Dünən Telman demişdi ki, Zaur təhsilini davam etdirmək istəyir ,ona görə bu yay gələ bilməyib imtahanlara hazırlaşır.

Nüşabəgil qədər canfəşanlıqla olmasa da Afət də toya hazırlaşmağa başladı. Onsuz da hazırlaşmaq üçün onun seçimi yox idi. Nüşabə aldığı koftanı ,Tünzalə aldığı yubkanı geyinib sacına əl gəzdirdi. Ənlik kirşanı yox idi. Olsa da Afət ondan istifadə etmirdi. Hazırlaşıb Nüşabə ilə qızların geyinib qurtarmağını gözləyirdi. Onların isə arasına sanki , çaxnaşma düşmüşdü. Bir sözlə özlərinə əl qatmışdılar. Gah paltarlarını bəyənmirdilər , gah saclarını. Aybənizi Nüşabə daha çox sevib əzizləyirdi . Bu onun ilk övlad olduğundanmı irəli gəlirdi, yoxsa qızın həm zahiri görkəmi ilə , həm daxili xarakterinə görə Nüşabəyə bənzəməyindənmi bilən yox idi. Sadəcə görünən o idi ki, bu qadının fikri Aybənizin geyimində , sacında ,yeməyində görünüşündə qalır. Yenə Gülbəniz tərəfə baxmadan Aybənizin dörd bir yanında fırlanıb , gah paltarını, gah saçını düzəldirdi. Gülbəniz onlara bənzəməsə də atasına da bənzəmirdi. Adama yovuşmaz, sakit təbiətli, zərif bir qız idi.
Afətin gözləməkdən hövsələsi daraldı. Gülbəniz də

bir azdan gəlib Afətin yanında oturub ,anasıgili gözləməyə başladı. Nəhayət bu iki ana- bala da hazırlığını başa çatdıra bildi.

Toy evinə çatanda Nüşabə həyətdə qurulmuş çadırın içinə , qızlar isə içəri Nərgizin yanına keçdilər. Nərgizi görəndə isə üçü də şoka düşdü. Dönüb təəccüblə birbirinin üzünə , sonra isə otaqdakı adamlara baxdılar. Hər kəsin sifətində təəccüb qarışıq bir kədər duyulurdu. Nərgizin ağappaq saclarının üstünə qoyulmuş fata ona qəribə görkəm verirdi. Ənlik kirşansız kədərli sifətindən bir cüt ifadəsi donmuş göz baxırdı. Baxırdı, amma hara? Onun dərinliyində nisgil olan gözləri heç kimin üzünə baxmırdı ,uzaqlara baxıb kiminsə qapıdan girəcəyini gözləyirdi.

Bayaqdan həvəslə bəzənib toya hazırlaşan qızların qanı qaralıb məyuslaşdı. Oradakı qızların söhbətindən məlum oldu ki, heç vaxt ailə qurmayacağına söz verən Nərgiz Seymurun sağ olduğunu, ingilis jurnalistlə Amerikaya keçib ailə qurduğunu eşidəndə, hələ orta məktəbdən onu sevən , dəfələrlə elçi göndərib ailə qurmaq istəyən oğlana razılıq verib. Əslində o , söz verməklə bunu Seymura çatdırmaq istəyirmiş . Bu xəbəri eşidib qayıdacağını düşünürmüş . Lakin başa düşəndə ki, əgər belə bir şey olsa da , bu xəbər Seymura tezliklə çata bilməz, çatsa da o , bir daha geri dönə bilməz. Nərgiz Seymuru daha bu hökümətin də qəbul etməyəçəyini eşidib ,ondan birdəfəlik əlini üzsə də, toydan imtina etmişdi. Anasının göz yaşından, yalvar yaxarından sonra toya razı oldu. Amma saçlarımı

boyamayacam , -dedi. Saçların boyanması uzun mübahisəyə , sözə səbəb olduğunu eşidən oğlanın məcbur etməyin deməsi Nərgizin xoşuna gəlmişdi. Bundan sonra onun ürəyində bəyə qarşı azacıq hörmət hissi oyanmışdı. Və bu hörmətə rəğmən səsini çıxarmırdı, amma evdəkilərin əli ürəyinin üstündə idi. Onun durumundan , görkəmindən ,ağılları bir şey kəsmirdi. Hər kəs lap toy günü də olsa , Nərgizin toydan imtina edəçəyini gözləyirdi.

Artıq bir neçə saat idi ki, toy mərasimi başlamışdı. Çadırın altı qonaqla dolmuşdu. Musiqiçilər ifaya başlayanda Nərgizin tükləri biz -biz durdu. Rəngi kətan kimi ağarıb , dodağında qan qalmadı. Gözlərində halqalanan yaş birdənbirə bəndini qırmış çay kimi ,bitib tükənmədən yanağı uzunu axmağa başladı. Ətrafdakılar təşvişə düşsə də səsini çıxardıb bir söz deyən olmadı . Otağa ölü sükut çökmüşdü. Bayırdan musiqi səsi gəlirdi. Afət pəncərədən cələ baxıb, oynayanları gördü. Dönüb qorxa - qorxa Nərgizin üzünə baxdı. Onun gözündən yaş axırdı. Heç kimi görmür və duymurdu. O ,neçə il bundan əvvəl ölüm xəbəri çıxan , yas mərasimi olub , dəfn olunan Seymuru bu gün dəfn edirdi. İndiyə qədər Seymur onun üçün sağ idi. Onun xatirəsi ilə yaşayıb, ölməyə hazır idi. Lakin onun sağ olmaq xəbəri , hətta kiminlə isə ailə qurmağı, Nərgizin ürəyindəki Seymuru öldürdü. Halbuki Seymur onun üçün heç vaxt ölə bilməzdi. Qız düşünürdü ki, Nərgizin toy xəbərini eşidən Seymur , nə olur olsun qayıdıb gələçək. Əgər gələ bilməsə qıza xəbər verib

qayıdacağını vəd edəcək. Seymur gəlmədi, xəbər də göndərmədi. Artıq Nərgizin toyunun səsi asmana qalxıb , o , bunu da eşitmirsə demək ölüb. Nərgiz üçün bu gün onun dəfn mərasimi idi.

Bir azdan oğlan evinin adamları gəldi . Çadırın altında hay - küy artdı, oynayanlar çoxaldı . Toy daha da qızışdı. Əli xonçalı qız - gəlinlər Nərgizin yanına yuxarı qalxdılar. Bəyin yaxın qohumları vəziyyətin nə yerə olduğunu bilsələr də , Nərgizi görəndə dəhşətə gəldilər , İçəridə başında fata , ağlamaqdan gözləri şişmiş, ağ saçlı kədərli bir qız oturmuşdu.

Nərgizin toyu pozacağını gözləyə- gözləyə valideynləri onu yola saldılar. Seymurun sağ olmağı haqqında xəbəri kim uydurmuşdusa , bu xəbər Seymurun anasının ürəyində ümid qığılcımları yandırıb, Nərgizin ürəyində onu bir dəfəlik dəfn etdi.

Təkcə Afət deyil, o axşam toydan gələn hər kəs məyus döndü. Bütün evlərdə bu günki qəmli , toydan , hüzünlü , gözüyaşlı ,gəlindən danışıb, müharibəni salanlara, nifrət yağdırırdılar.

Dərslərin başlamağına az bir vaxt qalırdı. Günlər ötdükcə Afəti kədər bürüyürdü. Nə qədər sevincinə, kədər qatmamağa çalışsa da qarşıda onu bu reallıqlar gözləyirdi. Harada qalacaqdı? Geyinməyə paltarı yox idi. Qabaqdan yağışlı payız , qarlı qış gəlirdi. Plaş , palto ,ayaqqabı , çəkmə almalı idi. Gecələr səhərəcən düşünür, bir yana çıxa bilmirdi. Yenə paltarı birtəhər köhnələrlə yola verəcəyini düşünsə də, harada qalmaq fikri onu dəli edirdi. Çünki deyilənə görə yataqxana-

da yer tapmaq elə da asan deyil di. Bir də ki, ilk günlər yataqxanada yer tapana qədər nə edəçəm deyib dururdu. Günelgildə qalmağı düşünürdü, birdən qızın onu təklif etməməyindən qorxurdu. Niyə də etməlidi ? deyə özünə sual verirdi. Suallar ürəyini didib paçalayırdı. Gündə bir iki dəfə Elmangil tərəfə keçir , qolu qanadı sınmış halda geri dönürdü. Tünzalənin başı qarışıq idi. Demək olar ki, evdə tapılmırdı. Gah Nərgizin həftə hamamına gedirdilər, gah görüşünə. Qızlar da anaları ilə birlikdə səhər çıxıb axşam dönürdü. İki məhlənin hər birinə yaxınlaşdıqda ürəyi sıxılırdı. Özünü ortadakı boşluqda bir az asudə hiss edib nəfəs alırdı. Özünü bircə o boşluğa aid hesab edirdi. Ora isə bomboş idi. Onun dərdinə yarıyan kimsə yox idi.

Asudə xanımın qayıtdığını eşidən Nüşabə yenə də böyük həvəslə onun yanına getməyə sovqat hazırlayırdı. Bu dəfə onunla görüşə özü də getmək istəyirdi. Nüşabə Aybənizlə geyinib hazırlaşandan sonra Afətin getməyini məsləhət bilmədi . Sən də sonra gedərsən ,– dedi. Qız donub yerində qaldı . Nə edəçəyini bilmirdi. Deməyə söz də tapa bilmədi. Bir qədər duruxandan sonra , ayaqqabılarını soyunub oturdu. Yenicə otağına qalxıb paltarını soyunmuşdu ki, Aybənizin onu səslədiyini eşitdi. Aybəniz geyin gəl birlikdə gedək ,- dedi.. Bu başqa adam olsa Afət getməzdi , amma o , Asudə xanımın görüşünə mütləq getmək istəyirdi. Paltarını geyinib quş kimi aşağı düşdü.

Asudə Afəti əziz bir adam kimi bağrına basıb öpdü. Nüşabəgil ilə də görüşüb xoş gəlmisiniz dedi.Darva-

zadan içəri keçəndən bəri, döyükə -döyükə ətrafa boylanan Nüşabəni bu saray kimi evin möhtəşəmliyi mat qoymuşdu. Çox da böyük olmayan dəhlizdən dördbucaq şəklində olan böyük bir zala keçdilər. Burada hər şeydən çox Nüşabənin xoşuna gələn evin bir neçə yerinə qoyulmuş təbii ağaca bənzəri çox olan süni yaşıl ağaclar oldu. Zalın iki üç yerində qoyulmuş divan kreslolar sanki, yaşıl ağacların dibinə qoyulmuşdu. Ortaya eyni rəndə , eyni çeşiddə üç böyük xalça salınmış olsa da xalçalar otağın ortasını ancaq örtürdülər . Demək olar ki, böyük bir sahə boş qalırdı. Baş tərəfdən divar boyu düzülmüş bahalı mebelin içərisi, bahalı böyük qablarla dölü dolu idi. İki yerdən çilçıraq asılmışdı. Pəncərələrdən çox sıx büzməsi olan ağappaq tül asılmışdı. Çox gözəl, rahat görünüşü olan, bu otaqdan beş otağa qapı açılırdı. Qapının birindən ləzzətli çörək iyi gəlirdi. Pəncərənin qabağında qoyulmuş uzun masanın üzərinə ağappaq kənarları torlu atlaz süfrə salınmışdı. Süfrənin üzərində içərisi meyvə ilə dolu olan meyvə qabı, bahalı şokoladlarla dolu iri vazalar var idi. Asudə xanım onlara oturmaq üçün yer təklif etdi. Oturmağa macal tapmamış Günellə , Aysel də gəldi . Günel Afətə oturmağa imkan verməyib yan otağa apardı . Otaqdan onların qəhqəhə səsləri ,gəlirdi. Nüşabənin fikri qızların yanında qalmışdı. Əlacı olsa otağa qızların yanına keçib , söhbətlərinə qulaq asardı . Amma onun əsl narahatlığı süfrə başında başladı . Aysel yenicə fırından çıxmış isti piroqla çay gətirib masaya qoyanda Afətlə , Günel də otaqdan çıxıb, çay içmə-

yə gəldi. Onların söhbəti əvvəlcə şirin başlasa da , sonra Asudənin sözləri sanki, Nüşabənin başına bir qazan tökdü, Nüşabənin ona olan cavabı isə Afətin ürəyinə ox kimi sancıldı. Asudə xəstəliyindən , orada keçirdiyi hallardan danışandan sonra birdənbirə mövzunu dəyişib Afəti tərifləməyə başladı. O, qızın ağlına , qoçaqlığına, tərbiyəsinə, biliyinə heyran qaldığını söyləyib, Afətin bu ili Günellə bir yerdə qalmağını istədiyini söylədi və Nüşabəyə belə bir qız tərbiyə edib böyüdükləri üçün təşəkkür etdi. Günelin belə bir qızla bir yerdə qalmağından razı qalacağını ,-dedi. Lakin bu tərif Nüşabənin xoşun gəlmədi. Rəngi qıpqırmızı qızarıb dedi:

Əlbəttə onun tərsliyi, özünə qapılmağı, söz dinləməməyi , yetimliyindən irəli gəlir. Mən çox çətinliklə də olsa ona anlatmağa çalışırdım. Mənimkilər məni bir kəlmədən başa düşür. Ondan razı qalmısansa, çox şükür ki, bir şeyə nail olmuşam, zəhmətim itməyib.

Söz Afətin ürəyinə ox kimi batıb orada qalmışdı. İndiyə qədər o dəfələrlə Nüşabənin sözündən incimişdi, amma bu günkü qədər yanıb yaxılmamışdı . Asudə ilə Günel də tutulub qalmışdı. Qızın üzünə yetimliyini necə demək olardı. Birdə ki, Nüşabə Afətin yaxşı bir cəhəti olmadığını söyləmək istəyirdi . Nüşabənin sözü Asudəni hirsləndirdi. Onu axıra qədər dinləmək istəmədiyini açıq aşkar bildirib ayağa durdu. Afətdən çox xoşum gəlir, yaxşı qızdır,- dedi.

Evə hamısı qanı qara döndü. Nüşabə ora özünü, qızını sevdirmək məqsədi ilə getmiş olsa da ikrah do-

ğurduğunu özü də hiss etmişdi. Aybənizin də anasına açığı tutmuşdu. Afət isə özünə gələ bilmirdi. Ona elə gəlirdi ki, ürəyində qərtmək bağlamış bir yaranın qərtməyi qopub, qanı sinəsinə axır. Sinəsi yanırdı. Otağına qalxıb , yerinə uzandı. Bir iki günə buraları tərk edəcəyini düşünüb sakitləşdi. Qəribədir Allah mənə sevinməyə cəmi bir neçə saniyə vaxt verdi deyə düşünüb məyus oldu. Asudə xanım Afət də Günellə bir yerdə qalar, sözünün eşidəndə utanmasaydı qadını qucaqlayıb öpərdi. Lakin qadına heç təşəkkür də edə bilmədi. Ağzını açıb sağ olun demək istəyirdi ki, Nüşabə dillənib, ürəyinə oxları sancdı. Oxları yenə də ürəyində hiss edə -edə gözünə yuxu getdi.

Ertəsi gün Afət yuxudan duran kimi Telman qızım, Səlim müəllim sənin onun qızı ilə birdə qalmağını istəyir, -dedi.Hələlik orada qalarsan , sonra da allah kərimdir , görək nə olur? Hazırlaş sənə Günellə birlikdə qatara bilet alacam.

Kişi sevinirdi daha nələr isə danışırdı. Amma, qız onu dinləmirdi , daha doğrusu eşitmirdi. Onu iki şey təəccübləndirirdi. Bir, əgər Səlim müəllimgil olmasa , Afətin harada qalacağını düşünən olaçaqdımı.? İkinci, nə günah etmişdi ki, axşamdan bəri Nüşabə onu tərəfinə baxmırdı. Baxanda da gözündən nifrət tökülürdü.

Qalmaq yeri tapdığı üçün sevinməyə halı da qalmamışdı. Qalxıb yığışmağa başladı. Atasının şəklini tapıb götürmək istəyirdi. Lakin evi axtarmağa ürək etmirdi. Soruşa da bilmirdi . Nəhayət bu işi Gülbənizin boynuna qoymağı düşünüb, aşağı düşdü. Qızlar ho-

vuzun başında oturub nədənsə mübahisə edirdilər. Afət gəlib onların mübahisəsini dinləyib , o da söhbətə qoşuldu. Nanə ilə Jalə israrla Seymurun sağ olduğu haqqında yayılan xəbərin yalan olduğunu söyləyir, Aybənizlə Gülbəniz isə bəlkə də sağdır deyirdilər. Aybəniz onun şəklini bir jurnalda görən olub ,deyib cağ olduğunu iddia edirdi. Afəti görəndə onun üstünə düşüb nə fikirdə olduğunu soruşdular. Afət mənə elə gəlir ki, bu sözü Nərgizi sevən oğlan özündən uydurub. Nərgizlə ailə qura bilmək üçün Seymurun sağ olub , başqa qızla ailə qurduğunu deməklə Nəgizin

ona olan məhəbbətini öldürmək istəyib. Amma hər nə isə biz burada bunu mübahisə etməklə, bizi inandıran kimsə yoxdur, - dedi. Allah Nərgizi xoşbəxt etsin .

Bununla qışlar mübahisəni kəsib ,danışıb gülməyə başladılar. Durub hər kəs evinə gedəndə Afət , Gülbənizdən atasını şəklini tapıb ona verməyi xahiş etdi. Gülbəniz çiynini çəkib şəklin yerini bilmədiyini söyləsə də , Afətin üzünə baxıb, əgər atanın bizdə şəkli varsa mütləq tapıb sənə verərəm, -dedi. Bir gün də ötdü, artıq ayın otuzu idi. Afət darıxırdı, dərsin başlamağına çəmi bir gün qalırdı. Kiçik bir çantasına olan qalan paltarını yığıb gözləyirdi. O gün də ötdü, ertəsi gün Telman, bu axşam sizi qatarla yola salaçam , - dedi. Neçə gündür onlardan bir xəbər gözləyirdim . Nədənsə düz axırıncı gün gedəsi oldular-.dedi. Səlim müəllim deməyinə görə, Vüqarı gözləyirmişlər O, da nəyə görə isə gələsi olmayıb. Hər nə isə səhər dərslər

başlayır . Qatardan düşən kimi dərsə gedərsiniz. Afəti bu dəfə yola salmağa Telman öz maşını ilə apardı. Öz kiçik çantasından başqa, Elmangil böyük bir çanta gətirib verdilər . İçərisində yemək və ərzaq olduğunu söylədilər. . Nüşabə də o gündən bəri Afətin tərəfinə gözünün ucu ilə baxmasa da , maşına kiçik bir bağlama gətirib qoydu. Afətin fikri Gülbənizin verdiyi bağlamanın yanında idi. O , bu bağlamanın atasının şəkilləri olduğunu düşünürdü. Qatara minəndə Telman qıza pul verib, düşən kimi taksiyə minin, - dedi. Çantalarınızı evə düşürüb, dərsə gedin, sonra yolu izi öyrənərsən.

Səhər qatardan düşəndə atasının qızları mənzil başına çatdırmağı xahiş etdiyi, alçaq boylu , dolu bədənli oğlan, Günelgilə çantaları qatardan düşürməyə kömək etdi. Afətin çəmi iki çantası, Günelin isə ən azı beş altı çantası var idi. Oğlan çantaları taksiyə mindirib, Güneldən ünvanı soruşdu.

Evə çatıb çantaları dəhlizə yığıb, ikisi də oxuduğu instituta taksi ilə yola düşdülər. Günel dərsə geciksə də heç bir çətinliklə qarşılaşmadı. İlk dərs gününə xoş əhvalla başladı.

Afətin dərsə gecikməyi ona baha başa gəldi. Daha doğrusu, institutdan qovulmaqla hədələndi. Dekanatlığa çağırıb, onun kimi səhlənkar, məsuliyyətsiz ,ilk gündən dərsə gecikən birinə bu institutda yer olmadığını söylədilər. Uca boylu , təxminən qırx beş yaşlarında olan daz başlı dekanın nə danışdığını artıq Afət duymurdu. Qızın qulaqları batmışdı, ona elə gəlirdi

ki, dekan danışmır, sadəcə ağzını açıb yumur. Afət üzr istəyib belə bir halın bir daha təkrar olmayaçağını dönə - dönə deyirdi. Dekan isə belə yol verilməz halla barışa bilməyəçəyini söyləyirdi. O, hər dəfə qovulursan sözünü təkrar etdikcə, Afət diksinirdi. Söz üzünə şillə kimi dəyirdi. Qıpqırmızı olmuşdu , başı fırlanırdı. Birdən qapı açılıb , imtahanda Afətin çağırdığı komissiyanın sədri içəri girdi. O, məyus halda dayanıb titrəyən Afətin üzünə baxdı, qızı tanıyıb , nə olub ?– dedi. Dekan himə bənd imiş kimi yenidən başladı. Bayaqdan bəri sadaladığı sözləri söyləyib, Afətin qovulduğunu , - dedi. Qapının ağzında dayanıb sual verən ağ saçlı nurani kişi qapını örtüb içəri keçdi. Sizdən xahiş edirəm , Kazım müəllim, bu qızı bu dəfə mənə görə bağışlayın, əgər bir də bir səhvini tutsanız qovarsınız, - dedi. Dekan ağzını açıb yenə nə isə demək istəyirdi, amma ,sanki göydən düşmüş bu adam, dönə - dönə xahiş edirəm söylədi. Hiss olunurdu ki, Kazım müəllimi bu xahiş əsəbləşdirir. Hirsindən dodağını çeynəyirdi. Araya uzun bir sükut çökdü. Sükutu nurani müəllim pozdu. Kazım müəllim, mən bu qızın imtahanda tələb etdiyi komissiyanın sədri olmuşam. İnandırım sizə , çox mükəmməl biliyə malik olan qızdır. Bu dəfə Kazım müəllim onun sözünü yarımçıq kəsib yaxşı , mən sizə inanıram , - dedi. Getsin dərsinə başlasın.

Afət otaqdan çıxanda başı gicəllənirdi. Elə bil yuxu görmüşdü. O, ağ saçlı nuranini ora Allah yetirdi deyə düşünürdü. Aman Allah çəmi beş dəqiqə bundan əv-

vəl özünü institutdan çölə atılmış sanırdı. Az qalırdı ki, ürəyi dayansın , arada nəfəsinin kəsildiyini hiss edirdi. Qulaqları batıb ,gözü qaralırdı. Auditoriyaya keçib yerində oturdu, amma sevinə bilmirdi.

O , evə gələndə Günel artıq evdə idi. Çantaları açıb ortaya töküb, paltarlarını yerləşdirirdi. Afəti görəndə acından ölürəm, –dedi. Gəl yeməyimizi yeyək sonra paltarları yerinə yığarıq. Günel anasının qoyduğu dalma ilə dovğadan töküb pilətənin üstünə qoydu. Afət çörək doğrayıb salat düzəltdi. Afətin axırıncı dəfə nə vaxt yemək yediyi yadına gəlmirdi. Acından ürəyi çəkildiyini indi hiss etdi. Asudə xanımın yanında Nüşabənin etdiyi söhbətdən bəri qızın boğazı tikilmişdi. Lap ürəyi çəkiləndə ağzına nə isə bir qismət çörək qoyub , iştahasız zorla udurdu. İndi isə ona elə gəlirdi ki, yeməklərin hamısını tək yeyəcək . Amma elə olmadı bir iki qismət yeyib ayağa durdu. Çay dəmləyib içəndən sonra Nüşabə ilə Tünzalənin verdiyi çantaları açıb tökdü. Hər iki çantanın içərisində yemək məhsulları var idi. Tünzalə iki beçə və ət qoymuşdu. Nə yaxşı ki, aralarına butulkada buz qoymuşdu. Yoxsa xarab olardılar. Çantanı gələn kimi açıb soyuducuya qoymaq heç ağlına gəlməmişdi. Nüşabə pendir , şor ,qənd çay, düyü, makaron bir banka ərinmiş yağ qoymuşdu. Afət çantanı boşaltdıqca həyaçanlanırdı. Ürəyinə minnətdarlıq hissi dolurdu.

Günel dolabın birini ona göstərib , sən paltarını bura yığ , - dedi. Afət dolaba baxıb qızardı. Onun çəmi üç – dörd palları var idi. çantasını götürüb ağzını aç-

mamış dolabın içinə qoymaq istəyirdi ki, nə isə düşünüb ağzını açdı. Qapıdan çıxanda Gülbənizin ona verdiyi kağız bağlamanı indi xatırladı. Atasının şəkilləri olduğunu düşünüb ürəyi çırpındı. Onu bağlamanı açmağa taqəti yox idi. Bu gün elə bir çətin gün keçirmişdi ki, bir neçə gün özünə gələ bilməyəçəkdi. Dekan gözünün önündən getmirdi. Dayanmadan qovursan deyib təkrar edirdi.

Afət gecəni də narahat yatdı. Amma ertəsi gün yuxudan oyanan kimi özünü toplayıb həvəslə dərsə başladı. Sentyabrın ilk günləri isti keçsə də , ortalarınayaxın yağışlar başladı. Yağışlar səngimək bilmirdi . Yay birdəfəlik yerini payıza vermişdi. Havalar elə soyumuşdu ki, axırıncı günlər artıq nazik paltarda dərsə getmək mümkün deyildi. Bu səhər Günel Afəti yeni görürmüş kimi, sənə soyuq olar , niyə belə nazik geyinmisən ? -dedi. Qız qızarıb , vaxtım olmur ki, özümə paltar alım,- dedi. Onun özündən asılı olmayaraq verdiyi cavab doğrudan ağlına batdı. Bahalı da olmasa özünə ucuz əyin baş ala bilərdi. O , puluna yemək almaq haqqında düşünürdü. Amma yeməkləri bol idi. Heç nə almağa ehtiyac yox idi. Günel otağa qayıdıb, əlində qırmızı bir jaketlə geri döndü. Al, hələlik bunu geyin , sonra birlikdə gedib sənə əyin baş alarıq, - dedi. Afət azacıq duruxub, Günelin ona uzatdığı jaketi götrüb geyindi.

Tibb İnstitutunda oxumaq doğrudan da çox çətin imiş . Yanvarda anatomiyadan imtahan verməli idi. Uşaqların arasında belə bir söz gəzirdi ki, anatomiya-

dan imtahan verib qurtarmaq İnstitutu bitirməyə bərabərdir. Bütün əzələlərin , sümüklərin adını latınca öyrənmək lazım idi. Təkcə əl barmaqlarında min adda sümük var idi. Ən çətini meyidxanaları gəzmək idi. İlk günlər oranın qoxusu burnunda qalırdı. Evə qayıdan da yemək yeyə bilmirdi. Amma hər nə olur olsun Afət bu cətinliklərin öhdəsindən gəlib gecə -gündüz oxuyurdu. Hər dəfə evdən çıxıb dərsə gedəndə yadına düşürdürdü ki, əyninə paltar almalıdır , dərsdən çıxıb evə dönəndə isə səhərki dərsi oxuyub çatdıra bilmək haqqında düşünürdü. Bəzən yerinə hava işıqlaşanda girir, çəmi iki -üç saat yatırdı. İki gecə idi ki, iki -üç saatı da yata bilmirdi. Yerinə uzanıb gözünə yuxu gedən kimi , yuxuda Vüqarı görürdü. Gah onu Kazım müəllimin yanında görürdü. Kazım müəllim onu danlayanda Vüqar dayanıb nə isə deyirdi, amma səsini nə Afət duyurdu, nə də Kazım müəllim. Gah da uça bir dağın başında dayanıb oradan nə isə anlatmağa çalışırdı. Hər iki halda Afət onun nə demək istədiyini eşitməyə çalışsa da , bir sözünü belə anlaya bilmirdi. Narahat olub yuxudan oyanırdı .Yenə də Vüqarın nə isə anlatmaq istədiyini görüb yuxudan oyandı . Suya batmışdı sacının dibimdən su tökülürdü. Qalxıb mətbəxə keçdi, göz ucu Günelin otağına boylandı. Qız mışıl – mışıl yatırdı. Günelin dərsləri Afətin ki, kimi ağır olmasa da o, özünü çox əziyyətə salan deyildi. Gün ərzində bir iki saat oxuyub , ortalarda hərlənirdi. Gecəni də başını atıb rahatca yatırdı. Afət onun otağına boylanıb, mətbəxə keçdi. Bir stəkan su içib otağına qayıtdı. Yuxusu da-

ğılmışdı. Kitabı əlinə alıb oxumağa başlamışdı ki, yadına Gülbənizin verdiyi kağız bağlama düşdü. O ,nədənsə bu bağlamanı açmağa risk etmirdi. Hər dəfə bir bəhanə ilə ondan uzaqlaşırdı. Əlindəki kitabı yerinə qoyub ayağa durdu. Qalxıb bağlamanı açmağa çalışdı. Köhnə saralmış kağız dəfələrlə sarınmışdı. Kağızı açan kimi atasının şəkli ilə üzbəüz qaldı. Ona elə gəldi ki, gənc yaraşıqlı oğlan gülümsəyə - gülümsəyə düz onun gözünün içinə baxır. Afətin ürəyi titrədi, ilahi o gözlərdən sanki istilik gəlirdi, məhəbbət süzülürdü. Nədənsə elə bilirdi ki, bu adamı görüb, tanıyır. Bütün cizgilər tanış gələrdi. Bu tanış cizgilər onu kövrəltdi, gözündən yaş leysan kimi axmağa başladı. Ömründə birinci dəfə nənəsinə açığı tutdu. Afəti atasının şəklindən niyə məhrum etmişdi? Qıza bu an özünü atası ilə birlikdə sanırdı. Onun gözlərində olan ilıq xoş ifadə Afətin ürəyinə süzülürdü. Heç olmasa darıxanda bu şəklə sığınardı onunla dərdləşərdi. Hər dəfə beynində özünə ata xəyalı qurub, cürbəcür obrazlar yaradırdı. Onlar ya Elmana oxşayırdı , ya da Telmana .O, obrazların heç birində Afət bu şəkildə tapdığı hərarəti tapa bilməmişdi, heç birinə qarşı belə sevgi duymamışdı. Atasının yoxluğu qədər şəklindən məhrum olduğu qızı yandırırdı. Həmin şəkil böyük idi .Onun arxasında bir neçə kiçik şəkillər var idi. Afət o biri şəkli əlinə alanda sanki başına bir qazan su tökdülər . Bu atasının toy şəkli idi. İki xoşbəxt gənc Afətə baxıb gülümsünürdü. Afət anasını zorla xatırlayırdı. Lakin ona olan hissləri müəmmalı idi , sevməsə də , nifrət də edə bilmirdi. İn-

di isə ona gəldi ki, anası onun acığına gülümsəyir. Özünün xoşbəxt olduğunu bildirmək istəyir. Afət eşitmişdi ki, anası çox xoşbəxtdir. İki oğul anasıdır. Bəs mənim taleyim görəsən anamı heç narahat etmirmi ?- deyə düşünürdü. Anasından elə inciyirdi ki, daha başqa adamların ona qarşı olan soyuq münasibətindən və ya qəlbinə dəyəçək bir sözdən inciməyə haqqı olmadığını düşünürdü. Başqaları mənə qayğı göstərib, pullarını, vaxtlarını mənə sərf etməyə borclu deyillər deyə fikirləşirdi. Ona görə özünün yerini iki məhlənin heç birində görmürdü. O ,məhlələrin sahibləri onun valideynləri deyildi. Onu dünyaya onlar gətirməmişdi. Hər birinin öz övladları , öz qayğıları var idi. Afət öz yerini iki aradakı boşluqda görürdü. Orada isə onu sevəcək qayğı göstərəcək kimsə yox idi. O biri şəkillərə baxmadan yığıb yerinə qoydu. Əvvəl atasının şəklini götürüb çarpayısının yanına qoymaq istədi. Sonra birdən Günelin atasının evində , kişinin öz şəkli olmadığı halda , bu şəkli ora necə qoyum deyə düşünüb onu da büküb yerinə qoydu.

Dərslər başlayandan bəri bu gün birinci dəfə idi ki, Afət evə yorulmamış dönürdü. Güneli də götürüb özünə paltar almağa getmək haqqında düşünürdü. Bu işi Günelsiz görə bilməzdi. Çünki o heç yeri tanımırdı. Həm də Günel hər gün gəl gedək deyirdi , sadəcə Afətin ya vaxtı olmurdu , ya da çox yorğun olurdu. Ona görə evə çatmağa tələsirdi. İnstitutun darvazasına çatanda , yolun kənarında dayanıb siqaret çəkən kişinin , siqaretini atıb ona yaxınlaşdığını görüb əhə-

miyyət verməmək istədi. Lakin kişi yerişini bir az da sürətləndirib, ona yaxınlaşdı. Alçaqdan Afət, deyib səsləndi. Qız adını eşidib təəccüb etdi . Ayağını saxlayıb kişinin üzünə baxdı. Onu haradansa tanıyırdı ,amma haradan aydınlaşdıra bilmirdi. Kişi isə qıza yaxınlaşan kimi onu qucaqlayıb bağrına basdı. Afət bilmirdi nədənsə kişi ona doğma gəlirdi. Ondan uzaqlaşmaq fikri yox idi. Sadəcə dayanıb onun kim olduğunu öyrənmək üçün üzünə baxırdı. Kişi boğulmuş qısıq bir səslə , mən sənin əmin Pərvizəm,- dedi. Afət kişinin düz gözünün içinə baxdı . Onun baxışı atasının baxışına oxşayırdı. Kişi Afəti bir qolu ilə sinəsinə sıxıb dayanmadan danışırdı. Onları bağışlamağı xahiş edirdi. Afət onun üzünə baxıb , mən heç kəsdən küsməmişəm, – dedi. Qızın belə deməsi onu daha da kövrəltdi. Küsməyə haqqın var , biz səni axtarmadıq , anamın sözünə qulaq asdıq. Oğluna olan sonsuz məhəbbət anamı dəli etmişdi. O, Çingizin yoxluğunu qəbul edə bilmirdi. Onlar danışa – danışa küçəyə çıxdılar. Pərviz uzun danışıqdan sonra ona sovqat gətirdiyini söylədi. Afət təşəkkür edib , heç nəyə ehtiyacı olmadığını söyləsə də , qarşısında durub dayanmadan danışıb, dil tökən kişinin atasının bir parçası olduğunu düşünürdü. Ona elə gəlirdi ki, bu kişini çoxdan tanıyır və onunla söhbət etdiyi birinci dəfə deyil.

Afətin sakit görkəmi, mehriban baxışları, heç kimdən küsmürəm deməsi, Pərvizi daha da həyəcanlandirirdi. O , belə görüş gözləmirdi . Afətin ağlayıb onu qovaçağını , sizi görmək istəmirəm deyəçəyini düşü-

nürdü. Yol boyu bu mənzərəni dəfələrlə gözünün önündə canlandırıb suya batmışdı. Lakin hər nə olur olsun mütləq , zorla da olsa Afətlə görüşməyi qarşısına qoymuşdu. O , qızı qucaqlayıb mən sənin əminəm deyəndə Afətin ona daha da sığınmağı kişini kövrəldirdi. Qızı maşının yanına apardı . Sonra birlikdə qızın yaşadığı ünvana gəldilər. Maşının yük yerindən böyük bir kağız kutunu götürüb , onunla içəri girdi. Afət əmisini Günellə tanış etdi. Qızlar təklif etsələr də Pərviz oturmağa vaxtı olmadığını ,- dedi. Afətə müəyyən məbləğ də pul da verib getdi. Getməzdən əvvəl qızı yenidən bağrına basıb, yenə də gələçəyini söylədi.

Afət sevinirdi. Sovqata , pula görə deyil, duyduğu məhəbbət hissinə görə. Sığına bildiyi qucağa görə. Qeyri adi səmimiyyətə görə . Bir də ki, Afət atasına qarşı kin duymadığı üçün , onun qohumlarına da nifrət etmirdi.. Əslində o heç kimi qarşı kin duymurdu. Tək bir nəfərdən anasından küsdüyünü, ona nifrət etdiyini zənn edirdi. Lakin ürəyinin dərinliyində onu da çox sevdiyini bilirdi. Sadəcə onun haqqında düşünmək istəmirdi. Bəzən onu üzünü xatırlamağa çalısa da, tez bu fikri başından qovmağa çalışırdı. Qalan heç kəsin mənə borcu yoxdur , - deyə düşünürdü.

Kağız qutunu açıb içindəkiləri yerbəyer etdilər. Qutunun içi ərzaqla dolu idi. Afəti elə bir ilıq hiss bürümüşdü ki, yemək yeyəndən sonra da mağazaya getməyə həvəsi qalmadı. Dərs oxumaq da istəmirdi. Oturub danışmaq istəyirdi. Əslində o , ürəyindən keçənləri heç vaxt heç kimə danışmırdı. Ürəyindən keçənləri

danışmasa da , harasa getməyə həvəsi qalmamışdı. Sabah istirahət günü idi. Günellə də məsləhətləşib alış - verişə sabah getməyi qərara aldı. Sabah mütləq gedib qalın paltar , ayaqqabı , çəkmə almalı idi . Çünki sentyabrın axırından başlayan yağışlar səngimək bilmirdi. Sanki göyləri kimsə küsdürüb kövrəltmişdi. Bütün günü tutqun olan göy üzü , gündə ən azı iki üç dəfə dolub boşalırdı. Oktyabr başlayandan bəri isə sabahlar sazaq olurdu.

Ertəsi gün alış veriş üçün çox da uzağa getməli olmadılar . Günelin anasının çoxdan tanıdığı, evlər arası alver edən , Sonadan lazım olan hər şeyi aldılar. Belə işlərdən başı yaxşı çıxan Günelin deməyinə görə , Sonadan alınan paltarlar bir az baha da olsa xarici mallar olduğu üçün daha keyfiyyətli olurdu. Hər şey Afətin ürəyincə idi. O , evdən çıxanda pulunun hamısını götürmədi. Çünki, pulu qurtarsa heç kimdən pul istəməyə üzü gəlməyəçəkdi. Ona kim, nə vaxt pul verəcəyini isə bilmirdi. Apardığı pula lazım olanları ala bildiyi üçün çox sevinirdi. Evə gəlib paltarları yenidən geyindi. Gözü güzgüdə qalmışdı. Sanki orada özü deyil başqa bir qız var idi . Paltarlar ona çox yaraşırdı. Günel ona həsrətlə baxıb , kaş mənə də paltar belə yaraşaydı,- dedi. Doğrudan da zərif bədənli , uça boylu, düzgün qamətli, yaraşıqlı baldırı olan Afətin sanki paltar üstünə biçilmişdi. Afət məhəbbətlə Günelin üzünə baxıb sənə nə olub ?- dedi. Günel qızın qısa kəsilmiş zil qara düz saçlarına, ağappaq yumru sifəti-

nə, par –par parıldayan zil qara gözlərinə baxıb sən çox gözəlsən,- dedi.

Qızların söhbətini, Afət bura gələn gündən bəri hər istirahət gününün axırında qonşuda başlayan dava kəsdi. Qadın yenə qışqırıb söyürdü. Həmişəki kimi əlindəki qabı , qazanı kişinin başına çırpırdı. Bu dəfə atılan qab nə isə böyük bir şey idi gumbultu ilə yerə dəydi. Asudə xanımın dediyinə görə kişi Tibb institutunun müəllimi ,qadın isə evdar qadın idi. Bir qayda olaraq kişi, hər beşinci gün yoxa çıxır , bazar günü axşam üstü evə dönürdü. Hər dəfə də bu dava mərəkə başlayır ,gecə yarıyadək davam edirdi. Ertəsi gün həyat öz axarına düşür, sakit hətta demək olar ki, dostcasına eyvanda oturub yemək yeyir çay içir söhbət edirdilər. Bu dəfə ki, dava səs -küylü idi. Qadının atdığı ütü , pəncərənin şüşəsini qırıb , həyətə düşdü. Pəncərə qırılandan sonra onun pis söyüşləri daha da aydın eşidilməyə başladı. Afət hələ ömründə belə şey görüb , eşitməmişdi. Nüşabə deyinməyi xoşlasa da o, deyinmək Telmanın səbri qurtarana qədər davam edə bilərdi. Telman bir dəfə səsini kəs desə bir daha Nüşabənin səsi eşidilməzdi. Tünzalənin isə hələ deyindiyini ucadan səs çıxardığını eşidən olmamışdı. Ya elə rəhmətlik nənəsi Cəmilə deyə- deyə öldü. Ərinin qorxusundan doğma balasının üzünə həsrət qaldı. Dava daha da qızışmışdı. Qadının murdar söyüşləri həyəti başına götürmüşdü. Kişinin ata - anasının gorunu çölə çıxartmışdı. Dönüb Afətin üzünə baxan Günel Afətin ürəyindən keçənləri eşidirmiş kimi , mən hələ be-

lə şey görməmişəm , -dedi . Bu nə ailədir? . Arvad da ərinə belə sözlər deyər? Afət çiynini çəkdi. Gözünün önünə bu müəllimin auditoriyaya girib ,dərs deməyi gəldi. Əgər o , Afətlə üzbəüz gəlsə görəsən utanmazmı ?- deyə düşündü. Bu günkü dava çox uzun çəkdi. Əksəriyyət vaxt dava birtərəfli getdiyi halda , indi kişi də bağırırdı. Qonşular həyətə çıxıb boylanırdı. Hətta aralarında içəri girmək istəyən var idi. Çünki, dava artıq əlbəyaxa getdiyi hiss olunurdu. Bir də ki, uşaqların səsi eşidənlərin ürəyini parçalayırdı. Nəhayət bazar gününün dramatik səhnəsi uzun da çəksə sona yetdi. Evə sükut çökdü. Qonşular evlərinə dağıldı. Pəncərədən çölə baxan Günel, qonşuların bəzisinin dava qurtardığına görə qanı qaraldı, -dedi. Bu sözə qızlar ürəkdən güldülər.

Ertəsi gün dərsinin sonuna yaxın Əminə Dilbazi gəldi. O , qruplarda qızların arasından rəqs etmək üçün uça boylu qız seçirdi. Afət hələ orta məktəbdə oxuyanda Tibb institutunun Çinar mahnı və rəqs qrupu olduğunu eşitmişdi. Bu məşhur qrupun rəhbəri Azərbaycanın sevilib- seçilən xalq artisti Əminə Dilbazi olduğunu da bilirdi. Amma nə vaxtsa onunla qarşılaşaçağını ağlına belə gətirmirdi. Bu zabitəli bir az da sərt görünən qadın içəri girən kimi gözünü qızlara gəzdirib Afəti irəli çağırdı. Qız irəli keçsə də qrupa qatılmaq , rəqs etmək fikri yox idi. Çünki onun oynamaqla arası yox idi. Odur ki, ilk sözü mən oynamağı bacarmıram oldu. Əminə xanım onun sözünü dinləmdən sərt bir şəkildə öyrənərsən, -dedi. Sonra isə ay qız , dünyanı

gəzmək istəmirsən ? - deyə sual verdi. Afətin beynindən dərhal bir fikir keçdi Türkiyə. Bu fikrə özü də mat qalsa , amma artıq Vüqar gözünün önünə gəlirdi. Daha rəqs edə bilməmək, dərsləri çatdıra bilmək bu və ya bu kimi fikirlər arxada qalmışdı. Sabahdan məşqlərə başlamalı idi. Evə çatanda Güneli evdə görməyib sevindi. Ona elə gəlirdi ki, Günelə bu günkü hadisəni danışsa qız onun ürəyindən keçənləri başa düşəcək. Hansı ki, o hissləri hələ Afət özü başa düşmürdü. Ürəyinin dərinliyində , özünə də sirr olan ,o müəmmalı hissləiri kiminsə duyacağından qorxurdu. Yeməyini yeyib az da olsa yatmaq istəyirdi ki, Günel də gəldi. Qızlarla xəstəxanada yatan qrup yoldaşının yanına getdiyini söylədi. Günel qızın yanıb tanınmaz hala düşdüyündən vəziyyətinin ağır olduğundan danışır qıza yazığı gəldiyini söyləyirdi. Afət isə demək olar ki, qızı eşitmirdi. Nəhayət Günel sözünü kəsib nə olub? – dedi. Gözünü uzaqlara dikib fikrə gedən Afət bu gün onu Çinar rəqs qrupuna götürdüklərini söylədi. Dərslərini çatdıra bilməyəcəyini və ümumiyyətlə rəqs edə bilmədiyi üçün narahat olduğunu dedi. Günel qızın sözünü kəsib dedi:

Ay qız sən nə danışırsan? Dərsləri də oxuyacaqsan rəqsi də öyrənəcəksən . Narahat olma ən vacibi də dünyanı gəzəcəksən. Türkiyəyə də gedəcəksən, mənim əvəzimə Vüqarı da görəcəksən.

Afət qıpqırmızı qızarıb dedi:

Hər il Zaur yay tətilinə gəlirdi, bu il gəlmədi.

Günel dedi:

Təhsillərini davam etdirmək üçün yenidən imtahanlara hazırlaşmalı idilər. Vüqar da gəlməməli idi. Həm anamın xəstəliyinə görə , həm də mənim imtahanlarıma görə gəldi.

Afət istəyirdi ki, ona dönə - dönə təşəkkür edib , mənə də çox yardım etdi deşin ,amma deyə bilmədi, otağına keçib, çarpayıya uzandı. Vüqara olan hissi minnətdarlıq hissidirmi? Vüqarın adını eşidən kimi onu həyəcan bürüyürdü . İlk günlər onu xatırlayanda, zahiri görünüşünü deyil ,qeyri adi , ciddi xarakterini ,ağlını, səbrini ,təmkinini xatırlayırdı. Anası ilə Günel ona elə yanaşırdılar ki, sanki,qarşılarındakı bir gənc oğlan deyil, dünya görmüş yetkin bir kişidir. Sonralar , Afət hər addımda , hər kəlmədə Vüqarın bu keyfiyyətlərinə əmin oldu. Bir evdə qaldıqları bir ay müddətində onun Afətlə necə pünhan dolandığını düşünür, boynuna almaq istəməsə də o günlərin həsrətini çəkirdi. Bir dəfə olsun gözünün ucu ilə Afətə tərəfə baxmırdı. Yəqin ki, belə hərəkət etməsəydi , qız burada sıxılardı. Onun bütün hərəkətlərini , sözlərini xatırlaya - xatırlaya , bəyənə- bəyənə bir də gözünü açdı ki, Vüqar bütün varlığı ilə girib ürəyinə. Qəlbinin ən dərin guşəsində özünə yer edib. Afətin onun qəlbində olan yerinə çox böyük hörməti var idi. Rastlaşdığı ilk gündən bəri Vüqarın hər hərəkətini, hər sözünü təkrar-təkrar xatırlayıb gözünün önündə canlandırırdı.

Amma axırıncı günlər isə Vüqarın hərəkətinin davranışını deyil, sadəcə zahiri görünüşünü xatırlayırdı. Oğlanın uca boyu , nəcib vücudu, yaraşıqlı sifəti, zil

qara sacı, gözünün önündən çəkilmirdi. Ən çox da Vüqarın istirahət günlərində olan üzü tüklü halını xatırlayırdı. Hansı ki, bu görkəm ona çox yaraşırdı .

Zahiri görünüşünü , daxili xasiyyətlərini hər nəyi xatırlayır xatırlasın hamısı ona əzab verirdi. Amma əzab ona əziz idi. Ondan qurtarmaq fikri yox idi. Dərslər günü gündən ağırlaşsa da, Günelin sözlərində həqiqət var idi. Afət həm dərslərini oxuyur, həm də rəqsə gedirdi. Sonralar məlum oldu ki, Afət dərs əlaçısı olduğu kimi rəqsdə də hamıdan bacarıqlıdır. Bunu Əminə müəllimə deyirdi.

Tibb institutunda oxumaq doğrudan da çox ağır idi. İndiki tələbələrin hər birinə sabah insan taleyi tapışılaçaqdı. Hər insan orqanı ilə tanış olmaq üçün cəsədlərlə işləməli olurdular. Ən çətin anlar da meyidxanada olurdu. Onsuz da uşaqların hamısı burada həyəcanlanır, narahat olur ,əti ürpəşirdi. Afət bu gün çox pis bir şeylə rastlaşdı. Iki şaqqaya bölünmüş qızın , adını, soyadını oxuyanda bir gün özünə gələ bilmədi. Bu qonşuları Maralın cəsədi idi. Hələ körpəlikdən anasız qalan Maral bir az kəm ağıllı idi. Evdə iki qardaşı və atası olmağına baxmayaraq demək olar ki, evlərinə baş salmırdı. Səhər açılandan gecə yarıyadək qonşuları gəzib ağzına gələni danışırdı. Axır vaxtlar isə, qonşu alverçi Şövkətin evinə getməyi adət etmişdi. Şövkətin evi qanaq -qaralı olurdu. Gündə bir neçə dəfə, süfrə açılır, yemək içmək mərasimi başlayırdı. Şövkətin yeganə övladı olan Vəfa bütün gün qonaqlarla yeyib içib , əylənirdi. Vəfa boşanmışdı . Deyilənə gö-

rə yüngül həyat tərzi keçirirdi. Maral isə orta məktəb şagirdi olsa da , Vəfanın yanından əl çəkmirdi. Çünki , Vəfa ona pul verir , paltar alır, yemək yedizdirirdi. Yeri gələndə bəzək əşyaları bağışlayırdı. Maral isə onun iki körpə uşağının qulluğunda durur , həyətdə gəzdirirdi. Bir axşam evə gecə yarısı çılpaq və sərxoş dönən Maralı qardaşı balta ilə öldürmüşdü. Elə o vaxtlar da Afət bu xəbərdən sarsılmışdı. Demək olar ki, günlərlə özünə gələ bilməmişdi. İndi də həmin hadisəni yenidən xatırlayıb məyus oldu. Uşaqlara ikiyə bölünmüş bu talehsiz qızın həyat hekayəsini danışdı. Qızlar iki bölünmüş cəsədə dəhşətlə baxırdı. Lakin zaman ötdükcə, ilk günlər cəsədlərdən , əti ürpəşib dəhşətə gələn, uşaqlar yavaş – yavaş hər şeyə alışırdılar.

Yağışlı payız yerini qışa versə də, hələ də qışdan əsər əlamət yox idi. İmtahanlar başlamışdı. Tək Afət deyil, bütün uşaqlar gecə - gündüz imtahana hazırlaşırdı. Hətta ən az dərs oxuyan Günelin də gözünü açmağa macalı yox idi. İmtahanları verib rayona getməli idilər. Demək olar ki, axır günlər yemək bişirmirdilər. Bütün ərzaqlar soyuducuda qalmışdı. Ərzaq mağazasından hazır bir şey alıb yeyirdilər Zəhmətləri də hədər getmirdi. Hə ikisi imtahanları verib azaltmışdı. Bir səhər institutun həyətinə çatan Afət , eşitdiyi xəbərdən donub yerində qaldı. Qrupdakı bütün uşaqlar orada toplanmışdı. Sanki hamının sifətinin ifadəsi donub qalmışdı. Deyilənə görə qruplarında yaşca hamıdan böyük olan, Nadir avtomobil qəzasına düşüb, dünyasını də-

yişmişdi. Uşaqlar buna inanmaq istəmirdi. Qızlar Allaha yalvarıb xəbərin yalan olmağını arzu edirdilər. Nadir Bakıya çox da uzaq olmayan rayonların birindən idi. Bir az qara qabaq olsa da çox savadlı ağıllı , təmkinli bir oğlan idi. Hərbi xidmətini başa vurandan sonra bir neçə il tibb institutuna qəbul olmağa cəhd etsə də bu il qəbul ola bilmişdi. O , əksər vaxt şənbə günü evlərinə gedib, bazar ertəsi geri dönürdü. Hətta uşaqların bəzisi onun ailəli olduğunu söyləyirdi.

Uşaqlardan məlumat öyrənməyə gedən, Zakirlə ,Həsən qanı qara qayıtdılar. Ağsunun aşırımından dərənin dibinə yuvarlanan maşının içindən salamat çıxan olmadığını söylədilər. Yerindəcə canını tapşıran üç oğlanın üçünün də cəsədini geri evlərinə apardıqlarını söylədilər. Bu xəbər dəhşətli bir xəbər idi. Hər kəs şoka düşmüşdü. Nadirin yoxluğuna heç kim inana bilmirdi. Hər kəs onun iki gün bundan əvvəlki, görkəmini, və son dəfə işlətdiyi sözləri xatırlamağa çalışırdı. Və nədənsə hər kəs onun son sözündə nə isə bir məna axtarırdı. Sanki, Nadir öləcəyini bilib nə isə deməli imiş.

Nəhayət uşaqlar şokdan ayılıb Nadirin dəfnində iştirak etməyi qərara aldılar. Oğlanlar birləşib kirayə avtobus tutmağa getdilər.

Ertəsi gün səhər tezdən yola düşdülər. Hava soyuq idi. Göyün üzü elə tutulmuşdu ki, sanki yer , göy qan ağlayırdı. Arabir qap qara dolmuş buludlar, Nadiri itirmiş qrup yoldaşları kimi birdən şırıltı ilə dolub boşalırdı. Onlar Ağsu rayonuna çatanda yağış sel-

ləmə yağmağa başladı. Nadirgilin kəndi rayona bitişik idi. Rayona çatandan çəmi iyirmi dəqiqə sonra onların həyətinə çatdılar. Avtobus kəndə yaxınlaşdıqca Afətin ürəyi ağzından çıxırdı . O, bu dəhşətli mənzərəni görmək istəmirdi. Amma gördü , təkcə o deyil bütün qrupun uşaqları gördü. Nadirin anası batmış səsi ilə dayanmadan Nadir, deyib fəryad qoparırdı. Fəryadına cavab gəlməyini görəndə isə, Nadir, deyib inildəyirdi. Uşaqlar evin ortasında yerə xalçanın üzərinə qoyulmuş cəsədin ətrafına yığıldı. Əvvəlcə yalvarıcı bir səslə oğlum , qalx yoldaşların gəlib , deyən ananın gözü birdən Afətə sataşdı . Qadın ayağa durub Afət, deyib qulun kimi qışqırdı. Bu səsdən hər kəs diksinib Afətə , Afət isə ətrafa boylandı. Qadın düz Afətin üstünə gəlib , sən niyə gəlmisən ? Axı o məni sizə aparmaq istəyirdi. Ay ana , Afəti mənə alarsan deyirdi. Mən sizə elçi gəlməyə hazırlaşırdım, -deyib yenidən fəryad edib özünü yerə çırpırdı. Afət şoka düşmüşdü. Özü də hiss etmədən daha da bərk ağlamağa başladı. Qadının dəhşətli səsi onun ürəyini silkələmişdi. Qadın isə dayanmadan eyni sözü təkrar edib özünü döyürdü. O, birdən dayanıb ayağa durdu. Bayaqkı süstləşmiş vəziyyətinə rəğmən, çox çevik bir hərəkətlə qalxıb yan otağa keçdi. Oradan Afətin kətan üzərində işlənmiş böyük bir şəklini gətirdi. Şəkil Afətin ayaq üstündə yanakı dayandığı bir halı idi. Şəklə baxan tək Afət deyil uşaqlar da , otaqdakı adamlar da donub yerində qaldı . Şəkil o , qədər canlı idi ki, heç kim ondan gözünü çəkmək istəmir-

di. Sonra , bədbəxt ana şəkli Afətə verib yalvarmağa başladı. Qızım Nadirin bu yadigarını özündə saxla. Afət şəkli əlinə alıb saxlayacağına söz versə də qadın sakitləşmir, İndi də durmadan bu sözü təkrar edirdi.

Nəhayət Nadiri dəfn edib geri döndülər. Özlərini avtobusa ölü saldılar , heç kimin danışmağa taqəti qalmamışdı. Acından ölürdülər . Hava daha da tutulub cisginləşmişdi . Yaşadıqları bu faciədən sonra özlərinə gələ bilmirdilər .Oğlanlardan biri mindikləri avtobusun lap yaxınlığından keçən böyük çörək maşının görüb, hoppanıb avtobusdan düşdü. Qaça - qaça çörək maşınına əl sallayıb maşını saxlatdırdı. Pəncərəyə yaxınlaşıb sürücüyə ac olduqlarını anlatdı. Hündür boylu, kök kişi sükanın arxasından düşüb , maşının arxasına keçdi. Oğlana beş altı çörək verib geriyə dondu. Uşaqlar çörəkləri acgözlüklə parçalayıb yedilər. Afət bir parça çörəyi yeyəndə də , şəkli əlindən yerə qoymağa qorxurdu. Ona elə gəlirdi. Nadirin anası onu görür şəkli əlindən yerə qoysa , fəryad qoparacaq. Avtobusun pəncərəsindən çölə baxırdı. Sulu qar yağırdı. Belə faciəli bir hadisədən sonra güclü yağış , qar yağanda nənəsi deyirdi yer də göy də ağlayır. Nadirin yoxluğuna inana bilmirdi, fikirləşə - fikirləşə gözünə yuxu getdi. Gözünün açanda onsuz da buludlu olan hava qaralmışdı. Avtobus Bakıya girirdi. Bir an nə baş verdiyini harada olduğunu unudub ətrafa boylandı. Gözünü düz gözünün içinə zilləmiş , Məlahətlə göz - gözə gəldi. Qız sual dolu gözlərini onun üzünə zilləyib, lap alçaqdan , Nadirin səni sev-

diyini sən bilirdin?- dedi. Afət Məlahətin üzündə qəribə bir qısqanclıq duyub , başını bulayıb yox, - dedi. Məlahətin Afəti döymək istəyirmiş görkəmi var idi . Qızdan yox cavabını eşidib bir az sakitləşib arxaya çəkildi. Araya azacıq sakitlik çökmüşdü ki, Məlahətin gözlərində həmin nifrət yenidən oyandı. Yenidən gözünü qızın üzünə dikib, Nəsib müəllimin hipnoz dərsini xatırlayırsan? - dedi. Afət yenə də başını buladı. Bu dəfə Məlahət arxayınlaşmadı . Gözündə nifrət qığılcımları daha da artdı. Afət ona yox desə də o dərsi xatırladı. Nəsib müəllim uşaqlardan birini çağırır, sonra onu hipnoz edirdi. Tələbələrin arşından kimsə Nəsib müəllim Nadiri hipnoz edin dedi . Tələbələr Nadiri daha ağıllı , daha təmkinli, saydığı üçün , bir ağızdan Nadiri istədilər . Sanki onun hipnoz olacağına inanmırdılar. Nəsib müəllim də Nadirdən qarşıya çıxmağı tələb etdi. Bir neçə dəqiqədən sonra hipnoz olmuş Nadirə Səməd Vurğunun yetmiş illik yubleyində olduğunu söylədi, və sözü ona verdi . Nadir özünü tribunaya qalxırmış kimi göstərib , Səməd Vurğunun yaradıcılığına həsr olunmuş uzun bir nitq söylədi. Sonra Nəsib müəllim onu yenidən hipnoz edib, Nadir, bura çəmənlikdir , hər yan çiçəklə doludur , topladığın çiçəkləri sevdiyin qıza təqdim et, - dedi. Nadir indi də özünü çəmənlikdə kimi aparırdı . Sanki böyük bir ormanda çiçək toplayırdı. Sonra isə guya toplamış olduğu çiçəkləri gətirib Afətin qarşısına qoydu. Uşaqlar gülmək istəyirdi. Nəsib müəllim əlini dodağının üstünə qoyub sakit olmağı tapşırdı.

O vaxt Afətin ağlına heç nə gəlmədi. Nadirdən soruşanda isə yəqin Afət qabaqda oturduğuna görə belə etmişəm,- dedi.

Afət bunu xatırlayıb Məlahət tərəfə baxmağa qorxu. Sonra isə bu günkü bu qısqanclığın nə mənası olduğunu anlamayaraq öz - özünə çiynini çəkdi.

Evə çatanda qonşudan gələn dava səsini eşidib təəccüb etdi. Çünki bu gün onların dava günü deyildi. Onların davası ya istirahət günü axşam , ya da bazar ertəsi tezdən olurdu. İndi isə şənbə günü idi. Yenə qabların cingiltisindən qulaq batırdı. Afətin başında elə ağırlıq var idi ki, hər cingiltidən sonra elə bilirdi ki, qazan onun başına dəyir. Evin qapısının ağzına çatıb yenə də təəccübləndi. Qapı azca aralı idi, içəridən bahalı bir kişi ayaqqabısı görünürdü. O, tərəddütlə qapını tıqqıldatdı. Qapını açan Vüqar olduğunu görüb, mat qaldı . Çünki bu günlərdə onun gələcəyini bilmirdi. Salam verib əlindəki şəkli balaca uşaq kimi arxasında gizlətməyə çalışdı. Vüqar ona uyğun olmayan bir tərzdə, haradan gəlirsən?- dedi. Afət qıpqırmızı qızarıb Günelin üzünə baxdı. Günel onun nə demək istədiyini anlayıb, Vüqar da sənin lə bərabər gəlib , səndən bir addım əvvəl içəri girib deyib ,Afətin qrup yoldaşının avtomobil qəzasında dünyasını dəyişdiyini söylədi. Vüqar , Afətin ağlamaqdan şişib qızarmış sifətinə, qan çanağına dönmüş gözlərinə baxıb , Allah rəhmət etsin dedi. Qız əlindəki şəkli qapının ağzındakı dolabın içinə qoyub nazik paltosunu soyunub içəri keçdi o , evə çatan kimi yatmaq istəyir-

di. İndi əl üzünü yuyub mətbəxə keçdi. Günelə nə bişirək deyib sual verdi.? Günel çiynini çəkib bilmirəm,- dedi. Dərhal da otağa başını uzadıb , Vüqar sənə nə bişirək? deyib səsləndi. Vüqar nə olur olsun , acından ölürəm deyə cavab verdi. Afətin soyuducuda öz ərzaqları var idi. Əmisi gətirdiyi ərzaqlardan hələ var idi. O, soyuducudan cücə çıxardıb, Günelin üzünə baxıb ,- dedi. Bir az gözləyə bilsə aş bişirirdik . Günel duruxub yenidən otağa boylanıb dedi:

Vüqar bir az səbir edə bilsən sənə aş bişirərdik.

Vüqar dedi:

Təki aş bişirin, səbir yox nə desəniz edərəm.

Qızlar həvəslə işə başladılar. Aradan az bir zaman keçməmiş süfrə açıb , yemək gətirdilər. Amma tək Vüqar deyil özləri də iştaha ilə yeməyə başladılar. Vüqar onlara baxıb gülümsünüb dedi:

Vallah deyəsən mən gəlməsəm siz aç yataçaqdınız.

Üz gözünün şişi hələ də çəkilməyən Afət dedi:

Bu gün mən heç nə yeyən deyildim, amma biz artıq bir aya yaxındır ki, ac yatırıq.

Vüqar dedi:

Başa düşə bilmirəm , niyə ac qalırsınız ? . Zaurla mən hər gün özümüzə yemək hazırlayırıq.

Günel Afəti süzüb dedi:

Afət onsuz da az yeyir, mən də az yeyib onun kimi gözəl olmaq istəyirəm.

Afət qıpqırmızı qızarıb , mətbəxə çay dalınca getdi. Çay süfrəsində heç kimin danışmağa həvəsi yox idi . Afətin məlum səbəbə görə qan qara idi, amma Vüqa-

rın nədənsə getgedə kefi pozulurdu. Bunu qızlar da hiss etdi. Danışan təkcə Günel idi, qız demək olar ki, öz- özünə danışırdı. Afətlə Vüqarın qısa bir söhbətləri oldu. Afət Zauru xəbər aldı, Vüqar isə dünyasını dəyişən oğlan haqqında bir neçə sual verdi. Qızlar tələsik süfrəni yığışdırıb yatmağa getdi. Afət yata bilmirdi. Sanki yerinə qor dolmuşdu. Neçə vaxtdan bəri Vüqarı görmək arzusu ilə yaşayan qızı Nadirin qəfil ölümü şoka salmışdı. Üstəlik oradakı dəhşətli mənzərə gözünün önündən çəkilmirdi. Nadirin anasının səsi qulağından çəkilmirdi. Əlləri qulaqlarını tutsa da səsi beynində eşidirdi. O, indiyə qədər belə dəhşətli hal ilə qarşılaşmamışdı. . Atası o , anadan olmamış dünyasını dəyişmişdi. Başqa dəfn mərasimlərində isə iştirak etməmişdi. Onu belə narahat edən bir şey də Nadirin onu sevməsi idi. Nadiri gözünün önündə nə qədər çanlandırsa da , onda sevgisini bildirəçək bir hərəkət tapa bilmədi. Nə qədər düşünsə də hipnoz dərsindəki , gül təqdim etmə mərasimindən başqa heç nə tapa bilmədi. Sonra yazığın verdiyi güllər də xəyal idi deyə düşündü. Gözünə nə vaxt yuxu getmiş olsa da həmişəki kimi tezdən oyandı. İmtahana hazırlaşmalı idi. Hər şeyi başından atıb dərs oxumaq istədi. Amma oxuya bilmədi. Dünənki hadisələr yenidən beyninə dolmağa başladı. Kitabı açıb qarşında boş - boşuna oturmuşdu .Az qala bir saata yaxın idi ki, eyni səhifəni oxuyurdu. Əslində o səhifədən də yadında bir şey qalmırdı. Özü ilə bacara bilmədiyi üçün təəccüb edirdi. Dərsin vaxtına az qalırdı. Nəhayət kitabı qatlayıb bir

kənara qoydu . Ayağa durub dərsə getməyə hazırlaşdı. Mətbəxə keçəndə donub yerində qaldı. Vüqar əlində onun şəkli pəncərənin qarşısında dayanıb , maraqla baxırdı. O, arxaya çevrilmədən bu rəsmi kim çəkib ? -dedi. Afəti bərk narahatlıq bürüdü. Niyə belə həyəcan keçirdiyini özü də anlamadan dedi:

Rəhmətlik Nadir çəkirmiş . Bütün qrupun uşaqlarının şəklini çəkib. Dünən anası verdi. Ondan xatirə kimi saxlayın , - deyirdi.

Vüqar çevrilib Afətin üzünə baxıb dedi: Bütün şəkilləri beləmi çəkib?

Afət onsuz da yalan danışdığı üçün qulaqlarının uçuna kimi qızarmışdı. Günahkar adamlar kimi kəkələyib dedi:

Bilmirəm ki, başqa şəkilləri necə çəkib.

Vüqar uzun sükutdan sonra bu şəkil , çox məhəbbətlə çəkilib,- dedi.

Vüqar Afətin dünəndən ağlamaqdan solmuş , hələ şişi çəkilməmiş sifətinə baxa - baxa şəkli səliqə ilə yumrulayıb ona qaytardı.

Afət bu imtahana yaxşı hazırlaşmasa da əla qiymət aldı . Müəllim alçaq boylu , gənc bir adam idi. Qız bileti çəkib suallara cavab verməyə hazırlaşırdı ki, o cəld bir hərəkətlə ayağa durub, Afətlə yanaşı durdu. Qız onun hərəkətində bir şey anlamadı, bir az duruxub yenidən ağzını açmaq istəyirdi ki, müəllimin öz boyunu onunla müqayisə etdiyini anlayıb təəccübləndi. Təəccübü gizlətməyə çalışıb , özünü görməməzliyə vur-

maq istədi. Müəllim bayaqkı çeviklə keçib stulunda oturub - dedi :

Sənə əla qiymət yazacam . Dərsə görə deyil boyuna görə.

Sonra müvəffəqiyyət kitabını əlinə alıb açdı . Bundan əvvəlki, əla qiymətlərinə baxıb, məyus halda eh sən elə əlaçı imişsən ki , -dedi. Mən də istəyirdim müvəffəqiyyət kitabçanı işiqlandıram. O gün müəllimlər bütün tələbələrə güzəştə getdilər.Nadirin qəfil ölümü tələbələri sarsıdıb ,- dedilər. Çünki özləri də çox məyus olmuşdu. Onun imtahandan belə asanlıqla qiymət alacağı ağlına gəlmirdi. Bundan sonra cəmi bir imtahan qalırdı. O imtahan da Afətə görə elə də çətin deyildi. Ürəyinə sakitlik çöküb evə döndü. Amma Vüqarın getdiyini eşidib qanı qaraldı . Onu Günelə bildirməməyə çalışıb otağına keçdi . Vüqar gələndə demişdi, ən azı bir həftə Bakıda qalacaq . Onun şəklə baxanda keçirdiyi halı gözünün önünə gətirib, xəyala dalırdı. Afətə elə gəlirdi ki, Vüqar şəklə baxanda əsəbləşdi. Amma, anlaya bilmirdi ki, bu həqiqətən belə idi? ,yoxsa Afətin özündən uydurmasıdır? Qız mütləq özünü inandırmağa çalışırdı ki, Vüqar şəklə baxanda əsəbləşdi. Gündə bir neçə dəfə bu sualın ətrafında dolanır , hər dəfə də bir versiyanın üstündə dayanırdı. Nədənsə, özünü Vüqarın əsəbləşdiyinə inandıranda ürəyinə bir sakitlik çökürdü.
Bu günlərdə Afətin gözü Günelin ağzında qaldı ki, görsün Vüqardan nə danışır .O,da elə bil qızın qəsdinə durmuşdu . Ağzını bıçaq açmırdı .Elə bil belə bir adam

yox imiş. Bu qız o boyda oğlanın yoxa cıxdığından niyə danışmır -deyə düşünürdü. Bəzən onun başı imtahanına qarışdığını zənn etsə də , Günel axırıncı imtahanı da verib qurtardı. Havalar əməllicə soyumuşdu. Birlikdə gedib qatara bilet aldılar. Afət də axırıncı imtahanı verən kimi rayona yola düşdülər. Yolda Afət Vüqarın rayonda olduğunu , qatardan düşəndə onları Vüqar qarşılayaçağını düşünüb gözünə yuxu getdi. Qatar rayona çatanda hava işıqlaşmamışdı. Qızlar çox da ağır olmayan çantalarını götürüb qatardan düşdülər. Onları orada , Günelgilin sürücüləri gözləyirdi. Az qala dizə çıxana qədər qar yağmışdı. Hər tərəf ağappaq qarı örtüyünün altında qalmışdı . Sanki rayon bəyaz yorğana bürünüb yatırdı. Bakının hay küyündən sonra , rayon çox sakit görünürdü. Maşın Afətgilin darvazasının ağzında dayananda, qız düşmək lazım olduğunu anlayıb , əlini çantasına atdı. O , düşər - düşməz maşın qarın üstündə qəribə səslər çıxarda – çıxarda uzaqlaşdı. Afət az qala iyirmi dəqiqə zəngi çalmalı oldu. Onun soyuqdan nəfəsi kəsilirdi, ayaqları əmməli başlı keyləşmişdi. Həm də ,onu gözləyən olmadığına görə qanı qaralırdı. Yaxşı bilirdi ki, indi Günelin yolunu anası -atası həsrətlə gözləyir. Onu atası daha çox sevirdi. Amma yəqin ki, anası da çoxdan oyanıb samovar qaynatdırıb, süfrəyə bal ,qaymaq, yumurta , qatıq pendir, ətirli şirin çörəklər düzdürüb. Yemək çay hamısı bir yana Güneli orada isti ana qucağı, böyük ata məhəbbəti gözləyirdi . İçəridən gələn açılan qapı səsini duyan Afət özünü toplayıb

heç nədən narazı olmamağı düşündü. Bu gün o , Allahından razı idi. Ali məktəbdə oxuyurdu, imtahanlarını da müvəffəqiyyətlə başa vurub, geri dönmüşdü. Qapını açan Elman dayısı idi, səmimiyyətlə qucaqlaşdılar.

Aradan bir iki gün ötəndən sonra Afət Asudə xanımla görüşmək istədiyini söylədi. O, Nüşabənin yenə də onlara getmək fikri olduğunu düşürdü. Amma Nüşabə onun fikirləşdiyinin tam əksinə getmək istəmədiyini söylədi. Qızlardan da ona qoşulan olmadı. Afətin ürəyində Asudə xanımın ayrıca yeri olsa da, Vüqarı görmək ümidi ilə getməyə tələsdi. Qar necə yağmışdısa eləcə yerdə durdurdu. Evlərin damından az qala bir metr uzunluğunda buz parçaları sallanırdı. Hərdən bir buludların arasından görünən günəş şüaları qarın üstünə düşəndə, parıldayıb qızın gözünü qamaşdırırdı. Ayağının altında xurt – xurt səs çıxaran qar çox yerdə buza dönüb onu sürüşdürürdü. Yıxılmaqdan qorxa - qorxa nəhayət gəlib çatdı . Zəngi çalıb gözlədi. Qapını açmağa Asudə xanım özü gəlmişdi. Afəti görəndə qadının hayı -küyü məhəlləni başına götürdü. O , həmişə Afəti belə qarşılayırdı. Hər dəfəki kimi yenə də Afət təəccüb etdi. Asudə xanımın bu qıza qarşı olan isti münasibəti sanki hədsiz artıq idi. Onlar birbirindən tutub, evin qapısına doğru getdilər, çünki həyət daha sürüşkən idi. Çöldəki bəyazlıqdan sonra içəri girən Afətə ev qaranlıq göründü. Bir an otağın qaranlığına alışa bilmədi. Günel , nə də bir başqası gözə dəymirdi. Afət təəccüblə Asudə xanı-

mın üzünə baxıb, Günel hanı?- dedi. Asudə xanım Günelin xəstə olduğunu, otağında yatdığını söyləyib , mətbəxə keçib çaydanı ocağa qoydu. Asudə xanım Afətə oturmağa yer göstərdi. O, oturmazdan əvvəl Günelin otağına boylandı. Elə bu vaxt şala bürünmüş Günel və Aysel pilləkənin başında göründü. Afət Günelin qızarmış rənginə baxıb , deyəsən hərarətin var, - dedi. Günel batmış , xırıltılı bir səslə nə isə mızıldadı. Afət Güneli otağına qayıtmağa məcbur etmək istədi. Amma Günel yataqda ürəyim sıxılır deyib , şalına bərk - bərk büründü. Aysel çay süfrəsi açana qədər, Asudə xanım Günelin sözlərinin düz olduğunu yoxlayırmış kimi Afəti sual yağışına tutdu. Qonşuların davasından tutmuş , imtahanlara, qədər hətta Nadirin ölümünü, çəkdiyi şəkli hər şeyi soruşdu. Söhbət şəklin üstünə gələndə Afət də Günel də qızardı . Nəhayət Günel ay ana , nə olub qoy oturaq də dedi? Asudə xanım söhbət arası Vüqarın hələ on gün qalmalı olduğu halda , nədənsə təpəsi üstə geri döndüyünü söylədi. Afət bu sözə bir cavab verməyib xəyala daldı. Vüqar Bakıda qızlara demişdi ki, hələ buradayam. Birdənbirə nə onun qayıtmasına nə səbəb olmuşdu? - deyə düşündü.

Afət evə dönəndə şaxta daha da artmışdı. Günorta gün çıxanda azacıq əriyən qar donub şüşəyə domuşdu. Qız evə zorla döndü.

Ertəsi gün yuxudan oyanar oyanmaz əmisinin səsini eşidib aşağı düşdü. Bu səs əmisinin olduğuna tam əmin olmasa da ürəyi əsirdi. Çünki onun səsinin da-

yısıgildən gəlməyinə inana bilmirdi. Bir də ki, çox az eşitdiyi bu səsi yaxşı tanımırdı. Sadəcə ona elə gəldi ki, səs əmisinin səsidir. Aşağı düşən kimi zaldakı kresloda oturmuş əmisi ilə üzbəüz gəldi. Sanki bədəninə bir istilik yayıldı özünü quş kimi onun üstünə atıb görüşdü. Pərviz Nüşabənin gətirdiyi çaydan bir iki qurtum içib ayağa durdu. O,duran kimi Telman da durdu . Aralarında qəribə bir soyuqluq , gərginlik var idi. Pərviz acizanə bir görkəm alıb , üzünü Telmana tərəf tutdu . Əslində o, üzü Telmana tərəf dursa da onun gözünün içinə baxmadan danışırdı:

Sizdən çox xahiş edirəm , Afəti bir neçə günlük bizə verəsiniz Qohumlar onunla tanış olmaq istəyirlər.

Telmandan əvvəl Nüşabə dilləndi:

Nə oldu , qohumların bu neçə ildə bir dəfə olsun bu uşaq yadına düşmədi, indi birdən birə qız əzizləşdi ? Telman qızı böyüdüb, həkim edəndən sonra yadınıza düşdü?

Afət Nüşabənin sözünə mat qaldı. Guya onun babası , nənəsi yox imiş , elə təkcə Telmanla Nüşabə var imiş. Halbuki , onu babası Afətin üzünə pis baxanları puldan hədiyyədən məhrum edirdi. Hər kəs pulun xətrinə Afətə qılıq etməyə çalışırdı. Babası nənəsi rəhmətə gedəndə artıq böyük qız idi. Nənəsindən qalma hər nəyi də var idi isə hamısını Nüşabə əlindən almışdı. Bir sandıq cehizlik bahalı əşyalarını və az qala bir boşqaba sığan qədər qızıllarını. Onların neçə yoxa çıxdığından xəbəri də olmadı. Soruşanda Nüşabə elə bağırdı ki, Afət bir də o sözü ağzına almadı. La-

kin hər nə olur olsun Afət özünə söz vermişdi ki, heç vaxt dayılarından , nə də onların arvadlarından gileylənməyəcək Amma indi Nüşabənin belə deməyinə nədənsə acığı tutdu. Nənəsi ilə babası rəhmətə gedəndən sonra Afət heç kimdən heç nə tələb etməmişdi. Ən vacib lazım olanı kitabı da sinif yoldaşlarından soraqlayıb tapmışdı. Qışda üşüdüyünü , yayda istiləndiyini heç kəsə bildirməmişdi. Lakin Nüşabə yenə də sinəsinə döyüb böyütmüşəm deyirdi. Afət əslində bu dünyada heç kəsdən incimirdi .İncidiyi yeganə insan anası idi , nədənsə onun haqqında düşünmək istəmirdi. Çünki onun haqqında xoş bir şey yadına sala bilmirdi. Pisliklərdən isə bezmişdi. İndi də solğun – solğun əmisinin üzünə baxıb susurdu.

Telman Nüşabəyə sən səsini batır desə də, o nə isə mızıldayırdı. Pərviz Nüşabənin susmağını gözləyib təmkinlə sözə başladı:

Bacım , biz nə edək ki, anam Çingizin vaxtsız , qəfil ölümünü qəbul edə bilmədi. O, demək olar ki, ağlını itirmişdi. Çingizin ölümünə o günkü mübahisənin səbəb olmağına inanır və hər kəsə nifrət edirdi. Siz elə bilirsiniz, o özü vicdan əzabı çəkmirdi? Ölüm ayağında can çəkişərkən, onun gözünə görünən yazıq Çingizin ruhu deyildi , onun illərdən bəri yığılmış vicdanının səsi idi. Elə hey deyirdi , Çingiz məndən küsüb , məni yanına qoymur , get deyir, hara gedirsən get. Yeddi ay hər gecə eyni yuxunu gördü. Nə yaxşı ki, Afət gəlib onunla görüşdü. O görüşdən sonra yazıq qadın rahatlaşıb sakitləşdi.

Nüşabə Telmanın qorxusundan ucadan deyə bilməsə də dodağının altında mızıldadı:

Elə siz də yəqin öləndə zülm çəkməkdən qorxursunuz.

Pərviz Nüşabənin bu sözünü də eşitdi, amma ona cavab vermək fikri yox idi. Gözünü Telmanın ağzına dikib dururdu. Telman Pərvizin lap yaxınlığında dayanıb dedi:

Bizim nə ixtiyarımız var ki, sizə görüşməyə icazə verməyək. O, bizim qədər sizin də qızınızdır. Hara istəyirsən ora da apara bilərsən ,sənə kim nə deyə bilər?

Sonra da üzünü Afətə tutub , ay qızım get hazırlaş , - dedi.

Pərviz onun hazırlaşmağını gözləməyib, ayağa durub, qapıya tərəf getdi. Telman da onunla darvazaya tərəf addımladı. Darvazanın ağzında aralarına çökmüş ağır gərginliyi Telman pozdu:

Pərviz, o vaxtlar da mənə aman vermədiniz ki, sözümü deyim. Allaha and olsun ki, Çingizin ölümündə mənim heç bir günahım yoxdur. Biz adicə mübahisə edirdik . O , öz fikrini söyləyirdi mən öz fikrimi. Dava etmirdik , söyüş söymürdük. Rəhmətlik bir az artıq içmişdi. Mən öz ölümümə razı olardım , Çingizin ayağına daş dəyməyini istəməzdim. Mən neçə illərdi onun yoxluğuna alışa bilmirəm . Üstəlik də onun ölümündə mənim günahkar görülməyim mənə əzab verir. Vicdan əzabı məni didib parçalayır.

Bayaqdan bəri bir dəfə olsun Telmanın üzünə baxmayan Pərviz, əlini Telmanının çiyninə qoyub , qar-

daş, narahat olma ,- dedi. Allah ona ömrü o qədər yazmışdı. Anam da düzgün iş görmədi. Bizi onun yeganə nişanəsindən uzaq saldı.

Afət qapıda görünən kimi hər ikisi susub qızı gözlədilər. Telman evə dönüb qapıdan içəri keçən kimi qışqırmağa başladı:

Sən heç utanmırsan , o kişidən ağzına gələni danışırsan? Bir də ki , axırıncı dəfən olsun, Afəti sən böyütmüş kimi danışdığın. Onu anam böyüdüb.

Nüşabə səsini alçaltsa da dil boğaza qoymadan bir nəfəsə deyinməyə

başladı:

İndi guya bunlar Çingizi , qızını sevəsi olublar? Xeyr , sadəcə onun ruhundan qorxublar. Bəli , ruhundan. Anasını ölməyə qoymayan ruhundan.

Bu dəfə Telman daha da bərkdən bağırmağa başladı:

Sən də qorx , bu dünyada kimdənsə qorx. Ağzını avara qoyub danışma.

Afətin nənəsi ilə babası rəhmətə gedəndən bəri ,uzun bir fasilədən sonra xoş günləri başlamışdı. Atasının otağında onun çarpayısında yatırdı. Qəribə burası idi ki, hər kəslə tezliklə dostlaşırdı. Sanki, hamını çoxdan tanıyırdı .Əmisinin uşaqları ona doğmadan doğma təsir bağışlayırdı Onların hər hərəkətində , davranışında özünü görürdü. Ayrı yerlərdə böyüsələr də həyata baxışları oxşar idi. Hər gündə bir evdə qonaq olurdu. Ancaq onun ürəyinə sakitlik gətirən buradakı qarşılaşdığı məhəbbətlə yanaşı , atasına aid olan xatirələr idi. Saatlarla onun şəkillərinə , əşyala-

rına baxır, dönə -dönə suallar verirdi. Ona aid olan demək olar ki, heç nəyi atmamışdılar. Hərbi xidmətdə olan vaxt çəkilən şəkilləri ayrıca bir alboma , qalan şəkillər digər alboma yığılmışdı. Atası həm kağız üzərində həm də taxta üzərində rəsm çəkməyi sevirmiş. Onları da səliqə ilə taxta bir qutuda saxlamışdılar. Afət onlara baxdıqca atasını görür , duyur ,onun bütün xasiyyətləri ilə tanış olur və sanki onu yaxınlığında hiss edirdi. Qız bir şeyə təəccüb edirdi. Görəsən atasından qalma cansız əşyalara bu qədər hörmət bəslədikləri halqa, Afətə niyə nifrət edirdilər. Bu illər ərzində həsrətini çəkdiyi bu xatirələrlə böyümüş olsa bəlkə də bu qədər qəlbi qırıq böyüməzdi. Ona elə gəlirdi ki, eşitdiyi bu xatirələr , gördüyü yadigarlar, ona da azacıq da olsa bir atalı dünya bəxş edir. Heç olmasa onun da atasına aid nəyi isə var idi. Qəlbindəki böyük boşluq dolmuşdu. Daha doğrusu böyük uçurum. Çünki atasını yadına salanda o boşluğa düşüb uçuruma yuvarlanırdı.O boşluğa ki, orada ata sözündən başqa heç nə yox idi . Amma indi ürəyi dolu idi .Gördüklərini eşitdiklərini dayılarının qızlarına danışmağa tələsirdi.

Ən uğursuz günü bibisigildə oldu. Bibisinin ona verdiyi suallar Afətin xətrinə dəyirdi. Əslində onun şəninə açılmış süfrələrin ən gözəlini , yeganə bibisi olan Çimnaz açmışdı. Hədiyyələrin ən qiymətlisini də o, almışdı . Qızıl sırğaları onun qulağına taxanda demişdi, on səkkiz il almadığım hədiyyələrin hamısının əvəzini birdən aldım. Bütün bunlara rəğmən Afət hər

kəlmə başı anlayırdı ki, bibisinin anasından zəhləsi gedir. Ondan söz açanda ikrah hissi ilə danışır, övladını atıb, ərə gedənləri ana adından məhrum etmək lazım olduğunu söyləyirdi. Və bu mövzuda başqa nələrsə anladıb sualı sual dalınca verirdi:

Anan o vaxtdan bəri bir dəfə olsun səni görməyə gəlmədi?

Afət çiynini çəkib dedi:

Babam onun gəlməyini qadağan edib, ona görə gəlmir. Babam deyirdi ki, onu görsəm güllə ilə vuracam.

Düz deyirdi də ,yazıq kişi getməyə başına ər qəhət idi? Çingizin yerinə gör kimi qəbul etdi? Belə vacib idi , körpə uşağını qapılarda atıb ərə getmək?

Lakin əmilərindən həm zahiri görünüşü ilə , həm xasiyyətcə fərqli olan bibisinin söhbətindən sonra Afətə bir şey aydın oldu ki, o anasını da sevirmiş .Onun ünvanına söylənilən ittihamları qəbul edə bilmirdi, nə olur olsun anasına haqq qazandırmağa çalışırdı. Düzdür bunu açıq, aydın etmirdi. Öz-özlüyündə ona yazığı gəlirdi. Hər halda onunla qarşılaşmağı da arzu etmirdi. Bəs bu sevgi qəlbinin harasında gizlənmişdi? Afət bir şeyi də başa düşmürdü, bu ailə onun anasına niyə nifrət edirdi ?

Qış tətili xoşa gələn , gəlməyən sərgüzəştləri ilə birlikdə çox maraqlı keçdi. Zamanın necə gəlib keçdiyini hiss etmədən , Bakıya qayıtmaq vaxtı çatdı. Afət bu dəfə getmək istəmirdi. Rayonun qarı ərimək bilməyən buz kimi təmiz havası , sanki ağappaq yorğana bürünüb səssiz səmirsiz uyuyan evləri ,ağacları küçələri və

ən əsası isti münasibəti Afətə xoş gəlirdi. Bəlkə də ömründə birinci dəfə idi ki, qış ona belə xoş gəlirdi. Yeni tanış olduğu əmisi uşaqlarını nə qədər bəyənsə də sevsə də , uşaqlıqdan üzü bəri birlikdə acılı -şirinli günlər keçirdiyi dayısı qızları var idi ki, Afət bu dəfə demək olar ki, onların sifətini düz əməlli görə bilməmişdi. Ona görə son günlərini onlarla keçirmək istəyirdi. Bu onun öz ürəyinin istəyi idi. Bir də ki, əgər onlara vaxt ayıra bilməsə , hamı bir yana Nüşabə gözünü yumub, ağzını açacaqdı . Özü də onun nə deyəcəyi Afətə gün kimi aydın idi. Nə oldu illərlə qapılarının kandarına ayağını basmağa icazə vermədikləri bu qız belə əzizləşdi? -deyəcəkdi. Sonra da Telman səsini batır deyənə qədər üyüdüb tökəcəkdi. Əslində evdəkilərdən də əmilərinə rəğbət bəsləyən kimsə yox idi. Afət onları qınamırdı. Gözünü açandan nənəsinin bu ailəyə küfr etdiyini eşitmişdilər. Qız bunları düşünüb, ı evdə əmilərin haqqında kəlmə kəsməmək qərarına gəldi. Odur ki, bu son günlərini də qızlarla keçirib, təsuratlarını Bakıya saxladı. Evə dönən kimi isə suallardan canını qurtara bilmədi. Bu dəfə təkcə hər şeyə qarışan Nüşabə deyil, hamı sual verirdi. Verilən suallardan Afət onu bir daha anladı ki, bu iki ailədə əmilərini istəyən yoxdur . Halbuki Afət ilk günlər evə dönüb atasına aid öyrəndiyi məlumatlardan həvəslə danışmaq fikri var idi. İndi isə nəinki əmilərindən heç atasından da söz salmamaq fikrinin üstündə durdu. Günelə baş çəkməyə gedəndə isə çox məyus oldu. Qız hələ də xəstə idi . Demək olar ki,

zorla özünə gəlmək istəyirdi. Tamam zəifləmişdi. Afətin gözünü zilləyib onun saralmış sifətinə baxdığını görüb dedi:

Heç bilmirəm bu halla mən necə gedəcəm. ?

Afət oturduğu yerdən dik qalxıb dedi:

O nə deməkdir ? Hazırlaş bir təhər gedək səni orada özüm sağaldaçam.

Çox olmasa da bir az Asudə xanıma əmilərindən danışdı. Onun da indiyə qədər , gənc cağlarında dünyasını dəyişmiş qardaşlarının körpə qızı ilə küsülü yaşayan bu əmi –bibiyə təəccüb etdiyini görüb məyus oldu. O, çünki onların haqqında yalnız xoş sözlər eşitmək istədiyi halda başqa sözlərlə qarşılaşırdı. Odur ki, mövzudan pünhan uzaqlaşdı. Sonra ayağa qalxıb Günelə mütləq hazırlaş deyib ,Asudə xanım və Aysellə görüşüb getdi.

Afət qızlardan ötəri lap darıxıbmış. Onlardan ayrıldığı çəmi beş -altı ay olsa da sanki illər aylar ayrısı idi. Əslində isə illər ayrısı idi. Çünki Afət gecə gündüz dərs oxuyurdu, heç kimdən , heç nədən xəbəri olmurdu. Həm də bacarınca hamıdan kənar gəzirdi. Çünki o vaxtlar Nüşabə hamıda Afətə qarşı nifrət yaratmışdı. Bütün günü deyinirdi, biz nəyə görə səni oxutmalı, xərc çəkib ev tutmalıyıq? – deyirdi. Çox da imkanlı yaşamayan bu ailələrin üzvləri , Nüşabənin sözündə haqq tapırdı. Bu məsələ Asudə xanımgilin sayəsində nisbətən yüngül həll olduğu üçün Nüşabədən başqa hamı susmuşdu. İndi o, oturub ürək dolusu söhbət edirdi. Nüşabənin deyinməyi olmasa hər

şey ürəyincə idi. Nüşabə məqam tapan kimi, sən gərək mütləq həkim olaydın? Görmürsən özümüz güc bəla ilə dolanırıq?-deyirdi. Və növbəti dəfə Nüşabə belə bir çıxış edəndə ,onu Tünzalə susdurub dedi:

Eh səni nə narahat edir ey ,ay Nüşabə?

Aybəniz buna bənd imiş kimi , deyinməyə başladı :

Doğrudan ,ana nə istəyirsən sən niyə , narahat olursan?

Nüşabə yenə nə isə demək istəyirdi ki, Tünzalə ay qız bəsdir də, dedi. Afət bu dəfə gələndə Nüşabə ilə Tünzalənin arasında əvvəllər görmədiyi qəribə bir mehribanlıq gördü. Ən çox da Nüşabə əldən ayaqdan gedirdi. Bu münasibətdən Afət bir şey anlamasa da razı qaldı . Çünki Nüşabə Tünzalə ilə mübahisəyə girişmədən susdu.

Nəhayət bu günlər də sona yetdi. Günel hələ tam sağalmadığı üçün Asudə xanım getməyə icazə vermirdi. Afət onu məcbur edib zorla aparırdı. Qız əməllicə zəifləmişdi. Amma havaya çıxanda yüngülləşdiyini söylədi. Afət onun kürəyinə isti bir şal salıb oturdu. Qatar voqzaldan uzaqlaşdıqca , pəncərədən boylanıb bəyaz qar örtüklərinin altında qalan evlərin arasından ona isti qucağını açmış, evləri axtarır , hər bir ailəni gözünün önündə çanlandırır , ürəyinə ilıq bir hiss dolurdu. Xəyalında o evlərin hər birini yenidən gəzib , vidalaşdı. Bu ilıq hislərin arasından Afət bir duyğunu gizlətməyə çalışsa da artıq bacara bilmirdi. İllər uzunu Cəmilə kitabı nədənsə Afət üçün bağlı idi. Heç vaxt onun haqqında düşünmək istəmirdi. indi isə sanki

partlamaqda olan vulkanla yaxınlığında dayanmışdı .Artıq qaçmaq yeri yox idi. İstəsə də, istəməsə də qaynayan hislərini cilovlaya bilmirdi. Ana həsrəti ilə alışıb yanırdı. Onunla rastlaşsa nə dərəcədə səmimi olacağına əmin olmasa da , mütləq anasını görmək istəyirdi. Atasının özü ilə deyil , cansız əşyaları ilə , şəkilləri ilə, böyüyüb boy atdığı ev ilə tanış olmaq qızın ruhunu qidalandırmışdı. Sanki dünənə qədər iki qanadı da kəsilmiş quş idi. Odur ki , nə olur olsun ana qoxusunu duymaq istəyirdi.Birdən birə gözünü pəncərədən çəkib Günel , bilirsən mənə neçə xoş oldu atamgilin qohumları ilə görüşmək,-dedi. Gecənin yarısınadək ürəyini boşaldıb danışdı. Günel onu dinləyir onunla bərabər həyəcanlanıb, kövrəlir, hər kəlməsinə ,hər fikrinə şərik olurdu. Lakin söhbət Cəmilənin üstünə gələndə Günel üsyana qalxdı qaşlarını çatıb dedi:

Bilirsən Afət, xətrinə dəysə də deyəcəm. Sənin anan məhəbbətə layiq deyil. Bu illər ərzində sənlə bir dəfə görüşməyə cəhd etməyib.

Afət Günelin anasına olan tükənməz məhəbbətini bildiyi üçün bir tək ona güvənirdi. Onun da belə kəskin cavabından məyus olub, dedi:

Axı babam ona qadağan etmişdi gəlməyi. Birdə ki, o qadının anası deyirdi ki, Cəmiləni nə vaxt görsəm od vurub sizi yandıracam. Bizi yandırmasa da anam gəlsə biabırçılıqla qarşılaşacaqdı.

Günel fikrindən dönmədən qətiyyətlə dedi:

Baban da , nənən də o qadının anası da artıq neçə illərdir ki, dünyasını dəyişib. Bu illər ərzində sənin

anan düşündümü qızıma kim baxır, neçə baxır, nə yeyir , nə içir?

Bu söz Afəti sillə kimi tutdu. Onlara gəldiyi ilk günləri xatırladı. Qulaqlarının dibinə kimi qızardı.

Günel Afətin xətrinə dəydiyinin fərqinə varmadan sözünə davam etdi. Eşitdiyimə görə sənin anan çox firavan bir həyat sürür. Oğlanları neçə deyərlər süd gölündə üzür. Tutaq ki, qardaşlarına güvənir , sənin taleyindən narahat deyil. Bəs bir ana kimi səni görmək istəmir? Mən elə ananı bağışlamaram.!

Afət güvəndiyi yeganə adam da onun ümidlərini qırdı. Bir də ona bir şey aydın oldu ki, bunların hamısını o hər gün düşünürmüş. Çünki Günel sanki onun ürəyindən keçənləri bir - bir oxuyurdu. Afətə elə gəlirdi ki, anası haqqında düşünmür. Güneli dinləyəndə başa düşdü ki, bu fikirləri , bu sözləri hər gün ürəyində dolandırır. Aralarına sükut çökdü. Günel Afətin belə məyus olduğunu görüb, dediklərinə peşman oldu. Ağzını açıb nə isə demək istəyirdi ki, Afət kədərli bir səslə dedi:
Dayılarım kasıbdır, öz uşaqlarına zorla baxırlar. Mən onlardan incimirəm. Günel dedi:

Eh heç anandan da incimə bu da onun alın yazısıdır.

Afət bilirdi ki, Günel axırıncı sözü Afətin könlünü almaq üçün deyir. Yerinə qor doldu, gözünə yuxu getmədi. Anasının ona qarşı belə biganə olduğunu düşünə- düşünə səhəri diri açdı.

Evə çatan kimi Afət Güneli yatağa uzadıb səhər yeməyi hazırladı. Sonra onun dərmanlarını verib, işə başladı . Qızın doğrudan da halı yox idi. Dərslər başlayanda Afət Güneli dərsə getməyə qoymadı, bir iki gün də özünə gəl sonra gedərsən,- dedi. Bu bir- iki gündə əlindən gələni edib Güneli bir az dirçəltdi.

Tətildən sonra dərslər ona daha ağır gəlirdi. Meyidxananın qoxusu ilk günlərdə olduğu kimi yenidən kəskin gəlirdi. Halbuki gedəndə artıq o qoxunu hiss etmirdi. Dərslər insan əzələlərindən idi. Ona görə meyidlərin əzələlini şüşə ilə təmizləyib ayırmalı olurdular. Müəllimlər əlcək geyinməyə icazə vermirdi. Tələbələrin çoxu buna alışa bilmirdi. Daha doğrusu pis qoxu gəlirdi. Buna alışmaq oxumaq qədər çətin olsa daha vacib idi. Hər əzələni gözü ilə görmək, tanımaq lazım idi.

Dərsdən sonra Afət Günelə görə evə tələsirdi. Tərslikdən bu gün rəqsi var idi. Əminə müəllimdən icazə almaq istəyirdi. Günel hələ tam sağalmamış olsa da dərsə getmişdi . Evdən çıxanda qız Afətin gözünə çox solğun, zəif göründü . Dərs boyu onu düşünmüşdü. Əminə müəllimdən icazə almaq elə də asan iş olmasa da, qadın Afətin çox kefsiz , süst olduğunu görüb , get,- dedi. Bu hal ilə rəqs etmək olmaz. Günelə görə evə tez çatmaq istəyirdi, amma kefsizliyi, bu gün meyidxanaya gətirilən qıza görə idi. Sacından ayağına qədər gözəl olan qızın, cəsədini valideynləri gəlib aparmırdı. Deyilənə görə, tibb institutunda deyil, hansısa başqa bir institutda oxuyan bu qız , həmin insti-

tutun dekanı ilə birlikdə Quba yolunda avtomobil qəzasına düşüb ölüb. Dekan da ölüb. Hər ikisi sərxoş imiş.

Afət evə çatanda Günel çoxdan gəlmişdi. Səhərkinə baxanda rəngi ,ruhu yaxşı idi, yeməyini yeyib dərs oxuyurdu. Onu belə görən Afət sevindi. Əksinə Günel onun üzünə təəccüblə baxıb , nə olub ,- dedi. Afət bu gördüyü qızdan danışıb, dedi:

Günel bəlkə də mən hələ belə gözəl qız görməmişəm . Saçları ipək kimi sallanırdı . O qədər zərif idi ki, əl ayaq barmaqları gözümün önündən çəkilmir. Sanki qız deyil, oyuncaq gəlincik idi. Axı mat qalmışam belə bir qız özünü niyə belə biabır edir?! Onun gözəl gəlinliyi olardı. Özü kimi gənc gözəl bir oğlanla ailə həyatı qura bilərdi. İnanırsan o gözəllikdə qızın cəsədi orada qalıb aparan yoxdur.

Günel çiynini çəkib dedi:

Bizim qrupda da bir qız oxuyur . Deyilənə görə bir professorun evində qulluqçuluq edir. Dərslərə də çox vaxt gəlmir. Səhərdən axşama qədər, ac -susuz onların iş -gücünü görür . Mənim onunla yaxınlığım yoxdur Qızlara danışıb ki, evə dönəndə acından bədənim əsir. Valideynlərinin xəbəri yoxdur. Keçən dəfə qızlar üstünə düşüb , biabır etdilər. Get, dərsini oxu ,- dedilər.

Afət dedi:

Niyə belə edir? Dərs oxumayıb yalançı qiymət alır. Belə oxumaqla hansı biliyi yiyələnəcək . Onsuz da axırda qab yuyan olacaq.

Günel qoy rədd olsunlar, - dedi, onların dərdini biz niyə çəkirik?

Afət başını bulayıb dərsini oxumağa getdi. Hərdənbir Vüqarı gördüyü o , günə lənət yağdırmaq istəyirdi. Çünki Vüqar onun rahatlığını əlindən almışdı. Hər yerdə onunla birlikdə idi. Hətta aldığı nəfəsin içində də o, var idi. Nə onunla yaşaya bilirdi nə də ki, onsuz. Onunla olanda düşüncələr onu didib parçalayırdı .Onsuz isə bu dünyanın heç bir mənası olmurdu. Sanki dünya boşalırdı.

Günel vaxtaşırı poçta Vüqarla danışmağa gedirdi. Bəzən Afət də ona qoşulurdu. Hər dəfə Vüqar Afəti də soruşur salam söyləyirdi. Bu dəfə Afət poçtdan hədsiz məyus qayıtdı. Vüqarın axırıncı müəmmalı gedişi, ona təəccüblü gəlirdi. Afətin anladığı o oldu ki, Vüqar onu soruşmadı, salam da söyləmədi. Yol boyu heç biri danışmadı. Daha doğrusu, Günel nə isə deyirdi, amma Afət onu anlamırdı. Çünki nə danışdığını başa düşmürdü. Ona elə gəlirdi ki, Günel ağzını açıb yumur ,səsini çıxartmır Evə necə catdığını hiss etmədi. Qonşunun növbəti davası olmasa , bəlkə də evə çatdığını dərk etməzdi. Qonşuda davanın kriminal səhnəsi idi. Demək ki, yekunlaşırdı. Çünki dava söyüşlə başlayır, döyüşlə bitirdi. Qabların cingiltisindən qulaq batırdı.Gah kişi ,gah da qadın dəhşətlə bağırırdı. Kim -kimi döydüyü məlum deyildi. Onların qapısının ağzından ehtiyatla keçib evlərinə girdilər. Çünki oradan keçəndə, evdən atılmış hansısa əşyaya tuş gələ bilərdilər.

Afətin dərs oxumağa həvəsi qalmamışdı .Özünü zorla toplayıb kitabı əlinə aldı, bir az vərəqləyib ağzını örtdü. Dərslər çox ağır idi. Kitabın ağzını örtmək iki almaq demək idi. Amma Afət babasını xatırlayıb örtdü. Babası deyirdi ki, gördün başına bir şey girmir, beyninə istirahət ver. Əgər buna istirahət demək olardısa, onu yoran fikirlər elə öz yerində idi. Afət qalxıb evləri yığışdırmağa başladı. Günel onu hər şeyi söküb ortaya tökdüyünü görüb təəccüblə soruşdu:

Nə edirsən?

Afət bu cavab ağlına gəldiyinə görə sevindi, Günelin üzünə baxıb dedi:

Axı biz İstanbula festivala getməliyik. Sən hələ də özünə gəlməmisən . İstəyirəm vaxt tapan kimi evləri təmizləyim. Qarşıdan novruz bayramı gəlir.

Günel bir az susub dedi:

Dərsini oxu , sonra bir yerdə təmizləyərik. Mən də yavaş -yavaş özümə gəlirəm.

Afət qətiyyətlə yox ,- dedi. Qəfil ağlına gələn söz onu daha da həvəsləndirdi. Gecənin yarısına qədər yığıb yığışdırdı. Yorulub əldən düşəndə kitabı əlinə aldı. Səhərə qədər həvəslə oxudu da doğrudan da beyni dincəlmişdi.

Qış sona yetmək üzrə idi. Yavaş - yavaş soyuğunu, çovğununu , sazağını yığıb getməyə hazırlaşırdı. Uzaqdan da olsa baharın hərarəti , duyulurdu. Onun torpağa dəyən hərarəti ətrafı təravətləndirməyə başlayırdı . Bahar təbiəti , yeri göyü ,silkələyib oyatdığı kimi insanların da hisslərini oyadırdı. Yarpaqlamağa

hazırlaşan ağacların, yaşıllaşan torpaqların, qönçə bağlayan güllərin təravəti qəlbləri riqqətə gətirdiyi halda , Afətin ürəyinə dərin bir kədər çökürdü. Günbəgün dərin bir quyunun dibinə doğru getdiyini hiss edirdi. Vüqarla rastlaşdığı günə lənət yağdırmaq istəmirdi. Bəlkə də həmin gün Vüqarla qarşılaşmasa arzuları ömürlük ürəyində qalacaqdı. Doğrudan da onu Bakıya gətirən olmasa , həkim olmaq istəyi , arzu olaraq qalacaqdı. Kimsənin onu Bakıya oxumağa gətirmək fikri yox idi. Afət özü isə heç nə edə bilməzdi. Ona görə Vüqara hər şeyə görə minnətdar idi. Lakin bunlarla yanaşı özünə də qızın qəlbində yer etməyinin ona bağışlamırdı. Başqalarının məhəbbəti kimi , bu məhəbbət də iki tərəfli olsa qızın nə dərdi olardı. Öz məhəbbəti ilə qurur duyardı. Onu ən müqəddəs eşqlərdən sayıb əzizləyərdi. Lakin onun məhəbbəti qarşılıqsız idi. Vüqarın bu barədə xəbəri yox idi. Bəlkə belə bir şey heç vaxt ağlının ucundan da keçməzdi Afətin isə məhəbbətini bəyan etməyə risqi çatmazdı. Bunu özünə sığışdıra bilməzdi. Qız düşündükcə ürəyi sıxılırdı.

Axır günlər Əminə müəllimə daha da gərgin idi. Çünki, İstanbula getmək vaxtı çatırdı. O ,da çox ciddi və tələbkar idi. Qızların arasında ən çox narazı olduğu qız da Afət idi. Həmişə deyirdi. Ay qız bu vücud, bu zəriflik səndə olmasa, səni qrupdan çıxardardım. Bir həvəsin olsun. Elə bil rəqs etmirsən , zorla sürünürsən. Rəqs canlıdır, o daxildən gələn bir sevinci ifadə edir. Sən sanki, daxilindəki sevinci hərəkətlərlə ifadə edirsən.

Amma sənə baxan elə bilər ki ,daxilin kədərlə doludur. Sən də onu ifa edirsən . Afət hər dəfə istəyirdi ki, desin elədir, amma susub zorla özünü canlı göstərməyə çalışırdı.

Qızlar İstanbula getdikləri üçün sevinirdi. Həvəslə hazırlaşıb , günləri sayırdı. əksəriyyəti təyyarəyə minmək həvəsində idi. Afət də təyyarəyə minməmişdi, amma heç nəyə həvəsi yox idi. Nəhayət qızların həvəslə , Afətin müəmma ilə gözlədiyi həmin gün gəlib çıxdı .Səhər yola düşməli idilər. Afət axşamdan hazırlaşırdı. Günel maraqla ona baxıb dedi:

Kaş sənlə mən də gedəydim , sevinərdim. Amma sən elə bil biyara gedirsən, heç sevinmirsən. Afət kefsiz - kefsiz çiynini çəkib dedi:

Nə bilim heç sevinməyim gəlmir.

Günel dedi:

Nahaq yerə , o boyda İstanbulu görəcəksən. Maraqlı görüş keçirəçəksiniz. Heyf ki, Vüqarla , Zaur İstanbulda deyil. Yoxsa onlarla da görüşərdin.

Afətin elə bir başına bir qazan su tökdülər . Başqa vaxt özünü toplamağı bacaran Afət indi özündən asılı olmayaraq təəccüblə dedi:

Neçə yəni İstanbulda deyillər, bəs haradadılar?

Günel dedi:

Sən bilmirsən, sənə deməmişəm? Onlar artıq bir aya yaxındır ki, Almaniyada təcrübə keçirlər. Üç ay hələ orada olacaqlar.

Qız donub yerində qaldı. Ürəyinin dərinliyində olan yeganə ümid qırılıb töküldü. Ona elə gəlirdi ki, Vüqarı

görsə mütləq nə isə bir şey anlayacaq. Afətin anlamadığı bir şey də var idi. Günel axır vaxtlar demək olar ki, Vüqarın adını ağzına almırdı. Halbuki, əvvəllər onun hər addımından söhbət edib, az qala Afəti bezdirirdi. Afət dodağının altında heç Zaurun da Almaniyada olduğunu bilmirəm, - dedi.

Nəhayət sonuncu də gün gəlib çatdı. Günel canfəşanlıqla Afətə yığışmaqda kömək etdi, yola geyinməyə paltar seçdi. Başqa vaxt məsləhət verməyi sevməyən Günel, indi dil boğaza qoymurdu. Bu çantanı götür, o ayaqqabını geyin, sacına bu sancağı vur və sairə bu kimi sözlər deyirdi. Afət yuxulu kimi Günel nə deyirdi onu da edirdi. İkisi də gah o tərəfə , gah da bu tərəfə fırlanırdı. Birdən ayağını saxlayıb Günelin üzünə baxdı. İndi də ikisi birdən qəhqəhə ilə gülməyə başladı. Gülməklərinin səbəbini bilməsələr də gözlərindən yaş gələnəcən güldülər.

Hava limanında Afət Güneli minnətdarlıqla xatırlayırdı. Çünki geyimi rahat və dəbli idi. Qız birinci dəfə idi ki, təyyarə meydanında idi. Ətrafa göz gəzdirdikcə marağı artırdı. Burada qəribə geyimli , fərqli simalı başqa millətdən olan insanlar iki bir üç bir dayanmışdı. Bir tərəfdə boyları Afətgildən bir baş hündür olan , boskedbolcu oğlanlar dayanmışdı . Afət onlara baxıb düşünürdü, bizim qızların boyuna görə qrupumuza çinar adı verilib, görəsən bu qrupun adı nədir? Onların az qala ortasından duran qıyıq gözlü kitaylıların danışıq tərzi də başqa idi. Amma ən gülməsi dama - dama ətək geyinmiş iki ,uca boylu

Şotland kişilər idi. Bütün bunları seyr edən Afətə elə gəlirdi ki, gözünün önündə dünyaya pəncərə açılıb . Tez – tez radio ilə başqa ölkələrə ucan təyyarələrə minik başlandığını elan edən qızın danışıq tərzi də Afətə qəribə gəlirdi. Az sonra elə həmin tərzdə İstanbula gedən təyyarəyə minik başlandığını elan etdi .Afət uçuşu əla keçirdi. Qızlardan bəziləri özlərini narahat hiss etsələr də ,Afətin təyyarədən heç bir narazılığı olmadı. Əksinə ona yuxarıdan baxanda çox kiçik görünən dağlar, meşələr , çaylar , evlər hər şey sehrli görünürdü. Təyyarədən enəndə isə qızı təəccübləndirən buradakı hava limanındakı qızın da danışıq tərzi eyni Bakıdakı qızın tərzinə oxşamağı idi. Nəhayət bu hava limanının danışıq tərzi olduğunu düşündü. Afət cəmi bir neçə saatdan sonra özünü doğma bir ölkədə hiss etdi. Türkiyədə demək olar ki, hər addımda doğmalıqla qarşılaşırdı. Doğrudan da , Azərbaycanla Türkiyənin bir millət iki dövlət olduğunu anladı.Bu iki dövlətin millətləri arasındakı kökdən bağlılıq hər an özünü birüzə verirdi. Konsert onların gözlədiyindən daha möhtəşəm keçdi. Başqa dövlətlərdən gələn rəqs qruplarından daha çox onların rəqsi, məhəbbətlə qarşılandı. Alqış səsləri göyə ucalırdı. Burada Azərbaycandan fərqli olaraq , istəklərini daha çılğınlıqla göstərirdilər . Çəpik səsləri, fit vermək qızları bir an çaşdırsa da , sonra bunların hamısının alqış səsləri olduğunu anladılar. Afət həyəcan içərisində gözünü zala hərlədi. bir an damarında qan donub qaldı. Ona elə gəldi ki səhnənin lap yaxınlığındkı qapının ağzında ayaq üstə

dayanıb, əllərini sinəsində carpazlaşdırıb dayanan oğlan Vüqardır. Özünü zorla ələ alıb rəqsini davam etdi . İkinci ,üçüncü dairəni fırlandılar , Afət artıq o tərəfə baxmağa ürək etmirdi. Oğlan Vüqar olsa da ona həyəcanı artacaqdı, o , olmasa da ona pis təsir edəcəkdi. Odur ki artıq gözünü zala tərəf çevirmədi.

Konsert alqışlarla son yetdi. Finalda bütün qruplar yenidən səhnəyə qayıtmalı oldu. Bayaqdan ürəyinin döyüntüsü koftasının sinəsini tərpədən ,Afət qorxa – qorxa başını qaldırıb qapının ağzına tərəf baxdı ,dərhal zal başına fırlandı. O, oğlan Vüqar idi. Hamıdan fərqli olaraq , elə bayaqkı kimi qollarını sinəsində çarpazlayıb durmuşdu. Hər həs əl çalır, nələrsə qışqırırdı. Vüqar isə sakitcə dayanıb tamaşa edirdi. Afət indi də onun belə münasibətindən narahat olmağa başladı. Özünü daha da itirdi.

Qrim otağında canlanma var idi. Əminə müəllimə qızları tərif edir, alqışlayır , təbrik edirdi. Sevincini qızlarla paylaşır , hər kəsi ayrı ayrılıqda müzakirə edirdi. Birdən üzünü Afətə tərəf çevirib , qızım sən niyə birdən birə həyəcanlandın?- dedi. Afət Əminə müəllimənin onun həyəcanını hiss etdiyinə görə mat qalıb təəccüblə onu üzünə baxdı. Lakin Əminə müəllimə çox dərinə getmədən əlini yüngülcə onun da çiyninə vurub, keçdi. Qızlar paltarlarını dəyişib bir - bir qrim otağını tərk etdilər. Afət isə donub yerində qalmışdı. Günel Vüqarın Almaniyada olduğunu söyləmişdi. Bəs görəsən Zaur haradadır? O,nəyə görə gəlməmişdi ? Qapı lap alçaqdan da döyülsə qız diksinib dik

atıldı. Dönüb təəccüblə qapıya baxdı .Nə deyəçəyini bilmədiyi üçün qalxıb qapıya yaxınlaşdı. Qapını yavaşca itələyib açdı. Vüqarla üzbəüz gəldi. Salamlaşıb gözləməyini xahiş etdi. Beş on dəqiqəyə dəyişib gəlirəm – dedi.

Beş dəqiqədən sonra Afət paltarını dəyişib aşağı düşdü . Pilləkənlərdən düşüb ətrafa boylandı . Vüqar üzü qapıya tərəf olan skamyaların birində oturub jurnala baxırdı. Afət ona yaxınlaşıb bir daha xoş gördük ,- dedi. Vüqar ayağa durub, qıza oturmağa yer göstərdi. Sonra qıza baxıb gülümsündü və dedi:

Yaxşı rəqs etməyin də var imiş .

Afət qıpqırmızı qızarıb dedi:

Amma sən əl çalmırdın.

Vüqar dedi:

Mən sözümü əl ilə deməyi xoşlamıram.

Afət dedi:

İndi bir – bir bütün qızlara gedib fikrini sözlə deyəçəksən. ?

Vüqar dedi:

Tək bir sən yaxşı oynayırdın .Mən də sözümü sənə dedim.

Afət daha da qızardı. Vüqar başını əyib onun düz gözünün içinə baxıb sən qu quşuna bənzəyirdin,-dedi. Afətin nə deyəcəyini gözləmədən Güneli soruşdu.

Afət dedi:

Günel xəstəlikdən çox çətin sağaldı.

Vüqar təəccüblə dedi:

Amma mənə heç nə deməyib.

Afət Vüqarın üzünə baxıb dedi:

Bəs Zaur necədir, o niyə gəlməyib?

Vüqar dedi:

Zaur Almaniyadadır. Mən təsadüfən gəlmişdim. Bir işim var idi. Günel sizin burada olduğunuzu söylədi. Mən də anama dərman göndərməliyəm .Düşündüm ki, dərmanları sənə verərəm.Vüqarın sözündən Afətin ürəyi sıxıldı. Əlbəttə apararam , - dedi.

Araya üzün bir sükut çökdü. Afət ayağa durub getməyə hazırlaşdı. Vüqar gedirsən? - dedi. O,Əminə müəllim aşağı düşməmiş getmək istədiyini söyləyib, Asudə xanımın dərmanlarını soruşdu. Vüqar isə, dərmanı hava limanına gətirəçəm , - dedi. Nə vaxt gedəçəkləri günü və saatı soruşub xudahafisləşdi. Bir addım atmışdı ki, Vüqar onu səslədi , ürəyi yenidən silkələnməyə başlayıb quş kimi ucundu. O , arxaya çevriləndə Vüqarla üzbəüz qaldı. Vüqar qızın düz gözünün içinə baxıb, Nadirin qəbrini ziyarət etməyə getmirsən?-dedi.

Afət donub yerində qaldı. Nə cavab verəçəyini düşünüb təəccüblə Vüqarın üzünə baxıb dedi:

Yox! Uşaqlardan heç bu təklifi heç irəli sürən olmayıb. Bizim dərslərimiz çox ağırdır, vaxtımız olmur.

Vüqar hə, nə bilim sən o qədər ağlamışdın ki, həftədə bir dəfə onun qəbrini ziyarət edçəyini düşünürdüm.

Vüqar bir göz qırpımında çəkilib getdi. Afət donub yerində qalmışdı. Vüqarın bu sualı ona çox qəribə gəlirdi. O, öz -özünə suallar yağdırırdı ki, pillələrin ba-

şında Əminə müəllimi görüb qaça – qaça pillələrlə yuxarı qalxdı.

Əminə müəllimin ilk sözü bu oğlan kimdir oldu ? Afət Vüqarın rayonlarından olduğunu, onların evində onun bacısı ilə qaldığını və indi xəstə anasına dərman göndərmək məqsədi ilə gəldiyini bir nəfəsə söyləyib, içinə bir rahatlıq çökdü. Əminə müəllim ayağını saxlayıb onun üzünə baxdı. Amma qıza elə gəldi ki, Əminə müəllim onu üzünə deyil, ürəyinin içinə baxır. O, düşündü ki, gözünün önündə dayanmış insandan hisslərini gizləmək üçün, göz qapağını aşağı sala bilərsən , ürəyindən keçənləri isə görəsən necə gizlətmək olar.? Qızın bir an ürəyindən keçdi ki, desin Əminə müəllimə nə olar ürəyi oxumaq qabiliyyətini mənə ver. Mən də Vüqarın ürəyini oxumaq istəyirəm. Əminə müəllimə qıza uzun və mənalı bir baxışla baxandan sonra , hər kimdirsə yaxşı oğlana oxşayır,-dedi.

Yeməkdə qızlar bir sız danışmadan başlarını sallayıb yeməklərini yedilər .Lakin yeyib içəndən sonra ,hərəsi bir tərəfdən üstünə düşüb o, oğlanın kimliyini soruşmağa başladılar. Dil boğaza qoymadan belə yaraşıqlı oğlanla Afətin nə əlaqəsi olduğunu xəbər alırdılar. O, heç bir suala cavab vermədi. Bircə kəlmə bizim rayondandır deyib kifayətləndi.

Həmin gecə ilan vuran yatdı, Afətin gözünə yuxu getmədi. Səhərə qədər Vüqarın qəhvəyi rəngli kostyumu, açıq qəhvəyi rəngli köynəyi, tünd qəhvəyi rəngli qalstuku, düzgün qaməti , gözünün önündən çəkilmirdi. Axşamdan bəri etdikləri söhbəti dönə- dönə

xatırlamışdı. Vüqarın onu qu quşuna bənzətməsini düşündükcə, qəribə hallar keçirirdi. Amma Nadirin məzarını xatırlamağından isə bir şey anlaya bilmirdi. Bəzən Vüqarın onu Nadirə qısqandığını düşünür, amma bu fikrin üstündə dayana bilmirdi. Vüqarın onu rəhmətə getmiş oğlana necə qısqana bilməyini ağlına gətirə bilmirdi. Bir də ki, Vüqar onu nəyə görə qısqanmalıdır, -deyə düşünürdü? Bu sözü öz –özünə dəfələrlə düşünüb , gözündən yaş leysan kimi axmağa başladı. O, başını yastığın altına soxub az qala səhərə qədər ağladı. Nə vaxt yuxuya getdiyini xatırlaya bilmirdi. Təkcə Afətə bir şey aydın idi ki, düşdüyü qara sevda idi. Bu bəladan necə qurtulacağını da bilmirdi. Hər dəfə Vüqarla rastlaşanda yarası daha da dərinləşirdi. Qıza bir də o aydın idi ki, bu sirri heç kəslə bölüşməyəcək.

Ertəsi gün yuxudan oyanan kimi , Nazilə onun gecə niyə ağladığını soruşanda dişi ağrıdığını söylədi. Bir azdan qızlar, ona dərman təklif edəndə Əminə müəllim dərman lazım deyil, keçəcək, - dedi. O, ağrıya dərman kömək etmir.

Sonrakı günlər keçirdikləri konsertlər də uğurla keçdi. Türklər tərəfindən coşqu ilə qarşılanıb , alqışlarla yola salındılar. Əminə müəllimin dediyinə görə, eyni kökə malik olan bu xalqlar arasında dostluğa əsas səbəb dillərinin , dinlərinin , adət - ənənəlirin, musiqilərin, folklorlarının eyni olması idi. Bütün bunlar isə onların bir kökdən ayrıldığını bir daha təsdiq edirdi. Lakin bu uğurlar , bu möhtəşəm konsertlər , alqışlar,

Afətin qəlbinə çökmüş kədəri götürə bilmirdi. O, gecə gündüz Vüqarın doğrudan da təsadüfən gəldiyini düşünürdü. Çünki o , demişdi anama dərman göndərməliyəm, səni ona görə axtardım. Əgər belə olmasaydı bu iki gün ərzində bir dəfə olsun gələrdi. Afətin gözü axşama qədər yolda qaldı . Vüqar gəlmədi.

Bu gün Türkiyədə keçiraçəkləri axırıncı gün idi. Axşam saat altıda hava limanında olmalı idilər. Təyyarə yeddidə uçmalı idi. Vüqar bunu bilirdi. Demək gəlsə bu gün ərzində gəlməli idi.

Qızların səsi küyü aləmi götürmüşdü. Qəhqəhə səsləri ətrafa yayılırdı. Afət onların nəyə bu qədər şad olduqlarına təəccüblənirdi. Hətta əvvəl onlara acığı tuturdu. Sonra isə özünə acığı tutdu. Axı nəyə görə , Vüqarı bu qədər düşünürdü. Heç vaxt özünü alçaltmağa razı olmazdı. Ağlı kəsəndən məqsədinə nail olmağa, hisslərinə hakim kəsilməyi bacarmağa çalışırdı. Afət düşüncələr içərisində baş sındırır , otaqdan kənara çıxmırdı. Vüqara aid olan fikirlərin üzərindən xətt çəkmək haqqında düşünür və qətiyyətlə onu qəlbindən çıxarmaq haqqında qərar verib güzgünün qarşısına keçib özünə , saçına əl gəzdirmək istədi. Darağı götürüb , gur qara saçlarının gah sağ tərəfindən , gah sol tərəfindən tağ ayırıb , daramağa başladı. Sonra zil qara gözlərinə sürmə çəkdi .Bir az da bəzənəndən sonra güzgüdə özü öz gözünün içinə baxdı. Və ona bir şey aydın oldu ki, bütün bu bəzəklər yenə də Vüqara görə idi. Çünki o, Vüqarı qəlbindən birdəfəlik atmaq haqqında düşünə- düşünə saata baxıb hava li-

manına getməyi, Vüqarın gələcəyi vaxtı gözlədiyini anlayıb məyus oldu. Vüqarın gələcəyini bilmirdi. Sadəcə ümid edirdi. Hansı ki,ümid demək olar ki, iynənin ulduzu qədər idi. Onu ayaq üstə qaldırıb , bəzənib düzənməyə məcbur edən də o kiçicik ümid olduğunu bir daha anlayıb qanı daha da qaraldı. Qız öz acizliyi qarşısında donub qalmışdı ki, qızlardan biri, qapını azca aralayıb Afət aşağı düşürük ,sən getmək istəmirsən ?- dedi. Afət əvvəl yox deyib, tez dalınca sual verdi:

Aşağı , yəni hara?.

Qızların arasında Afətin ən çox yaxınlıq etdiyi Elnarə dedi:

Afət, qızlar mağazaya gedir getmək istəmirsən? O, bura gələndə qızlar mağazalardan ucuz qiymətə yaxşı hədiyyə almaq olduğunu söyləmişdi. Afət onu yadına salıb ayağa durdu. Günelə və əmisi qızlarına hədiyyə almaq istəyirdi. Qızlara qoşulub otelin yaxınlığında küçə boyu düzülmüş kiçik dükanları gəzməyə başladı. Doğrudan da ürəyinə yatan, hər şey var idi. Qızlara hədiyyə alandan sonra , Nüşabə ilə Tünzaləyə də hədiyyə aldı. Hətta özünə də bir neçə kofta aldı. Həm özünə aldığı koftalar , həm aldığı hədiyyələr Afətin ürəyini açdı. Geri dönəndə artıq əmməli başlı özünə gəlmişdi. Yemək yeyib hava limanına getdilər. Qapıdan içəri keçən kimi ilk gözünə dəyən Vüqar oldu. Qız onu az qala zola tanıya bildi. O, tam fərqli bir geyimdə idi. Afət Vüqarı tanıyandan onu belə görkəmdə görməmişdi. Vüqar demək olar ki, hə-

mişə klassik geyimdə olurdu. İndi isə o , idman tipli ağ şalvar köynək, üstündən qara yaxalığı olan yüngül yaz gödəkcəsi və qara rəngli idman ayaqqabıları geyinmişdi.Bu görkəm ona çox yaraşırdı. Daha yaraşıqlı, sağlam və qüvvəli görünürdü. Afət bir an özünü itirsə də deyəsən bayaqdan bəri özünü danlamağın xeyri olmuşdu. Özünü ələ alıb, Vüqara soyuq bir münasibət göstərib, salamlaşdı. Vüqar əlindəki çox da kiçik olmayan bağlamanı Afətə göstərib bu bağlamanı anama göndərərsiniz, - dedi. O, əlini bağlamaya uzadıb götürmək istəyəndə, Vüqar əlini dala çəkib saxlamışam gedəndə götürərsən,- dedi . Vüqar çiynindəki idman çantasını o biri çiyninə keçirib, sənə nə olub Afət ,- dedi. Afət onun üzünə təəccüblə baxıb nə olub ki, deyə soruşdu. Sözünü bitirər- bitirməz qıpqırmızı qızardı. Vüqar onun üzünə diqqətlə baxıb dedi:

Rəngin saralıb, kefsiz görünürsən. Oynayanda da həvəssiz rəqs edirsən. Dünən mənə elə gəldi ki, xəstələnmisən.

Afət daha da qızardı . Çiynini çəkib dedi:

Dünən sən harada idin?

Vüqar gözünü onun üzündən çəkmədən, mən sizin bütün konsertlərinizə gəlirdim. Amma səni çox həvəssiz gördüm.

Afət özünü tamamilə itirib, dedi:

Qayıdanda daha qrupdan ayrılacam. Mən rəqsi etməyi elə də sevmirəm.

Afətin daha da tutulub qızardığını görən Vüqar səhv etdiyini başa düşüb, dediyi sözlərə görə peşman olub dedi:

Yox Afət sən məni düzgün başa düşmədin. Sənin istedadın var,hər sahədə bacarıqlısan . Sadəcə gözümə çox kefsiz göründün. Mən pis rəqs edirdin demirəm . Afət yenə də nə bilim deyib , sözün üstündən keçdi. Vüqar əlini gödəkcəsinin çibinə atıb, qələm çıxartdı. Onu ilk əvvəl Afətə göstərib , sonra sənə almışam ,– dedi .Qələm qızın nəzərini cəlb etdi. Vüqar əlindəki qələmi gah dikinə , gah da tərsinə ütürdü. Qırmızı rəngli qələmin içərisi maye ilə dolu idi. Maraqlısı o idi ki, mayenin içərisində kiçik oyuncaq rəqqasə qız gah bir tərəfə, gah da digər tərəfə doğru rəqs edirdi. Rəqsə başlamazdan əvvəl oyuncaq rəqqasənin qırmızı ətəyi açılıb böyüyürdü . Hərəkət etdikcə ətək dairə şəklinə düşürdü. Hədiyyə Afətin çox xoşuna gəldi. O, maraqla qələmə baxır deməyə söz tapa bilmirdi. Özündən asılı olmayaraq əlini uzadıb qələmi Vüqardan almaq istədi. Amma Vüqar qələmi ona verməyib, yenidən o tərəf , bu tərəfə tutub, rəqs edən oyuncaq rəqqasəyə baxırdı. Nəhayət Vüqar qələmi ona uzatdı . Afət əlini uzatmazdan əvvəl başını qaldırıb, Vüqarın üzünə baxdı. Onunla göz - gözə gəldi. Hər ikisi birdən gülməyə başladı. Afət qələmi Vüqardan alıb , Almaniyaya nə vaxt gedəcəyini soruşdu. Vüqar çiynindəki çantaya işarə edib, sizdən bir saat sonra da mənim təyyarəm qalxacaq,- dedi. Afət əlindəki qələmi bir iki dəfə üzü aşağı , üzü yuxarı tutub, oyuncaq rəqqasəyə baxandan sonra gülümsünüb qələmi çantasına qoydu. Sonra Zauru soruşdu. Bu il rayona gələcəkmi ?- deyə sual verdi. Sualdan sonra Vüqarın Afət hiss edəcəyi qədər kefi po-

zuldu. Bir az fikrə gedib yayda ikimiz də rayona gələcəyik , - dedi. İki ildir ki, istirahət etmirik. Yenə mən hərdən aradan çıxa bilirdim, amma Zaur çox darıxır, günləri sayır. Radioda Bakıya uçan təyyarəyə minik başladığını elan edəndə Afərin qanı qaraldı. Onunla Vüqarın arasında hələ bu günkü qədər səmimiyyət yaranmamışdı. Bayaqdan gözlərini onlardan çəkməyən qızlar , əl qollarının hərəkəti ilə getmək lazım olduğunu işarə edirdi. Afət başının hərəkəti ilə təyyarəyə minik başladığını bildirib xudahafiz deyib qızlara tərəf bir addım atmışdı ki, Vüqar da yaxşı yol deyib ona əl uzatdı.

Təyyarənin pəncərəsindən aşağı baxan Afətə elə gəlirdi ki, topa - topa görünən ağ buludların üzəri ilə qaca - qaca irəliləyir. Onun Vüqarın hədiyyəsindən xoşu gəlmişdi. Ona elə gəlirdi ki, Vüqar rəqs edən kiçik oyuncaq rəqqasəni ona bəzədib alıb. Üstəlik onun qələmə baxışında bir maraq ,sevgi duydu. Bir də ki, Vüqar onun bütün konsertlərində iştirak etmişdi. Təkrar - təkrar eyni konsertdə bir marağı olmasa kim iştirak edər ?- deyə düşünürdü. Təyyarə Bakıya çatana qədər Afət Vüqarın hər hərəkətini gözünün önündə çanlandırır ,hər kəlməsini təkrarlayırdı. Oyuncaq rəqqasəyə baxmağını isə heç unuda bilmirdi.

Türkiyədən böyük həvəslə dönən Afətin, getgedə nəşəsi pozulmağa başladı. İlk günlər böyük həvəslə xatırladığı hər hərəkət, hər söz gözündə adiləşdi. Hətta burada qeyri adi heç nə olmadığını düşünüb daha da məyus olmağa başladı. Sonralar isə doğrudan

da o xatirələrin heç bir məna kəsb etmədiyini qəti qərara alıb , o barədə düşünməməyə çalışdı.

Bahar bitmək üzrə idi. Təbiət oyanıb, çanlanmışdı. Afət ətrafa baxıb , ağacların nə vaxt yaşıllaşdığına təəccüb edirdi. Dərs oxuyub , xəstəxanalara qaçmaqdan vaxt tapmayan qıza bir an elə gəldi ki, fəsillər onun yanından ötüb keçir. Çünki onun heç bir fəslin gəldiyindən, getdiyindən xəbəri olmurdu. Budur bahar gəlmişdi, ətraf yaşıllaşmışdı, havalar qızmışdı. Rayonda olanda baharın gəlişini həsrətlə gözləyirdi. Afətə görə bahar demək elə bayram demək idi. Çünki ,baharda hər həftə çərşənbələr olmağı bir yana , Afətlə Jalənin ad günü , qadınlar bayramı, hamısı bahara təsadüf edirdi. Beləliklə baharda bayram günləri bitmək bilmirdi. Hər dəfə yaz aylarında məktəbə gedəndə çantasına şəkərbura ,paxlava, qoğal qoymaqdan kitab dəftərini yağa batırırdı. Məktəbdə isə buna görə danlanmalı olurdu. İndi isə ad günü nə vaxt gəlib keçdiyini xatırlamırdı. Bayramda sadəcə yemək vaxtı , rayondan göndərilən yeməkləri, şirin çörəkləri yemişdi. Daha heç bir bayram əhval ruhiyyəsi hiss etməmişdi. Yamyaşıl kiçik bir tut ağacına baxıb ,Məsmə nənəsi ilə onun qardaşlarının evlərinə getdiyini xatırladı. Nənəsinin üç qardaşı yanaşı məhlələrdə yaşayırdı. Yazda hər üçü baramaya baxırdı. Bu barama qurdlarının qəribəlikləri var idi. Afətə onlara baxmaq çox maraqlı gəlirdi. Qurdları bəsləmək qırx gün çəkirdi. Bütün günü tut yarpaqlarını yığıb gətirirdilər. Həmin dövrdə bütün bu üç evin ailə üzvlərinin sözü söhbəti , baramadan olur-

du. Hətta hər il bu dövrdə baramanın tarixindən , ipəkqurdunun ana vətənindən söhbət açırdılar. Qəribə də olsa Afət ipəkqurdu, haqqında hər şeyi bilsə də hər il yenidən dinləməyi sevirdi.

Rəvayətə görə Cin imperatoru bağçada gəzərkən bir qurdun tut yarpağını yeyib , sonra da barama hördüyünü görüb, təəccüb edir. Həmin imperator bu qurdun həyatını daha yaxından araşdırmağı arvadına tapşırır. Barama ilə yaxından maraqlanan kraliça, baramadan ipək düzəlmək mümkün olduğunu deyir. O vaxtdan həmin kraliçanın adı tarixdə ipək ilahəsi kimi qalır və Çində baramaçılıq inkişaf edir. Çin dövləti bu qiymətli xəzinəni illər uzunu gizli inkişaf etdirməyə çalışsalar da mümkün olmur. Baramaçılıq neçə deyərlər Çin səddini keçib başqa – başqa dövlətlərə də yayılır. Bu sirri əlinə keçirən bütün dövlətlər gizli saxlamağa çalışırlar da ,lakin yer qulaqlıdır deyib ,atalar. Hər ölkə baramanın həmin ölkəyə gəlişi haqında bir, bəzən də bir neçə rəvayət danışılırdı. Məsələn deyilənə görə bir hökmdarın qızı başqa hökmdarın oğlu ilə ailə quranda atasında xəlvət saçlarının arasında özü ilə barama qurdunun toxumlarını aparıb.

Bunları dinləyən Məsmə nənəsi deyirdi ki, eh nə bilim bu qurd nə qədər xeyr versə də yazıq özü özünü ipək kəfənə bükür.

Bütün yaxşı günlər isə baramanın satışından sonra başlayırdı. Əllərinə bol pul gəlmiş nənəsinin qardaşları kef məclisi qurub, yeyib içirdilər. Afət də nənəsi

ilə birlikdə həmin günlərdə onlarla birlikdə şənlənirdi.

Afətin birdənbirə o günlər üçün , daha doğrusu nənəli günləri üçün burnunun ucu göynədi. Kaş oraya qayıtmaq üçün bir qapı olaydı və birdən sıxılanda , darıxanda qaçıb həmin qapıdan içəri girmək olaydı deyə düşündü. Belə bir qapının olmadığını düşünsə də imtahanların qurtarmağına az qaldığını yadına salıb sevindi. Afət bu sevincin içərisində yenə də, uzaqdan bir yol görürdü. Bu yolun sonunda ümid axtarırdı. Ona birdən birə aydın oldu ki, rayona gedəçəyi günü , orada Vüqarı görəçəyini gözləyir . Sən demə ürəyinin dərinliyində bu görüşün cürbəcür təsvirlərini yaradıb. İndi onların hamısı qısa filmlərin kadrları kimi bir - bir gəlib gözünün önündən keçdi. Afətin özü özünə mat qaldı , axı o Vüqarı düşünməməyi qərara almışdı. Dərslərini ağır olduğundan razı qalmışdı ki, o barədə düşünməyə vaxtı qalmırdı. Amma halbuki, düşünürmüş , vaxt tapıb xəyallar qururmuş özü də bir deyil, onlarla xəyal . Qıza bir daha aydın oldu ki, o xəyallar onun üçün əzizdir. Və ora düşəndə oradan çıxmaq istəmir.

Qızların səsi Afəti xəyaldan ayırdı. O , xəyallarından çox məyus ayrıldı. Demək özü –özünü aldadırmış. Ürəyinə girmiş o qəhrəman yerindəcə oturub, bəlkə də yerini daha da bərkidib. Bu qarışıqlıqda , imtahanların basabasında , gedən bahardan , gələn yaydan xəbər tutmadığı bir vaxtda ,ona aid bu qədər şey düşünüb,

bu qədər xəyallar qurubsa, demək doğrudan da yerini daha da bərkidib.

Qızlar yenidən onu səslədilər. Afət bilirdi ki, bu xəstəxanada, boğazından əməliyyat olmuş bir qız yatır. Artıq bir həftəyə yaxın bir vaxt idi ki, bütün qrupun qızları, bu qızın nişanlısından danışırdı. Demək olar ki, bu oğlan mövzuların qəhrəmanına çevrilmişdi. Qızlar ondan danışıb gülsələr də ,qızların bəzisi onun nişanlısına həsəd aparırdı. Amma Afətin oğlandan ağlı bir şey kəsmirdi. Əslində onun hərəkətlərini biabırçı sayırdı. O,palataya çatanda yenə də qızın hərarəti qalxıb halı pisləşmişdi. Oğlan isə növbəti şounu qurmuşdu. Həkimin , tibb bacısının üstünə qaçıb, nişanlısına bir şey olsa, hərarəti düşməsə özünü pəncərədən atacağını söyləyirdi. Qızın isə halı getgedə xarab olurdu. Onun həm hərarəti qalxmışdı, həm də ürəyi bulanırdı. Həkimlər əlindən gələni edir , Vəfanı vəziyyətdən çıxarmağa çalışırdı. Nəhayət professor Tağı Cəfərlini çağırdılar . Kişi qızı müayinə edib nələrsə tapşırandan sonra, oğlanın hərəkətlərindən hövsələsi daralıb üzünü ona tərəf çevirdi. Gözündən eynəyini çıxartdı və dedi:

Bu nə şoudur, heç utanırsan?

Oğlan dodağının altında nə isə mızıldandı, lakin professor onu dinləmirdi. Xəstəni sakitləşdirməyə çalışırdı. Qızlar gülməkdən özlərini saxlaya bilmirdilər.

Bir neçə gündən sonra Vəfadan, onun nişanlısından, dastan danışıb gülən qızlar, eşitdikləri xəbərdən dəhşətə gəldilər. Təhlillərin sonucundan məlum oldu ki

, yazıq , gənc qız xərçəng xəstəsidir. Onu bu xəstəxanadan çıxardıb xərçəng xəstəxanasına apardılar. Deyilənə görə yaşamaq ümidi yoxa bərabər idi. Burdaca hər şey bitdi. Daha onun haqqında nə isə danışıb gülməyə heç kimin həvəsi qalmadı.

Havalar daha da qızmağa başlamışdı. Günel imtahanları başa vurmuşdu. Afət isə gələn həftə bitirməli idi. Afət Günelin darıxdığını görüb israrla çıxıb rayona getməsini tələb etdi. Bir həftə buralarda boş boşuna niyə otururs an , get Asudə xalanın yanına. Mən burda qorxası ha deyiləm, - dedi.

Günel əvvəl , səni də gözləyim birlikdə gedək deyib etiraz etsə də Afətin sözü ürəyindən idi. Əslində getmək istəyirdi, amma çəmi bir həftəyə görə rəfiqəsinin xətrinə dəymək istəmirdi. Afət isə sözünün üstündə durub Güneli rayona yola saldı. Birlikdə gedib qatara bilet aldılar. O, qonşu qız ilə Güneli yola salıb evə dönəndə, qonşuda növbəti dava gedirdi. İçəri keçib qapı , pəncərəni bərk- bərk bağladı. Onu qarşıda çətin imtahan gözləyirdi. Bu dava isə sözsüz gecənin yarısınadək davam edəcəkdi. Qız get- gedə həyasızlaşan sözləri eşidib duymaq istəmirdi. Lakin qızın cəhdləri boşa çıxdı. Bu gecəki dava az qala sabaha qədər qurtarmadı. Üstəlik də elə bil səs gücləndirici qoymuşdular. Sanki öz evlərində deyil, Afətin qulağının dibində bağırırdılar. Qız qulağını pambıqla tıxayıb kitabı əlinə aldı.

Səhər yuxudan oyananda nə vaxt yuxuya getdiyini xatırlamasa da , qulağındakı pambığı çıxarar -çıxarmaz

həyəti başına götürən yeni səsləri dinləməyə başladı. Həyətdən gələn səslər dünyanı başına götürmüşdü. Afət qapını açıb çölə çıxanda böyük bir izdihamla üzbəüz qaldı . Bir neçə milis və demək olar ki, bütün məhəllə, burada idi. Onların arasında Afətin tanımadığı kimlərsə var idi. Az qala hamı bir ağızdan danışırdı:

Bizim məhəlləni tərk edin ,deyib tələb edirdilər. Gülşən müəllimə çıxın yox ,rədd olun deyirdi. Bizim evimizdə qızımız, gəlinimiz və uşaqlarımız var. Milislər qapını döyüb , haqqınızda şikayət var qapını açın , deyirdi. İçəridə ölü sükut idi, qapını açan yox idi. Bir qadın əlini belinə qoyub, bunlar buradan köçməsə , biz evimiz satmaq qərarına gəlmişik,- dedi. İnstituta şikayətə gedəçəm . Belə bir əxlaqsız adam o boyda institutda nə dərs deyə bilər ?.

Milis qapını dabanından çıxardırdı, amma içəridən səs- səmir gəlmirdi. Kimsə qapını qırın , - dedi. Allah bilir vurub bir- birini öldürüblər.

Bir başqası dedi:

Əvvəl axır elə olacaq. Bəturə onu öldürəcək.

Qadınların arasından kimsə ona cavab verdi:

Bəturə yaxşı adamdır, nə etsin belə itə rast olub.

Yenə səslər bir - birinə qarışdı. Hərə bir söz deyirdi . Bir ağ saçlı qoça kişi əsib coşdu:

Yaxşı adam zad deyil , heç ümumiyyətlə adam deyil. Bir dəfəlik tüpürüb getsin, daha nəinki burada oturub qadına yaraşmayan bütün pis sözləri danışır. O , danışanda mən gəlinimin yanında xəcalət çəkirəm. Getsinlər, bu məhəllədən çıxsınlar.

Hər tərəfdən getsinlər ,buranı tərk etsinlər səsləri bir -birinə qarışmışdı. Nəhayət Bəturə qapını açdı .Onun gözünün altı şişib göyərmişdi. Milislərdən biri içəri keçdi. O, biri gənc oğlan yığılan adamlardan oranı tərk etməyi xahiş etdi. Bu məsələ həll olunacaq deyib söz verdi. Adamlar deyinə - deyinə evlərinə getdi. Afət qapını örtüb içəri keçdi. əslində bu etiraz onun da ürəyindən idi.

Bir həftədən sonra Afət sonuncu imtahanını verib , sevinə - sevinə evə gedirdi. O , qatara bileti bir həftə bundan əvvəl Güneli yola salanda almışdı. Ona görə indi evə arxayın gedirdi. Hazırlaşıb , axşam rayona yola düşməli idi. O , institutdan çıxıb dayanacağa doğru gedirdi. Kiminsə onunla yanaşı addımladığını hiss edib narahat oldu. Çevrilib baxmaq istəmirdi. Bəlkə təsadüfən belə alınıb deyə düşünürdü. Yerişini bir az itiləşdirib irəli çıxmaq istədi. Onunla az qala bitişik addımlayan adam da daha iti sürətlə yeriyib , yenə də onunla qoşa addımladı. Qızın ürəyi çırpınmağa başladı. Ürəyinə cürbəcür fikirlər gəlirdi. Amma ağlına bir şey gəlmirdi. Birdən onun yanı ilə addımlayan oğlan qəflətən onun qarşısına keçib dayandı. Afət başını qaldırıb tanımadığı oğlanın üzünə baxdı . Bu oğlanı haradansa tanıyırdı. Amma haradan? araşdıra bilmirdi. Oğlan köhnə tanış kimi ədəb ərkanla salam verdi. Afət onun salamına cavab verməyə macal tapmamış, bir nəfəsə danışmağa başladı. Afətə aşıq olduğunu söyləyir və qızın onu bəyəndiyinə əmin olduğunu bildirirdi.O, danışdıqca qız hirslənməyi ilə yanaşı axı bu kimdir ,- deyə düşünürdü. Bunu mən harada gör-

müşəm?. Nəhayət oğlanın söhbəti əsnasında kim olduğunu aşkar etdi. Vəfanı mən sevmirdim, ona sadəcə yazığım gəlirdi, - dedi . Amma o məni sevirdi. Mənim dərdimdən dəli divanə idi. Daha nələrsə danışıb üyüdüb tökürdü. Afət onu dinləmirdi . Söhbətin şirin yerində onu dayandırıb adını soruşdu. Oğlan daha da qızışdı. Bunu tanışlıq kimi qəbul edib , sinəsinə qabağa verdi. Adım Fuaddır deyib, əl qolunu ata – ata yenidən söhbətini davam etmək istəyirdi ki, Afət dedi:

Fuad sən hansı institutda oxuyursan?

Fuad həvəslə yenidən özünü tərifləməyə başladı:

Mən çox istedadlıyam. Vəfanın atası mənə söz vermişdi , barmağımı hansı instituta uzatsam məni ora qoyacaqdı. Çünki o, mənim çox bilikli olduğumu bilirdi. Nə etmək olar qismət olmadı. -

Afət onu üzünə baxıb dedi:

Sənə səhv məlumat veriblər . Vəfaya heç nə olmayacaq o sağalacaq .

Fuad əl qolunu yanına salıb , kim deyir?- dedi.

Afət mən bilirəm , professor Tağı Cəfərzadə dedi ki, o, qız yaşayacaq. Sən qayıt nişanlının yanına . Qayınatana da de ki, səni incəsənət institutuna qoysun. Səndən yaxşı artist olar.

Bu söz Fuadın lap xoşuna gəldi. Bir tərəf çiynini bir az da yuxarı qaldırıb sinəsini qabağa verdi. Məni həmişə xarici artistə oxşadırlar.

Afət onun artistə deyil, qabana oxşayan nataraz görkəminə və ağılsızlıq yağan gözlərinə baxıb özünü gülməkdən zorla saxlayıb hə, -dedi. Mütləq artist olarsan.

Fuad bir az susub Vəfa doğrudanmı sağalacaq ?- dedi. Afət o , artıq sağalıb deyib bir göz qırpımında oradan uzaqlaşdı.

Bu günlər ərzində Afət bir dəfə olsun bu oğlana aid olan söhbətlərə nə fikir verməmişdi , nə də ki, qızlara qoşulub ona gülməmişdi. Tək bir dəfə qızlardan hansısa kaş mənim də belə nişanlım olaydı deyəndə, Allah eləməsin deyib Vüqarı xatırlamışdı. İndi isə Vəfanı düşünüb, ona yazığı gəlirdi. Afətə elə gəlirdi atası qızının çarəsiz xəstə olduğunu bilə - bilə bu ağıldan kəmi onun yanın qoşub . Yəqin ki, ölümə məhkum olan qızının xətrinə dəymək istəməyib. Hər nə isə Afət bu işdən bir şey anlamayıb, canını gicbəsərdən qurtardığı üçün gülümsündü. Onun gözünün önünə yenə Vüqar gəlib ürəyindən xəfif bir gizilti keçdi.

Qatar rayonlarına çatanda ala toran idi. O, qəbul imtahanına gedəndə qızların kəsiləndə bileti xəcalət qatarına al deməklərini xatırlayıb gülümsündü. Amma gülümsəməkdən çox ürəyinə dərin bir kədər çökdü. Qatardan düşüb bir kənarda dayanan taksilərə yaxınlaşmaq istədi. Orada dayanan çəmi iki taksinin artıq tutulduğunu görüb , üzünü evlərinə tərəf tutub oradan uzaqlaşdı. Bomboş küçələrdən hərdənbir adam görünürdü. Səfil - səfil dolaşan itlərdən başqa kimsə görünməyən boş küçələrdə zibil maşını gəzib zibilləri yığırdı. Küçənin başından siqnal verməyə başlayan zibil maşının səsini eşidən qadınlardan yuxulu - yuxulu çıxıb zibil torbalarını maşına verənlər İri çan-

tasını zorla sürüyüb gətirən Afətə maraqla baxırdılar. Qız tanıdı tanımadı rastlaşdığı qadınlara salam verib ötürdü. Evlərinə yaxınlaşdıqça yerişini yavaşıtdı . Bayaqdan bəri tələsən Afət birdən birə ,bir qapısı olan iki məhlədə onu kimsənin gözləmədiyini xatırladı. Əl , ayağı soyuyub süstləşdi. Çantasını yerə qoyub ətrafa boylandı . Gözə dəyən kimsə yox idi. Yanından keçib gəldiyi zibil maşını da arxada qalmışdı. Uzaqdan zorla görünürdü. Sabahın sərin mehi saçını arxaya tərəf yelləyir və sanki qızın içinə əsirdi. Zərifcə titrəyib çantasını yenidən götürdü. Bu dəfə bayaqkı kimi sürətlə deyil, sürünə - sürünə evlərinə tərəf addımladı. Gözünü açıb qapının astanasında dayandığını gördü. Çantasını yerə qoyub kefsiz - kefsiz qapının zəngini çaldı. Keçən dəfə qışda, qarda az qala iyirmi dəqiqə zəng çalmışdı. Və bir an ona elə gəlmişdi ki, bu qapı onun üzünə bir daha açılmayacaq . Amma indi elə ilk zəngdən rəzənin səsini eşidib diksindi. Bir dəqiqədən sonra açılmış qapının ağzında Zaurla üzbəüz qaldı. Zauru görəndə sevincindən uçmağa qanad axtaran Afət nə edəçəyini bilmədi. Zaur deyib qışqırdı. Zaur bir iki addım geri çəkilib ona içəri keçmək üçün yol verdi. Sonra əlini atıb onun çantasını əlindən aldı. Amma yenə də beş addımdan sonra hansı tərəfə gedəçəyini bilməyən Afət həmişəki kimi ortada dayanıb ətrafa boylandı. Sonra Zaura baxıb Telman dayısıgilə tərəf addımladı . Lakin evə deyil bağa talvarın altına tərəf getdi. Zaur onun çantasını qapının ağzına qoyub onun yanına gəldi. Onlar iki il idi ki, bir -birini gör-

mürdü. Odur ki, hər ikisi maraqla baxırdı. Afətə görə Zaur bir az arıqlasa da böyüyüb kişiləşmişdi. Onların söhbəti bitib tükənmək bilmirdi. Qız qəbul imtahanından, sonra gecikdiyi üçün , institutdan qovulmaq təhlükəsi ilə üzbəüz qalmasından danışdı.Lakin onu Bakıya aparan olmadığından və başqa çətinliklərdən söz də açmadı.Başları söhbətə elə qızışmışdı ki, Nüşabənin aşağı düşdüyünü görməmişdilər. Gözü , Nüşabəyə sataşan Afət yerində donub qaldı. Çünki qadın açıq -aydın onları pusurdu. Qapının arasından donunun ətəyi görünürdü. Afətin üzündə yaranmış qəribə ifadəni görən Zaur dönüb, onun baxdığı tərəfə baxdı. Nüşabəni görüb o, da təəccüb etdi, amma dərhal Nüşabə xala ora niyə gizlənmisən ?- dedi. Nüşabə heç nə olmamış kimi qəhqəhə çəkib ,gizləndiyi qapının arasından çölə çıxdı. Səmimiyyətlə Afətə yaxınlaşıb , səni tanımadım,deyirəm görəsən Zaur kiminlə danışır? -dedi. Sonra üzünü Zaura tutub nə tezdən oyanmısan ? Afətin gəldiyini bilirdin?- deyib sual verdi. Zaur mən hər gün tezdən oyanıb idman edirəm deyib, Afətin gəldiyini bilib , bilmədiyi haqqında heç nə danışmadı. Afət çantasını götürüb , evə keçdi. O ,pilləkənləri yuxarı qalxıb dəhlizin başına otağına yaxınlaşanda aşağıdan Nüşabənin səsini eşitdi. O,mülayim bir səslə , Afət sən çantanı qızlardan birinin otağına qoy -,dedi. Afət bir az duruxub otağının qapısını acdı. Onun yatdığı dəmir çarpayının üstünə az qala tavana qədər yorğan , düşək yığmışdılar. Çarpayının qabağından qapının ağzına qədər isə kağız qutularla dolu idi. bir sözlə otağa

keçməyə , ayaq basmağa yer yox idi. Afət geri donub, çantasını dəhlizə qoyub qızların otağına boylandı. Nə düşündüsə , çantanı dəhlizə qoyub , içindən evdə geyinmək üçün bir don götürüb aşağı düşdü. Bir azdan bir - bir hamı yuxudan oyanıb həyətə gəldi. Zaurun gəlişi məhləni şənləndirmişdi. Çünki Nüşabə samovarı qaynadıb stolun başına qoyan kimi, Tünzaləgili çağırdı. Nənəsinin ölümündən sonra belə bir masanın ətrafına toplaşdıqları vaxt olurdu, amma çox nadir hallarda. Nüşabə süfrəni qonaqlıq süfrəsi kimi bəzəmişdi. Masaya təzə süfrə salmışdı. Süfrədə camış qatığı, süd qaymağı, soyutma yumurta, nehrə yağı , şor, bal, təzə qozlu kömbə var idi. Bilinirdi ki, kömbə təzədir yəqin ki, axşam bişirmişdi. Onun ləzzətli ətri ətrafa yayılmışdı. Hamı masanın ətrafına yığılmışdı. Ən son Elman gəldi. Süfrəyə baxıb , Nüşabə sən bizə yaman xəcalət verirsən, -dedi. Nüşabə nə xəcalət ,Zaura canım da qurbandır,-deyib cavab verdi. Sonra bir az duruxub, Afət də gəlib, -dedi. Zaur dillənməsə də Afət dodağının altında mızıldanıb təşəkkür etdi. Bu səhər yeməyi mərasimi Afətin çox xoşuna gəldi. Bütün sözlər söhbətlər hamısı, mehribanlıq üstündə qurulmuşdu. Hamı deyir gülür ,zarafat edirdi. Zaur həmişəki kimi məclisi əlinə almışdı. O ,danışır ,hamı qəşş edirdi. Zaurun söhbətlərinə qaraqabaq Elman da gülürdü. Elman həmişə deyirdi ki, bu Zaur sizi yalandan hipnoz edir elə nə danışır, hamısına gülürsünüz.Amma indi özü də gözü yaşaranadək gülürdü. Afət də yuxarı qalxıb qızların və Nüşabə ilə Tünzalənin hədiy-

yələrini gətirdi. Kiçik də olsa hədiyyələr hər kəsin ürəyindən oldu. Zaur hədiyyələrin saça aid olduğunu görüb , atası ilə əmisini dazlaşmağa başlayan başlarına işarə edib, sizin də sacınız olsa ,Afət sizə də hədiyyə alardı deyəndə yenidən qəhqəhə səsləri ətrafa yayıldı. Amma Afət dayılarına baxıb onlara da bir şey almadığı üçün narahat oldu. Bu dəfə ona Elman cavab verib , sən özün nə saçlılara pay almısan , nə də dazlara, - dedi.

Afət axşama qədər yuxarı qalxmadı. Doğrusu harada yatmaq onu o qədər də narahat etmirdi. Hara olur olsun , lap dəhlizdə yatardı. Amma yuxarı qalxanda çantasını dəhlizdə görmədi. Aybənizlə , Gülbənizin yanaşı olan otaqların qapılarını bir - bir açıb içəriyə boylandı. Çantası Gülbənizin otağında idi. Orada bir çarpayı bir açılma çarpayı var idi. Onun çantası çarpayının yanında yerə qoyulmuşdu. Afət açılma çarpayıya uzanıb ölü kimi yuxuya getdi.

Bu gündən sonra demək olar ki, hər günləri belə keçirdi. Əksəriyyət vaxt yeməkləri Nüşabə bişirsə də, arada bir Tünzalə də süfrə açıb onları bir yerə toplayırdı.Doğrusu, Afət bu səmimiyyətdən bir şey anlamırdı. Nüşabə birdənbirə Tünzaləni niyə bu qədər əzizləyir, hörmətlə yanaşırdı?! Afətə elə gəlirdi ki, Tünzalədə də qəribə bir özündən razılıq yaranıb. Amma hər nə olur olsun, bu günlər Afətin ən xoşbəxt günləri idi. Bu rahatlıqdan, mehribanlıqdan qız həzz alırdı. Uzun ,yorucudərs ilindən sonra əsil istirahət edirdi. Ruhu dincəlirdi. Bir neçə gündən sonra Afət Asudə xanım-

la görüşmək , haqqında düşünürdü, amma Vüqara görə də ora getmək istəmirdi. Onunla qarşılaşmaq istəmirdi.Hər dəfə onunla rastlaşanda uzun müddət özünə gələ bilmirdi.

Asudə xanım isə ona ana kimi idi ,çətin günlərdə qıza olan qayğısını heç vaxt unutmayaçağını düşünürdü. Qalmışdı odla su arasında. Nə qədər düşünsə də bir qərara gələ bilmirdi. Uzun zaman fikirləşib baş sındırandan sonra qətiyyətlə getməmək qərarına gəldi.

Gülbəniz bu il orta məktəbi bitirirdi. Afət bir şeyə təəccüb edirdi. Nə qızın əlində kitab görünürdü, nə də ki, institutdan, oxumaqdan söz salan yox idi. Halbuki, Nüşabə ağzını açanda deyirdi ki, qardaşım İmranın canı sağ olsun Gülbənizi instituta qoymağı öz boynuna götürüb. İndi isə Nüşabənin əsas işi , Zaurun sevdiyi yeməklərdən bişirib , süfrə açıb məclis qurmaq idi. Afət bir iki dəfə Gülbəniz oxumağa hazırlaşırmı?- deyəndə Nüşabə bu sözün üstündən pünhan ötüb keçirdi. Dünən o barədə söz salanda Zaur, ona astadan Gülbəniz riyaziyyatdan payıza qalıb , -dedi. Onsuz da Nüşabə hirsindən partlayır , daha o mövzuya qayıtma. Afət yenə də mat qaldı .Payıza qalıb? Lap pis onda gərək daha çox oxusun hazırlaşsın , - deyib Zaurun üzünə baxdı. Zaur çiynini çəkib nə bilim vallah , - dedi. Bu onların öz işidir. Nüşabə deyir , İmran onu da Aybənizın oxuduğu yerə qoyub oxudacaq . Baxıram ki, qızların da oxumaq heç veclərinə deyil , mən də sənin kimi yeni gələndə bir neçə dəfə sual

verdim. Sonra mənasız olduğunu görüb susdum. Afət daha bu barədə sual verməsə də narahat oldu. Ürəyindən keçdi ki, desin gəl bir yerdə hazırlaşaq. Zaur da mən də sənə kömək edərik .Zaur riyaziyyatçı idi və bu işi həvəslə boynuna götürərdi. Amma Nüşabənin başqa havada olduğunu görüb daha dillənmədi.

Bir neçə gün idi ki ,Zaur gündüz demək olar ki, evdə tapılmırdı. Harasa gedib axşamtərəfi qayıdırdı. Yenə də evdə yox idi. Qızlar yuxarıda nə isə danışıb gülürdülər. Nanə ilə Jalə də orada idi. Nüşabə həyətdə güllərin dibini təmizləyirdi. Afət də ona kömək etməyə getdi. Aradan bir az keçmiş Zaur da gəldi. Zauru görən kimi Nüşabə, Zaur, sabah beçəli xəngəl bişirəçəm gələndə Vüqarı da gətirərsən ,-dedi. Afət Vüqarın adını eşidən kimi ürəi titrəyib , rəngi allandı. Zaur sağ ol Nüşabə xala xəngəli Vüqar da sevir , mən də, amma sabah bizi Gəncəyə qonaq çağırıblar. Bizimlə orada oxuyan bir oğlan sabah bizə şəpiş qonaqlığı verəçək. Qalsın sonraya. Nüşabə nə vaxt istəsən onda bişirərəm deyib içəri keçdi. Zaur Afətin üzünə baxıb sən niyə belə allandın? -dedi. Qız daha da özünü itirib, uzununu tərini silə - silə havanın çox isti olduğunu söylədi. Zaur isti nə gəzir hava çox xoşdur deyib , məhlələrinə tərəf getdi. Afət sabah mütləq gedib Asudə xanımla görüşmək haqqında duşundu. Zaur evdən çıxandan yarım saat sonra Asudə xanımgilə getmək qərarına gəldi. Elə bil qızın içinə bir sakitlik çökdü. Özünü həmişə Asudə xanıma borclu sayırdı. Və ömrünün sonuna qədər bu borcluluq hissi ilə yaşayacaqdı .

Axşam tərəfi Tünzalə bişirdiyi yuxaların axırıncı kündələrini yağlayıb fəsəli bişirirdi. Sacın üstü boyda , qıpqırmızı qızarmış deşik- deşik olan fəsəlinin xoş ətri ətrafa yayılmışdı. Qızları səsləyib, samovara da od saldırdı. Bir azdan birlikdə ləzzətlə fəsəli yeməyə başladılar. Afət fəsəlini çox sevdiyini və həmişə ürəyi fəsəli istədiyini söylədi.Zaur anasının onun qarşısına qoymuş olduğu böyük fəsəli parçasının yarısını da kəsib Afətin qarşısına qoyması Nüşabənin gözündən yayınmadı.Nədənsə Zaurun bu hərəkətindən açığı gəlib , narahat oldu.Elman fətir bişirtdirib , təzə nehrə yağı və motal pendiri ilə qatıb yeyəndə ,Zaur da həmişə ürəyi anasının təzə fətirdən hazırladığı döyməncə ürəyi istədiyini söylədi. Afət ayağa durub çayları təzələdi. Sonra səhər Asudə xanımın yanına getmək istədiyini, - dedi.Bayaqdan Zaurun hərəkətinə hirslənən Nüşabənin əlinə fürsət düşdü. Əsəbi bir görkəm alıb dedi:

Başa düşmürəm sənin nə işin var , yad evdə?

Afət Nüşabənin belə iradlarına adət etdiyi üçün təmkinin pozmadan ,mən elə Bakıda da onun evində qalıram, orada mənim üçün başqasının evidir,-dedi. Bir də ki, Asudə xala mənə çox hörmət edib, mən onu heç vaxt unuda bilmərəm.

Bu dəfə Nüşabə yenə də nə isə demək istəyirdi ki,Telman onun sözünü ağzında qoyub dedi:

Mütləq get, qızım. Əlbəttə sən onların evində qalırsan. Sənə hörmət edirlər.

Nüşabə yenə də üzünü Zaura tutub dedi: Zaur , Vüqarla dostdur. Onlar da Zaura görə sənə hörmət edirlər. Zaur bilər onlar bilər. Sən qız uşağısan ortaya düşmə.

Zaur birinci dəfə idi ki, Nüşabənin Afətlə belə danışığının şahidi olurdu.O, uşaqlıqdan Afətin bu evlərdə narahat ,gərgin bir həyat sürdüyünü görürdü. Lakin bunun günahını Afətin özündə görürdü. Ona elə gəlirdi ki, qız ata -anasını itirməyini qəbul edə bilmir. Özünü yalqız hiss etdiyi üçün, ətrafındakı insanlara qarşı soyuq münasibət göstərir. Uşaqlıqda tez - tez küsüb ağlayırdı, böyüdükcə isə hər şeyi dərk etdikcə , hamıdan kənarlaşırdı. Bu neçə gün ərzində Zaur , hər gün Afətə qarşı lap xırda da olsa bir haqsızlıq görürdü. Onun bacarınca kənar gəzməyinin səbəbini də indi anlayırdı. O, üzünü Nüşabəyə tərəf tutmadan dedi:

Birincisi, Vüqarın atası Afətin atası ilə çox yaxın dost olub ,o ,Afətə nə hörmət edibsə Çingiz əmiyə görə edir. Özünü hələ də ona borclu sayır. Keçən dəfə deyirdi ki, əgər mən ölmüş olsaydım Çingiz gözünü mənim uşağımdan bir saat da çəkməzdi. Amma mən onun uşağının varlığından gec xəbər tutdum . İkincisi Afət uşaq deyil ki, ona belə gülməli qadağalar qoyursunuz.

Ortalığa ağır bir gərginlik çökdü . Afət ağlı kəsəndən bəri birinci dəfə idi ki, dayısının susduğunu görürdü. Çox təəccüb etdi. Nüşabənin belə çıxışından sonra Telman elə bağırırdı, Afətin bütün hirsi onunla gedirdi. İndi isə Telman səsini çıxartmadı. Afət ayağa

durdu, lakin incidiyini bildirmək istəmədiyi üçün bir başa Nüşabəyə müraciət edib, mən evə gedirəm, gələndə bir şey lazımdırsa gətirim, -dedi. Nüşabə dodağının altında nə isə mızıldanıb susdu. Lakin o uzaqlaşan kimi, mənə açığınız tutur, amma bu qız anası kimi bir gün aradan çıxacaq deyib ayağa durmaq istəyirdi ki, bu dəfə Elman dilləndi:

Nüşabə, onun anası bizim bacımız , bu uşaqların isə bibisidir. Bir də ki, Cəmilə aradan çıxmayıb ,ailə qurub, iki uşaq anasıdır.

O, daha nələrsə demək istəyirdi ki, Nüşabə qalxıb oranı tərk etdi. Beş dəqiqədən sonra masanın ətrafında kimsə qalmadı. Demək olar ki, evlərin ikisinə də sükut çökdü. Çünki hərə bir yana çəkildi .Afət də yuxarı qalxıb otağına keçdi. O, indi otaqda tək qalırdı . Gələndən Gülbənizlə birlikdə çəmi bir gecə yatmışdı . Ertəsi gün otağa keçəndə qatlama çarpayının və Gülbənizin əsas əşyalarının otaqdan götürldüyünü görüb narahat olmuşdu. Bu barədə soruşanda Nüşabə sənə görə belə etdim demişdi. İstədim ki, rahat qalasan . Qız məyus olsa da heç nə deməmişdi. İndi isə otağa keçib tək olmağından razı qaldı. Dərdləri ilə baş -başa qalmaq istəyirdi. Nüşabə ondan nə istəyirdi? Qız bunu anlaya bilmirdi. Axşamdan gözünə yuxu getməsə də səhər yuxudan gec oyandı. Aşağı düşsə də yemək istəmirdi.Telmanla Nüşabə gözə görünmürdü. Qızlar yəqin ki, hələ yatırdılar.

Afət həyətə düşüb, talvarın altına getdi. Orda bir az təkbaşına oturub, sıxıldı. Qalxıb, Elman dayısıgilin hə-

yətinə keçib söyüd ağacının dibinə keçib taxtın üstündə oturdu. Nüşabəni düşünürdü. Necə edə bilərdi ki, bu qadın ondan əl çəksin. Axı onun varlığı Nüşabəni niyə narahat edirdi? Qız baş sındırsa da bir nəticəyə gələ bilmirdi. Onun Tünzalə ilə qurduğu yeni münasibətə də təəccüb edirdi. Nüşabə sanki, səhnədə idi. Hansısa bir rolu ifa edirdi. Amma hansı rolu. Hansı rolu ifa edir etsin, axı Afət nə günahın sahibi idi? Qadın hər addımda onun əsəbi ilə oynayırdı. Afət tətilləri də rayona gəlməmək haqqında düşünürdü. Amma necə gəlməyə bilərdi? Bəs Günelə nə desin? Ümumiyyətlə Afət heç kimə həyatından şikayət etməyi xoşlamırdı. Bir də ki, bu il Aysel də instituta girməlidir. Əgər qəbul olsa yəqin ki, Afət özünə qalmağa yer tapmalı idi. Lap onlar bizimlə qal desələr də qız qalmaq istəmirdi. Çünki, Günellə Aysel tam fərqli qızlar idi. Afət Günellə bir ömür bir yerdə yaşayardı, amma ondan heç vaxt inciməzdi. Aysel ilə isə ünsiyyətdə olan kimi, nə isə bir sözdən inciyirdi. Afət düşüncələrin içində dalıb xəyala, getmişdi arxadan şıqqıltı səsi duyub diksindi. Arxaya çevrilib Zauru gördü. Zaur sabahın xeyr deyib , onun yanında oturdu. Uzun müddət heç biri danışmadı . Afətin ağzını açmağa həvəsi yox idi. Hətta bir an Afətə elə gəldi ki, daha heç nə danışmayacaq. Nəhayət Zaur, mən bayaqdan idman edirəm. Amma səni indicə gördüm. Nə vaxtdan burada oturmusan?- dedi. Afət çiynini çəkib cavab vermədi. Araya yenə də sükut çökdü. Zaur yenidən dilləndi:

Bilirsən Afət , həmişə gözümün önünə bu ağacın dibində oturduğun vəziyyət gəlir. Hətta bir an mənə elə gəldi ki, yenə də həmin xəyalı görürəm. Sən instituta qəbul olanda , həmin bu ağacın dibində əlində kitab olan bir şəklini çəkmişəm. Nə vaxtsa verəçəm o şəkli sənə.

Zaur danışırdı ona elə gəlirdi ki, Afət onu eşitmir. Amma yenə də danışırdı. Afət birdən çevrilib onun üzünə baxıb dedi:

Necə çəkmisən, uşaqlıqda çəkdiyin kimi? Həmişə məni aldadırdın ki, şəklini çəkirəm. Axırda baxırdım ki, nə desən çəkmisən , bir tək mən orada yoxam.

Zaur uzun bir xəyala dalıb, dedi:

Mən sənin başını qatırdım ki, dava etməyəsən.

Afət köksünü ötürüb dedi:

Zaur hər dəfə günah məndəmi olurdu?

Zaur yenə də nə isə xatırlamağa çalışırmış kimi xəyala dalıb, danışmadan başını buladı. Nüşabənin səsi həyəti başına götürmüşdü. Yenə nəyə görə isə deyinirdi. Zaur Asudə xalagilə nə vaxt getmək istəyirsən? -dedi. Gəl bir yerdə gedək , biz Vüqarla Gəncəyə gedəçəyik . Afət başını bulayıb yox, - dedi. Siz gedin mən də bir azdan gələrəm . Bir az duruxandan sonra mən bir -iki gündən sonra əmimgilə getmək istəyirəm . Mənimlə gedərsən?- dedi. Zaur əlbəttə gedərəm deyib ayağa durdu.

Asudə xanımgilə Afət səhər yeməyindən sonra getdi. Asudə onu həmişəki kimi çox isti münasibətlə qarşıladı.İlk sualları Nüşabəyə aid oldu. Afət bilirdi ki,

Asudə xanımın ondan xoşu gəlmir. Amma yenə də Nüşabəni pisləyəçək bir şey danışmadı. Günelin anasının sorğu sualından xoşu gəlməyib araya başqa mövzu atmağa çalışdı. Söhbət Bakıdakı qonşudan düşəndə Afət Günelə axırıncı gün sabaha qədər davam edən davadan danışıb, qonşuların milis çağırdığını söylədi. Söhbət o qədər uzandı ki ,artıq burada saatlarla oturduğunun fərqinə varıb, getməli olduğunu deyib ayağa durdu. Aysel guya imtahana hazırlaşırdı, halbuki, Afət gedəndən qayıdanadək onlarla oturub söhbət etdi. Onlardan ayrılandan sonra qızın içinə bir rahatlıq çöksə də , başqa bir narahatlıq özünə yer edirdi. Bu günki söhbət boyu qıza bir şey tam aydın oldu ki, əgər Aysel instituta qəbul olsa , Afətə orada yer olmayacaq. Bunu Aysel özü də istəməyəçək, çünki onların fikirləri üst- üstə düşmürdü.Hər dəfə Afət hörmət xətrinə mübahisədən yayınırdı. Birdə ki, Aysel ona yuxarıdan aşağı baxırdı. Hər kəlmə başı da bunu büruzə verirdi . Bir an Afət onun instituta qəbul olmamağını arzu etdi. Dərhal da öz fikrindən özü utandı. Belə bir arzu etmək günahdır deyə düşündü. Düz bir il onların evinə sığınmışdı. Ayselə uğurlar arzulayıb, Asudə xanımı ,Güneli minnətdarlıq hissi ilə xatırladı. Asudə xanım ya da Günel ona Aysel göstərən münasibəti göstərsəydi, lap institutu atardı , amma onlarda qalmazdı. Qətiyyətlə Ayselə dua edib, özünə qalmağa yer tapmaq haqqında düşünməyə başladı. Ya yataqxanada ,ya da ki, başqa qızlarla birlikdə qalmalı idi. Fikirli – fikirli evlərinə nə vaxt çatmışdı, özü də bilmədi. Hə-

yətə keçib, məhlədə qurdalanan Tünzalənin yanına getdi.

O axşam Nüşabənin yeni iradı olmasa da Afət səhərə qədər yata bilmədi. Yerin içində uzun uzadı eşələnəndən sonra çiyninə bir şal atıb aşağı düşdü. Hər kəs çoxdan yatmışdı. Ev sərin olsa da həyətdə hava bürkü idi, istidən adam boğulurdu. Çiyninə atdığı şalı açıb bir kənara qoydu. Belə aydınlıq gecədə çardağın altında oturmaq ona xoş gəlirdi .Ay doğub aləmi nura qərq etmişdi. Həmişə ona zəhlətökən təsir bağışlayan cırcıramaların səsi bu gecə ona şənlik gətirirdi. Ona elə gəlirdi ki, cırcıramalar sussa ətrafa cökən sakitlik darıxdırıcı olacaq . Afət Vüqarı düşünürdü. O, Vüqar haqqında düşünməmək qadağasını pozmuşdu. Düzdür bu ona elə gəlirdi ki, Vüqar haqqında düşünmür. Əslində isə onu düşünmədiyi dəqiqə belə yox idi. Onu yenə də dəli bir ağlamaq tutmuşdu. Göz yaşlarını saxlaya bilmirdi.

Ertəsi gün Zaurun Afəti əmisigilə apağına ehtiyac qalmadı bu dəfə kiçik əmisi , gəlib onu apardı. Nüşabə səsini də çıxara bilmədi. O, Zaurla getsə axşam geri dönməli idi. İndi isə bir neçə günlük getdi. Afətin indiki, səfəri qışdakı səfərindən daha maraqlı oldu. Qışda keçirdiyi həyəcanları indi keçirməli olmadı . Artıq qohumların əksəriyyətini tanıyırdı. Sevgi , məhəbbət , qayğı içində idi. Bütün açılan süfrələr onun şəninə idi. Keçən dəfə görmədiyi qohumlarla da tanış oldu. Hətta onların arasından Afətə hədiyyə gətirənlər də oldu. Onu bir neçə dəfə bulağa apardılar. Hər dəfə

bulağa getməyə hazırlaşanda isə bibisi , Afət sənə görə yığışmışıq, - deyirdi. Havalar qızandan hər kəs Afət gələndə gedərik deyib səni gözlədi. Afət bəzən kaş nənəm məni qəbul etmiş olardı , burada böyüyüb boya başa çatardım, - deyə düşünürdü. Amma o evlərə özü də bilmədən gətirdiyi qanıqaracılığı düşünüb məyus olurdu. Bəlkə burada da böyüsə əmisi arvadlarından hansınınsa onu görməyə gözü olmayacaqdı. Axırıncı günü xatırladı. Əgər o, olmasaydı bəlkə də gecənin yarısınadək , Tünzalənin bişirdiyi fəsəliləri yeyib, çay içəçəkdilər. Onun üzündən az qala Zaurla Nüşabənin dava edəçəyini xatırlayıb, kaş öz valıdeynlərimin yanında, öz ailəmin içində böyüyəydim, -deyə düşündü.

Bir səhər Afəti yuxudan bibisi oyadıb, hazırlaş Pərvizgilə gedək,- dedi .Qız təəccüblənsə də qalxıb paltarını geyindi. Saata baxdı, doqquza yeni işləyirdi. Sual dolu gözlərini Çimnazın üzünə dikdi. Çimnaz yaşla dolmuş gözünü qızdan gizlətməyə çalışaraq, səninlə birlikdə Çingizin qəbrini ziyarət etmək istəyirəm, - dedi. Hava sərin ikən gedək. Bir az keçmiş gün bərk qızacaq. Sənə görə narahat oluram, yoxsa özümə qalsa nə vaxt olsa gedirəm. Səni yuxudan oyadanda məzarlığa gedək deyib səni həyaçanlandırmaq istəmədim, ona görə Pərvizgilə gedək, dedim. Çimnaz danışırdı, Afət donub yerində qalmışdı . O, bibisini dinləmirdi . Çünki indiyə qədər atasının qəbrini görməmişdi və ağlına belə gəlməmişdi ki ,onun qəbrini ziyarət etsin. Qız özü özündən utanıb vicdan əzabı çə-

kirdi. Qızın susduğunu görən Çimnaz nə olub ?-deyə sual verdi. Afət heç nə deyib bibisinin əlində tutduğu gülləri onun əlindən aldı.

Məzarlıqdan dönən Afət bir müddət özünə gələ bilmədi. Qara mərmər daşın üzərindən düz Afətin gözünün içinə baxan o , gənc oğlanın doğma gözlərini unuda bilmirdi. Onun gözləri Afətin gözlərinə elə bənzəyirdi ki, qıza elə gəlirdi ki, güzgüdə özünə baxır. Ona elə gəlirdi ki, illərdən bəri itirdiyi dərd yoldaşını sirr ortağını tapıb. Ürəyindən keçən hər şeyi ona danışıb, sirrini etibar bilərdi. Bibisinin yanında olsa da atası ilə dərdləşə bilmişdi. Ürəyindən keçənləri baxışları ilə atasına danışmışdı. Ürəyinə rahatlıq çökmüşdü. Afət birinci dəfə bibisini qucaqlayıb öpdü. Atasının qəbrini ziyarət etməyə apardığı üçün ona təşəkkür etdi.

Burada Afətin günləri xoş keçsə də , nədənsə ona elə gəlirdi mütləq qayıtmalıdır. Çəmi dörd beş gündən sonra darıxmağa başladı. Gedirəm deməyə üzü gəlməsə də, nəhayət getməyə hazırlaşdı. Əmiləri də bibisi də nə vaxt ürəyin istəsə gəl deyib onu dayısıgilə qaytardılar.

Afət evə dönəndən hələ də aradakı gərginlik götürülməmişdi.Nüşabə həmişəki canfəşanlığı edə bilmirdi. Çünki Zaur onun üzünə baxmırdı və ümumiyyətlə evdə çox az tapılırdı. Gələndə də onların məhləsinə keçmirdi. Bir axşam Vüqarın qəfil gəlişi pozulmuş münasibətləri bərpa etdi. Onun gəlişindən heç Zaurun da xəbəri yox idi. Afət pəncərədən onların səsini eşidirdi. Zaur , Vüqarın gəlişinə təəccüb edib, səndən

çıxmayan iş nə yaxşı gəlmisən? - dedi. Vüqar gəlmək olmazsa, geri qayıdım deyib, güldü. Afət sonra onların hər ikisinin Zaurgil tərəfə keçdiyini hiss etdi. Afətin ürəyi çırpınmağa başladı. O, necə hərəkət edəçəyini bilmirdi. Özünü ələ alıb aşağı düşüb, Vüqara xoş gəldin demək istəyirdi. Amma, nədənsə özündə qüvvə tapa bilmirdi. Sanki , dizləri taqətini itirmişdi. Bir an Vüqara olan minətdarlıq hissini xatırlayıb, bir ömür boyu özünü ona borclu saydığı üçün bütün hisslərini bir kənara atıb ayağa durdu. Aşağı düşər düşməz Nüşabənin səsini eşitdi. Onun səsi məhləni başına götürmüşdü. Vüqara xoş gəldin edirdi. Qadın Zauru məzəmmət edib , Vüqarı bir neçə dəfə dəvət etdiyini söyləyirdi. Zaur isə Ay Nüşabə xala , sən Vüqarı dəvət edəndə , bizi Gəncəyə dəvət etmişdilər, dedim axı mən sənə, - dedi. Vüqar onların mübahisəsini kəsib indi gəlmişəm nə fərqi var , deyib Nüşabəni susdurdu. Nüşabə israrla sizə cücəli , qurudlu xəngəl bişirəcəm , deyib , əl- əyağa düşdü. Zaurla , Vüqarı isə öz çardaqlarının altına keçməyə məcbur etdi. Qızlar çardağın altındakı masanın üstünə süfrə salıb, nərdtaxtanı onlara verəndən sonra Nüşabəyə kömək etməyə getdilər. Nüşabə qızğın işə başlamışdı. Zaurla Vüqarın başı oyuna qarışmışdı. Hərdənbir mübahisə edib, sonra yenidən qızışırdılar. Qızların köməyi ilə Nüşabə işini tez sona yetirdi. Kərə yağı ilə çoxlu soğanda qovrulmuş cücələrin ləzzətli ətri ətrafa yayılmışdı. Oğlanlar nərdtaxtanı yığışdırıb yeməyə oturdular. Vüqar xəngəli yeyib Nüşabəyə təşəkkür etdi. Axırıncı dəfə nə vaxt

xəngəl yediyim yadıma gəlmir , - dedi. Doğrudan çox ləzzətli idi. Zaur da ona qoşulub xəngəlin dadlı olduğunu söylədi. Nüşabə sevinirdi, çünki Zaurla yaranan gərginlik aradan götürülmüşdü. Zaur samovar çayını içib babasını xatırladı. Babam həmişə deyirdi ki, çayı ya kababın üstündən içəsən , ya da qurudlu xəngəlin .

Yeyib içəndən sonra oğlanlar nərd oynamaq istəmədilər . Oturub söhbət etməyə başladılar. Zaurla Vüqar rayondan çoxdan çıxdıqları üçün qonum qonşuya aid suallar verirdi. Onlar gedəndən bəri doğrudan da çox hadisələr baş vermişdi.

Tünzalənin gəlişi mövzunu təzələyib söhbəti qızışdırdı. Bu gün Nərgizin qızı dünyaya gəlmişdi. Tünzalə səhər açılandan bacısının yanında idi. Qızlar yenə də Seymuru yad edib onun haqqında yayılan şayiələr haqqında Zaura sual verdilər . Nanə ilə Jalə yenə də Seymurun sağ olduğu barədə yayılan söz söhbətlərdən danışırdı. Tünzaləni bu haqda danışmaq xoşuna gəlmədiyi üçün qızlara gözünü ağartdı. Amma artıq yay oxdan çıxmışdı. Heç kimin susmaq fikri yox idi. Hərə öz eşitdiyini , bildiyini söyləyirdi. Vüqar Seymurla Nərgizin nişanlı olduğunu bilirdi, lakin sonrakı hadisələrdən xəbərsiz idi. O, Seymurun guya sağ olduğu , bir ingilis jurnalisti tərəfindən əsrlikdən xilas olub , Amerikaya keçdiyini eşidib təəccüb edirdi. Zaur bunların uydurma olduğunu deyirdi. Aybəniz israrla onun sağ olduğunu təsdiq etmək istəyirdi ,üzünü qızlara tutub dedi:

Jurnalda şəkli çıxmışdı hamımız gördük də.

Afət dedi:

O , şəkildəki oğlan Seymura oxşamırdı. Üz - gözünü saqqal basmışdı sifəti bilinmirdi.

Mübahisə qızışmışdı . Afət Vüqarın susub ona baxdığını görüb bir an özünü itirdi. Nə deyəcəyini unutdu . Ona elə gəlirdi ki, Vüqar danışmır, amma gözləri danışır. Gözlərinin nə demək istədiyini Afət bilmək istəyirdi. Onun fikrinin başqa yerdə olduğunu hiss edirdi. Qız artıq söhbəti eşitmirdi. Hərdən bir özünə gələndə yenə söhbətin həmin mövzu üzərində olduğunu görüb onlara qoşulurdu. Lakin bir -iki cümlədən sonra Vüqarın onun üzünə zillənmiş. sual dolu baxışlarını görüb ,sanki nitqi boğazında tıxanırdı. Nəhayət Vüqar ayağa durub, son sözünü deyib Afətin ürəyinə yeni köz saldı. Ayağa durmazdan əvvəl göz üçü ona tərəf baxıb üzünü Zaura tutub dedi:

Mən Seymurun sağ olub, olmadığını deyə bilmərəm . Nərgizin onu unuda biləçəyinə inanmıram .Yazıq onunla ailə quran oğlanın halına. Çünki mən sevdiyi oğlan öləndə, bir qızın halını görmüşdüm. O ,qızın ağlamaqdan şişmiş sifətini , az qala ,partlayan gözlərini unuda bilmirəm.

Zaur təəccüblə onun üzünə baxıb dedi:

Kimdir o, qız?. Bəs mənə niyə danışmamısan onların haqqında?

Vüqar ona cavab vermədən , Nüşabəyə bir daha təşəkkür edib , hamıya sağ olun deyib getdi. Afət sözün ona aid olduğunu anlayıb , az qala qışqırmaq is-

təyirdi ki, mən Nadiri sevmirdim. Onların səsi artıq darvazanın yanından gəlirdi. Zaur Vüqarla çıxıb ,evə az qala bir saatdan sonra döndü. Afət qızlarla masanı toplayıb səliqəyə salandan sonra hər kəs yatmağa getdi . O , çardağın altında oturub qalmışdı. Qızı sanki don vurmuşdu. Zaur qayıdanda onun yanına gəlib niyə yatmırsan ?- dedi. Afətin narahat görkəminə baxıb , dalbadal bir neçə sual verdi. Lakin qızın lal heykəl kimi bir söz danışmadığını görüb, mənim yuxum gəlir , deyib getdi. Demək olar ki, Afət sabaha qədər həyətdə oturdu. O, Vüqara Nadiri sevmədiyini demək haqqında düşünürdü. Amma necə, nə desin?. Vüqar dönüb desə ki, mənə nə var sevirsən ya yox, sadəcə sənin ağladığını görmüşəm. Bununla bərbər ürəyinə ilıq bir hisslər dolurdu. Hansılar ki, sonunda bir ümid qığılcımları parıldayırdı. Ona bəzən elə gəlirdi ki, Vüqarın , onun Nadirə görə ağlamağına açığı tutur. Afətin bu xoşuna gəlirdi. Buna inanmaq istəyirdi. Daha başqa şeylər düşünüb, qanını qaraltmaq istəmirdi. Sonra onun yazıq Nərgizlə ailə quran oğlanın halına deməsini xatırlayıb məyus olurdu. . Demək Vüqar bu fikirdədir, nə vaxtsa başqasını sevən qızla ailə quran oğlan yazıqdır. Düşündükcə daha da ürəyi sıxılırdı. Fikirləri başından qovmaq üçün mavi səmada qara buludlardan yaranmış fiqurlara baxıb başını qatmağa çalışırdı. Topa- topa uçan buludlar sanki azacıq dayanıb, sonra yavaş – yavaş uçmağa başlayırdı. Hər dəfə dayananda qəribə bir şəklə düşürdülər bəzən qorxunc bir heyvanı xatırladır, gah əlində qəlyan

tutmuş müdrik bir qoca şəklini alırdılar. Eyni bulud topasını cürbəcür görkəmdə düşünüb başını qatmaq istəyirdi ki, qaçmış yuxusunu qaytara bilsin. Arada bir cırcıramaları da dinləyirdi. Onların doğrudan da gecənin zülmətinə şənlik gətirdiklərini düşünürdü . Səs - küyləri ilə isti yay gecəsində darıxıb həyətə çıxanlara həyan olurdudular. Qaranlığın vahiməsini qovub gecəyə ahəng gətirirdilər. Azacıq da olsa hava da meh yarandı. Afət başını qaldırıb səmaya baxdı . Doğrudan da buludlar sürətlə uçmağa başlamışdılar . Sanki harasa tələsirdilər. O, üşüyüb zərifcə titrədi. Bu əsən mehin bir dalğası da onun içindən əsib , qızı titrətdi. Ayağa qalxıb evə keçdi.

Ertəsi gün yuxudan gec oyandı. Özünü pis hiss edirdi, başı bərk ağrıyırdı. ayaqları ağırlaşmışdı. İstirahət günü olduğu üçün dayıları evdə idi. Afət Zaurun gəlişindən sonra bu evdə yaranmış daha doğrusu məhlədə yaranmış əhval ruhiyyədən bir şey anlamırdı. Dayıları bir- biri ilə küsülü olmasalar da indiki kimi mehriban da deyildilər. İndi demək olar ki, səhər açılandan yatana qədər bir yerdə olurdular. Əksəriyyət vaxtı səhər yeməyini , hətta naharla şamı da bir yerdə edirdilər. Halbuki əvvəllər bayramlarda və ad günlərində bir yerdə yeyib içərdilər. Bir də kabab hər kimin həyətində çəkilsə, o birilər ailəliklə qonaq olurdular. Bu gün səhər yeməyini birlikdə yeyib, hər kəs öz həyətində bir az qurdalanandan sonra, yenə də Nüşabənin bişirdiyi badımcan dolmasından yeyib nərd oynamağa başladılar. Telmanın həyə-

tində böyük bir üzüm çardağı var idi. Telman ora bir neçə növ üzüm əkmişdi. Qara üzüm , gəlin barmağı , ağadayı, kişmiş üzüm. O, çardağa arı dadandan sonra, yeməyə başlasa da ən iri , görkəmli salxımları Nüşabənin tikdiyi kağız torbalara keçirirdi ki, arı aparmasın . Salxımları düz payızın sonuna ,qışın əvvəlinə qədər saxlayırdı. Torbanın içində qalıb yetişmiş salxımların dadı bir il yaddan çıxmırdı. Aşağıdan baxanda qaralı ağlı cərgə ilə düzülmüş üzümlərin ləzzətli görkəmi var idi. Amma qəribə də olsa Telman üzümü, arılar yeməyə başlamasa bir zingirə qopardıb ağzına aparmazdı. O,deyirdi ki, arılar ağzının dadını bizdən yaxşı bilir, əgər üzüm şirinləşsə çardağa arılar dadanardılar. Bu gün arıların deşib içini boşaltdığı gilələri görüb, bir vedrə üzüm yığdı. Afətə bunu yu gətir yeyək , -dedi. Doğrudan da üzüm bala dönmüşdü. Afət kəhrəba kimi sarı, muncuq kimi qara üzümlərdən gətirib nərd oynayan dayılarının yanına qoydu. Nüşabə çayı gətirib onların yanına qoyanda dedi:

Al Elman, bu sualı Telmana verməyə qorxuram, bu nərd oynayanda daşları bir az yavaş vurmaq olmaz ? Bərk çırpanda nə olur ki, sən Allah?

Elman dedi:

Yox ay , Nüşabə daşları yavaş çırpdın, elə bil ki, sənin gətirdiyin bu ətirli samovar çayını qəndsiz ,mürəbbəsiz içdin.

Nüşabə daha bir söz deməyib içəri keçdi. Telman gülüb dedi:

Elman, o bənzətmə yaxşı bənzətmə deyil, yəni ki, Nüşabəyə aid deyil o, çay sevmir, qəndsiz də içər , mürəbbəsiz də. Sən bilirsən ona neçə başa sal, de ki, elə bil toya gedirsən qəşəng bir donun var ayaqqabı əvəzinə isə şap- şap geyinmisən.

Telmanın sözünə hər ikisi ürəkdən güldü. Afət otağına keçib çarpayıya uzandı. Gecə yata bilmədiyi üçün yatmaq istəyirdi göz qapaqları ağırlaşmışdı. Nərdtaxtanın səsindən yata bilmirdi. Zorla bir təhər gözünü yumub uyumaq istəyirdi ki ,aşağıdan Nüşabə ilə Aybənizin səslərini eşitdi . Onlar nə isə mübahisə edirdilər. Afəti təəccübləndirən isə Aybənizin anasına nə isə açıqlı – açıqlı cavab qaytarması idi. O, heç vaxt belə bir şeylə qarşılaşmamışdı. Afətin ürəyi çırpınmağa başladı. Gözünü açandan bu evdə nə vaxt səs küy qalxmışdısa , mütləq onunla əlaqəli olurdu. Özlərinə qalmış bu ailədə demək olar ki, hər şey sakit səma altında həll olunardı . Afət heç nə eşitmək istəmirdi. Daha doğrusu, nə isə eşitməyə halı yox idi, qayıdıb otağına girib qapını örtdü. Amma ürəyi orada qalmışdı, bu davanın səbəbini mütləq öyrənmək istəyirdi. Pəncərədən aşağı dayılarına baxdı. Onların başı oynamağa elə qarışmışdı ki, başqa səs küy eşitmirdilər. Çarpayısının üstünə üzü üstə uzanıb əlləri ilə qulaqlarını tutdu. Bir müddət bu vəziyyətdə uzandı . Əllərini qulağından götürəndə səslərin gəlməkdə olduğunu eşidib ayağa durdu. Bir başa onların yanına düşmək qərarına gəldi. Pilləkənlərin başından bir-iki ad-

dım aşağı düşmüşdü ki, Aybənizin səsi yenidən eşidildi. O, boğuq bir səslə deyirdi:

Zaura elə yaltaqlıq edirsən , sənin yerinə mən utanıram .Sən elə bilirsən ki, sənin bu məhəbbətinin haradan yarandığını Zaur ya da əmimlə Tünzalə xala başa düşmür?. Bilirsən ana , məni heç kimin qarşısında alçaltma. Zaur məni sevmir. Heç elə fikri də yoxdur. Lap elə sevmiş olsa da mən onu sevmirəm .O, mənim qardaşımdır. Bəsdir,bu hərəkətlərinə son qoy.

Afət Aybəniz indicə qapını açıb çölə çıxacağını zənn edib bir iki addım yuxarı qalxdı. Lakin qapı açılmadı Bu dəfə Nüşabənin əsəbi səsi gəldi, o deyirdi:

Səsini batır , mən Zaur kimi oğlanı əldən verən deyiləm . Hər nə edirəmsə sənin xoşbəxtliyin üçün edirəm .Budur mənim qədir , qiymətim? Səndən bir hərəkət olsa idi , mən artıq istəyimə çatmışdım. Görmürsən Tünzalə ilə Elmanı ələ almışam.

Aybəniz az qala nəfəsi kəsilən bir səslə dedi:

Ana, and içirəm atamın canına onlar bizə elçi gəlib yalvarsalar da mən Zaura getməyəçəm .Boş yerə özünü yorma .

Aybənizin sözü bitməmiş Gülbəniz dedi:

Yorma yox ey , biabır etmə.

Nüşabə səsini bir az da qaldırıb dedi:

Ay qız, sən səsini batır , yuyulmamış çömçə kimi ortaya düşmə. Söhbət səndən getsə nə isə danışarsan.

Bu dəfə Gülbəniz kinayəli bir səslə gülüb dedi:

Sən görmürsən ki, Zaur Afəti sevir?

Afətin söz üzünə sillə kimi dəydi. Başı gicəlləndi .Az qala pilləkənlərdən üzü aşağı getsin. Özünü zorla ələ alıb , məhəccərdən tutdu. O, otağına tərəf getmək istəyirdi , amma ayaqları əsirdi. Nüşabənin isə səsi gəlirdi, o deyirdi:

Mən onu sizdən əvvəl bilirəm , amma razı ola bilmərəm ki, mənim qızım dura – dura o , yetimçə Zaura qismət olsun.

Gülbənizin səsi gəlirdi, amma onun nə söylədiyini Afət artıq eşitmirdi. Otağa keçib qapını kilidləmişdi. Sanki kimsə indicə ona basqın edəcəkdi. Qız qulaqlarına inana bilmirdi. Don vurmuş adam kimi yerində qıc olub qalmışdı. Belə bir şey onun heç vaxt ağlına gəlməzdi. Zaur onun bu dünyada güvəndiyi yeganə adam idi. Onu çox sevirdi, hədsiz çox . Ata -anasına , nənə -babasına , bacı -qardaşına olan məhəbbətin yerini Zaur olan məhəbbət tuturdu. O, bu müqəddəs məhəbbəti itirmək istəmirdi. Düşündükcə dəhşətə gəlirdi. Öz -özünə yalandır, deyə-deyə gözünə yuxu getdi. Yuxudan axşam üstü oyandı. Başqa vaxt belə bir onu narahat edən söz eşidəndə günlərlə yata bilmirdi. İndi isə elə bil yuxudan oyanmağa halı yox idi. Onu itirib axtaran yox idi . Qalxıb aşağı düşdü. Qızlar da Nüşabə də qanı qara gəzirdi. Mətbəxə keçib yemək yedi . Özünü heç nə eşitməmiş kimi aparmağa çalışdı.

Bir neçə gün davam edən sakitliyin sonu, ağıla gəlməz bir sonluqla bitdi. Aybəniz səhər açılandan yoxa çıxmışdı. Gülbəniz yuxudan duranda onu yataqda görməyib , aşağı düşdüyünü zənn etdi. .Aşağıda bir

saata yaxın hərlənəndən sonra Nüşabə Aybəniz niyə bu qədər yatıb, get onu da oyat, - dedi. Gülbəniz təəccübə anasının üzünə baxıb, yuxarıda Aybəniz yoxdur, -dedi. Nüşabə necə yoxdur deyib bir nəfəsə onların otağına qalxdı. İçəri girən kimi gözü yastığın üzərinə qoyulmuş zərfə sataşdı. Nüşabə sanki yastığın üstündə zərf deyil , şahmar ilan görmüşdü. Qadının saçının dibindən su tökülürdü. Zərfin içində nələr yazıldığı təxminən ona məlum idi. Bu sözləri Aybəniz ona dönə- dönə demişdi. Əlləri əsə -əsə zərfi acdı. Məktub salam kəlamsız başlayırdı:

Ana, mən, məni sevən və mən sevdiyim insanla ailə qururam. Mənə elə gəlir ki, bu hərəkəti etməklə sənin çəkdiyin zülmə son qoyuram. Sənin bu qədər alçalmağına dözə bilmirəm. Sənə yazığım gəlir.

Məktubda daha nələrsə yazılmışdı. Lakin Nüşabə onu sona qədər oxuya bilmədi . Bütün hərflər gözündə böyüyüb bir-birinə qarışdı. Onun huşu özündə ikən ilk işi zərfi qoynuna qoyub gizlətmək oldu. Məktubu Telmanın oxumağını istəmirdi. O, zorla aşağı düşüb, Aybəniz qaçıb deyə bildi. Sözünü sona yetirməmiş isə huşunu itirdi. Qızlar, Tünzalə əlindən gələni etsələr də onu ayılda bilmədilər . Afət onun nəbzinə baxıb ürəyində Nüşabənin hər hərəkəti süni olsa da huşunu doğrudan itirib deyə düşündü. Məcbur olub Telmana və təcili yardıma zəng etdilər. Onun özünə gəlməyi çox çəkmirdi, amma bir azdan yenidən huşunu itirirdi. Telman xəbəri eşidəndə gözləri qan çanağına döndü. Lakin Nüşabənin düşdüyü vəziyyət

onun başını qatmışdı. Zaur gəlib əmisini sakitləşdirmək istəyirdi. Lakin elə kənardan görünürdü ki, o ,Zauru dinləmir.
Afət anasının qaçdığı günü xatırlayırdı. Nənəsi ilə babası bu günə düşmüşdü. O vaxtlar nənəsinin babasının çəkdiyi əziyyəti görən Afət nə olur olsun insan əzizlərini belə vəziyyətə salmamalıdır deyə düşünmüşdü. Aybəniz bu hərəkəti etməməli idi, - deyib qızı qınayırdı. Səhərdən axşama qədər iynə vurulan Nüşabə axşam üstü qalxıb oturdu. Oturdu , amma nə oturdu, gözündən yaş leysan kimi axırdı. Tünzalə onu sakitləşdirə bilmirdi
Bu günlər həyat cəhənnəmə dönmüşdü . Sanki evdə kabus dolaşırdı. Nə danışan var idi, nə ki gülən.Evdə yemək bişirən ,əslində heç yemək yeyən də yox idi. Kimsə lap acından öləndə ağzına nə isə yüngül bir şey atırdı. Elmanla Tünzalə Telmanı zorla aparıb , nə isə yedirdirdi. Qalan kim harada qaldı qalsın idi . Nüşabənin gözü Afətə sataşanda sanki qoşulub qaçan Aybəniz deyil, Afət imiş kimi qıza nifrətlə baxır ,hər dəfə də elə bir söz deyirdi ki, söz qıza güllə kimi dəyirdi. Cəmiləni ortaya atır , ona oxşadı deyib mızıldanırdı. Afət bu günlərin başa çatmağını gözləyirdi. Dərslərin başlamağını Bakıya qayıtmağını həsrətlə gözləyir, lakin orada da onu xoşbəxt edəcək bir şey olmadığını yaxşı bilirdi. Aysellə yoldaşlığının tutmağına inana bilmirdi. Qarşıda onu hələ daha ağır günlər gözləyirdi.

Bir həftədən sonra Aybənizin ailə qurduğu oğlanın ata – anası bir neçə qohum ilə qəflətən gəldilər. Onlar dil töküb barışıq yaratmaq istəyirdilər. Telman onları ümumiyyətlə qarşılamadı. Nüşabə isə Aybəniz adlı övladının olmadığını söylədi. Bir daha bu məqsədlə onların qapısını açmamaqlarını xahiş etdi.

Zaur Nüşabəni sakitləşdirməyə çalışsa da ,əslində Aybənizin hərəkətindən açığı gəlirdi. Onu belə bir iş görməyə nə vadar edib? - deyirdi. Madam ki, sevdiyi oğlan var idi. oğlan elçilərini göndərərdi . El adəti ilə telli ,duvaqlı ata- anasının xeyr duasını alıb , ailə qurardı. Valideynləri onun tellərinə gül düzüb, dualara qərq edərdi. Məhəbbətin , sevginin əhatəsində, vaqzalı sədaları altında çıxardı bu qapıdan. Halbuki , bu hərəkəti ilə nifrətə, söyüşə layiq olub.

Zaurun sözlərinə Elmanla, Telman da qoşulanda Gülbənizin səbri daşdı . O , Aybənizin dəfələrlə anasına belə bir adam olduğunu söylədiyini, lakin Nüşabənin onu dinləmədiyini , - dedi. Bu sözə hamıdan çox Telman təəccüb etdi. Yeni bir davaya təməl qoyuldu. Telmanın hirsindən dil dodağı əsirdi. Gündə bir neçə dəfə, Nüşabə ilə dava edib deyirdi: Neçə yəni mənim qızımla kimsə ailə qurmaq istəyir. Mənim bundan xəbərim yoxdur. Lap xoşuna gəlməyən biridir. Qızın sənə deyir həyatımda biri var, sən isə bu barədə mənə söz demirsən.

Gülbənizin bu sözündən sonra Nüşabə Telmanın gözünə görünməməyə çalışırdı. Çünki Telman onu görən kimi deyinməyə başlayırdı.

Bir sözlə tətilin son günləri qanı qaraçılıqla bitmək üzrə idi. Zaur ilk günlərdə olduğu kimi zarafat edib , yaranan gərginliyi götürməyə çalışsa da bir şey əldə edə bilmirdi. Əslində onun zarafatını dinləyəcək kimsə də yox idi. Yaranmış sönüklük onu darıxdırırdı. O, yavaş - yavaş getməyə hazırlaşıb, yığışmağa başladı. Afət də hazırlaşırdı. Amma onunla heç kim maraqlanırdı. Nə vaxt gedəcəyini, hara gedəcəyini nə soruşan var idi, nə də maraqlanan. Nüşabə ilə Telmanı dindirmək mümkün deyildi. Tünzalə ilə Elman isə Zauru yola salmağa hazırlaşırdı. O, etiraz etməyinə baxmayaraq , çantaların , qutuların sayı artmaqda idi. Zaurla Vüqar, Afətgildən on gün əvvəl getməli idi. Artıq sonuncu üç günləri qalmışdı. Başqa vaxt olsa Nüşabə bu son günləri vəd etdiyi kimi təntənə ilə qeyd edərdi. İndi isə gedən , qalan onu maraqlandırmırdı. Demək olar ki, günlərlə otağından çıxmır, həyətdə gözə görünmürdü. Onun həyətdə görünməməyi bütün məhləyə ölü sükut gətirmişdi.

Avqustun axırı olduğu üçün , artıq havadan payızın nəfəsi duyulurdu. Afət yenə də tezdən oyanıb təkcə çardağın altında oturmuşdu. Səhərin azacıq əsən sərin mehi onun tellərinə sığal çəkirdi. O, taxtın üstündə oturub, saralıb yerə tökülən yarpaqların küləyin əsib apardığı istiqamətdə gah sağa , gah da sola yığılmaqlarına baxırdı. Hər tərəfə tökülüb yığılan saralmış yarpaqlar onsuz da sükut çökmüş məhləyə bir sönüklük gətirmişdi. Baharda səslərindən şənlik yağan sərçələr , indi tənbəl- tənbəl civildəşirdi. Afət onlara

baxıb nənəsinin onların haqqında dediyi sözü xatırlayırdı . Məsmə arvad bir necə sərçənin həyətdəki kiçik gölməçələrdə çikkildəşib çimdiyini görən kimi , sabah hava çox isti olacaq deyirdi. Avqustun beşindən sonra isə , daha quyruq donub, hava çox qızan deyil, istilər getdi,- deyirdi. O, özü ilə gətirdiyi şala bürünüb nənəm düz deyirmiş quyruq donub, - deyə düşündü.

Az sonra məhlədə köynəksiz idman edən Zauru görüb ,içəri keçmək istəyən Afət ,Gülbənizin sözünü xatırlayıb qıpqırmızı qızardı.Lakin o yerindən qalxıb içəri keçməyə macal tapmamış, Zaur köynəyinin qabağını düymələyə - düymələyə onun yanına çatıb , sabahın xeyr nə tezdən oyanmısan?,- dedi.

Afət nədənsə kəkələyib cavab verə bilmədi. Sonra isə çiynini çəkməklə kifayətləndi.

Zaur onun qızarıb , pörtmüş sifətinə baxıb, niyə belə narahat görünürsən ? , - dedi.

Afət əslində Zauru görəndə Gülbənizin sözünü xatırlayıb qızarmışdı. Lakin bir az duruxub, Aybənizə görə, Telman dayımla , Nüşabə xalanın düşdüyü halı düşünürəm, - dedi. Zaur əlindəki dəsmalla üz gözünün tərini silib, Afətin qarşısındakı skamyada oturdu. Araya uzun bir sükut çökdü. Nəhayət Zaur tərəddütlə dedi:

Nüşabə xalanın halından çox məni , Aybənizin taleyi narahat edir. O, ailə qurduğu oğlanı tanıyan varmı ? Gülbəniz ilə sən bu barədə bir şey bilirdiniz? - dedi. Afət başını bulayıb , mən heç nə bilmirəm, -

dedi. Qızın yadına axırıncı gün eşitdiyi sözlər düşdü. Özünü narahat hiss etməyə başladı. Ona elə gəlirdi ki, Zaur onun ürəyindən keçənləri duyur. Zaur sual dolu bir baxışla Afətin özünə baxıb , əgər Aybəniz doğrudan da sevdiyi oğlanla ailə qurmuş olsaydı sevinərdim, qorxuram ki, o Nüşabənin əlindən başını götürüb qaçmış olar, - dedi.

Afət indi özü haqqında düşünürdü. Necə Nüşabənin hərəkətlərindən bir şey anlamamışdı? Onun bu evdə yaratdığı dostluğun arxasında nə dayandığını başa düşməmişdi. Halbuki bu barədə günlərlə düşünmüşdü. Zaurun gəlişinin bu məhləyə gətirdiyi şənliyin nə demək olduğunu indi anlayırdı. Demək Nüşabə mənə, Zaura görə nifrət edirmiş. O, Aybənizi Zaura vermək arzusu ilə alışıb yanaraq onu mənə qısqanırmış ,- deyə düşündü. Dərhal da fikrindən utandı. Onun belə şey heç vaxt ağlına gəlmirdi. Nüşabənin ilk günlər onları pusduğunu xatırlayıb, əllərini qoynunda carpazlaşdırıb, gözünü uzaqlara dikən Zaurla qarşı qarşıya durmaq onu narahat edirdi. Zaurun xəyalı uzaqlarda idi, lap uzaqlarda Afətin uşaqlığında . Onun saatlarla ağladığını gözünün önünə gətirir, sonra isə, Nüşabənin , lap elə anasının deyinməyini xatırlayırdı. Qız ağlamağa başlayan kimi Nüşabə deyinməyə başlayırdı. Anası gedib Moskvada kef edir, mən isə burada onun uşağının qayğısı ilə məşğulam .Cəmilə bu qızı mənim sinirimi pozmaq üçün gətirib dünyaya. Bundan sonra Tünzalə də ona qoşulurdu. Qızlar da bir söz deməsələr bezmiş halda kinli -

kinli Afəti süzürdülər . Zaurun qıza yazığı gəlirdi, amma nədən bu qədər ağladığını bilmirdi. Bəzən o, da hirslənirdi, lakin illər keçdikcə Afət ağlamağını tərgitdi. Hətta lazım olanda da ağlamadı. Sanki bütün göz yaşlarını xərcləyib bitirmişdi.

Bu yay Zaur bu qız niyə bu qədər ağlayır sualına cavab tapmışdı. Dəhşətə gəlmişdi. Nüşabənin hər sözünün şahidi olmuşdu. O, hər kəlməbaşı Afəti qıçıqlandıran bir söz deyirdi. Var qüvvəsi ilə onu hövsələdən çıxartmağa çalışırdı. Amma qız səbir edirdi, ağlamırdı. Əksəriyyət vaxt cavab vermirdi. Özünü bilməməzliyə vururdu. Zaura elə gəlirdi ki, indi onun göz yaşları ürəyinə axır, ona görə görünmür. Ən qəribəsi bu idi ki, kənardan bunu hiss etmək asan deyildi. O, Nüşabənin Afəti bu qədər incitməyində özünü günahkar görüb daha da məyus olurdu. O, qarşısında məyus , boyunu bükük , ürkək oturan qıza , səni sevirəm demək istəyirdi. Ağlım kəsəndən sənə yazığım gəlib , böyüdükcə isə bu hisslərin hamısının sevgiyə çevrildiyini söyləmək istəyirdi. Bu sevgi onun ürəyini didib parçaladığını, o isə bu sevginin ürəyinin ən dərin guşəsində dəfn etmək istədiyini, lakin bacara bilmədiyini, onun daha da boy atıb böyüdüyünü demək istəyirdi. Lakin bacarmırdı. Onu düşüncələrdən Afətin köks ötürüb , heyf bu yayı yaxşı keçirmişdik, - deməyi ayırdı. O, Afətin üzünə baxıb , heç nə göründüyü kimi deyil , - dedi. Sonra ara verib yadıma bir rəvayət düşdü . İstəyirsən sənə də da-

nışım? - dedi . Afət çiynini çəkib danışırsan danış , - dedi .

Belə rəvayət edirlər ki, günlərin bir günü mömin-lərdən biri gənc bir oğlanla məmləkəti səyahət et-məyə çıxır . Axşam düşənə qədər bazarı , dükanı gə-zib dolanır, şər qarışanda ac -susuz , yorğun gəlib gözəl bir malikanənin darvazasını döyürlər. Qapını açan nökərə Allah qonağı olduqlarını söyləyirlər. Nö-kər ağasına iki nəfər qonaq olmaq istədiyini söyləyir. Qapının arxasından ağanın qov getsinlər , dediyini eşidən , mömin adam ağaya yalvarıb yorğun olduqla-rını, daha getməyə taqətləri olmadığını söyləyir. Ağa nökərə onları tövləyə ötürməyi əmr edir. Süfrənin qırıntılarını və bir bardaq su verdirir. Səhərə yaxın gənc yuxudan oyanıb, möminin tövlənin uçmuş olan divarını hörüb bitirməkdə olduğunu görür. Kişi işi-ni başa vuran kimi qalxıb , ev sahibinə təşəkkür edib yollarına davam edirlər. Yenə də gəzib dolanıb , yorğun , ac - susuz halda kiçik bir evin qapısını çalır-lar. İçəridən kasıb bir kişi çıxıb onları xoş sifətlə qarşılayıb , evə dəvət edir. Evdəkilərə qonaqlara xid-mət edin deyir. Hər kəs əl ayağa düşüb, onlara qulluq edir. Təzə ətirli çay və yemək verirlər. Yatmaq vaxtı gələndə isə ev sahibi öz yatağını onlara verib, özü uşaqlarla bərabər yerdə palazın üstündə yatır. Qo-naqlar səhər yuxudan ağlaşma səsinə oyanır. Məlum olur ki, ev sahibinin yeganə inəyi ölüb. Qonaqlar oranı tərk edib yola düzəlirlər. Yol boyu gənc oğlan küsmüş bir halda danışmadan qanı qara gedir. Mö-

min ondan niyə kefsiz olduğunu soruşur. Gənc yenə də incimiş halda , sən niyə belə etdin ? - deyir. Bizi evinə yaxın buraxmayan , tövlədə yer verib, nökərlərin artığı ilə qonaqlayan zəngin insanın uçmuş hasarını tikdin. Öz yatağını bizə verib, yemək , çay verib süfrə açan o, kasıbın isə yeganə inəyinin ölümünə razı oldun. Kişi gənci dinləyib deyir ki, oğlum heç nə göründüyü kimi deyil. Hördüyüm o divarın arxasında böyük bir sərvət var idi. Mən rəhimsiz varlının bu sərvətə sahib olmağını istəmədim on görə də divarı hördüm. Kasıbın isə o gecə arvadı ölməli idi. Əzrayıl onun canını almağa gəlmişdi. Körpələrin anasız qalmalarına razı olmadım. Zorla inəyin canını almağına nail ola bildim.

Afət qarşısında dayanıb müdrik qocalar kimi rəvayət söyləyən gənc dayısı oğluna baxıb düşünürdü, Zaur məni müdafiə edə- edə böyüdü , müdrükləşdi. Doğrudan arıq bədənli qaraşın, qara telləri gözünün üstünə tökülən şirin çöhrəli oğlanın yerində , orta boylu, dəmir bədənli, ciddi görkəmli , qaynar gözlü bir gənc dururdu. Zaurun danışdığı rəvayətin təsirindən ayrılıb, düz deyirsən, -dedi.. Heç nə göründüyü kimi deyil ,deməzdim, amma çox şey göründüyü kimi deyil.

Telman onlara uzaqdan sabahınız xeyr deyib ötüb keçdi. Daha doğrusu mızıldandı. Nüşabə gözə dəymirdi. Başqa vaxt olsa səsi küyü məhləni başına götürmüşdü. Hamını masanın ətrafına toplamışdı .Zaur hər nə olur olsun Nüşabənin hayı - küyü anamın ba-

lıq kimi sakitliyindən min dəfə yaxşıdır,- deyə düşündü. Əmisinin arxasınca baxıb onun aldığı görkəmə-görə özünü günahkar saydı. Afətə tərəf çevrilib , bu gün Vüqar bizə gələçək,- dedi. Anam isə Nərgizgildə olacaq , Nərgizin uşağı xəstələnib. Sən qızlara kömək edib bizə yemək hazırlaya bilərsənmi ? Afət əlbəttə hazırlayaram,–deyib cavab verdi. Sonra isə gedim Tünzalə xaladan nə bişirəcəyimi soruşum deyib, Zaur-gil tərəfə getdi.

Vüqar günortadan sonra gəldi, halbuki Zaur onun axşamüstü gələcəyini deyirdi. Tutun altındakı taxtın üstündə oturub evdə darıxdım ,- dedi. Ona görə axşamı gözləməyib gəldim. Zaur axır vaxtlar mən də darıxıram ,-dedi. Qəribədir oxuyan vaxtlar belə azad günlər üçün burnumuzun ucu göynəyirdi. İndi isə dərslərin başlamağı üçün səbrsizlənirəm. Zaur sözünü bitirməmiş gözü Vüqarın əlindəki şahmat qutusuna sataşıb təəccüb etdi. Vüqar Zaurla şahmat oynamağı sevmirdi. Çünki ona qalıb gələ bilmirdi . O, isə məğlub olmağı sevmirdi. O, şahmat taxtasına baxıb nə olub , oynamaq həvəsinə düşmüsən? – dedi .Vüqar həvəslə taxtanı açıb fiqurları düzməyə başladı. Oğlanların başı oynamağa elə qarışmışdı ki, bayaqdan bəri Afət bir neçə dəfə yemək gətirmək istədiyini söyləsə də , onu eşidən yox idi. Onlar gah uzun müddət səslərini çıxarmadan oynayır, gah da elə mübahisə edirdilər ki, Afət narahat olurdu. Onların indicə dalaşıb ayrılacaqlarını zənn edib narahat olurdu. Qızlar başqa bir masanı ağacın kölgəsinə çəkib, üzərinə yemək

düzdülər. Vüqarla Zaur oyun taxtasından ayrılan kimi mübahisəni orada qoyub deyib gülməyə başladılar. Afət onların üzünə təəccüblə baxıb , vallah indicə bir - birinizi parcalayacağınızı düşünmüşdüm, - dedi. Zaur , Vüqar ən azı beş şahmat taxtasını pəncərədən atıb deyib ,qəhqəhə çəkdi.Vüqar yaxşı -yaxşı özünü az təriflə ,-dedi. Sonra qızlara tərəf çevrilib, Afət , sizi Bakıya dayım aparacaq ,– dedi. Afət nə yaxşı deyib, təşəkkür etdi. Qızın ürəyinə bir sərinlik yayıldı ,neçə gün idi ki, narahatçılıq çəkirdi. Qorxurdu ki, Günel daha Afətin onlarda qalmağını istəməyəçək , çünki artıq tək deyildi. Aysel instituta qəbul olmuşdu. Düzdür Afət bundan sonra yataqxanada qalmaq haqqında düşünürdü. Lakin hər halda hələlik get deyən olsa, qalmağa yox idi. Yataqxanaya düzəlmək isə elə də asan iş deyildi. Düzdür indi o artıq institutda oxuyurdu. Qatara bilet alıb çantasına da beş -on manat pul qoyacaqdılar. Lakin bu pul onun eytiyaçarını görüb - görməməyi haqqında düşünən belə də yox idi. O, heç kimə bir kəlmə olsun söz deyə bilmirdi. Neçə gün idi ki, fikir ürəyini didib parçalayırdı ki , harada qalacaq və hansı pulla qalacaq.Keçən il əmiləri kömək etməsə, Vüqarglin evində qalmağı ilə yanaşı onların hesabına dolanmalı olacaqdı. Çünki daha il ərzində onun pulu olub -olmamağı haqqında bir dəfə olsun söz soruşan olmadı. Afət gedənə yaxın əmisigillə görüşməyə getmək istəyirdi. İndi birdənbirə fikrindən daşındı.Birdən elə bilərlər pula görə gəlmişəm -deyə düşünüb ürəyi sıxıldı. Afət Zaura baxıb onun səhər danışdığı rəva-

yəti düşünürdü. Doğrudan da heç nə göründüyü kimi deyil. Yeri gələndə , Nüşabə öyünürdü ki, Afəti böyütdük , oxutduq. Yalan demirdi ki, atasız , anasız uşaq böyüyüb , boya başa çata bilərdimi? Qulluq edən olmasa bir ağac da boy ata bilməz -deyə düşünüb, ürəyinə yığılan küskünlük hisslərini qovmağa çalışdı.Hal -hazırda isə Vüqara minnətdarlıq hissi baxıb ürəyində dualar yağdırırdı. Öz - özlüyündə qəti qərara gəldi ki, qovulmamış gedən kimi yataqxanada qalmaq üçün dekanatlığa müraciət etsin , deyilənə görə əlaçı tələbələrə güzəşt edirdilər. Hər halda Vüqarın sözündən sonra ürəklənib sevindi. Demək ona get , demək istəyən yox idi. O, qalxıb bişirdiyi yeməyi ocağa qoyub qızdırdı. Nanə ilə Jalə Afətə kömək edib hazırladığı yeməkləri masaya gətirirdi. Afətin bişirdiyi cücə çığırtmasını iştaha ilə yeyəndən sonra çay süfrəsində çox oturmadılar. Afət ləzzətli alma piroqu da bişirmişdi. Vüqar cücə çox dalı idi , çox yedim , amma piroqundan dadına baxıb sonra gedəcəm deyib bir parça piroq götürdü.Nanə ilə Jaləyə baxıb , siz bunları necə ayıra bilirsiniz ?-dedi . Mən bayaqdan baxıram heç cür tanıya bilmirəm. Başını çevirib gah Nanəyə baxdı, gah da Jaləyə. Bir fərq hiss etmirəm deyib gülümsündü. Onların Zaura çox oxşadığını söylədi. Sonra üzünü Afətə tərəf tutub amma anam deyir ki, sən gözəllikdə atana oxşayırsan deyib ayağa durdu. Afət qulaqlarının dibinə qədər qızarıb , əlini yumağa qalxan Zaura tərəf baxdı. Zaur əlini yuya-yuya orada nə isə danışırdı. Lakin Afət onun nə dedi-

yini eşitmirdi. Gözünü üzünə dikmiş Vüqardan yayındırsa da daha da qızarıb ,pörtdü. Vüqar xəfif gülümsünüb, Zaurun yanına gedib əllərini yuyub, vidalaşmaq üçün Afətin yanına qayıtdı. Cücəyə və piroqa görə bir daha təşəkkür etdi. Yəqin ki, bir ildən sonra görüşərik deyib, dərhal onların rəqs qrupunun bu ildə Türküyə səfəri olub -olmadığını soruşdu. Afət bayaqdan özünü elə itirmişdi ki, Vüqarın nə dediyini anlamadı. O, sualını bir də təkrar etdi. Afət əvvəlcə key-key çiynini çəkdi. Sonra isə mən bu il rəqsə getmək istəmirəm , - dedi. Dərslərimi çatdıra bilmirəm. Vüqar yenə də bayaqkı kimi xəfifcə gülümsünüb, Əminə müəlliməni çətinliyə salma -dedi. Sənin kimi çinar boylu qızı haradan tapacaq? O, Afətin cavabını gözləmədən Zaurla bilikdə darvazan çıxdı. Bir an qıza elə gəldi ki, tək məhlə deyil , bütün dünyada boşluq yarandı boğulurdu. Sanki Vüqar məhlənin havasını da özü aparmışdı.Uzun müddət oturduğu yerdən qalxmadı. Özünə gələndə qızlar artıq masanı yığıb , qab- qaşığı yuyub yerinə yığmışdılar. Qalan bir -iki şeyi də ortaqlıqdan yığışdırıb , Telman dayısıgilə keçdi. Aşağıda Nüşabə ilə rastlaşdı. Axır günlər demək olar ki, onu görmürdü. Necəsən Nüşabə xala ? - deyib onun yanında oturmaq istədi. Qadın ilan kimi fısıldayırdı. Onun nəfəsinin səsi otaqla bir idi. Bir az ayaq üstə dayanıb, Gülbənizin üzünə baxdı . Gülbənizin gözünü süzdürüb üzünü yana çevirdiyini görüb , pilləkənlərlə yuxarı qalxdı. Gecə Afətin gözünə yuxu getmədi. Vüqarın sözlərini az qala min dəfə təkrar etmişdi. Amma bu

nə demək idi? Bir işarə idimi, yoxsa adi anasından eşitdiyi bir sözümü söyləyirdi? Səhərə yaxın qıza elə gəldi ki, çıxılmaz bir cəngəllikdə azıb. Nəhayət doyunca ağlayıb ürəyini boşaltdı. Gülbənizin Zaurun haqqında söylədiyi, ana sən görmürsən ki, Zaur Afəti sevir? cümləsini heç xatırlamaq istəmirdi. Nə elə bir şey görmürdü, nə də görmək istəmirdi. Görmək və duymaq istədiyi Vüqarın sevgisi idi. Nəinki duymaq eşitmək istəyirdi , arzulayırdı. Vüqarın dilindən səni sevirəm kəlməsini eşitmək üçün günlərlə dua edirdi. Lakin üzün bir yay ötüb keçdi. Onun dilindən qıfıl açılmadı. Arzuladığı o sözü eşitmədi. Onun dilindən eşitdiyi adi bir sözün başından tutub ümidlənmək istəmirdi. Ona görə doyunca ağlayandan sonra səhərə yaxın sakitləşib gözünə yuxu getdi. O , yuxudan oyananda Zaurla Vüqar çoxdan getmişdi. Vüqar sürücüləri ilə gəlib saat səkkizdə Zauru götürüb aparmışdı. Aybənizin gedişindən sonra sükut çökən məhlə indi əsl cəhənnəmə dönmüşdü. Telmanla Nüşabənin qaş qabağı açılmırdı. Tünzalə ilə Elman da Zaurdan sonra süst düşüb darıxmağa başladı. Hətta Tünzalə bir-iki dəfə ağlamsınıb Zaursuz evə baş sala bilmədiyini söylədi.

Bu çətin ölü sükut hökm sürən sonuncu günlərin birində Afətin əmisi gəlib onu apardı. Onun gəlişi Afəti hədsiz sevindirdi. Həm burada demək olar ki, ayağının ucunda gəzirdi. Nüşabə onunla qəti rastlaşmaq istəmirdi. Sanki, Aybənizin qaçmağında bir günahkar adam var idi isə o, qa Afət idi. Bir də ki, əmi-

ləri ilə, bibisi ilə görüşmək,atasının qəbrini ziyarət etmək istəyirdi . Lakin bunların heç birini dilə gətirə bilmirdi. Nədənsə əmisigilə özbaşına gəlməyə də üzü gəlmirdi.

Əmisigildə keçirdiyi bu iki üç gün , bütün yay tətilinə dəyərdi. İndiyə qədər Afətin yanında ciddiyyətlərini saxlayan əmiləri onunla getgedə səmimi olmağa başlamışdılar. Əmilərin ən çox da bibisinin qəribə yumor hissləri var imiş . Afət onların zarafatlarına ürəkdən gülürdü. Dayılarının belə zarafat etdiyini xatırlamırdı. O məhlədə həmişə bir ciddiyyət hökm sürürdü . Zarafat edən təkcə Zaur olurdu. O ,da heç vaxt çərçivədən çıxmırdı. Mütləq danışığına sərhəd qoyurdu. Əmiləri isə Afətə elə gəlirdi ki ,çox şit zarafat edirdilər . Onlar bir -birinə həyat yoldaşlarına , uşaqlarına elə sataşırdılar ki, necə deyərlər qarşıdakının yeddi qatından keçirdi. Amma Afət burada birbirindən inciyən kimsəni görmədi. Artıq incə də olsa ona da ilişirdilər. Bu qıza çox xoş gəlirdi. Demək onu da sıralarına qəbul etməyə başlamışdılar. Bu zarafatlar onun əmiləri ilə arasında olan səddi yavaş – yavaş uçururdu. Əmiləri ilə tanışlıqda Afətə bir şey aydın oldu ki, onlar hər etsələr ürəkdən edirlər ağlayanda da , güləndə də . Buna o , atasının məzarı üstündə bir daha şahid oldu. Əmiləri atasının məzarının başında elə ağladılar ki, Afətə elə gəldi ki,atası bu gün ölüb.

Evə dönəndə bu dəfə ona elə pul verdilər ki, qız yola düşəndə dayılarının pulunu götürmədi. Nüşabə ümumiyyətlə onun getməyi ilə marqlanmadı heç bir

ərzaq filan da qoymadı. Tünzalə nə isə kiçik bir bağlama qoymuşdu.

Qızları Bakıya Vüqarın dediyi kimi Veysəl aparmalı oldu. Kişi keçən ilki kimi yol boyu zarafat edib, bacısının qızları ilə deyib güldü. Yenə də Ağsunun aşırımına çatar çatmaz maşını saxlayıb qızlar, siz instituta qəbul olanda qonaqlıq verdim. Bəs Ayselin qəbul olmağı münasibəti ilə qonaqlıq verməsəm məndən küsməz? – dedi. Afətlə Günel bir söz deyib cavab verməsələr də, Aysel dərhal küsərəm,-dedi. Veysəl keçən dəfə saxladığı yerdə deyil, başqa bir yeməkxananın qarşısında maşını saxlayıb düşdü. Qızlar da düşüb oturdular. Yemək ortaya gəlməmiş Aysel Afətə olan münasibətin bildirdi. Afətin üzünə baxıb dayı, sən biz instituta qəbul olanda qonaqlıq verirsən, bəs görəsən Afətin dayısı onun qəbul olmağı münasibəti ilə niyə qonaqlıq vermir?- dedi. Söz Afətin üzünə sillə kimi dəydi. Qıpqırmızı qızarıb pörtdü. Boğazı tıxanıb , iştahası küsdü. Özünü ələ almaq istəsə də bacarmadı. Masaya yemək gələndə özünü şən aparmağa çalışıb bir parça çörək kəsib ağzına qoydu. Lakin ağzındakı loxmanı udmağa çalışsa uda bilmədi. Bir iki qisməti zorla çeynəmədən ağzında saxlayıb, əlində saxladığı salfetin arasına büküb zibil qabına qoydu. Sonra özünü yeyib içmiş kimi göstərib çay içdi. Onun halı Veysəlin gözündən yayınmadı. Kişi yol boyu qızın könlünü almağa çalışıb Çingizlə Səlimin dostluğunu xatırladan maraqlı söhbətlər etdi. Bu xatirələr Afətə xoş gəlsə də onun üzünə hopmuş kefsizliyi götürə bil-

mədi. .
Afət yol boyu Aysel barədə düşüncələrində yanılmadığını, - düşünürdü. Bəzən yanıldığına ümid etsə də , mütləq özünə qalmağa başqa yer axtarmağı qət etdi . Bu qərarından sonra heç bir inciklik bildirmək istəmədən evə çatan kimi otaqları silib , gətirdikləri ərzaqları soyuducuya yerləşdirdi. Günel çaydanı doldurub piltənin üstünə qoydu. Araya yenidən gərginlik çökdü. Paltarlarını yerləşdirmək üçün, çantasını dolabın qabağında açmaq istəyirdi ki, Ayselin onun dolabdakı paltarlarının qarşısında dayanıb mənin paltarlarım bura zorla yerləşək dediyini eşitdi. Afət yaxınlaşıb oradakı paltarlarını dolabdan götürüb çarpayının üstünə yığdı. Siyirməni çəkib əşyalarını və şəkilləri götürdü. Onları qucağına yığıb Günelin otağına keçdi. Başı əşyalarını yığmağa qarışan Günel , Afəti görən kimi , məsələnin nə yerdə olduğunu anladı. O, Afət, gətir paltarlarını, əşyalarını mənim dolabıma yığ ,-dedi. Günel narahat olub, qızın könlünü almağa çalışaraq ,Ayselin paltarı , əşyası çox olduğunu söylədi. Afət Günelə bir söz demәsə də paltarlarını da açıb dolaba yığmadı . Hər şeyi çantasına yığıb, çantanı dolabın asılqan olan gözünə qoyub , Günelə bəlkə mən sənin otağında yatım ?.- dedi. Günel bu sözü bayaqdan demədiyi üçün xəcələt çəkərək əlbəttə biz köhnə rəfiqələr bir yerdə yatsaq yaxşı olar,-dedi.

O gündən Afət hər addımda eytiyatlı olmağa çalışdı. Günelə ,Vüqara , Asudə xanıma zərrə qədər bənzəməyən Aysel , kəlməbaşı onun xətrinə dəyirdi. Ay-

bənizin qaçmağı haqqında suallar verib, qızın sinirini silkələyirdi. Halbuki Afət bu barədə Günellə saatlarla danışıb müzakirə etməyə , ürəyini boşaltmağa hazırlaşmışdı. Ayselin kinayəli ,iki başlı suallarından sonra Aybənizin adını ağzına almadı. Afətə bir şey də aydın oldu ki, Aybənizin haqqında pis söz eşitmək istəmir. Lakin, bu mövzu Ayselin dilindən düşmürdü. Onun hər kəlməsi Afətin qəlbinə dəysə də , hər nə olur olsun Aysellə mübahisəyə girməməyi qərara aldı. Ayselə qarşı hörmətsizliyi Vüqarla , Günelə, Asudə xanıma hörmətsizlik olacağını düşünürdü.

Dərsə gedən kimi ilk işi dekanatlığa gedib, yataqxanada qalmaq üçün yer istəmək oldu. Hələlik müsbət bir cavab almasa da ümidini də itirmədi. Qızlardan kirayə evlərin qiymətini öyrənib məyus oldu. Onun kirayəni ödəyə biləcəyinə ümidi yox idi. Axı ona daimi davamlı pul verən yox idi. Bəlkə də əmilərinə desə kirayə pulunu daimi göndərərdilər. Amma onun ,qətiyyətlə heç kimdən kömək istəmək fikri yox idi. Nüşabə ona dəfələrlə demişdi ki, bizim səni oxutmağa pulumuz yoxdur. Onun bu sözləri həmişə Afətin qulağında səslənirdi.

Artıq sentyabr bitmək üzrə idi. Afət hər gün dekanatlığa ayaq döyürdü. Bu gün ümidverici xəbər alıb evə sevinə - sevinə dönürdü. Deyilənə görə oktyabrın ortalarında nişanlı olan bir qız toydan sonra yataqxananı tərk etməli idi. Və onun yerini Afətə verməli idilər. O , Günelgilin yanında başqa yer axtardığını söyləmirdi. Sadəcə son dərəcədə pünhan davranmağa ça-

lışırdı. Ayrılanda qızlarla dostcasına ayrılmağa cəhd edirdi. Bu gün evə kefi kök qayıtmışdı. Yataqxanada yer ala bilmək xəbərinə görə arxayınlaşıb, yolüstü mağazadan ət almışdı. Qızlardan aldığı xəbər onu daha da sevindirdi. Qızlar Asudə xanımla telefonla danışmışdı. Asudə xanım ,Telmanla Nüşabənin Aybənizlə barışdığını söyləmişdi. Qızların dediyinə görə oğlanın adamları Səlimin yanına gəlib onları barışdırmağı xahiş edib. Çətinliklə də olsa Səlim, Telmanla Nüşabəni qudaları ilə barışdırıb. Hətta onlar Telmangilə gəldikdən sonra, Nüşabəni özləri ilə aparıb Aybənizlə görüşdürüblər . Bu yaxınlarda da toy edəcəklər. Asudə xanımın dediyinə görə Nüşabənin oğlandan və ailəsindən xoşu gəlib, oradan evinə sevinə- sevinə dönüb. Bu xəbər Afəti hədsiz dərəcədə sevindirdi. Çünki , həmi dayısına yazığı gəlirdi, həmi Aybəniz xoşbəxt olsa Nüşabənin ondan əl çəkəcəyinə ümid bəsləyirdi, həm də ki, Ayselin tənələrindən canı qurtaracaqdı.

Afət bu xəbərlərdən sonra , həvəslə aldığı əti doğrayıb qızartdı . Günel yeməyin dadlı olduğunu söyləyib , qabları yuyub çay dəmlədi. Bu günki gün sakit keçdi. Ertəsi gün Afət Ayseldən incıməsə də ona çox təəccüb etdi. Bütün gün ərzində onun sözünün təsiri altında qaldı . Bu gün səhər -səhər qızlar hər üçü məktəbə getmək üçün hazırlaşırdı. Afət keçən il Günellə aldığı paltarı geyinmişdi. Aysel ona baxıb , mən sənin kimi gözəl olmaq üçün sənin hər şeyimi dəyişərdim,- dedi. Afət donub yerində qaldı. Necə yəni

hər şeyimi dəyişərdim?- deyib çiynini çəkdi. Aysel hə, -dedi . Dəyişərdim sənin yerində olardım , sən də mənim yerimdə. Afət ona cavab verməyi lazım bilməyib artıq dayanacağa tərəf getdi . Yol boyu, Aysel bu cılız fikirlərlə kimə bənzədiyini düşünürdü. Afət onun ətrafında belə bir insan görmürdü. Asudə xanım kimi bir ananı, Səlim əmi kimi atanı, Vüqarı , Güneli Afət bu dünyada heç nə ilə dəyişməzdi. Onların məhəbbətinin istisinə bu illər ərzində Afət də qızınmışdı. O ailədən Afətə düşən bir parça məhəbbəti ömrü boyu qoruyub saxlamaq arzusunda idi. Odur ki, Ayselin fikri onu təəccübləndirirdi . Bacardıqca bu qızdan kənar durmaq lazım olduğunu düşünüb ,axırıncı günləri başa vurmaq üçün allahdan özünə səbir dilədi.

Axırıncı günlər Afətin gözlədiyindən tez ötdü. Nəhayət onu çağırıb bazar ertəsi yataqxanada yerləşə biləcəyini xəbər verdilər. Afət istirahət günü axşam tərəfinə qədər bu barədə söz açmağa çalışdı, amma üzü gəlmirdi. Az qala gecəyə qədər söz sala bilməyib ehmalca yığışdı. Qızlar yatmağa hazırlaşanda, səhər bu evdən bir dəfəlik getdiyini söylədi. Onlar çox təəccüb etdilər hətta təkcə Günel deyil Aysel də hara gedirsən, niyə gedirsən?- deyib suallar yağdırdı. Afət qızlara ,onların valideynlərinə dönə - dönə təşəkkür edib, növbəyə keçən ildən yazıldığını ,-dedi. Günel keçən il Afətdən belə bir şey gözləmirdi. O, yalan dediyini, Ayselə görə getmək istədiyini yaxşı başa düşürdü. Ertəsi gün Afət evdən çıxanda hər şeyini toplayıb

taksi ilə getdi. O, çantalarını yataqxanaya qoyub dərsə getdi. Qızlarla səhər görüşəndə kövrəlmişdi. Bu kövrəklik hissi axşama qədər ondan əl çəkmədi. Gün ərzində davamlı ağlamağı gəlirdi.Dərsdən çıxıb yataqxanaya gəldi.Bura Asudə xanımın evi kim rahat olmasa da yataqxananın da öz ləzzəti var imiş . Afət qızlarla tez dostlaşdı. Həcər ilə Güllü , hər ikisi kasıb ailədən olan sadə qızlar idi. Ən vacibi əlacı idilər. Sözləri yaxşı tuturdu. Bir də ki, bu qızların geyimi də lap elə yeməkləri də sadə idi. Afət onlar baxıb , hansısa bir dahının sözünü xatırlayıb, bu qızlar yemək üçün yaşamırlar, yaşamaq üçün yeyirlər deyə , - düşündü.

Yataqxana məsələsini həll edəndən sonra , zəng edib bu barədə dayısına xəbər verdi. Düzdür Telman bu işə o qədər də əhəmiyyət vermədi. Dodağının altında nə isə mənasız bir iki söz deyib, dəstəyi asdı. Telmandan sonra ya əmisinə , ya da bibisinə də zəng edib demək haqqında düşünürdü. Əvvəl bir az tərəddüt etsə də xəbər verməyi lazım bilib, bibisinə zəng etdi. Qadın niyə səbəb nədir bir necə sual versə də nəhayətində düzgün etdiyini söylədi. Qız zənglərdən sonra tam rahatlaşsa da indi də rəqsdən çıxmaq haqqında düşünürdü.

Yataqxanaya köçəndən sonra Afət rəqs qrupundan çıxmaq fikrinə düşmüşdü. Çünki dərslərini çatdıra bilmirdi. Birdə ki, onun qolunu belə qaldırmağa həvəsi yox idi. Əminə müəlliməyə isə sonsuz məhəbbəti var idi. Onu əsəbləşdirmək istəmirdi. O, hər şeyin yaxşısını sevirdi , rəqs etmək yerinə sürünməyi, qəbul

etmirdi. Düzdür bu barədə Əminə müəlliməyə deyəndə razı olmadı . Sənin yaxşı talantın var ,-dedi. Uzun - uzadı tövsiyə etdi. Lakin qızın israrla çıxmaq istədiyini eşidəndə, köksünü ötürüb, sənin qol- qanadını qıranın ayaqlarını qırardım ürəyim soyumazdı ,-dedi.

Afət uzun müddət Əminə müəllimənin sözünün təsirindən çıxa bilmədi. Gündə bir neçə dəfə o sözü özlüyündə təkrara edirdi. Ürəyindən keçirdi Əminə müəlliməyə desin , ki, mənim qol -qanadımı , zadımı qıran yoxdur, mən sadəcə dərslərimi çatdıra bilmirəm. Lakin günlərlə bu fikrin üstündə düşünüb nəhayət Əminə müəlliməyə haqq verdi. Onun həyat eşqini söndürən biri var idi. Onsuz Afət bu dünyanı rəngsiz görürdü. Musiqini eşidirdi , lakin duymurdu. Söhbətlər mənasız ,yeməklər dadsız gəlirdi ona. Bir nəfərin olduğunu isə Əminə müəllimə bilirdi.

Bir neçə gün idi ki, dərslər xərçəng xəstəlikləri xəstəxanasında gedirdi. Afət bu gün Vəfanı görmüşdü .Qız gözünə inan bilmirdi. Xəstəxanadan gələndən özünə gələ bilmirdi. Əslində qızı xəstəxanaya gedən gündən görürdü, amma onun Vəfa olduğu ağlına belə gəlmirdi. .Bu gün onu quyunun dibində qalan gözlərindən tanımışdı .Yazıq qızda gözlərindən başqa tanınılası heç nə qalmamışdı. Qupquru quruyub arıqlamışdı. Saclı ,qaşı , kirpiyi tökülmüşdü . Dodağında rəng yox idi. Qızlardan biri bu xəstənin Vəfa olduğunu söyləyəndə, üç ay ərzində insanın bu hala düşə biləcəyinə inana bilməmişdi. Sonra qızlar tibb bacısından xəstənin adını soyadını öyrənib, Vəfa olduğu-

na əmin olduqdan sonra, nişanlısını da xəbər aldılar. Lakin tibb bacısı başını bulayıb , heç bir nişanlı zad görmədiyini söylədi. Afət əvvəlcə qızlara Vəfanın nişanlısının ona eşq elan etdiyini danışmaq istədi. Lakin sönməkdə olan şama bənzətdiyi bu gözəl qızın adını o murdarın adı ilə bir yerdə çəkmək istəmədiyi üçün susdu. Elə susdu ki, yataqxanaya dönən də ağzına açmaq istəmədi, heç yemək yeməyə də iştahası qalmadı. Güllü ilə Həcər israrla nə olduğunu soruşdular. Afət axşam tərəfi onlara son günlərini yaşayan qızdan danışdı. Həcərlə Güllü ona özünü ələ almağı tövsiyə etsələr də o gecə gözünə yuxu getmədi. Ertəsi gün dərsə gedəndə ilk eşitdiyi xəbər Vəfanın ölümü oldu.

Bir həftədən sonra dərsən gələndə yataqxananın həyətində onu gözləyən əmisini görüb təəccüb etdi. Pərviz Afətə yerini dəyişdiyi üçün narahat olduğunu söylədi .Afət heç bir narazılıq etmədən, yataqxanada özünü daha yaxşı hiss etdiyini, - dedi. Lakin Pərviz israrla gəl kirayə bir otaq tutaq deyib dururdu. Afət əmisini birtəhər sakitləşdirib yataqxanada qalmağına razı saldı və ona görə narahat olduğu üçün əmisinə dönə - dönə təşəkkür etdi. Pərviz bir az susandan sonra dedi:

Hə , bir də Telmanın qızının toyudur. Əgər getmək istəyirsənsə sabah səni də apararam. Sabah şənbə günüdür.Toy da birisi gündür. Dərsən sonra səni də götürüb apararam bazar günü axşam ,toydan sonra qa-

tarla yola salaram gələrsən. Bibin tapşırdı dedi ki, Afət gəlmək istəsə onu da gətir.

Afət Aybənizin toyu olacağını bilirdi. Amma ona xəbər vermədikləri üçün məyus oldu. Qız Aybənizin toyunda mütləq iştirak etmək istəyirdi. Aybənizlə bir evdə böyümüşdü. Dava etsələr də çox xoş günləri də olmuşdu. Bir də ki, onlar Afəti sevməsələr də, Afət onları sevirdi. Qızın qanı qaraldığı , Pərvizin gözündən yayınmadı. O,sualı təkrar edib , getmək istəyirsənmi? - dedi.

Afət əmisinin üzünə məsum bir ifadə ilə baxıb ,səmimiyyət ilə getmək istədiyini ,- dedi. Bir az fikrə gedib, nədənsə mənə xəbər verməyiblər. Sözünü bitirən kimi dediyi sözdən peşman olub, yəqin ki, məni dərsdən ayırmaq istəməyiblər, axı dərslərimin çox ağır olduğunu bilirlər .

Pərviz Afətin başını sinəsinə sıxıb, yox qızım ,-dedi. Telman özü toy etmir , ona görə sənə heç nə deməyib. Toyu oğlan evi edir. Amma Telmangil toya gedəcəklər. Nə isə sabaha qədər fikirləş ,getmək istəsən səni də aparaçam . Sənə söz verirəm özüm də qatarla yola salaçam.

Afət səhərə qədər düşünüb getmək qərarına gəldi. Babasını çox işlətdiyi bir kəlamı da xatırlayıb qərarının düzgün olduğunu düşündü. Babası deyərdi ki, "Çalış bir yerdə tapıl ,sənli də olar , sənsiz də. " Doğrudan da toy insanın həyatında ən vacib günlərdən biri olduğu bir yana dursun , həm təkrar olunmayan bir gündür. Aybənizin bir daha toyu olmayacaq ki,

gələn dəfə iştirak edəm , deyə düşünüb , qalxıb hazırlaşmağa başladı.

Pərviz verdiyi sözə əməl etdi. Afəti aparıb dayısıgilin həyətində düşürüb, axşam qatarın vaxtında isə qonşu rayonda olan Aybənizin toyundan götürüb qatara mindirdi . Afət voqzalda birinci dəfə Pərvizə sarılıb öpdü. O, minnətdarlıq hissini dili ilə söyləyə bilmədiyi üçün əmisinin boynuna sarıldı. Pərviz də kövrəlib onu sinəsinə sıxdı. Qız əmisinin hərəkətindən çox razı qalmışdı , sevinirdi. Çünki onun gəlişi dayısını ,Aybənizi hətta az qala Nüşabəni də sevindirmişdi.Körpəlikdə bir yerdə böyüdüyü, hər addımına , kəlməsinə bələd olduğu Aybənizin xoş günün də yanında ola bilmişdi. Onun xoşbəxt göründüyünü görüb sevinmişdi. Əmrahdan da xoşu gəlmişdi. Afətə elə gəlirdi ki, Əmrahdan Nüşabənin də xoşu gəldiyi üçün illərdən bəri ona olan nifrəti azalmışdı. Düzdür hələ də qızın üzünə baxa bilməsə də gözündən kin püskürmürdü. Əmrah qonşu rayondan idi. Aybənizlə Gəncədə tanış olmuşdu. Onun oxuduğu kənd təsərrüfatı institutu Aybənizin oxuduğu texnikomla eyni küçədə yerləşirmiş. Demək olar ki , hər gün rastlaşırmışlar. Lakin Aybəniz qiyabi oxuduğuna görə bunun üçün sessiyanın başlamağını gözləməli olurmuşlar. Növbəti sessiyanın birində tanış olurlar və aralarında yaranmış bu tanışlıq məhəbbətə çevrilir. Əmrahın bu sevgisi Rusiyada yaşayan valideyləri tərəfindən çox böyük rəğbətlə qarşılanır. Çünki Əmrahın valideynlərinin ən böyük arzusu onun ailə qurub ata baba yur-

dunun çırağını yandırıb , öz el obasında qalıb yaşaması idi. Əmrah Aybənizlə tanışlıqdan sonra Rusiyaya qayıtmaq fikrində daşınıb , rayonlarında qalmaq fikrində idi. Bu xəbər onun nənəsini və ata -anasını hədsiz sevindirir. Lakin Əmrahın adamları bu xəbərdən nə qədər şad olsalar da ,Aybəniz Nüşabəni heç cür yola gətirə bilmirmiş O, oğlanı nə görmək ,nə də haqqında söz eşitmək istəmirmiş. Aybəniz səbəbini açıq deməsə də Afətə gün kimi aydın idi ki, Nüşabə Aybənizin Zaurla ailə qurmağını istəyirdi. Amma, Əmrahın ailəsini , özünü ,iki mərtəbəli gözəl evini məhləsini görəndən sonra sevincinin həddi hüdudu yox idi. Doğrudan da Afət Əmraha mat qalmışdı. Qəribə ünsiyyətcil oğlan idi .İlanı yuvadan çıxara bilən dili var idi. Afət çəmi bir dəfə gördüyü bu oğlanı sanki , yüz idi ki, tanıyırdı. Bütün bunları görüb , eşidib şad qayıtdığı üçün , əmisinə dua edə- edə gözünə yuxu getdi. Səhər qatardan düşüb bir başa yataqxanaya gəldi . Dərsə gecikmək istəmirdi. O, yataqxanaya girəndə Güllü qapıdan çıxırdı. Qız ona salam verib yanından az qala qaca - qaca ötüb keçdi. Lakin aradan heç beş dəqiqə keçməmiş qapını açıb, Afət, dünən səni bir qadın axtarırdı, -dedi. Afət təəccüblə dönüb Güllünün üzünə baxıb, nə qadın? -dedi Güllü çiynin çəkib, nə bilim heç nə demədi, deyəsən qohumun idi çünki dayın qızının toyu olduğunu eşidəndə ,bilsəm mən də gedərdim ,-dedi. Güllü sözünü bitirən kimi qapıdan sıxıb bir anın içində yoxa çıxdı. Afətin dərsə gecikdiyi yadından çıxdı, donub yerində qaldı. Ağlına heç kim

gəlmədiyi üçün tələsik paltarını dəyişib , dərsə getdi. Nədənsə bütün gün ərzində fikri qadının yanında qaldı. Hər nə qədər fikrini yayındırmaq istəsə də, mümkün deyildi. Bütün gün ərzində narahatçılıq keçirdi. Nəhayət onun səhvən gəldiyini düşünüb sakitləşdi.

Hava çox küləkli idi . Afət yataqxanaya yaxınlaşanda külək dayanmışdı .Selləmə yağış başlamışdı. Dayanacaqda avtobusdan düşüb yağışın bir az səngiməyinin gözləyirdi. Ürəyini yenidən narahatlıq bürümüşdü. Qadın haqqında düşünürdü . Nəyə görə Aybənizin toyuna getmək istəyirmiş . Şırhaşırla yağan yağış sakitləşən kimi yataqxanaya tərəf tələsdi. Qapının ağzında dayanmış uca boylu iki oğlanı və bir gənc qadını görəndə ürəyi çırpınmağa başladı. Qapıya yaxınlaşıb onlara tərəf baxmadan içəri keçmək istədi. Qadın ona tərəf bir addım atıb səsi titrəyə- titrəyə Afət ,- dedi. Qızı sanki cərəyan vurdu. Dönüb qadının üzünə baxdı və dərhal Cəmiləni tanıdı. Qızı sanki ayaqlarından yerə mismarladılar. İrəliləmək istəyirdi, ayaqlarına vurulmuş mismarlar onu yerindən tərpənməyə qoymurdu. Başını qaldırmaq istəsə də bacarmırdı. Bir tək onu hiss edirdi ki, onu yerə bağlayan mismarların qüvvəsi getmək , uzaqlaşmaq hissindən çox artıqdır.. Qadın özünü Afətin üstünə atıb öpməyə başladı, onun gözündən yaş leysan kimi axırdı. Qız tərpənmədən buz heykəl kimi dayanmışdı. Sanki tərpənməyə qorxurdu. Bu mərasimin nə qədər çəkdiyini xatırlamırdı. Qadın bir kənara çəkiləndə oğlanlar bir-

bir irəli gəlib Afətlə görüşdü. Qız onların hər ikisinin mülayimcə gülümsəyən sifətinə baxıb görüşdü.

Cəmilə həmin gün Afəti özü ilə apara bilmədi. Ağladı , yalvardı qız gedə bilmərəm deyib durdu. Oğlanlar gedək sonra səni qaytarıb gətirərik ,-dedilər. Lakin qız razı olmadı ki ,olmadı. Çox isrardan sonra isə bu gün gedə bilmərəm , sonra gedərəm deyib pilləkənləri qaca -qaca yuxarı qalxdı.

Bayaqdan daş heykələ dönmüş qız otağa keçib ağlamağa başladı. Onun hönkürtüsünə o biri otaqdakı qızlar da gəlmişdi. Güllü su gətirib ,Afəti sakitləşdirməyə çalışırdı. Sakitləşmək əvəzinə daha qızışırdı. Nəhayət , Həcər bütün qızları otağına yola salıb sakit buraxın , qoyun ağlayıb sakitləşsin ,-dedi.Afət isə sakitləşə bilmirdi. Cəmiləni görəndə ürəyinə axan istilik onu yandırıb tökürdü. Nəyə görə Afət o istilikdən bu illər boyu məhrum olmuşdu. Şər qarışanda Həcər ona zorla bir qismət yeməklə çay verdi. Qızlar ona sual verib niyə ağladığını soruşub yarasının qərtməyini qopartmaq istəmirdilər. Afət özü dünən gələn qadının onun anası olduğunu,-dedi . Güllü nə isə sual vermək istəyirdi. Həcər qızı danışmağa qoymadı . Yıxıl yat,-dedi. Sonra söhbət edərik. Afət yuxusunda babasını gördü. Elman dayısının həyətində tut ağacının dibində oturub qəlyan çəkirdi. Afətin illər boyu şahidi olduğu söhbətlərinin tam əksinə olaraq, kişi sakit və mehriban idi. Afətin üzünə gülümsünərək baxıb deyirdi:

Qızım Allah ən ağır günahları bağışlayır. Sən də bağışla .Ananı bağışla. Elə hey gülümsünüb eyni sözü təkrar edirdi. Afət ananı bağışla !!!

Gecənin yarısı yuxudan diksinib oyandı. Ürəyinə axıb dolan istilik yerində idi, bütün bədəninə yayılmışdı. Ona bir şey aydın oldu ki, babasının səsi ilə qulağına gələn səs onun içərisindən gəlirdi. Sadəcə babasına çox güvəndiyi üçün bu səs onun qulağına babasının səsi kimi gəlirdi.Anasına olan məhəbbətini qəlbinin harasına basırsa da , gizlətsə də mümkün olmadı. O məhəbbət Cəmiləni görən kimi baş qaldırıb, qəlbini riqqətə gətirdi. Lakin qız uşaqlığına dönüb, yenidən ağlaya- ağlaya böyüdü. O, günləri yenidən yaşayıb kədərləndi. Necə deyərlər məhəbbətlə nifrət qarşı -qarşıya dayanıb, ürəyini didib parçaladı.

Afətin səhər durub dərsə getməyə halı yox idi. Paltarını geyinib güzgünün qarşısında keçib özünü tanıya bilmədi. Bir gecədə ən azı on il qocalmışdı. Dərsdən gələndə qızlara anası ilə bağlı olan hər şeyi danışdı. Qızlar bir ağızdan ananla barış,-dedi. Güllü Afət qucaqlayıb , bu dünyada ananın yerini heç nə verməz deyib kövrəldi. Həcər hələ səni qarşıda uzun illər gözləyir ,-dedi. Qoy qarşıdakı illərin analı olsun. Afət qızların hər ikisini öpdü. Lakin bir neçə gün Cəmilə ilə qarşılaşmaq istəmədi. Belə də ,-dedi. Qoyun özümə gəlim, görüşərik .

İstirahət günü Ayazla , Niyazi gəlib onu apardı.Birlikdə Tibb institutunun yaxınlığında yerləşən bina evinə qalxdılar. Üçüncü mərtəbədə orta qapının zəngini

çaldılar. Cəmilə qapını açıb Afətin boğazına sarıldı. Mətbəxdən ləzzətli plov ətri gəlirdi. Afət Həcərin sözünü xatırladı, analı olmağın ləzzətini sən də gör. Səliqəli təmirli dəhlizdən otağa keçdilər. Otaqda hər şey təzə olduğu üçün evdən qəribə təzəlik qoxusu gəlirdi. Otaqda divan , kreslo, stol ,stuldan başqa heç nə yox idi. Divan kreslonun qabağına kiçik xalça salınmışdı. Üzərinə ağ süfrə salınmış masanın üzərində barmaq basmağa yer yox idi. Cəmilə Afətin şəninə süfrə açmışdı . Bəzəkli kiçik kasalarda bir neçə cür soyuq qəlyanaltı qoymuşdu. Elə balıq şəklində olan uzunsov buludda , sobada qıpqırmızı qızarmış balıq ləvəngisi qoymuşdu. Başqa bir boşqabda isə toyuq ləvəngisi var idi. Ayaz qəribə bir şirin ləhcə ilə bacı gəl , masaya yaxın otur, -dedi. Acından ölürük. Afət nədənsə uşaqlarla çox tez dostlaşdı , sanki onları çoxdan tanıyırdı. Həm də oğlanlar ona məhəbbət və hörmətlə yanaşırdılar. Oturan kimi Cəmilə süfrədə nə var hamısını onu boşqabına yığmağa başladı. Qız ona bir söz demədən başqa boşqab götürüb , öz ürəyi istəyənlərdən bir iki qismət yeyib kənara çəkildi. Süfrəni yığmaqda ,Cəmiləyə kömək etmək istəsə də yerindən tərpənə bilmədi . Sanki onunla tək mətbəxə keçmək istəmirdi. Oğlanlar ayağa durub masanı yığmaqda analarına kömək etdilər. Çay süfrəsi daha zəngin idi. Cürbəcür çeşiddə şirin çörəklər və şokoladlarla dolu büllur vazalar masanın bir neçə yerinə qoyulmuşdu. Çaydan sonra Cəmilə Afəti suala tutmağa çalışsa da , söhbətləri tutmurdu. Qız hə ilə yoxdan savayı bir söz

demirdi. Amma qardaşları ilə həvəslə danışırdı. Şər qarışanda qalxıb getməyə hazırlaşdı. Cəmilə nə qədər yalvarsa da onu saxlaya bilmədi. Ayazla Niyazi da bizimlə qal, deyəndə isə kitablarım oradadır dərs oxumalıyam ,- dedi.

O gündən sonra , bir qayda olaraq Ayaz hər gün gəlib onu apardı. Afət Ayazı daha çox sevmişdi. Onun sözündən heç çıxa bilmirdi. Ayaz Niyaziyə nisbətən daha istiqanlı ,cılğın idi. Hisslərini daha tez birüzə verə bilirdi. Axır vaxtlar Afətdən yapışıb onlarla qalmağını xahiş edirdi. Günlər keçdikcə Cəmilə ilə Afətin arasında buzlar əriməyə başlayırdı. Söhbətləri alınırdı. Afət özü də bilmədən Cəmiləyə illərin söhbətlərini etmişdi. Cəmilə ondan doya bilmirdi.Hər görüşəndə dörd- beş dəfə onu qucaqlayıb bağrına basırdı. Bəzi söhbətləri eşidəndə hönkür – hönkür ağlayırdı. O, da öz növbəsində həyatından Afətə danışırdı. Hər kəlməsinin başında , sonunda özünün günahını bağışlatmağa çalışırdı. Heç bir təklifə qulaq asmadan yataqxanaya qayıdan Afət, ora çatan kimi onlarsız darıxırdı. Amma nədənsə səhər qayıdıb getmək istəmirdi. Öz hissləri özünə qəribə gəlirdi. Bəlkə onlara çox yaxınlaşıb, öyrəşmək istəmirdi. Hər nə isə qəribə hisslər keçirə - keçirə günlər keçirdi. Onların getmək vaxtı yaxınlaşırdı. Afət bunu tam aydınlığı ilə bilirdi ki, onların getməyini istəmir. Bir gün Cəmilə Afətə nə isə demək istəyirdi, lakin tərəddüd edirdi. Afət bayaqdan bəri gərgin olan Cəmilənin nə isə demək istədiyini anlayıb narahat olurdu .Araya uzun bir sükut çökmüşdü. Ayaz tez –

tez gözü ilə anasına işarə edib nə isə demək istəyirdi. Nəhayət Cəmilə düz qızın qarşısında oturub , Afət, sənə qurban olum mənim bu təklifimi rədd etmə, - dedi. Afət daha da narahat olub təəccüblə anasına baxıb çiynini çəkdi.

Cəmilə yerindən qalxıb kisik bir bağlama gətirdi. Əlləri əsə -əsə bağlamanı açıb ortaya qoydu. Afət açıq qalan yaylığın arasındakı qızıllara baxıb, yenə də çiynini çəkdi. Cəmilə yaylığın içindəki qızılları bir- bir əlinə alıb kövrək səslə dedi:

Bu saatla, üzük sənin atanındır. Qalan bu qızıllar isə onun toyumda mənə hədiyyə etdiyi qızıllardı. Mənə elə gəlir ki, bunların hamısı sənə çatmalıdır. Cəmilə bir az susub sözünə davam edib dedi:

Bu evin sahibi Sədinin dostudur, Moskvada yaşayır. O , bu mənzili satmaq fikrindədir. Mən istəyirəm ki, atandan sənə qalmış olan qızılları satıb bu mənzili sənə alım. Bu sənin haqqındır. Neçə deyərlər ata malı kimi halalındır. Sən mənim bu təklifimi qəbul etsən ,mənə bir yaxşılıq etmiş olarsan. Günahımı azaltmağa imkan vermiş olarsan. Sən bu mənzildə məskunlaşsan , Moskvaya rahat qayıdaram.

Cəmilənin sözləri Afətin ürəyini silkələdi. Neçə yəni sənə mənzili alım, günahım azalsın ?. Demək bu işi mənə olan məhəbbətdən deyil, öz günahını azaltmaq üçün görmək istəyir. Axır günlər əmməli başlı isinişmək istədiyi Cəmilə sanki gözünün qabağına kiçilib , uzaqlaşırdı. O, qədər kiçilib , uzaqlaşdı ki, qıza elə gəldi ki ,o , qarşısında oturmayıb , haradasa lap

uzaqlardadır. O, dərəcədə uzaqda idi ki, qız onu nöqtə kimi görürdü.

Cəmilə Afətin kağız kimi ağarmış sifətinə baxıb , onun əsəbləşdiyini hiss edib, yalvarmağa başladı. O, nələrsə danışıb ağlayırdı illər uzunu əzab çəkdiyini , gecələr yuxusunda onu gördüyünü, həyatı zəhər olduğunu daha nələrsə deyirdi. Qız artıq onu eşitmirdi, qulaqları batmışdı. Cəmilə danışıb susdu. Ayaz Afəti qucaqlayıb, bacı bu sənindir, öz atandan qalıb,- dedi . Mənə elə gəlir ki, atanın ruhunu şad etmək istəyirsənsə razı olmalısan. Biz bir həftədən sonra gedəcəyik , əgər səni öz evində qoyub getsək arxayın olarıq. Afət gözləri dolmuş halda Cəmilənin deyil, Ayazın üzünə baxıb başı ilə razılıq işarəsi verdi. Afəti yataqxanaya bu dəfə Niyazi apardı .O, qızın sənədlərini götürüb , qayıtdı. Çəmi üç dörd gündən sonra o mənzili Afətin adına sənədləşdirdilər və qızı da mənzilə köçürdülər. Hər şeyə rəğmən Afət sevinirdi. Cəmilənin üzünə baxmadan ona təşəkkür etdi.

Cəmilənin sevincinin həddi, hüdudu yox idi. Onun içinə sakitlik çökmüşdü. Hər halda ilk dəfədən qızı ilə bu qədər doğmalaşaçağı ağlına gəlmirdi. Bu dəfə Afəti yalnız görəçəyinə ümid edirdi. Lakin dəfələrlə gəlməksə də mütləq Çingizin əmanətini qızına çatdırıb, ona ev almaq haqqında düşünürdü. Lakin elə ilk dəfədən ürəyindən keçənlərə nail olmuşdu. Sonuncu gün qızının şəninə yenə süfrə açıb, Səlimin qızlarını da qonaq çağırmağı təklif etdi. Əslində bu işi onun öz ixtiyarına buraxdı. Əgər istəyirsənsə Günellə ,Ayseli də

dəvət et ,dedi. Təklif qızın ürəyindən oldu. Qızlar da təklifi həvəslə qəbul edib ,kiçik bir hədiyyə alıb Afətin mənzilini görməyə gəldilər. Günel Afətə görə çox sevinirdi. Aysel isə onun evi olmağına təəccüb edirdi. Səbirsizliklə Afətin anasını , qardaşlarını və mənzilini görmək üçün səbirsizlənirdi. Cəmilə qızları səmimiyyətlə qarşılayıb dönə- dönə təşəkkür etdi.Yeyib -içəndən sonra qızlara Moskvadan onların adına aldığı hədiyyələri təqdim etdi.

O gecə Cəmilə oğlanlarını da götürüb Moskvaya qayıtdı. Yola düşməmişdən əvvəl Afətin də hədiyyələrini verdi. Qızı bağrına basıb onu bağışladığı üçün təşəkkür edib, yaşla dolmuş gözlərini onu üzünə zilləyib yenə gələcəm ,-dedi. Oğlanlar isə Afəti qucaqlayıb səni Moskvada gözləyirik , - dedilər. Onların gedişi qızı doğrudan da məyus etdi. Onlar gedəndən sonra Afətə elə gəlirdi ki, yuxu görüb. İllərlə xəyalını qurduğu bir yuxu. Bu mənzilin ,iki gözdən ibarət olan otaqlarını, mətbəxi dəhlizi və hamamı bir neçə dəfə gəzib fırlandı. Hələ dünənə qədər əlində çanta başqasının dolabının qarşısında dayandığını xatırlayıb bu mənzil onun olduğuna inana bilmirdi. Anasının hədiyyələrini açıb baxdı.Hamısı bəzək əşyaları və ənlik kirşan idi. O,birdən yerindən sıçrayıb, atasını şəklini çantadan çıxarıb , divardan asmağa çalışdı . Lakin bunu etmək üçün mismar və çəkic tapa bilmədiyi üçün hələlik masanın üstünə qoydu. Nadirin çəkdiyi şəkli əlinə alıb baxdı. Vüqarı düşünüb şəkli büküb gizlətdi. Gözünə yuxu səhərə yaxın getdi.

İmtahanlar yaxınlaşırdı , Afət isə axır vaxtlar dərs oxumağa az vaxt sərf etmişdi. Günün çoxunu Ayazla söhbətdə keçirmişdi. Onun fikri Ayazla daha çox üst – üstə düşürdü. Ayaz Niyazidən böyük də olsa ,daha sadə mehriban və söhbətcil idi. Niyazi isə nisbətən ağır xasiyyətli olsa da çox güvəniləsi oğlan idi. Nə qədər çalışıb fikrini dərslərinə vermək istəsə də onlardan ayrıla bilmirdi.Bütün günü onları xatırlayır. Yadından çıxmağından qorxurmuş kimi hər hərəkəti , hər söhbəti yenidən xatırlayırdı. Ağlı kəsəndən bəri daha doğrusu , nənəsini itirəndən sonra belə mehriban , doğma bir ünsiyyət görməmişdi. Yenidən o günləri doya –doya yaşamaq istəyirdi. Bəzən Cəmilə ona elə qayğı göstərirdi ki, bir an ona elə gəlirdi ki, körpə bir uşaqdır. Ağlaya -ağlaya keçirdiyi körpəliyinə dönüb , yenidən məhəbbət içində böyümək istəyirdi Afət düşündükcə, xatırladıqca ona tək bir şey aydın oldu k, nə qədər kənarlaşdırmağa salışsa da ən çox darıxdığı adam Cəmilənin elə özüdür.

Yeni evə daşındığını dayılarına , əmilərinə xəbər verməyə macal tapmamış Pərviz onu tapdı. Belə ki Afəti görmək üçün yataqxanaya gəlib , qızlar da onun köçdüyü evin ünvanını veriblər. Afət Pərvizə hər şeyi danışdı. Cəmilə evi Çingizdən qalma qızıllarla aldığını söylədi. Lakin ona bir şey sual altında qaldı . Pərviz bu işdən razı idi ya narazı? Çünki bir kəlmə olsun danışmadı , sadəcə mənzili gəzib, hər yeri gözündən keçirdi. Hətta dolabın içinə və siyirmələrə də baxdı. Yenə də pul verib , bir söz demədən getdi.

Bir azdan həyəcanlı günlər sona yetdi, həyat öz axarına düşdü. Afət də özünə gəlib var qüvvəsi ilə imtahanlara hazırlaşmağa başladı. Bəzən istirahət günləri Günellə , Ayseli, gah da Güllü ilə Həcəri qonaq çağırırdı. Əlindən gələni edib, qızlara qonaqpərvərlik göstərirdi. Gözü Günellə , Ayselin ağzında qalırdı. Vüqarın haqqında nə isə bir söz eşitmək istəyirdi. Çünki Zaurla Vüqar bu il imtahanı verən kimi Azərbaycana dönüb ,layihə institutunda işə başlamalı idilər. Onun qayıdacağı günü gözləyirdi. Bəzən o günə böyük ümid bəsləyir ,xəyallar qururdu. Günlərlə o xəyalların təsiri altında qalırdı. Bəzən isə Vüqarın dönüşündən bütün xəyallarının yıxılacağından , ümidlərinin birdəfəlik yoxa çıxaçağından qorxub o günün gəlməyini istəmirdi.

Cəmilə tez- tez, demək olar ki, hər gün zəng edirdi. Afətdən gündəlik məlumat tutub , dərslərinin, nə yeyib , nə içdiyini soruşurdu. Ayazla , Niyazi də zəng edirdi. Amma Afəti təəccübləndirən o, idi ki, Niyazi Ayazdan çox zəng edirdi. Zəng edəndə də o , daha çox danışırdı. Ayaz israrla onu Moskvaya dəvət edirdi. Niyazi də edirdi, amma Ayaz əl çəkmirdi. Hətta arada bir gəlməsən gəlib özüm gətiräçəm deyirdi. Getməyə çox böyük həvəslə razı olardı, amma Qarşısını kəsən Cəmilənin əri idi. Afətin onu görməyə gözü yox idi. Ona nifrət edirdi. Düşünürdü ki, o insan oğrudur. Özü də ən pis oğru. Afətin uşaqlığını oğurlamışdı. Sevincini, gülüşünü, nəşəsini səadətini hər şeyini oğurlamışdı. Bir tək özü qalmışdı, yalqız və çarəsiz.

Afətə görə kişi ən qəddar cinayətkar idi. Ən pisi də o idi ki, onu həbs etmək cəza vermək mümkün deyildi. Qız onu görməyi təsəvvürünə də gətirmək istəmirdi. Ona görə də Ayazın tətildə qəflətən onu aparmaq üçün gəlməyindən qorxurdu. O, Ayazın sözünü yerə salmaq istəmirdi. Ona görə ona bərk -bərk söz verib , vaxtı olanda mütləq gələçəyini söyləyirdi.

Hərdən bir istirahət günlərində darıxanda Günellə Ayselin yanına gedirdi. Onun gəlişinə Günel hər zaman şad olurdu. Aysel də ona qarşı qəribə bir münasibət var idi. İndi ona əvvəlki kimi yanaşmasa da hər halda onu sevmədiyi də hər halından bəlli idi. Mütləq ona köntöy bir söz deməsə ürəyi partlayardı. Başqa vaxt olsa Afət Günellə saatlarla anasını, qardaşlarını müzakirə edərdi. Onlara qarşı keçirdiyi hissləri, həyəcanını danışardı. O, bunları Güneldən başqa heç kimə danışmazdı .Əgər bir başqasına danışa bilsə də Günelə danışdığı qədər sakitləşib rahatlanmazdı. Lakin, gələndə Ayselə görə Günellə ürəyi istəyən kimi söhbət edə bilmirdi. Bu dəfə gələndə ümumiyyətlə qonşunun növbəti davasını dinləməkdən başqa bir söhbət edə bilmədilər. Dinləmək deyəndə o ər , arvad sanki, onların evində bağırırdı. Günelin dediyinə görə qonşuların şikayətindən sonra buranı kirayə verib , başqa bir mənzil kirayələyib buradan köcüblərmiş . Bir aya yaxındır ki, yenidən qayıdıb, davalarına başlayıblar. Səs küydən bezən Afətin ayağa durub getməyə hazırlaşdığını görən Aysel xəbərin var, Zaur gəlir , - dedi. Qız təəccüblə onun üzünə baxıb dedi:

Nə vaxt , niyə gəlir?

Aysel üzündəki kinayəli ifadəni gizlətmədən dedi:

Daha oxumağını bitirib gəlir.

Afət onun kinayəsindən bir şey anlamayıb, Günelin üzünə baxıb dedi :

Bəs Vüqar niyə gəlmir, Zaur gəlir?

Bu dəfə Günel cavab verib dedi:

Vüqarın imtahanı qalıb , onun qayıtmağı üç dörd ay çəkəcək Zaur isə qurtarıb gəlir. Artıq layihə institutu onu dəvət edib . Gələn kimi bir başa işə çıxacaq. Afət qızlara nə deyəcəyini özü də bilmədi. Nəhayət Aysel tərəfə baxmadan sağ olun deyib qapıdan çıxdı.

Yol boyu Aysel haqqında nə qədər düşündüsə , bir şey başa düşmədi. Bu qız nə demək istəyirdi. Zaur qayıdır , lap yaxşı . Vüqar da qayıdacaq. Daha o kinayə nə idi?

Aradan bir aya yaxın vaxt keçmişdi. Zaurun bir xəbər yox idi. Ayselin dediyinə görə bir ay sonra Bakıda işə başlamalı idi. Gəlsə məni mütləq axtarardı , ünvanımı öyrənirdi deyə düşünürdü. Qız hər dəfə Zaurun haqqında düşünəndə Gülbənizin ay ana, sən görmürsən ki, Zaur Afəti sevir sözünü xatırlayıb, qanı qaralırdı. O, belə bir şeyin olmasını qətiyyən istəmirdi. Bu barədə düşünməyə belə xəcalət çəkirdi. Zaur onun bu dünyada ən çox istədiyi adam idi. Yeganə insan idi ki, Afət nə olur olsun ona güvənirdi. Ən çox darıxanda , sıxılanda onu düşünüb sakitləşirdi. Afət indicə qərara gəldi ki, o , ata – anasına , bacı –qardaşına olan məhəbbəti toplayıb hamısını Zaura verib. Tək

Zaurda beş altı adamın məhəbbətini görürdü. Amma başqa cür məhəbbət istəmirdi. Onu ağlına belə gətirə bilmirdi. O,biri dayısı qızları Zauru sevə bilərdilər çünki Zaur onların sadəcə əmisi oğlu idi. Afətin isə hər kəsi idi. Əgər Gülbəniz o sözü işlətməmiş olsa ,Afət Zaur soruşub axtarardı. Gəlib , gəlmədiyini öyrənirdi. Gündə bir neçə dəfə dəstəyi əlinə götürür, Zaurdan bir xəbər bilmək istəyir, sonra heç yerə zəng etmədən dəstəyi yerinə asırdı.

İmtahanların çoxunu vermişdi. Tətil yaxınlaşırdı . Əslində heç rayona da getmək istəmirdi. Amma Nüşabənin sözünü söhbətini kəsmək mümkün olmayacağını da yaxşı bilirdi. Yazıq Telman dayımın üstünü kəsib, hə gördün ,- deyəcəkdi. Anası gəldi onu böyüdüb boya başa çatdıranlar qaldı bir tərəfdə. Nüşabənin nə danışacağına Afət kəlmə - kəlmə bilirdi. Bilirdi ki, sonra deyəçək Cəmiləyə qız böyütdük, oxutduq , hakim edirik, amma o bizə Allahın salamını da vermir . Gedib qızı ilə görüşüb, qardaşlarını yadına da salmayıb. Hər dəfə Telman ona deyir ki, Afəti biz oxutmamışıq.Oxutmaq baçarırdınsa öz qızını oxudaydın . Qardaşın texnikoma zorla yerləşdirdi. Nüşabə isə öz dediyini deyib dururdu. Bu sözləri eşitməmək üçün rayona getmək istəmirdi. Moskvaya da heç getmək istəmirdi. İmtahanların isə bitməyinə az qalırdı. Nəhayət Cəmilənin növbəti zənglərinin birində əgər sən gəlib dayılarımla barışmasan, mən icazəsiz onların başının üstündən Moskvaya gedən deyiləm, -dedi. Cəmilə danışığına uzun bir ara verəndən sonra , Afət onlar mə-

ni qəbul edəçəklərmi ? deyib sual verdi. Afət Cəmilə ilə danışanda çətinlik çəkirdi. Belə ki, ona müraciət edəndə ana sözünü işlədə bilmirdi, nə deyəçəyini də bilmirdi .Yenə də ana sözündən istifadə etmədən, dedi:

Sən mən rayonda olanda gəl .

Cəmilə dedi:

Afət mən onlarla görüşmək üçün, gecə gündüz dua edirəm, amma atam deyib ki, mənim qapıma mən öləndən sora da gəlməsin. Qorxuram məni qəbul etməsinlər.

Afət dedi:

Dayılarım babama oxşamır. Onlar çox rəhimli və yumşaq ürəklidirlər.

Cəmilə Afətlə razılaşıb yayda rayona gələçəyini deyib dəstəyi asdı.

Afət dəstəyi asıb sakitləşsə də Cəmiləyə yazığı gəldi. Onun anasına uşaqlıqdan yazığı gəlirdi. Babası ona söyüşlər yağdıranda ağlayırdı . Lakin bu günki qədər ona yazığı gəldiyi olmamışdı .Demək o gəlmək istəyirmiş, qovulaçağından qorxurmuş. Zaurun heç nə göründüyü kimi deyil dediyini və ona aid olan rəvayəti xatırladı.

Ertəsi gün xəstəxananın qabağında Əmrahla rastlaşıb təəccüb etdi. O,çox qanıqara görünürdü. Üzü tüklü , pərişan bir görkəmi var idi. Afətin salamını alsa da qızı tanımadı. Onun bu halından narahat olan Afət ona lap yaxınlaşıb nə baş verdiyini soruşdu. Əmrah onu tanıyan kimi Aybənizin pilləkəndən yıxıldığını

və altı həftəlik uşağını itirmək üzrə olduğunu söylədi. Afət onun yerini öyrənib içəri qaçdı. Doğrudan da qızı vəziyyəti ağır idi. Ona qan lazım idi. Afətin ona ilk yardımı qan vermək oldu. Qan verəndən sonra başı gicəllənsə də onun yanından bir an da olsa ayrılmadı. Aybənizin özünə gəldiyini və körpəni itirmək təhlükəsinin sovuşduğunu da Əmraha Afət verdi.Axşam tərəfi evə gedib Aybənizə yemək bişirib gətirdi. Aybəniz bir həftəyə yaxın xəstəxanada qaldı .Həkimlər hələlik uzaq yola çıxmamağı , məsləhət etdilər . Afət onu rayona qayıtmağa qoymadı. Xəstəxanadan bir başa evinə apardı.Hələlik ən azı on gün mənim evimdə qal, - dedi. Sən uzanarsan mən sənə qulluq edərəm. Əmrah Afətə təşəkkür edib , rayona qayıtdı. Aybənizin və körpənin sağlamlığına tam əmin olan kimi Telman dayısına zəng edib, qış tətilinə gələ bilməyəçəyini söylədi. Aybənizlə birlikdə olduğunu , onun həkim təhlillərindən keçməyə ehtiyacı olduğunu dedi. Qızın yıxıldığını, körpəni itirmək qorxusu olduğunu isə danışmadı.

Axırıncı imtahanını da verib tətilini Aybənizə həsr etdi. Əslində başqa yerdə tətil keçirmək fikri də yox idi. Afət dayısının qızına əlindən gələn yaxşılığı etdi. Onu yataqdan qalxmağa qoymadı çayını çörəyini, dərmanlarını vaxtlı vaxtında verdi. Bir neçə gündən sonra Aybəniz tam sağalıb ayağa qalxdı. O, mənzili asta - asta gəzir , içindəki, əşyaları , avadanlıqları qab - qaşığı gözdən keçirirdi. Hər şeyə nəzər saldıqdan sonra , Afətə çox şad olduğunu söylədi. Afət mənzil

və avadanlıqlar atasından qalma qızılla alındığını söylədi. Aybəniz gülümsünüb onun üzünə baxıb dedi:

Afət sən niyə belə sadəlövsən?. Hərdən düşünürəm bəlkə bizə hər şeyi anam başa salır?

Afət çiynini çəkib dedi:

Nəyə görə belə deyirsən?

Aybəniz dedi:

Ay qız , sən dediyin qızılla bir otaqlı , köhnə bir mənzil almaq olar. Bura isə tam təmirli , iki otaqlı mənzildir. içərisində olan hər şey isə təptəzədir .Sanki təzə gəlin cehizidir.

Afət mənzili yeni görürmüş kimi boylanıb ətrafa baxıb, donub yerində qaldı. Özündən asılı olmayaraq nə bilim anam elə söylədi, - dedi.

Aybəniz daha bu mövzunun üstündən keçib ,xəcalət çəkə- çəkə dedi:

Afət vallah mən də səni çox sevirəm. Anam Zauru sevməyi başıma elə doldurmuşdu ki, gözüm səni görmürdü. Nə yaxşı qarşıma Əmrah çıxdı və mən onunla tanışlıqdan sonra anladım ki, Mən Zauru sevmirəm, ona heç bir marağım yoxdur.

Afət dedi:

Lap sevsən də, bunun mənə nə dəxili var?

Aybəniz dedi:

Nə bilim ey? Anam deyir ki, Zaur Afəti sevir.

Afət qıpqırmızı qızarıb, Zaur mənim bu dünyada ən çox sevdiyim adamdır. Yəni böyük qardaşımdır, -dedi. Bundan başqa heç bir söz eşitmək , duymaq istəmirəm.

Aybənizi Əmrah gəlib aparanda artıq dərslər başlamışdı. Afət qız gedəndən sonra əmməli başlı darıxırdı. Hər dəfə darıxanda , sıxılanda dərslərinin ağır olduğun görə sevinirdi. Var qüvvəsini dərslərə verib başqa heç nəyi düşünmək istəmirdi. Bu həftə Günellə , Aysel gəlmişdi. Onlar Zaurun gəldiyini söylədilər. Afətin ondan xəbərsiz olmağı Ayseli təəccübləndirdi. Neçə yəni xəbərim yoxdur, deyirsən?- dedi. Artıq bir həftədir ki, Zaur gəlib , bizə gəlmişdi. Düzdür Vüqarın göndərdiyi bağlamanı gətirmişdi. Amma sənin ünvanını götürdü. Ananın sənə ev aldığını bilmirmiş.

Artıq qızların dediyinə görə iyirmi günə yaxın idi ki, Zaur gəlmişdi, amma Afətin yanına gəlməmişdi. Qız çox narahat olurdu. Zaurun yolunu gözləyirdi. Amma Aybənizin sözlərini xatırlayanda kədərlənirdi. Gecə gündüz Allaha yalvarırdı ki, belə bir şey olmasın.

Nəhayət istirahət günü Zaur gəldi. O,işə girmişdi .Dediyinə görə başı çox qarışıq imiş . Layihə institutunun yaxınlığında özünə bir mənzil kirayələyib, lazım olanları alıb yenicə rahatlaşdığını bildirdi. Afəti mənzilinə görə təbrik etdi. Bir fincan da çay içdi. Qızın gətirdiyi yeməyə əlini vurmadan, qalxıb getməyə hazırlaşdı. Boş vaxtımda yenə gələcəm,-dedi.

Zaur tez- tez gələcəm deməyinə baxmayaraq Afətgilə çəmi iki dəfə gəlmişdi. Gələndə də tələsdiyini söyləyib çox oturmamışdı.Afət bu onun belə münasibətinə görə tam arxayınlayıb rahatlaşmışdı. Öz özlü-

yündə Nüşabəni Zaura böhtan atmaqda günahlandırırdı.

Şənbə günü dərsdən çıxanda uzaqdan institutun həyətində dayanmış Zauru görəndə ürəyi titrədi. Onun institutun həyətinə gəlməyi qızı narahat etdi. Darvazaya çatan kimi Zaur ona yaxınlaşıb salamlaşdı. Birlikdə dayanacağa tərəf getdilər . İnstitutdan evlərinə cəmi bir dayanacaq qədər yol var idi. Zaur ayaq saxlayıb yorulmamısansa , gəl piyada gedək , - dedi. Afət nə deyirəm ki, deyib , qayanaçaqdan uzaqlaşdı. Demək olar ki, on-on beş addım atana qədər heç biri danışmadı. Nəhayət Afət bir neçə məntiqsiz,mənasız suallar verdi. Zaur da elə Afətin verdiyi suallar kimi , mənasız cavablar verdi. Bu sual cavab qızın ürəyini daha da sıxdı. Zaur birdən birə onun qarşısına keçib Afət mən səni sevirəm , - dedi. Mənə bu sözü demək çox ağır idi. Amma mən ürəyimlə bacarmadım.

Afət boynunu büküb yazıq bir görkəm aldı .Zaurun üzünə baxıb dedi:

Zaur sənə qurban olum . Nə olar bu sözü sən deməmisən , mən də eşiməmişəm. Mənim bu dünyada ən çox istədiyim adam sənsən . Sən mənim illər boyu ümid yerim , pənah gətirəçəyim yeganə adamım olmusan. Sənin mənim ürəyimdə olan yerin atamın , qardaşımın tuta biləcəyi yer olub. İllər boyu düşünmüşəm ki, əgər atam ya da qardaşım olsaydı yenə də Zauru onlardan çox istəyərdim. Mən heç vaxt sənə başqa gözlə baxa bilmərəm. Qurban olum məndən bunu istəmə. Mənim Zaurumu əlimdən alma .

Zaur kətan kimi ağarmışdı. Artıq bir söz danışmadan geri çəkildi . Afət yenə də ağzını açıb nə isə demək istəyirdi Zaur sus deyib bir anın içində yoxa çıxdı. Afət evə gəlib doyunca ağladı. Kaş bu günki gün olmayaydı deyə düşündü. Onun ağarmış sifətini Afət uzun müddət unuda bilmədi.

Zaman su axan kimi axıb gedirdi , artıq bahar yaxınlaşırdı. Afət o vaxtdan bəri Zauru bir dəfə olsun görmədi.Bəzən ürəyindən , ona zəng etmək keçirdi, iş gücünü ,halını soruşmaq istəyirdi. Hər dəfə dəstəyi əlinə alıb yerinə qoyurdu.

Cəmilə zəng edib, Afətin tətilə nə vaxt çıxacağını soruşdu. Sonra sən rayona gedəndə mən də gələçəm, - dedi. Ayazla Niyazi sənin yay tətilində Moskvada olmağını istəyirlər . Ayaz deyir əgər gəlməsə özümüz gedib gətirəçəyik.

Afət rayona gələndə , Cəmilə artıq orada idi. Səhər-səhər qatardan düşüb evə gələndə qapını Cəmilə açdı. Afətin arzuladığı kimi , onu gözləyirdi. Nüşabə də özünü Afətin üstünə atıb mehribanlıqla görüşdü. Elə həmin anda da Aybənizə görə təşəkkür etdi. Səhər yeməyindən sonra Cəmilə çantasını açıb gətirdiyi hədiyyələri çıxartdı . O,da bu gecə təyyarə ilə gəlmişdi. Afətdən cəmi iki saat əvvəl burada olmuşdu. Telmanın da Elmanın da özlərinə də ailə üzvlərinə də hədiyyə gətirmişdi. Amma Cəmilənin dediyinə görə qardaşları onu görən kimi səmimi görüşüb, hətta bu illər uzunu niyə itib -batdığına görə danlayıblar. Cəmilə sevinirdi , uçmağa qanadı yox idi. O, heç vaxt belə qar-

şılanaçağını gözləmirdi. Çünki atası qabağına gələndən ismarınc edirdi ki, mənim həndəvərimə hərlənməsin. Məhləmin kandarına ayağını qoymasın. Doğrudan da Elmanla Telman Cəmiləyə qonaq olduğu günlərdə çox hörmətlə yanaşdılar. Bu günlər bayram günlərinə təsadüf edirdi. Cəmilə uşaqlığını xatırlayıb, o günləri təkrar yaşayırdı. Çərşənbələrdə yenə də ortalıqda tonqal yandırır, lopa düzəldirdi. Uzun illər idi bu günlərin həsrətin çəkirdi. Bayramlarda ən yaxşı yerlərdə gəzirdi ən yaxşı yeməkləri ,şirin çörəkləri bişirirdi, amma bu məhlənin ,bu ocağın həsrətini çəkirdi. Bəlkə də ona bura gəlmək qadağan olmasa bu qədər həsrət çəkməzdi.

Bu həsrətin içərisində valideynlərinin qəbrini ziyarət etmək də var idi. Çərşənbənin birində , daha doğrusu el arasında ölü çərşənbəsi adlanan günü öz əli ilə yeməklər hazırlayıb ata – anasının qəbrini ziyarət etdi. Hansı ki, novruz bayramında hər kəs o gün dünyasını dəyişmiş əzizlərini yad edirdi. Sonuncu çərşənbələr də əsl bayramlar başlayırdı. Axırıncı çərşənbə günü Səhər tezdən Cəmilə Afəti yuxudan oyadıb, gözləri yaşarmış halda Afət , Çingizin qəbrinin yerini bilirsənmi? - dedi. Afət başı ilə hə deyib yerindən sıçrayıb paltarını geyinməyə başladı. Onlar darvazadan çıxanda məhlədə yuxudan oyanan yox idi. Bazarın qarşısından bir taksiyə minib qəbrstanlığa getdilər. Ora çatanda Afət Cəmilədən təəccüblə soruşdu:

Sən heç atamın qəbrini ziyarət etməmisən? Niyə qəbrin yerini məndən soruşursan

Cəmilə dedi:

Neçə yəni qəbri ziyarət etməmişəm ? Nənən mənə onun qəbrini ziyarət etməyi qadağan etmişdi. Amma demək olar ki, hər gün gəlirdim. O vaxtdan bəri gör nə qədər zaman ötüb, məzarlıq böyüyüb , indi Çingizin məzarı harada qalıb, yəqin ki, yeni məzarların arasında itib, batıb.

Cəmilənin cavabından ağlı bir şey kəsməsə də, ora çatanda Cəmilənin Çingizin məzarının yerini təxminən bildiyini görüb ürəyi sakitləşdi. Evə dönəndə Cəmilə taksini bir tin aralıda saxlatdırıb buradan piyada gedək, - dedi. Bayram günü bu qədər ağlamış halda evdəkilərin gözünə görünüb onları pərişan etmək istəmirdi. Yol boyu heç biri danışmadı. Afət ağlamaqdan nəfəsi kəsilmiş Cəmiləyə baxıb düşünürdü ki, anası ilə bir - birinə az oxşayırlar. Cəmilə çox çılğın qadın idi. O, ağlayanda ürəkdən ağlayır ,güləndə də ürəkdən gülürdü. Amma Afət bəzən ağlamaq lazım olanda ağlaya bilmirdi, yeri gələndə isə gülə bilmirdi. Evə yaxınlaşanda Cəmilə dayanıb qıza təşəkkür edib dedi:

Afət ,sənə qurban olum , bilirsən mən bu günləri nə qədər gözləmişəm . Mənə elə gəlirdi ki, bir daha bu rayona ayağım dəyməyəçək . Gör bura gəlmək üçün necə adamdan çəkinirdim. Çingizin ailəsindən , əmimgildən ,atamgildən. Sən gəl deyəndən sonra sənə güvənib gəldim. Bilirsən sənin üçün nə qədər ağlamışam .Amma gəlmədiyim üçün çox peşmanam ,axı məni öldürən olmayacaqdı. Bu həsrəti yaşamaqdasa öl-

mək yaxşıdır. O , yenidən coşub ağlamaq istəyirdi. Afət onu sakitləşdirib , evə çatdıqlarını işarə etdi.

Axşam Zaurun gəldiyini görüb təəccüb etdilər. Çünki onun gələçəyini heç kim bilmirdi. Türkiyədən gələndən birinci dəfə idi ki, rayona gəlirdi.hər dəfə gedib , gələndə qızların hamısını öpürdü. Bir tək Afətə uzaqdan əl sallayırdı. İndi qıza yaxınlaşıb onun da alnından öpdü. Afət isə gözlənilmədən onun boynuna sarıldı. Zaur kövrəldiyini gizlətmək üçün onun çiyninə bir iki dəfə yavaşdan vurub üzünü yana çevirdi.

O gecə keçirdikləri çərşənbə bayramı uzun illər xatirələrdən silinməyəçək bir bayram oldu. Qızlar bibilərini çox sevdilər . İndiyə qədər bayramların onsuz keçdiyi üçün təəssüf etdilər. Zaur əvvəlki kimi zarafat etməyə çalışsa da alınmırdı. Afət bu ailə ilə onun arasında yaranmış olan sıldırım bir buz qatının əriməyinə baxırdı. O buzun yaranmasında qızın günahı nə idi, onu düşünürdü? Amma heç bir cavab tapa bilmirdi.Demək olar ki, hər dəfə birlikdə yemək masasının ətrafına toplaşanda , Nüşabə onu təhqir edən, alçaldan bir söz tullayırdı ortaya, o səsini çıxarmasa da Telman bağırmalı olurdu. Bununla hamının nəşəsi pozulurdu və belə bir hadisədən sonra Elmangil daha Telmangillə bir süfrə arxasına toplaşmırdılar. Qəribə də orası idi ki, Nüşabə qalırdı bir kənarda hamının hətta dayılarının ondan açığı gəlirdi. Sanki bütün günah onun idi. Bəzən özünü nənəsinin bazardan alıb gətirdiyi cücə ilə müqayisə edirdi. Sonra isə o nəticəyə gəlirdi ki, bazardan gələn yetim cücəni hindəki to-

yuq cücə uzaq başı iki - üç gün didişdirir. Afətin didişdirilməyi böyüdükcə artırdı. Qız zarafat edib deyib gülən anasına baxır , amma onun və başqalarının nədən danışdığını eşitmirdi. Hər halda dəqiq bilirdi ki, bu gün ona artıq - əksik bir söz deyən olmayacq.

Ertəsi gün Zaur tezdən çıxıb getmişdi. Axşamdan gedəcəyindən söz etməmişdi. Əslində o bayram günlərini ailəsi ilə keçirməyə gəlmişdi. Deyilənə görə çox böyük bir layihənin üzərində işləməli idi. Bakıda salınacaq yeni şəhərciyin tam müasir üsulda qurulmasının layihəsini çəkmək ona tapşırmışdı. Nüşabə ilə , Cəmilə Aybənizin hədiyyəsini və bayram paylarını götürüb onlara getdilər . Afət isə onlarla getmək istəməyib əmiləri ilə görüşməyə getdi. Əmiləri , nə də onlarda kimsə Cəmilənin haqqında sual vermədi. Heç Afətin ev almağından da söz salan olmadı. Bibisi isə qızın gözlədiyinin tam əksinə Cəmilənin haqqında artıq söz işlətmədi. Hətta sağ olsun , axır ki, bir yaxşı iş görüb , sənə ev aldı bir az arxayınlaşdım , deyib Afəti sinəsinə sıxdı.

Cəmiləni Moskvaya Gəncə hava limanından yola saldılar. Onu yola salmağa dayılarının ikisi də gəlmişdi. Afət onun təyyarəsi göyə qalxandan sonra , avtobusa minib Bakıya yola düşdü. Qız təyyarədə göyə qalxan o varlığın onun həyatında indiyə qədər olmamağı ilə həyatını necə bir cəhənnəmə çevirdiyini düşünsə də ,onu əvəz edə biləcək başqa bir kimsənin olmadığını anladı . O, varlığın adı ana idi.O, Afətin anası

,ürəyinin tən yarısı idi. Qıza elə gəlirdi ki, ürəyinin bir parçası qopub Moskvaya uçur.

Cəmilə ilə olan axırıncı ünsiyyətdən sonra Afətin Sədiyə olan nifrəti günbəgün artırdı. Analı dünyanın necə şirin , rahat , güvənli olduğunu gördükcə , bu illər ərzində nələr itirdiyinin fərqinə varırdı. Cəmilə üçün darıxırdı , tezliklə onun yanına gedəcəyi günü düşünürdü .Elə həmin an gözünün önünə Sədi gəlir qanı qaralırdı. Sədinin nə özünü nə şəklini görməmişdi, lakin beynində onun qorxunc bir obrazını yaratmışdı. Odur ki, anasının yanına getmək haqqında düşünən kimi o qorxunc insanı nifrətlə yad edirdi.

Rayondan gələndən iki- üç dəfə Günellə Ayselin yanına getmişdi , qızlar da onun yanına gəlmişdi. Lakin Vüqarın adını çəkib nə vaxt gələcəyindən söz salan yox idi. Afət narahat olurdu ki, o çıxıb Moskvaya gedəndən sonra Vüqar gələcək . Amma hər halda onu da düşünürdü ki, nə vaxt gəlir, gəlsin bunun nə faydası var. Onun Vüqarla nə əlaqəsi. Gələndə də gələcək işinə başlayacaq. Heç Afət adlı birinin olduğunu yadında salmayacaq.

Qızlar axırıncı dəfə gələndə onlarla Asudə xanım da gəldi. Onun gəlişi Afət üçün gözlənilməz oldu. Axşam yeməyini yeyib, yenicə qab qaşığı yığmışdı ki, qapının zəngi çalındı. Gələnin Asudə xanımla qızları olduğunu görən Afət sevindi. Qız özünü Asudə xanımın üstünə salsa da qadın ondan küsdüyünü söylədi. Onu rayona gələndə gəlib onunla görüşməməkdə günahlandırdı. Cəmilənin gəldiyini bilsəydim onunla gö-

rüşərdim,- dedi. Qız uzun bir sükuta dalıb ona cavab vermədi. Asudə xanıma anasını kiminlə isə tanış etməyə utandığını deyə bilmədi. Babası Cəmiləni elə qələmə verirdi ki, Afət belə bir anası olduğu üçün xəcalət çəkirdi. Amma Cəmiləni görəndən sonra , o sözlərin heç birinin ona aid olmadığını gördü. Özlüyündə Cəmilə ilə Asudə xanımın yanına getmədiyi üçün peşman oldu.

Asudə xanımın şəninə süfrə açmaq istədi , qadın qəti etiraz etdi . Biz yemək yeyib gəlmişik, - dedi. Çay içərik Afət onların gətirdiyi tortla təzə çay dəmləyib gərirdi. Asudə xanım qapıdan girəndən çıxana qədər yalnız Vüqardan danışdı. Sanki bura onun tərif etməyə gəlmişdi. Onun tezlıklə gələcəyini , söylədi. Asudə xanımın dediyinə görə Vüqarı nazirlik işə dəvət edib. Lakin o da Vüqarın nə vaxt gələcəyini demədi. Az qala gecənin yarısına qədər danışıb güldülər. Bu dəfə Aysel Afətə toxunan bir söz deməmiş getdi.

Onlar gedəndən sonra Afətin yuxusu qaçdı. Asudə xanımın Vüqardan niyə bu qədər danışdığını düşünür, yenə də ürəyinə ümid qığılcımları dolurdu. Lakin çox düşünəndən sonra , Vüqar kimi oğulla hər bir ana fəxr edər, mən yenə də boş xəyallara qapılıram deyib yuxuya getdi.

Səhər Afət yuxudan qan tər içində ayıldı. Yataqdan qalxıb güzgüyə baxdı. Ağlamaqdan gözləri qan çanağına dönmüşdü. Başı bərk ağrıyırdı. Kirpiklərini zorla qaldırırdı. Yuxusunu xatırlayıb yenidən yuxunun təsirinə düşdü. Yuxuda Vüqarı görürdü. Vüqar gələndə

özü ilə türk qızı gətirmişdi. Bu qız mənim sözlümdür , -deyirdi. Mən onu sevirəm , onunla ailə quracam Afət onları görmək istəmirdi , oradan qaçıb uzaqlaşmaq istəyirdi, lakin addımını ata bilmirdi.Sanki ayaqlarını yerə mismarlamışdılar. Bu yuxudan sonra qız Vüqarın gəlməyini gözləmədən Moskvaya getmək fikrinə düşdü. Cəmilə zəng edən kimi, axırıncı imtahanın tarixini bildirib imtahan qurtaran kimi gələçəm dedi. Ertəsi gün Zaura zəng edib ona Moskvaya bilet almağı xahiş etdi. Afət Vüqarı gözləyə- gözləyə ondan qaçırdı. Onun gözü yolda idi. Hər yerdə , hər zaman qapının açılıb Vüqarın içəri girəcəyini gözləyirdi. Nəhayət imtahanlarını verib qurtardı. Getmək günü yetişdi, lakin Vüqardan heç bir xəbər gəlmədi. Onu hava limanına aparmağa Zaur gəlmişdi . Onlar qapıdan çıxanda Günellə , Aysel də gəldi, birlikdə yola düşdülər. Təyyarənin gec yola düşməyi hamısının ürəyindən oldu. Doyunca danışıb əyləndilər. Təyyarə qalxana qədər Afətin gözü burada da Vüqarı axtara - axtara yola düşdü. Çəmi üç saatdan sonra Afət Ayaz və Niyazi ilə Cəmilənin evinə gedirdi. Qızın ürəyi ağzından çıxırdı. Sədini görmək istəmirdi. Qapıda onu Cəmilə qarşıladı. Evdə ondan başqa bir rus qadın var idi , daha kimsə gözə dəymirdi. Divarları güzgü olan işıqlı dəhlizdən böyük bir zala keçdilər. Afət içəri keçib , donub yerində qaldı. Belə mənzilləri filmlərdə görürdü. Onsuzda çox böyük və hündür olan otağın , pəncərələri düz döşəmədən başladığı üçün otaq böyük daha da geniş və işıqlı görünürdü. Pəncərələrdən

kəpənək qanadı kimi zərif tül, üstündən isə qızılı rəngli xaradan saçaqlı pərdələr asılmışdı. Ətrafına on iki stul yığılmış uzun masa otağın böyüklüyünə görə kiçik görünürdü. Divarlardan az qala xalça böyükdə rəsm əsərləri asılmışdı. Masanın üzərinə salınmış qızılı zərif süfrənin üstü yeməklə dolu olsa da , rus qadın elə hey nələrsə daşıyıb gətirirdi. Divar boyu düzülmüş divan kresloların hündür başları qızılı rəngli naxışlı taxtadan ibarət idi. Cəmilə onu özünə çəkib bir yerdə divanda oturdu. O, qızı sinəsinə sıxmaq istəsə də evin ahəngi qızı sanki dondurmuşdu. Gələndə bu dəfə Cəmilə ilə qucaqlaşıb öpüşmək haqqında düşünsə də indi keyləşib qalmışdı. Özünü bu evdə çox sıxılmış hiss edirdi. Heç kimin üzünə baxa bilmirdi. Gözünü qarşıdakı divarda qoyulmuş klarnet calan kişi fiquruna zilləyib qalmışdı. Bir küncə qoyulmuş hündür taxta saatın əzəmətli səsi Afəti sanki yuxudan oyatdı. Cəmiləyə sığınmasa da özünü toplayıb oturdu. Ayaz içəri keçib bacı, get əl üzünü yu gəl yemək yeyək acından ölürük ,- dedi. Ayazın şirin - şirin bacı deməyi Afətin ürəyini silkələdi. Onun dalınca içəri keçən Niyazi Ayazın sözünü təkrar edib, sonra da bacı sənə öyrəşdik bilirsən yolunu nə qədər gözləmişik , - dedi.

Cəmilə qızın əlindən tutub ilk əvvəl yataq otağına aparıb , bura sənin otağındır ,dedi. Qabaqcadan alıb qoyduğu ev paltarını dolabın gözündən çıxarıb yarlığını qopartdı. Afətə uzadıb paltarını dəyiş sonra get yuyun gəl

Afətə görə yemək süfrəsi yaxşı keçdi . Yəni ki, Cəmilənin həyat yoldaşı gəlmədi. Deməli ən azı axşama qədər rahat otura bilərdi. Axşam tərəfi yorulduğunu bəhanə edib otağına çəkildi. Lakin aradan bir saat keçməmiş Cəmilə onun otağına gəlib, Sədi sənin lə görüşmək istəyir, -dedi. Afət özünü toplayana qədər qapının ağzında dayanmış ağ saclı , nurani sifəti olmağına baxmayaraq , zabitəli görkəmi olan kişini görüb ayağa durdu. O, irəli gəlib xoş gəlmisən ay qızım , deyib xəfifcə qızın başını tumarladı. Sonra onun arxasında dayanıb bu görüşü izləyən oğlanlarına maşallah nə gözəl bacınız var , - dedi. Sədi otağına çəkilən kimi Ayazla Niyazi Afətdən əl çəkməyib onu öz otaqlarına apardılar . gecənin yarısınadək danışıb güldülər. Ayaz Afətdən ayrıla bilmirdi Nəhayət Afət zorla onlardan ayrılıb doğrudan yuxusu gəldiyini söylədi.

Afəti burada gördüyü hər şey təəccübləndirdi. Cəmilənin varlı yaşadığını eşidirdi. Nüşabə demək olar ki, hər gün bunu təkrarlayırdı. Lakin nə Afət nə də bir başqası belə bir var dövlət təsvir edə bilməzdi. Ona belə bir şeylər danışsalar inanmazdı. Bunlar hamısı bir yana Sədi sakit təbiətli nurani bir insana oxşayırdı. Bəs babasının onun haqqında yağdırdığı nalayiq sözlər nə idi ?

Ertəsi gündən Afətin birbirindən maraqlı günləri başladı. Ayazla Niyazi onu gəzdirmədikləri yer qalmadı. Cəmilə bazar gününü ailəsi ilə birlikdə bağda keçirdi. Bunu cümə günündən eşidən Afətin qanı

qaralmışdı. Çünki o gündən demək olar ki, Sədi ilə iki üç dəfə cəmi beş , on dəqiqə ünsiyyətdə olmuşdu. Düzdür onun haqqında daha başqa fikirdə idi. Rastlaşdığı az zaman kəsiyində onun xəyalında yaratdığı Sədidən heç bir əlamət görmürdü. Hər halda bacardıqca ondan uzaq gəzməyə cəhd edirdi . Lakin bu işlər Afətdən asılı olmadığı üçün , bazar günü birlikdə ,bağa getməli oldu. Moskva ətrafında meşə zolağının ərazisində yerləşən bağ yoluna çatanda yamyaşıl meşə ağaclarının arasında yerləşən evlər görünməyə başladı.

Çox da böyük olmayan bu evlər başqa üslubda tikilsə də maraqlı görünüşləri var idi. Binaların əksəriyyəti kərpicdən və taxtadan tikilmişdi. Ətrafda ruhu dincəldən bir gözəllik var idi. Şəhərin sıxlığından sonra buradakı asudəlik, sakitlik xoş təsir bağışlayırdı. Hündür ağacların yaratdığı füsunkar mənzərədən doymaq olmurdu. Bu təbiətin yaratmış olduğu əsrarəngiz gözəlik tablosu idi. Bir azdan ağacların arasında yerləşən taxta qapılı bir evin qarşısında dayandılar. İnanılmaz səliqəli bir həyətə keçdilər. Yamyaşıl həyətin tam ortasında taxtadan dairəvi çardaq qurulmuşdu. Altında böyük stol və stullar var idi. Çardağa işlənilən bütün taxtalar, məhəccər və altındakı stol stul naxışla işlənmişdi. Çardaqdan evin pilləkənlərinə doğru olan daş döşəməli çığırın kənarı rəngli çiçəklərdən ibarət idi. Evin damı künbəzi şəklində olduğu üçün maraqlı görkəmi var idi. Künbəzi şəklində olan dairəvi damın pəncərəsi, və həyətə tərəf olan dairəvi

eyvanlar onun görkəmini daha da gözəlləşdirirdi. Evin içərisi də çölü kimi təmiz , səliqəli və qeyri adi üslubda idi. Həyətə keçən kimi hərə bir işdən yapışıb yerləşməyə başladılar. Maşının yük yerində olan çantaları daşıyıb mətbəxə yığdılar. Mənzilin iki mətbəxi var idi , yay mətbəxi və qış mətbəxi. Bu mətbəxlər iç -içə idi. Belə ki, içəridəki mətbəxdən yay mətbəxinə qapı açılırdı. Yay mətbəxindən isə həyətə qapı açılırdı . Qapıdan çıxan kimi sağ tərəfdə, böyük bir soba var idi. Onun bir tərəfi kabab bişirmək üçün idi, o biri tərəfi ağzı dəmir qapaqlı , böyük kürə idi. Buranın da üstü qırmızı kirəmitlə künbəzi şəklində örtülmüşdü. Bir az kənarda oturmaq üçün skamyalar və böyük stul qoyulmuşdu,

Afət ,ərzaqları daşıyıb yay mətbəxinə yığan Cəmiləyə kömək edib mətbəxə keçdi. Əvvəlcə Cəmilə ona mane olmaq istədi . Sonra qızın boş dayandıqca sıxıldığını görüb mane olmadı. Birlikdə kabab çəkmək üçün hazırlığa başladılar. Kababı Sədi bişirdi. O, bişirdiyi kababın ən yaxşısını Afətin boşqabına qoyur, hər addımda ona diqqət və hörmətlə yanaşırdı. Sədidən gördüyü xoş münasibətə görə qız özünə gəlir, yavaş -yavaş uşaqlarla da daha yaxından ünsiyyət bağlayırdı .Hətta Cəmilə ilə ünsiyyət qurub , söz söhbət edirdi. Beləliklə hər istirahət günü bağa gəlirdilər. Qız Sədinin ona olan münasibətinə görə deyil, ümumiyyətlə çox sadə və yumşaq qəlbli bir adam olduğunun şahidi olurdu. Bir də Afət onu görürdü ki, illər boyu onun nifrət etdiyi , dünyanın ən gözəl ,əvəz

edilməz varlığı olan ana oğrusu kimi tanıdığı bu insan heç də pis insan deyilmiş. O, Afətin həyatının gündüz günəşini, gecə ayını oğurlamışdı. Odur ki, onların arasında dağ boyda bir buz qatı var idi. Sədinin övladlarına olan tükənməz məhəbbəti buz layını günbəgün deyil , saatbasaat əridirdi. Çünki Sədinin Ayazla Niyaziyə qayğısı qızı təəccübləndirirdi. Bu ciddi görkəmli kişinin körpə ürəyi kimi kövrək ürəyi var idi. O , uşaqların üstündə yarpaq kimi əsirdi. Artıq Afəti də oğlanlarından seçmirdi. Ona da məhəbbətlə yanaşır, hər addımda qızım sənə soyuq olar, qızım al bunu ye, qızım oradan yıxılarsan -, kimi sözlər işlədirdi. Afət bağda olanda Sədidən əsl ata qayğısı gördüyü halda gəzməyə gedəndə kişi əsl müəllimə çevrilirdi . O, hər axşam evə gələndə Afətin haraya getməyi ilə maraqlanırdı. Sədinin böyük vəzifəsi var idi. Hörmət , nüfuz , səlahiyyət sahibi idi. O, Moskva ətrafı ərazi vilayət məhkəməsinin rəisi idi. Ona görə boş vaxtı az olurdu. Lakin buna baxmayaraq uşaqların Afəti gəzdirməyə apardıqları yerlərlə kifayətlənməyib, sonrakı həftələr istirahət günləri onları gəzməyə özü apardı. Balşoy teatra Aida tamaşasına bilet almışdı. Teatrın binasının möhtəşəmliyi Afətin qəlbini riqqətə gətirmişdi. İçəri girəndə heyranedici gözəllik və gözəlliyin, möhtəşəmliyin , dəbdəbənin yaratdığı mühit , hündür sütunların yaratdığı əzəmət qızda məst edici bir süstlük yaradırdı. Sədi buradakı ən xırda şey haqqında ətraflı izahat verirdi. Qıpqırmızı atlazla qızılı rənglərin vəhdətindən yaranmış gözəlliyə sə-

bəb , qızılı rəngin adi rəng deyil əsl çervon qızılından hazırlandığını söyləyirdi. Sədi teatrın binası ilə tanışlıqdan sonra , aktyorlar və onların ifası haqqında fikrini söyləyirdi..

Evə dönəndə qıza elə gəlirdi ki, sehrli bir aləmdən dönüb . Bütün gecəni də gördüyü möhtəşəmliyin təsiri altında qalmışdı.Həftə arası uşaqlarla Mavzoleyə getdi .Uzun bir növbədən sonra nəhayət leninin mumyalanmış nəşini ziyarət etdilər.

Cəmilə isə onu Quma apardı. Bura çox böyük bir ticarət mərkəzi idi ki, dünyanın hər yerindən buraya alış - veriş etməyə gələnlər var idi. Odur ki, insan əlindən addım atmağa yer yox idi. Cəmilə buralara yaxşı bələd olduğu üçün ,uzun növbələrdən sonra Afətə öz ürəyindən keçən hər şeyi aldı. Afətin bu qədər paltar nəinki, ürəyindən keçmirdi, heç ağlına belə gəlmirdi ki, birdən birə bu qədər paltar almaq olar. Paltarlar rəngdə çantalar , ayaqqabılar, çəkmələr .Sonda isə Cəmilə ona gödəkcə və palto aldı. Onlar evə hədsiz yorğun qayıtsalar da hər ikisi sevinirdi.Afəti ən çox təəccübləndirən paltarlarını dolaba yığanda orada gördükləri bir neçə bahalı uşaq donları oldu. O, maraqla Cəmilənin üzünə baxanda , onun yanağı ilə axan göz yaşını gördü. Cəmilə udqunub sənin ad günlərində almışdım ,-dedi. Hər il sənin ad günündə sənə hədiyyə alırdım. Afət kövrəlib , birinci dəfə Cəmiləni qucaqlayıb mən donu yox, səni istəyirdim deyə cavab verdi. Gözünün önünə ad günüdə , bayramlarda boynu bükük ,nimdaş paltarlı cılız qız canlandı.

O,qız ki, özünü bu dünyada , iki məhəllənin ortasında qalmışçailəsiz , kimsəsiz və yalqız hiss edirdi. Halbuki, dünyanın bir ucunda onun həsrətini çəkən onu əzizləmək istəyən, hədiyyələr alıb sevindirmək istəyən bir anası var idi.

Cəmilə nə isə danışmaq istəyirdi ki, qapıdan içəri girən Sədinin səsini eşidib, otaqdan çıxdı. Sədi bu axşam kefsiz gəlmişdi. Amma yenə də Afəti soruşub istirahət günü sizi Şeremetyev qrafının malikanəsinə aparacam , -dedi. Afət yenə də ara günləri qardaşları ilə gəzib , dolaşdı. Uşaqlar onu Sovremennik teatrına apardılar .Orada qoyulan tamaşalar gəncləri daha çox cəlb edirdi. Kremlin Orujeynaya palatasına gedib, Kremlin öz gözəlliyinə mat qaldığı qədər də orada qorunub saxlanılan eksponatlar qızı sözün əsl mənasında heyran etdi. Carın və kraliçanın ziyafət geyimləri, qiymətli daş qaşlarla bəzədilmiş və tarixdə Şapka monomaxa kimi tanınan tac, çox qiymətli zinyət əşyaları, qızıl suyuna çəkilmiş gümüş yemək dəstləri və sairə əntiq əşyalar. Bu heyranlıqla yanaşı , burada gəzdikcə onu qəribə hisslər bürüyürdü. Imperatorun başına qoyduğu tacı gözü ilə görmək ona o günlərin həyəcanını yaşadırdı. Qıza elə gəlirdi ki, nə vaxtsa bu sarayda o, da yaşayıb və hal hazırda keçmişə səyahət edir.

Kremldəki carların kəbini kəsilən kilsə və ya onların dəfn olduğu yerlər Kremlin həyətindəki çox böyük qırx tonluq çar -puşka , iki yüz tonluq car- kolokol bir sözlə hər yerdən, hər şeydən sirr yağırdı.

Afət bu sehrli ,sirli aləmdən evə qayıdanda gözünün önündə hər şey yenidən canlanırdı. Və ona elə gəlirdi ki, o libasları geyinmiş carı, kraliçanı, onların əsabələrini , o dövrdəki hadisələri görüb gəlib.

Bu axşam yeyib içəndən sonra masa ətrafındakı söhbətlər davam etmədi .Hər kəs otağına çəkildi. Hamı yatandan sonra Cəmilə Afətin otağına gəldi . Onun nə isə demək istədiyini qız anlasa da , hələlik susurdu. Çünki mənasız suallar verirdi. Verdiyi sualın cavabını gözləmədən, başqa bir şey danışırdı. Onun bu hərəkətindən sıxılan Afət nə olub, ana ,-dedi? Cəmilə uzun bir sükuta dalıb, yaşla dolmuş gözlərini qızın üzünə dikib, Afət məni heç olmasa bir az bağışlaya bilmirsən?- dedi. Cəmilənin nə demək istədiyini anlamayan Afət onun üzünə baxıb , çiynini çəkdi. Cəmilə kövrək bir səslə dedi:

Qızım , demirəm ki, məni sənə etdiyim hansısa hərəkətə görə bağışla. Mənim bu illər uzunu çəkdiyim istiraba görə bağışla. Sənə olan sonsuz məhəbbətimi hiss edərək bağışla. Allah səni mənim əlimdən almaqla , əvəzində işgəncə verdi. Bu illər uzunu zülm çəkdim.

Afət yenə də onun üzünə baxıb , nə demək istəyirsən ,- dedi?

Cəmilə dedi:

Sənin üzündən istirab çəkilmir. Gözünün dərinliyinə çökmüş kədər heç olmasa azacıq azalmaq bilmir. Afət ,sənə yalvarıram məni bağışla. Mən sənin belə əzab çəkməyinə baxa bilmirəm.

Afət başını bulayıb dedi:

Mən heç sənə nifrət etməmişəm . Sadəcə sənin həsrətini çəkməmişəm.

Cəmilə yerindən qalxıb qızın başını sinəsinə sıxıb, bəs niyə belə kədərlisən, qızım? Nə olub dərdin nədir , axı? Kədər səni didib parçalayır. Bunu Ayaz da deyir. Niyazi də ana, mən Afətin könlünü almağı bacarmıram , - deyir.

Bunu deyəndən sonra Cəmilə yenidən ağlamağa başladı. Afət onu sakitləşdirməyə çalışaraq, var səsi ilə bağırmaq istəyirdi ki, ana mən Vüqarı sevirəm. Bir filmdəki sözü xatırlayıb ,eşq çarəsizlikdir demək istəyirdi. Çarəsiz dərdə düşdüyünü söyləmək istəyirdi. Lakin deyə bilmirdi sadəcə susurdu. Axmağa hazır olan göz yaşlarını zorla saxlayırdı. Doğrudan da heç kimə qarşı kin duymurdu. Dayıları kasıb idi öz övladlarını güclə saxlayırdı. Nüşabə hər dəfə çətinliyə düşəndə deyirdi ki, anası var - dövlət , pul içində üzür. Mən isə ona qız böyüdürəm. Afət düşünürdü ki, Nüşabə düz deyirdi. Onların pula ehiyaçları var idi Əməlli - başlı çətinlik , kasıblıq çəkirdilər . Odur ki, onlardan incimirdi. Doğrudan da onu böyüdüb boya başa catdırmışdılar . Belə baxanda anasının da taleyi bir tale olmamışdı. Hər şey varla , pulla ölçülmürdü ki, o da illər boyu körpəsinin həsrətini çəkərək yaşamışdı.

Afət Cəmiləni sakitləşdirib onu əmin etməyə çalışdı ki, onun heç bir dərdi yoxdur. Cəmilə otağına qayıdandan sonra isə qızın gözünə yuxu getmədi. Demək

onun kədərini duyan, qayğısına qalan əziz adamı , anası var idi. Ayaz da onun kədərli olduğunu hiss edirmiş. Qız xəcalət çəkməyə başladı . Sanki onların bu neçə gündə çəkdiyi zəhməti yerə vurmuşdu.. Halbuki ona xoş dəqiqələr deyil, xoş saatlar, xoş günlər yaşatmışdılar. Vaxtlarını ayırıb , bolluca pul xərçləmişdilər. Onun ruhu təzələnib, daxili zənginləşmişdi. Gözünün önündə dünyaya pəncərə açılmışdı. Ömründə birinci dəfə özünü güvəndə hiss edirdi. Onun gözünə yuxu gec getsə də , səhər tezdən oyandı. Həmişənkindən fərqli olaraq Sədi işə getməmiş yuyunub mətbəxə keçdi. Onlara xoş münasibət göstərib, səhər yeməyi hazırlamaqda anasına yardım etdi. Sədi onların necə gəzdiklərini soruşdu. Bu istirahət günü onları qraf Şeremetyevin malikənəsinə aparacağını söylədi. Oğlanları ilə zarafat edib belə gözəl bacınız olduğu üçün sizə paxıllığım tutur , - dedi. Səhər yeməyi nəşəli keçdi. Bu az da olsa Cəmilənin ürəyini sakitləşdirdi. Həmin gün Afət heç yerə getmək istəmədiyini söylədi. Mən anamla qalıb , yemək bişirməkdə ona kömək etmək istəyirəm ,-dedi. Afət yaxşı bilirdi ki, Cəmilənin köməyə ehtiyacı yoxdur, onun evdə köməkçisi var idi. Sadəcə Cəmilənin onunla söhbətə , ünsiyyətə marığı olduğu üçün gününü Cəmilə ilə keçirmək istədi. Şər qarışana qədər söhbət etdilər. Cəmilə rayondan ayrıldığı gündən başlayıb, ata - anasının ölümünə qədər suallar verdi. Afət yadında saxladığı hər şeyi danışdı. Babasını onu haqqında , Sədinin haqqında söylədiklərini xırdalamadan çox narazı olduğunu, -dedi. Cəmilə

soruşduğu qohumların arasında bəzilərinin öldüyünü eşidib təəccüblənirdi. Başları söhbətə elə qarışmışdı ki, yemək hazırlamaq yadlarına düşmürdü. Əslində isə bu gün keçirdikləri gün hər ikisinin ürəyini boşaltmışdı. Sanki o günləri birlikdə yaşamışdılar.

Afətin buralarda günü hər nə qədər xoş olsa da darıxırdı. Vüqarın qayıtmaq vaxtı idi. Bəlkə də çoxdan gəlmişdi. Hər dəfə yuxusunu xatırlayanda ürəyi sıxılırdı. Görəsən Vüqar yuxusunda gördüyü kimi qayıdanda özü ilə qız gətirsə, nə edərəm , deyib düşünüb, darıxırdı. Bilirdi ki, heç nə edə bilməz.

İstirahət günü Qraf Şeremetyevin malikanəsinə getdi. Həmişə olduğu kimi Sədinin maraqlı məlumatları qızı heyran edirdi.

Öz malikanəsində ilk dəfə fırlanan səhnə düzəldən qraf, tamaşaları ifa etdirmək üçün öz kölələrinin arasından seçdiyi qızların birinə dəlicəsinə aşiq olur. Qız doğrudan da gözəl və talantlı olmağına baxmayaraq bu seçimi onun dövründə yaşadığı çevrənin gülüşünə səbəb olur. Hər kəs onun kölə ilə evlənmək istəyinə lağ edir. Lakin heç nə qrafı fikrindən döndərə bilmir. Həmin qızla ailə qurmaq üçün carın yanına gedib ondan icazə alır. Car ona kölə ilə kəbin kəsməyə icazə verir. Çevrəsi tərəfindən gülüşlə qarşılansa da qraf həmin qızla kəbin kəsdirib qanunu evlənir. Lakin qız vərəm xəstəliyindən əziyyət çəkdiyi üçün tezliklə dünyasını dəyişir.

Afət əslində Sədi ilə olan gəzintiləri daha çox sevirdi. Getdikləri hər yer haqqında Ayaz çox danışmağı

sevməsə də, Niyazi də izahat verirdi. Amma Sədinin izahı tam başqa cür idi. Bazar günlərinin birində Sədi onları Tretyakovskaya qalereyasına apardı. Onun sözlərinə görə bu muzeyi Tretyakovski qardaşlarından biri öz malikanəsində açıb. O, ilk əvvəl tanınmayan gənc rəssamların çəkdiyi rəsmləri onlara kömək məqsədi ilə baha qiymətə alıb , öz mənzilinin divarından asırmış hətta onların bəzilərini tanınmaq üçün pulla təmin edib xarici ölkələrə göndərirmiş. Və sonda bu şəkillər mənzilin bütün divarlarını tutandan sonra Pavel Tretyakovski, öz mənzilini muzey edib, başqa mənzilə köçür.

Buradakı şəkillər hamısı birbirindən maraqlı və canlı idi . Lakin Repinin İvan Qroznunun oğlunu qətlə yetirməsi tablosu qızı dəhşətə gətirmişdi. Oğlunu qətlə yetirmiş atanın kətan kimi ağarmış sifətini, gözündə yayanmış o dəhşəti belə neçə təsvir etmək olardı? Oğlanın atasının barmaqları arasından axan qanı sanki canlı idi. Qıza elə gəlirdi ki, qan indicə oradan yerə damcılayacaq. Afət nəinki, muzeydən çıxandan sonra, bir neçə gün bu şəkli , dəhşətdən böyümüş o gözləri, damcılamaqda olan qanı unuda bilmədi.

Afətin getmək günləri yaxınlaşırdı. O, getməyə tələssə də buralara çox öyrəşmişdi. Hər kəsi çox sevmişdi. Artıq onları özünün ayrılmaz bir hissəsi hiss edirdi. Nəyə görə isə Ayazı daha çox sevirdi. Lakin sonuncu günlər özü - özünə tam əminliklə etiraf etdi ki, Sədi qeyri -adi bir insandır. O , öz həyatında belə bir insana rast gəlməmişdi. Yenə babasının sözlərini

xatırlayırdı. Belə bir mükəmməl insanın niyə bu addım atmağı qıza yenə də müəmma olaraq qalırdı.

Afət sonuncu həftələr heç yerə getmək istəmədiyini söylədi. Bütün gördüklərinə, eşitdiklərinə görə hər birinə dönə -dönə təşəkkür etdi. Böyük bir xalqın mədəniyyəti , tarixi, folkloru , musiqisi ilə yaxından tanış olmaqla mənəviyətinin zənginləşdiyini duysa da , illərlə həsrətini çəkdiyi doğma ailə içərisində yaşamağın daha gözəl olduğunu düşünürdü. Axırıncı günlərini doğmaları ilə keçirmək istədiyi üçün, bütün günü evdə olurdu. İstirahət günü bağda , qalan günlər isə şəhərdəki evdə yeyib -içib , doyunca söhbət edirdilər. Bir gün Cəmilənin kefinin kök vaxtında Afət ona qəflətən dedi:

Sən atamı sevirdin?

Cəmilənin boğazı qurudu. O, yaşla dolmuş gözünü qızının üzünə dikib, əlbəttə,- dedi. Afət danışmağa tərəddüt etsə də danışdı:

Babam deyirdi onlar ikisi də etibarsızdır. Matəmin içində, o dəhşətli, facıyə baş verdiyi bir zamanda neçə eşqə düşmək olardı? Tək babam deyil , bu sözü hamı deyirdi. Bunu eşitməkdən qulağım dəng olmuşdu.

Cəmilə xəficə titrəyən əllərini Afətdən gizlətməyə çalışaraq , yaxşı ki, söz açdın. Necə gündür bu barədə söz açmaq istəyirəm , lakin bacarmıram. Halbuki bu söhbəti ürəyimdə sənə dəfələrlə danışmışam. Bir qurtum su içib söhbətinə davam edib dedi:

Həmin gün Çingizin ad günü idi. Dilşad xala məni onun məzarını ziyarət etməyə qoymurdu. Nə vaxt

mənimlə rastlaşanda qışqırıb bayılana qədər ağlayırdı. Sinəmdən yapışıb qaytar mənim oğlumu deyə bağırırdı. Ona görə atam mənə Çingizin məzarını ziyarət etməyi qadağan etmişdi. Mən ora səhər tezdən gedirdim. Atamgil yuxudan oyananda geri dönürdüm. O gün də belə etdim . Səhər durub gül yığıb Çingizin məzarına getdim. Hələ hava düz əməlli işiqlaşmamışdı. Doyunca ağladım, durmadan qışqırırdım bizi niyə atdın getdin,- deyirdim? Birdən qulağıma səs gələndə diksinib geriyə döndüm. Sədini görəndə belə qışqırdığıma görə utandım. O, qırx mərasimi tamamlayıb Bakıya qayıdırmış. Getməzdən əvvəl Ağgülün qəbrini ziyarət etmək üçün qəbrstanlığıa gəlib. Çingizin məzarı Ağgülün məzarından xeyli aşağı tərəfdə idi. O, mənim səsimi eşidib gəlmişdi. Sədi mənim qolumdan tutub uzandığım yerdən qaldırdı. Sonra isə birdən gəl buralardan uzaqlara gedək , -dedi. Lap uzaqlara dünyanın o başına. İnan mənə Afət allaha and olsun o an mən nə etdiyimi özüm də dərk etmirdim. Mənə elə gəldi ki, dərddən davadan qaçıram. əgər səni götürmüş olsaydım. Heç peşman da olmazdım. Sədi yaxşı insandır. Lakin sənsiz hər şey mənə haram oldu. Maşına minib Sədi ilə Bakıya yola düşdüm . Nə etdiyimi dərk edəndə dəhşətə gəldim. Geri dönə bilməzdim. Məni onun maşınına minəndə görmüşdülər. Atam məni tikə- tikə doğrayardı. Aramızda heç nə yox idi. Qayıtmaq istəyirdim. .Heç olmasa səni götürmək istəyirdim. Lakin Sədi oralarda olanları danışanda başımın tükləri ayağa qalxdı. Ağgülün anasının evimizi daş ya-

ğışına tutmağını , atamın mənim o adlı qızım yoxdur deməyini Sədiyə qohumları söyləmişdi. Sənə and içirəm Afət , dəfələrlə səni götürmək üçün atamın yanına adam göndərdim .Elə əclafın , binamusun , şərəfsizin yanına veriləcək uşağım yoxdur,-dedi. Öz on illik həyat yoldaşına qırx gün yas saxlaya bilməyən adama qız uşağını bir gün də etibar etmərəm. Hər gələndən ötəndən ismarınç etdi ki, gözüm onu görməsin. Ayağını məhləmin kandarına qoya bilməz. Moskvaya da bu söyüşləri eşitməmək üçün köçdük Xacalət çəkirdik. Digər tərəfdən də Ağgülün anasının, bacılarının tənəsindən qaça bilmirdik. Ona görə atamın ölümündən sonra da məhləyə gələ bilmədim. Telmanla Elman məni bağışlasalar da Ağgülün ailəsi ilə qarşılaşmaq istəmədim. Bunu fikirləşmək də çox ağır gəlirdi. Amma Afət sənə qurban olum mənim sənsiz nələr çəkdiyim heç vaxt dillə anlada bilməyəcəm. Cəmilə gözünün yaşını saxlaya bilmirdi. Afət anasının üzünə baxıb, gözünün önünə babasını gətirdi . Qıza bir an elə gəldi ki, onun gözünün önündə canlanan babasını Cəmilə də görür və Sədi ilə onun haqqında söylədiklərini eşidir. Ona görə də mövzunu dəyişib araya başqa söz saldı. Lakin özü bu qəribə həyat hekayəsinin təsirindən çıxa bilmədi.

Bakıya yola düşən günü doğrudan kövrəlmişdi. Onlardan Bakıya gəlməklərini xahiş etdi. Buralar çox gözəldir, amma Azərbaycan dünyanın hər yerindən gözəldir, çünki ora bizim vətənimizdir ,-dedi.

Yola düşmək üçün hazırlaşan Afətin Cəmilə dörd yanında elə hərlənirdi ki, sanki qız yola deyil toya hazırlaşır . O, sadə bir şey geyinmək istəsə də Cəmilə ondan əl çəkmədi. Zorla aldığı tünd mavi rəngli paltarı, göy rəngli yay ayaqqabılarını geyinməyə məcbur etdi. Mavi haşiyəli göy çantanı Afətə uzadıb, duruxdu. Sonra çantanın ağzını açıb qıza Bakıda göstərdiyi kiçik bağlamanı çıxarıb əlində tutdu. Afət bağlamanın içərisində həmin qızılları görüb təəccüblə anasının üzünə baxdı. Cəmilə bağlamanı Afətin ovcuna qoyub , əli ilə onun ovçunu bağlayıb sıxdı. Nəmli gözləri ilə onu üzünə baxıb , bunlar sənə atandan yadigardır, -dedi. Yerində donub qalan Afəti Cəmilə danışmağa qoymadı . Qızılları onun əlindən alıb çantasına qoydu.

Onu təyyarəyə mindirməyə Cəmilə və qardaşları gətirdi. Hava limanında Niyazi , dünən qadın salonunda saçlarını kəsdirib boyatdırmış Afətə baxıb, ana gərək mən də bilet alaydım , -dedi. Afət çox gözəl görünür. Onunla gedib bir iki gün qalıb sonra dönərdim. Afət onu qucaqlayıb narahat olma, - dedi. Mən uşaq deyiləm.

Bakının hava limanında isə qız doğrudan narahat olmağa başladı. Hər tərəfdən ona dikilmiş gözlər qızı narahat edirdi. Belə bəzəndiyi üçün özünü də Cəmiləni qınayırdı. Hər yerin öz geyimi var deyə düşünürdü. Qorxusundan ətrafa baxa bilmirdi. Başını aşağı salıb gözlərini yerə dikmişdi. Çantalarının gəlməyini gözləyirdi .Bayaqdan gözlərini ona zilləyən oğlanın lap

yaxınlığı gəldiyini hiss edib ürəyi əsdi. Başını qaldırmağa risk etməsə də narahatlıq onu bürüdü .Elə bu zaman qulağına Afət sözü dəydi. Lakin bu səsin arxadan gəldiyini hiss edib, səs gələn tərəfə çevrildi. Vüqarı görüb gözünə inanmadı. Vüqar ona tərəf gəlib əl uzatdı. Afət buza dönmüş ,titrəyən əlini ona uzatdı. Qız bir azdan tək əlinin deyil bədəninin də xəfifcə titrədiyini hiss etdi. Vüqar ona heyranlıqla baxıb susurdu. Sanki nə etmək lazım olduğunu unutmuşdu. Onu fikirdən bayaqdan gözünü qıza zilləyən saqqalının baxışı ayırdı. O, çevrilib saqqalının üzünə baxdı . Ona tərəf bir iki atıb, nə lazımdır?- dedi Oğlan heç bir cavab vermədən çantasını götürüb ,oradan uzaqlaşdı. Vüqar çantaları götürməkdə qıza kömək etdi. Birlikdə qapıya tərəf getdilər. Taksi saxladıb, Afətdən evinin ünvanı soruşdu.. Yolda Vüqar dönüb arxaya baxıb dedi:

Səni zorla tanıdım .

Afət dedi:

Vüqar, sən hava limanına niyə gəlmişdin?

Vüqar dedi:

Gələndə kiçik bağlamam Türkiyədə otağımda qalmışdı. Onu bu gün gətirməli idilər. Onu götürməyə gəlmişdim. Amma mən gecikdim , təyyarə bir saat əvvəl gəlib. Artıq çıxıb gedirdim səni son anda gördüm.

Afət dedi:

Bəs bağlaman neçə oldu?

Vüqar dedi:

Nə bilim , yəqin ki, evimizə gətirər, yaxşı ki, ünvanımı demişdim. Amma xahiş etmişdi ki, gəlib hava limanından götürüm, Vaxtı olmadığını deyirdi, mən isə gecikdim.

Araya yenidən sükut çökdü. Taksi Afətgilin həyətində dayananda Vüqar onunla birgə maşından düşüb çantaları götürüb yuxarı qalxdı. Afət qapını açıb Vüqarı içəri dəvət etdi. Vüqar çantaları yerə qoyub, mənzilin mübarəkdir,-dedi. Afət başı ilə təşəkkür etdi. Vüqara oturmaq üçün yer göstərib özü mətbəxə keçdi. Çaydanı su ilə doldurun ocağa qoyub geri döndü. Vüqar içəri keçən Afəti başdan ayağa susub yenə də səni zorla tanıdam ,- dedi. Qız onun baxışından özünü itirib qıpqırmızı qızardı. Afət söz tapa bilmirdi.Vüqarın qalxmaq istədiyini görəndə çay qoymuşam , - dedi. Vüqar ayağa durub indi getməliyəm . Yəqin ki, bağlamanı gətirən adam məni axtaracaq , sonra gələcəm, çay içərik, - dedi. Vüqar qapıdan cıxmazdan əvvəl ayaq saxlayıb otağın divarlarına , sonra qızın üzünə baxdı. Afət özündən asılı olmayaraq qəflətən Vüqar, mən Nadiri sevmirdim , - dedi. Vüqar gülümsünüb , bəs kimi sevirdin ?- deyə sual verdi. Afətin var qüvvəsi qışqırıb səni demək istəyirdi, lakin gözünü onun üzünə dikib düz ürəyinə baxan oğlana dilini sürüyə- sürüyə heç kimi ,- dedi. Vüqar bir az duruxub heç kimin adı nədir, -deyib , cavab gözləmədən qapıdan çıxdı. Bir iki pilləkən düşüb dayanıb geri baxdı. Qapının ağzında dayanıb onun arxasınca baxan qıza gələçəm , - deyib pilləkənləri qaça –qaça düşdü.

Vüqar gedəndən sonra Afət bir müddət özünə gələ bilmədi . O, bəzən bunun yuxu olduğunu düşünürdü. Sonra isə onu gözünün önündə çanlandırıb, etdikləri söhbəti dönə- dönə fikirləşirdi. Vüqarın nə demək istədiyini anlamağa çalışırdı. Afətə elə gəlirdi ki, o, dili ilə bir söz söyləməsə də gözləri ilə danışırdı. Qız bir fincan çay içmədən yatağına uzandı və həmişəki kimi sonda Vüqardan əlini üzüb doyunca ağladı. Gözünə yuxu səhərə yaxın getdi.

Ertəsi gün yerindən qalxıb, birdəfəlik bu işgəncəyə son qoyacağını qərara aldı. Düzdür Afət bu qərarı indiyədək dəfələrlə qəbul etmişdi. Lakin onun ürəyində Vüqardan başqa heç bir qərara filana yer yox idi. Dərslərin başlamağına hələ bir həftəyə yaxın vaxt var idi. Onun kitab - dəftərdən başqa heç nəyə ehtiyacı yox idi. Bir iki gün başını mənzilini təmizləməklə qatdı. Pəncərələrini silib, dolabını töküb yenidən təzə aldığı paltarları oraya yığdı. Ayselin onu otağından çıxardığını xatırlayıb, bu barədə düşünməməyə çalışdı . Afət hədsiz dərəcədə darıxırdı. Moskvadakı günlərini xatırlayıb, kədərlənirdi. Ayazı çox sevdiyini düşünsə də ürəyi Niyazini istəyirdi. Onun atası kimi izahlı söhbətləri üçün burnunun ucu göynəyirdi. Hərdən ona elə gəlirdi ki, Ayazla , Niyazini körpəlikdən tanıyır, onlarla birlikdə böyüyüb , boya baş çatıb. Yayda keçirdiyi günləri və xoşbəxt ailə tablosunu unuda bilmirdi . Onlarsız boğazından yemək keçmirdi, özünə nəinki, yemək hazırlamağa , heç çay dəmləməyə də həvəsi olmurdu.

Vüqar haqqında düşünməyi özünə qadağan etsə də onun gələçəm sözü qulağında teztez səslənirdi. Vüqar isə gəlmədi. Afət işlərini bitirəndən sonra gedib instituta lazım olan ləvazimatları alıb gətirdi. Dərslərin başlamağına iki gün qalmış Günel zəng edib gəldiklərini söylədi. Afətdən onlara gəlməyini xahiş etdi. Onsuz da darıxıb özünə yer tapa bilməyən Afət , Günelin dəvətini qəbul edib onlara getdi. Günel onu həmişəki kimi səmimiyyətlə qəbul etdi. Aysel isə bu dəfə fərqli olaraq ona heyranlıqla baxırdı. O, qızı görəndə mat qalmışdı. Nəhayət özünü saxlaya bilməyib nə gözəl görünürsən, - dedi. Paltarın da çox gözəldir. Günel yenə də səmimiyyətlə Ayselin sözünü təsdiq etdi. Afət özü ilə gətirdiyi şəkilləri masanın üstünə qoyub , bir -bir gəzdikləri yerlər haqqında danışdı. Anasından , qardaşlarından , hətta Sədidən danışsa da var dövlətdən , çahi-çəlaldan bir kəlmə olsun söz açmadı. Sadəcə muzeylərdən və oradakı maraqlı eksponatlardan danışdı.

Günel Vüqar Türkiyədən qayıdıb, nazirlikdə işə düzəlməlidir,-dedi. Amma başı elə qarışıqdır ki, gələndən demək olar ki, onun üzünü düz əməlli görməmişik . Afət onların hava limanında qarşılaşıb birlikdə gəldiklərini söyləmək istədi. Lakin Vüqarın onun haqqında söz açmadığını anlayıb heç nə danışmadı. Nədənsə qanı qaraldı. Demək Afət onun üçün maraqlı deyil. Onun haqqında söz açmağı da lazım bilməyib. Afət evə dönəndə hava qaralmağı başlamışdı ,Vüqar hələ də evə dönməmişdi.

Bu il keçən ilkindən fərqli olaraq sentyabrın ilk günündən qızğın dərslər başladı. Keçən il az qala oktyabrın ortalarına qədər institutda qarışıqlıq var idi. Gündə cədvəldə dəyişiklik olurdu. Dekanı dəyişmək istəyirdilər. Aləm bir – birinə dəymişdi. Bu il ilk gündən gərgin dərslərin başlamağı qızın ürəyindən oldu. Dərsdən çıxıb evə gedən kimi dərslərə başı elə qarışırdı ki, Günelgillə heç bir əlaqə saxlaya bilmirdi. Hərdən bir zəng etmək istəsə də dəstəyi əlinə alıb yerinə qoymaqla kifayətlənirdi. Zaur bir iki dəfə zəng edib hal- əhval tutub , bir şey lazım olsa xəbər ver demişdi.

Sentyabr sona yetmək üzrə olsa da havalar çox isti keçirdi. İsti yay günlərində olduğu kimi səhər axşam sərinlik düşürdü. Günortalar hava elə qızırdı ki, istidən adamın nəfəsi kəsilirdi. Odur ki, Afət səhər - səhər azacıq üşüsə də üstü, yaşıl yarpaqlı ağ paltar, yaşıl rəngli alçaq dabanlı ayaqqabı geyinib, yaşıl çanta götürmüşdü. Tərslikdən bu gün hava qızmadı, günortadan sonra daha da sərinləşdi. Dərsdən çıxanda üşüdüyü üçün , avtobusdan düşüb evə tərəf az qala qaça- qaça gedirdi. Blokun ağzına çatanda uzaqdan Vüqarı gördü. Dayanıb ətrafa göz gəzdirdi. Lakin belə bir şey olmadığını görüb bloka girdi. Öz özünə mat qaldı. Deyəsən dəli oluram deyə düşündü. Artıq hər kəs gözümə Vüqar kimi görünür. Mənzilinə keçib paltarını dəyişib , çaydanı ocağa qoydu, acından ölürdü. Çaydan qaynayandan sonra bir fincan çay içdi, iştahası qaçmışdı, yemək istəmirdi. Qapının zəngi çalınanda diksinib dik atıldı. Ona elə gəldi ki , bu səs də

qulağına gəlir. Lakin qapı yenidən çalındı. Qalxıb gözlükdən baxmadan qapını açdı. Gələn Vüqar idi. Onun ilk sözü niyə qapını soruşmadan açırsan , oldu? Afət mətbəxə keçə- keçə səni aşağıda gördüm,-dedi. Vüqar işinin yenicə yoluna düşdüyünü söyləyib , onun neçə gəzdiyini soruşdu. Qız bir kəlmə ilə yaxşı idi ,- dedi. Vüqar onun gətirdiyi çayı içib, , elə bilirdim ki, Zaurla nişanlanacaqsan ,-dedi. Afət oturduğu yerdən ayağa qalxıb dedi:

Zaur mənim qardaşımdır. Tək qardaşım deyil , bu dünyada ən çox sevdiyim, ən güvəndiyim adamdır. Bu nə sözdür?

Vüqar da ayağa durub onunla üzbəüz dayanıb üzünə baxıb dedi:

Afət , mən səni görən günü sənə dəli kimi aşiq olmuşdum.

Afətin bədənindən bir gizilti keçdi. Bədəni titrəyib, başı fırlandı. Bir an qulaqları uğuldadı. Yaxşı ki, Vüqar da susmuşdu. Çünki qız yalnız uğultu eşidirdi. O,bir qədər susub sözünə davam etdi:

Düzdür ilk günlər bu hissin eşq olduğunu dərk etmirdim. Səndən ayrılıb Türkiyəyə gedəndə səni dəlicəsinə sevdiyimi anlayıb geri döndüm. Bu an sənin o, oğlandan ötəri o qədər ağlamağın mənə çox pis təsir etdi. Gecə səhərə qədər yata bilmədim. Səhər özümü zorla toplamaq istəyirdim ki, o şəkli görüb hədsiz hirsləndim və geri döndüm. Beş altı ay özümə gələ bilmədim. Bu oğlan ölmüş olsa da sənin onu sevməyini qəbul edə bilmirdim. Yeni - yeni daxilimdəki

sevgi qısqanclığa üstün gəlirdi ki, bir gün Zaurun əşyalarının arasında sənin bir neçə şəklini gördüm. Dünya başıma fırlandı. O, şəkilləri Zaur çəkmişdi . Çox canlı və gözəl şəkillər idi. Bu dəfə bu sevgiyə bir dəfəlik son vermək qərarına gəldim. Lakin bacarmadım. Sənin Türkiyəyə gələçəyini eşidəndə nə zaman hava limanında olduğumu özüm də bilmirəm. Amma mən özlüyümdə bunun Zaura xəyanət kimi qəbul edib, sevgimi gizlətməyə çalışdım. Yəqin ki, aranızda nə isə var deyə düşündüm. Ona görə də Zaur Azərbaycana dönəndə mən qayıtmadım. Çünki sizin nişanlaçağınızı görmək istəmirdim. Hər açılan səhər məni nişana dəvət edəçəyinizi gözləyirdim. Günlər keçdikcə anladım ki, bu xəbəri eşitmək də istəmirəm. Lakin aradan altı aya bir vaxt keçməsinə baxmayaraq belə bir xəbər gəlmədi. Qayıdanda Zaura, sevdiyin biri varmı deyə sual verdim o, isə yox - dedi. Bəs o zaman sənin şəkillərini niyə çəkmişdi?

Afət o illəri gözünün önünə gətirib dedi:

Vüqar, sən bilirsən ki, mən ata – anasız böyümüşəm. Bu mənim üçün çox çətin idi. Ətrafımdakı uşaqların ata – ana qayğısı ilə əhatə olduğunu görməmək mümkün deyildi. Bir şeyi bəhanə edib saatlarla ağlayırdım. Dayılarım işdə olurdu. Bu zaman məni sakitləşdirməyə çalışan yeganə adam Zaur olurdu. Hər dəfə də məni sakitləşdirmək üçün bir şey uydururdu. Bunların içində ən uğurlusu, şəklimi çəkəcəyini demək olurdu .O, əlimə bir oyuncaq verib məni oturdu. Hıçqıra - hıçqıra oturub şəklimin hazır olmağını gözləyir-

dim. Sakitləşəndə isə Zaur məni yola salıb , sonra çəkəcəyinə söz verirdi. O, belə edirdi ki, gələn dəfə də oturub şəklimi gözləyim. Amma hər dəfə mütləq şəklimi çəkəcəyinə söz verirdi. Zaur mənim uşaqlığımın qaranlığında yanan işığımdır . Uşaqlıqdan ona o qədər güvənmişəm ki, bu dünyada heç kimə unun qədər güvənmirəm. Bu hiss məndən ölənə qədər keçməyəçək. Onu çox sevirəm ,Vüqar atama -anama , bacıma -qardaşıma olan məhəbbətin yerinin Zaura olan məhəbbətim tutur . Xahiş edirəm məni ona qısqanma.

Vüqar Afətin sözündən məyus olub həyacanlansa da dedi:

Afət , sənin şəkilini Allah özü , necə lazımdır elə çəkib göndərib, onu başqa birinin çəkməyi lazım deyil.

Afət daha da qızarıb dedi:

Niyə mənə bu qədər əzab verdin , Vüqar? Bilirsən səni nə qədər qınayırdım. Ürəyimə girib oradan çıxmadığın üçün deyinirdim . Axır günlər artıq dəli olduğumu zənn edirdim. Hətta bayaq elə bildim gözümə görünürsən. Vüqar, Nadirlə mənim aramda heç nə olmayıb. Onun mənə olan hisslərindən mənim heç xəbərim də olmayıb . Vüqar ona yaxınlaşıb sözünü bitirməyə qoymadı . Əlini onun dodağının üstünə qoyubsus , -dedi. O biri əli ilə qızın saçlarını tumarladı. Afət başını onun sinəsinə qoydu. Gözündən yaş axırdı. O, hərdən başını qaldırıb Vüqarın üzünə baxırdı, gördüklərinin, eşitdiklərinin doğru olduğuna inanmaq istəyirdi. Vüqar onun gözünün yaşını silib , getməliyəm dedi. Qapıya yaxınlaşdı, Afət yerindəcə donub qalmışdı.

Vüqar qapını açıb bir iki pilləkən düşüb ayaq saxladı. Geri dönüb bayaqdan durduğu yerdən tərpənməyən Afəti sinəsinə sıxıb alnından öpdü. Dalbadal bir neçə dəfə çox sağ ol Afət , məni sevdiyin üçün çox sağ ol,-dedi.

O gündən sonra Vüqar hər istirahət gəlirdi. Bəzən birlikdə şəhəri gəzməyə çıxırdılar. Afət Moskva səfərindən danışmaqdan doymurdu. Amma əsas mövzusu bu illər ərzində çəkdiyi istirab olurdu. Bunları danmaq istəmirdi. Vüqar rəqs qrupundan niyə çıxdığını soruşanda , ora da sənə görə getmişdim, -dedi. Əminə müəllimə dünyanı gəzəçəksiniz söyləyəndə , adini çəkdiyi ilk ölkə Türkiyə oldu. Mən ora gedib səni görməyimə ümid edirdim .Ümidim doğruldu. Getdim və səni gördüm. Sənisə mən rəqs edəndə bir dəfə olsun əl çalmadın. Elə bil bunu göstərmək üçün əllərini qoynuna qoydun. Bu mənim gözümün önündən getmirdi. Sənin alqışlamadığın bir şeyə həvəsim qalmadı, qollarım qalxmırdı. Əminə müəlliməyə özümü danlatmaq istəmədim, ona görə də çıxdım. Vüqar gülümsünüb bu haqda bir söz söyləmədi.

Amma bu həftə Vüqar gələndə nədənsə qanı qara idi. Afət bunu Vüqar içəri keçən kimi hiss etdi. Onlar dəniz kənarına getməli idilər. Lakin Vüqar oturub çay istədi. Afət təzə çay dəmləyib gətirdi. Vüqarın narahatlığı nəhayət Afəti də bürüdü. O, oğlanın danışmadığını görüb nə olub ,Vüqar niyə qanın qaradır,-dedi ? Vüqar yox qara deyil, sadəcə narahatam,-dedi. Anamgil əl çəkmir ki, evlən. Afətin ürəyi titrədi. Qıp-

qırmızı qızarıb, niyə narahatsan ,mənimlə ailə qurmağını istəmirlər?.- dedi. Vüqar Afətin üzünə, baxıb nə danışırsan? -dedi. Əvvəla məni heç kim fikrimdən göndərə bilməz , ikincisi də anamla atam hər ikisi səni çox sevir.

Afət Vüqarın üzünə sınayıcı bir nəzər salıb , dedi:

Bilirsən Vüqar, yuxumda tez- tez sənin özünlə Türk qızı gətirdiyini görürdüm. O şübhədən qurtardım. İndi yəqin Asudə xala sənə rayondan qız tapıb ona görə çağırır.

Vüqar birdən birə qəhqəhə çəkib ola bilər - dedi. Nə bilmək olar bəlkə qız da xoşuma gəldi gedim görüm nə deyir kimi tapıb. Afətin doğrudan hirssləndiyini görüb, ayağa durub onun yanına gəldi. Onun saçlarını tumarlayıb, Zaura deməyə üzüm gəlmir , ona görə narahatam, rayona getməzdən əvvəl ona demək istəyirəm. Sonra isə bir susub sən narahat olma , hər şey yaxşı olacaq dedi.

Vüqar gedəndən sonra Afəti bir narahatlıq bürüdü. Özünü pis hiss etməyə başladı. Həm Zaura görə , həm də Asudə xanımın Vüqarı israrla rayona çağırmağından narahat idi. Yəqin ki, qadın doğrudan da onu kiminlə isə evləndirmək istəyir. Namizədi var. Onu Vüqara göstərmək istəyir. Gecəni çox narahat yatdı . Ertəsi gün Vüqar zəng edib , rayona getməyi hələlik təxirə saldığını söylədi . Bu günlər işinin həddsiz çox olduğunu, şənbə günü gələçəyini -, dedi. Afət həmişə tibb institutunda dərslərin ağır olduğuna görə deyinən qızların əksinə olaraq sevinirdi. Nə yaxşı ki,

vaxtım olmur deyə düşündü. Yoxsa fikirdən ürəyim partlayardı. Doğrudan da başı elə qarışdı ki, şənbə günü nə vaxt çatdığını hiss etmədi. Bu gün şənbə idi axşam Vüqar gəlməli idi. Yaxınlıqdakı dükana gedib bazarlıq etdi, yaxşı bir yemək bişirmək istəyirdi. Evə çatan kimi yemək bişirmək hazırlığına başladı. Günorta üstü Cəmilə zəng etmişdi. O , neçə gün idi ki, Vüqarın haqqında Cəmilə ilə danışmaq istəyirdi. Həm özünü toplaya bilmirdi , həm də ki, Vüqarın valideynlərinin bilməsini istəyirdi. Onlar razılıqlarını bildirəndən sonra anamgilə deyərəm deyə düşünürdü. İndi isə dəstəyi əlinə alanda bir an az qala ana , Vüqarla nişanlanmaq istəyirik demək istədi. Lakin yenə də susdu. Cəmilə Afətin nə isə narahat olduğunu səsindən duyub , durmadan nə olub deyə soruşdu. O, qardaşlarını, Sədini soruşub Cəmilənin fıkrını zorla yayındırıb hər şeyin yaxşı olduğunu söyləyib dəstəyi asdı.. Kiçik bir qazanda yarpaq dolması bişirib Vüqarı gözləməyə başladı. Vüqar zəngi çalanda gəlib qapını açıb mat qaldı. Günel ilə Aysel əllərində tort , gül və böyük bir bağlama qapının ağzında dayanmışdı. Qız heç duruxmağa da macal tapmamış , qızlar özlərini onun üstünə atıb təbriklər yağdırıb sevinclərini bildirirdilər. Aysel əlindəki bağlamanı mətbəxə aparıb açdı . Anam göndərib , - deyib yerləşdirməyə çalışdı. Bağlamanın içərisində təndirdə qıpqırmızı qızardılmış hinduşka və içərisi ləvəngi ilə doldurulub təndirdə qızardılmış toyuqlar ,üst üstə qoyulmuş başqa qablarda yarpaq dolması və qovrulmuş ət var idi. Qızlar birlikdə süfrə aç-

mağa başladılar . Yeməkləri qızmaq üçün pilətənin üstünə qoydular. Afət gül dəstəsini qoymaq üçün qab götürüb , böyük gül dəstəsini orada zorla yerləşdirib otağın baş tərəfində döşəməyə qoydu. Qızlara kömək etmək üçün mətbəxə keçdi. Günel Afətə sən get süfrəni aç yeməkləri biz qızdırıb gətirərik ,- dedi. Anam tapşırıb ki, gedin Afətgildə qonaqlıq təşkil edib uşaqları təbrik edin.

Afət sevinirdi. Demək Asudə xanımgil də razı idi. Qızlar işlərini bitirənə kimi Vüqar da gəldi. O, masaya yaxın gəlməyib, Zaur da gəlməlidir,-dedi. Onu da gəzləyək sonra oturarıq. Aysel bilsəm ki, Zaurda gələçək yeməkləri bəri başdan isitməzdim ,- dedi. Masadan çəkilib söhbət etməyə başladılar. Afətin fikri Zaurun yanında olduğu üçün, söhbətə qoşulmurdu. Onun gözünün saatda qaldığını görən Vüqar narahat olma , Afət- dedi. Bu gün Zaurla bir yerdə olmuşuq. Harada olsa mütləq gələçək. Afətin fikri qarışmışdı. Həm Zaurun geçikməyinə narahat olurdu. Həm də Ayseli düşünürdü. Bu qızdan baş açа bilmirdi ki, bilmirdi. Hamıdan çox o , sevinirdi. Əl ayağı yerə dəymirdi. Dil boğaza qoymadan təbriklər yağdırıb ,süfrəni bəzəməyə çalışırdı. Vüqarın maşın almağını da o elan etdi. Bilirsən Afət , atam bu xəbəri eşidəndə sevindiyindən Vüqarı təbrik etmək üçün ona maşın aldı. Afət mübarəkdir deyib, çay gətirmək üçün mətbəxə keçdi . Zaur gələnə qədər bir stəkan çay için - dedi . Zaur zəngi çalıb içəri keçəndə Afət əlində podnos çayları süzüb mətbəxdən qonaq otağına gəlirdi. Qızı

görən Zaur zarafatından qalmayıb , hansı ixtiyarla mən gəlib hə sözünü deməmiş çay içirsiniz,-dedi. Otağı qəhqəhə səsləri bürüdü. Bu dəfə Günel dillənib , o işlər bizlik deyil ,– dedi. Biz sadəcə köhnə dostlar kimi yığışmışıq. Zaur yenə bir iki söz deyib onları güldürdü. Aysel heç kimi ayağa durmağa qoymadı. Yeməkləri mən isidib gətirəçəm , dedi. Yeyib içəndən sonra Zaur daha çox zarafat etməyə başladı. onun hər kəlməsinə gülsələr də Afət məyus olurdu. Ona elə gəlirdi ki, Zaurun qanı qaradır. Hətta Vüqar da Zaur nədənsə qanı qara görünürsən, - dedi . Zaur onun sözünü eşitməməzliyə vurub daha şən görünməyə çalışdı. Çay süfrəsində Vüqarla Afəti təbrik edib , onlara xoşbəxtlik arzu etdi. Günel Telman əmi bizi gələn həftə qəbul edəçək dedi. Bu işi rəsmləşdirmək üçün rayona getməliyik. Afət mən gedə bilmərəm, – dedi. Dərslərim çoxdur. Ortaya qalmaqal düşdü hərə bir fikir irəli sürdü. Nəhayət Zaur gəlin sizə bir məsləhət edim ,- dedi:

Bu elçilikdir , bizlərin orada iştirak etməyi vacib deyil. Qoy onu orada ağsaqqallar həll etsin . Biz isə burada özümüz üçün qonaqlıq edək. O , qonaqlığı təşkil etmək isə mənim üzərimə düşdüyü üçün , qız evi adından sizi dəvət edirəm . Amma hara ? Bunu qoy qızlar desin. Dəniz kənarına , şəhərin mərkəzindəki yeməkxanaların birinə ya da şəhərdən bir az kənara da çıxa bilərik.

Aysel sevincini gizlətmədən dedi:

Əla fikirdir. Hara gedəçəyimiz haqqında qərar verməyi də mənə həvalə edin.

Zaur edirəm, - dedi. Hara desən ora gedərik.

Bu təklif hər kəsin ürəyindən oldu. Afət isə hədsiz sevindirdi. O, yaxşı bilirdi ki, Zaur bunu qəsdən belə etdi. Çünki Afətin ora getmək istəmədiyini anlamışdı. Qız bu xoşbəxt günlərini Nüşabənin tənələri altında keçirmək istəmirdi.

Az qala gecənin yarısınadək oturub, sonra getdilər. Qızlar süfrəni yığışdırıb, qabları yuyub silməkdə Afətə kömək etdilər.

Ertəsi gün Afət anasına zəng edib, gələn həftə Vüqarın ata -anasının ona elçi gedəçəklərini ,-dedi. Cəmilənin sevincinin həddi hüdudu yox idi. Afəti ürəkdən təbrik edib , şad olduğunu deyib, hər zaman gəlməyə hazır olduğunu söylədi. Afət hələ o barədə bir şey söyləyə bimməyəçəyini deyib dəstəyi asdı.

Üç gündən sonra Vüqar gəlib dünən axşam atasıgilin , Telmangilə getdiyini, - söylədi. Vüqarın kefi yuxarı idi. Zarafat edib Afəti hirssləndirməyə çalışırdı. Afət Vüqarı tanıyandan onun belə şən olduğunu xatırlamırdı. Gah, sənin yuxuların həmişəmi düz çıxır? Türk qızını gördüyünü deyirəm az qala gələndə gətirirdim. Sadəcə ona bilet tapa bilmədim deyib heyifsilənirmiş kimi başını buladı. Gah atamgil tapan qız da pis deyildi, -deyib gözlərini yumub özünü onu xatırlayırmış kimi apardı. Afət ona bir əl dəsmalı uzadıb al o , qızları doyunca ağla qurtar, sonra danış görək elçilik necə keçib - dedi. Afətin doğrudan açığı tutduğunu görüb, qəhqəhə çəkib güldü. Hirslənəndə daha da gözəl görünürsən , sənin məni qısqanmağından xoşum gəlir deyib ,Afətin saçlarını tumarladı.

Afət doğrudan elçilik necə keçib ?-deyib təkrar etdi. Kimlər var imiş?

Vüqar keçib stulda oturub dedi:

Atam, əmim bir də Veysəl dayım, sizdən də dayıların və Pərviz əmin.

Afət əmisinin dəvət edildiyini eşidəndə ürəyi titrədi . Bu onun heç ağlına gəlmirdi. Amma əmisinin də orada olmağı onu hədsiz sevindirdi.

Vüqar bir az duruxub sözünə davam edib dedi:

Dayıların xeyr dua verəndən sonra , atam tezliklə toy etmək istədiyini söyləyib. Onlar da etiraz etməyib ,siz bilirsiniz deyiblər.

Afət kövrəlmişdi, özünü zorla toplayırdı. Vüqar onun doluxsunmuş gözlərinə baxıb sözünə davam etdi. İstirahət günü Zaur bizi qonaq aparacaq. İndi isə hazırlaş düşək maşınıma bax , birlikdə şəhəri gəzək,- dedi. Bu təklif Afətin ürəyindən oldu. Maşına oturan kimi Zaurun onları haraya aparacağını soruşdu. Vüqar onu bilmirəm,- dedi. Qərarı Aysel verəcək.

İstirahət günü evdən lap tezdən çıxdılar. Aysel Nabrana getməyi təklif etmişdi. Təklif hamının ürəyindən olmuşdu.

Payızın sonu olsa da hava xoş idi. Təbiətin qoynunda yerləşən və oturduqları yerdən çox gözəl mənzərə görünən bir restoranda oturdular. Afət min bir rəngə çalan meşəyə baxıb düşünürdü, payızda meşənin öz gözəlliyi var . Bu gözəllik baharın gözəlliyindən əskik deyil. Baharda demək olar ki, hər yan yamyaşıl olur. Payızda isə sanki rənglərin nümayişi idi. Afət bəlkə

də dünya gözümdə görünür deyə düşünürdü. Lakin bu günkü gün yadda qalan xoş bir gün idi. Hər şey gözəl idi. Hava da , meşə yeməklər söhbətlər də maraqlı idi. Bir sözlə nəşəli bir gün idi. Tək bir şeyi Afət dərk edə bilmirdi. Nə qədər düşünsə də bir yana çıxa bilmirdi. Aysel Afətə qeyri adi dərəcə də mehribanlıq göstərirdi. Afətə həmişə elə gəlirdi ki, Ayselin özünü kobud aparmağı özündən asılı deyil. Bəs indi neçə deyərlər ağzının sözünü bilməyən o, kobud qızın bu qədər dəyişməyinə səbəb nə idi? - deyə düşünürdü.

Bir azdan Afətin belə xəyala dalmağı hamının nəzərinə çarpdı. Hamıdan əvvəl Günel nə olub ?-deyə sual verdi. Sonra Vüqarla Zaur da niyə fikirlisən? - dedi. O, çiynini çəkib , heç nə olmayıb - dedi. Yeyib içəndən sonra oğlanlar at minməyə getdilər. Qızlar isə otaqda oturub çay içirdilər . Aysel Vüqarla Zaurun at çaparaq gəldiyini görüb, qızlar gəlin gedək onların at münməyinə tamaşa edək,- dedi. O, nə qədər israr etsə də Günel mənim həvəsim yoxdur ,- deyib getmədi. Aysel sanki himə bənd idi. Afətin əlindən yapışıb çölə çıxartdı. Onlar otaqdan azacıq uzaqlaşan kimi Aysel birdən dayanıb , Afət, məni bağışla,-dedi. Afət təəccüblə onun üzünə baxıb nə olub? - dedi. bu dəfə Aysel daha da çılğınlıqla danışıb dedi:

Afət mən bilirəm ki, sən bizdən mənə görə getdin. Mənim sənə olan münasibətimə görə.

Afət yox , deyib etiraz etmək istəsə də Aysel onu danışmağa qoymayıb,-dedi:

Afət mənə elə gəlirdi ki, Zaur səni sevir. Daha doğrusu bunu anam deyirdi. Anam deyirdi ki, Nüşabənin ondan Zaura görə zəhləsi gedir .Öz qızını Zaurla evləndirmək istəyir. Bir az susub mənim Zaurdan xoşum gəlir,- dedi.

Afətin bu heç vaxt ağlına gəlməmişdi. Qız donub yerində qaldı. Zaur mənim qardaşımdır, - dedi. Elə bu vaxt Zaur onların yanında atdan düşüb atı sahibinə qaytardı. Az sonra Vüqar da gəldi. Zaur gəlin çay içək deyib otağa keçdi. Aysel mat qalmış qızın əlindən tutub içəri gətirdi. Afət Aybənizi xatırlayırdı O, Afətə demişdi , bilmirəm sən niyə belə sadəlövsən sonra öz sualına özü cavab verib, bizə hər şeyi anam başa salır demişdi İndi Afət Aybəniz düz deyir deyə düşünürdü.

Qızlar içəri keçən kimi, Günel bu günlük bəsdir ,gəlin gedək dedi. Aysel günün bitdiyini heyfi gəldiyini deyəndə, Vüqar niyə heyfsilənirsən ?- Gələn həftə də mənim qonağım olarsınız,-dedi.

Vüqar söz verdiyi kimi gələn həftə , gəzməyə gedə bilmədi . Əslində heç kimin nə Afətin , nə də Zaurun vaxtı yox idi. Afətin başı imtahanlara qarışmışdı. Vüqarla Zaur isə işdən göz açmağa vaxtları olmurdu. Vüqar axşamlar işdən sonra gəlir, ya bir az oturur , ya da şəhəri gəzməyə çıxırdılar. Yeni bir az vaxt tapıb gəzməyə vaxt ayırmaq istəyirdilər ki, Asudə xanım zəng edib, toyun vaxtını xəbər edib toya hazırlığa başlayın , belə ki, toy paltarını və digər lazım olan ləvazimatları alın,- dedi. Toyu novruz bayramına , Asudə xanımın əlli illik yubleyi ilə bir günə salmışdılar. Asudə xanım

əlli illik həyatının ən böyük hədiyyəsi Vüqarın toy günü olacağını söyləmişdi. Qızlar sevinclə , böyük həvəslə hazırlığa başladılar. Toy gününün vaxtını Afət Cəmiləyə deyəndə, o xəbərdar olduğunu və ən gözəl toy donunu aldığını,- dedi.

Gözəl bir bahar günündə, Afət Cəmilənin aldığı , doğrudan da ən gözəl gəlinlik donunu geyinmişdi. Güzgüdə özünə baxırdı. Lakin çox gözəl yaraşan gəlinlik paltarı geyinmiş , şahanə görkəmli gözəl gəlini deyil, bir qapısı olan iki məhlənin ortasında boylanan gözüyaşlı , boynubükük qızı və bir bahar səhəri tut ağacının altında dayıları ilə oturub ona tərəf maraqla baxan ağ köynəkli oğlanı görürdü. Qəfil ucalan voqzalı sədaları gözü yaşla dolmuş qızın ürəyini daha da titrətdi. Gözünü güzgüdən ayırıb yanında dayanmış Cəmilə ilə Çimnaz bibisinə baxıb , nədənsə gözü ilə Zauru axtardı. O illərdə kiçik qızın yeganə dostu olan Zauru. Ətrafa boylanıb onu görmədi. Pəncərədən çölə boylandı, məhlənin ortasında hamı oynayırdı. Afətin illər uzunu özünün saydığı həmin yerdə oynayırdılar. Hansı ki, Afət iki məhlənin tək o hissəsini özününki hiss edirdi ki, orada da kimsə yox idi. Nəhayət gözü Zaura sataşıb sakitləşdi. Hamı oynayırdı Zaur bir kənarda dayanıb Aysellə danışıb gülürdü. Afətin bütün bədəninə rahatlıq yayıldı.Ürəyinə sevinc hissləri dolmağa başladı. Sağında solunda dayanmış Ayazla Niyaziyə baxıb , gəlinə qardaşı xeyr dua versin deyəndə, onların xətrinə dəymədən mənə xeyr duanı Zaur versin sözünü neçə deyəcəyini düşünürdü.